*<u>İnsan hüquqları və fəlsəfə seriyasından</u>*

**ELŞƏN MİSİR OĞLU NƏSİBOV**

# "İnsan hüquqları" anlayışının dərk olunmasında fəlsəfi–məntiqi *(formal (ənənəvi-klassik) və dialektik məntiq)* metodlar

***Dərketmənin ontoloji və qnoseoloji əsasları***

## II KİTAB

**Bakı -2014**

**Elmi redaktoru:** **Turab Qurbanov**
*siyasi elmlər doktoru*

**Rəyçiləri:** **Aygün Əsgərzadə**
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Zamiq Aslanov**
*hüquq üzrə fəlsəfə doktoru*

**E.M. Nəsibov. "İnsan hüquqları" anlayışının dərk olunmasında fəlsəfi–məntiqi *(formal (ənənəvi-klassik) və dialektik məntiq)* metodlar. *Dərketmənin ontoloji və qnoseoloji əsasları.* II kitab. Bakı, "Elm və Təhsil" nəşriyyatı- 2014, 184 səh.**

Kitabda bir fəlsəfi-elmi obyekt kimi "insan hüquqları" anlayışının fəlsəfi-məntiqi metodlarla dərk olunmasının bəzi aspektləri öz əksini tapır. İnsan hüquqları anlayışının tərkib və bütöv halda öyrənilməsinin əsasları müəyyən olunur. İnsan hüquqları anlayışına ontoloji və qnoseoloji nöqteyi-nəzərdən izahlar verilir, hər iki aspektdə ümumiləşdirilmələr aparılır. Belə qərara gəlinir ki, insan özü təbii bir varlıqdır. Onun hüquqları da ontoloji əsaslara, yəni təbii əsaslara malikdir. Eyni zamanda insan hüquqları qnoseoloji baxımdan da dərk olunur. Belə ki, qərara gəlinir ki, insan hüquqları nəzəri fikirlərdən ibarətdir, bu fikirlər epistemoloji (kifayət qədər əsaslandırılmış həqiqi, faktiki elmi biliklər (gerçək biliklər) nöqteyi-nəzərdən) olaraq, sistemli əsaslarla təhlil olunur. İnsan hüquqları anlayışının dialektik vəhdətdə dərk olunması haqqında bəzi fikirlər yer alır.

Həmçinin kitabda insan hüquqlarının fəlsəfi kateqoriyalarla dərk olunmasının da əsasları öz əksini tapır. Burada fəlsəfi kateqoriyalar hüquqların sistemli olaraq inkişafının dərk olunmasını meydana gətirir. Əlavələr hissəsində obyektlərin predmet kimi öyrənilməsində istifadə edilə biləcək elmi-metodoloji aspektlər izah olunur.

Kitabda əksini tapan fikirlər hüquq fəlsəfəsinin tərkib hissəsi olduğundan, əsər hüquqşünaslar, fəlsəfə ilə maraqlananlar, siyasətşünaslar və humanitar elmin digər sahələri üzrə araşdırma aparanlar üçün faydalı ola bilər.

**ISBN 978-9952-809-86-2**

$\frac{4804000000-42}{N098-2014}$ **qrifli nəşr**

© ***Nəsibov E.M., 2014***

## MÜNDƏRİCAT:

**GİRİŞ..........................................................................4**
**"İnsan hüquqları" anlayışının dərk olunmasında məntiqi metodlar..........................................................................25**
**Təbiət, fövqəltəbiət, insan və hüquq haqqında bəzi mühakimələr..........................................................................27**
**Hüququn ontoloji əsaslarla dərk olunması..............................75**
**Hüququn qnoseoloji əsaslarla dərk olunması..........................80**
**Hüququn dialektikası..................................................................83**
**Obyektivlik və subyektivliyin zamanı (əqli nəticələrə gəlmək kontekstində)..................................................................90**
**Obyektiv və subyektiv hüququn vəhdəti və zaman anlayışı...94**
**Formal məntiq və hüququn dərk olunması (sillogizmlər yolu ilə)..................................................................99**
**Dialektik məntiqin əsasları və mürəkkəb məzmunlu hüquq..........................................................................102**
**Dialektik təfəkkürün inkişaf əsasları və hüququn inkişafı..........................................................................103**
**İnsan hüquqları anlayışının dərk olunmasında dialektik məntiqin əhəmiyyəti..................................................................106**
**İnsan hüquqlarının fəlsəfi kateqoriyalarla dərk olunması.....108**
**İnsan hüquqlarının dərk olunması məsələsində zaman kateqoriyası..................................................................112**
**İnsan hüquqlarının məkan kateqoriyası ilə dərk olunması**
**İnsan hüquqlarının tək, cəm, xüsusi və ümumi kateqoriyalarla dərk olunması..................................................115**
**İnsan hüquqları anlayışının tərkib və bütöv kateqoriyası ilə dərk olunmasının əsasları..................................................121**
**Insan hüquqlarının mürəkkəb məzmununun dərk olunması və sinergetika..........................................................123**
**"Dövlət siyasəti" və "insan hüquqları" anlayışlarının vəhdət təşkil edən fəlsəfi məzmunları.......................................127**
**Qrafiklər bölməsi..........................................................................136**
**NƏTİCƏ..........................................................................146**
**ƏLAVƏ: Elmi -tədqiqatın metodoloji əsasları........................150**
**Qrafiklər bölməsi..........................................................................171**
**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT............182**

## GİRİŞ:

Hər bir anlayış digər anlayışlarla vəhdətdə elmi istiqamətləri və fənləri meydana gətirir. Elm aidiyyatı istiqamətlər üzrə biliklər sistemini təcəssüm etdirir. Elmlərarası fənlər də formalaşır. Bu fənlərin obyekti əsasən qarışıq elmlərlə öyrənilir. Məsələn, miqrasiya sosial-siyasi mahiyyətli bir prosesdir. Bu prosesi öyrənmək və bilikləri sistemləşdirmək üçün sosiologiya, politologiya və hüquqşünaslıq, eləcə də iqtisadiyyat elmləri vəhdətdə çıxış edir. Miqrasiya prosesləri öyrənilmək baxımından qarışıq elmlərin obyektidir. Miqrantın sosial-siyasi hüquqlarını daxili hüquq və beynəlxalq hüquq elminin metodları öyrənir. Miqrantın sosial-demoqrafik vəziyyətini sosiologiya, siyasi aspektlərini isə politologiya tədqiq edir.

İstənilən obyekt və predmet *(predmet obyektlər üzərində meydana gələn anlayışlardan formalaşan fikirlər toplusudur, dialektik mətndir)* təfəkkürün dərketmə məhsuludur, istinadıdır, həm də siqnallar qəbul etdiyi məkanıdır. Obyekt və predmetin dərk olunması bir tərəfdən obyektlərin və onlar üzərində formalaşan fikirlərin əks olunmasıdır *(başlanğıc sübut olaraq fikirlər burada mühüm əhəmiyyət kəsb edir, yəni fikirlər-fikirlər üçün əksolunma obyekti rolunda çıxış edir)*, digər tərəfdən isə intellektual (zəka) intuisiyasına bağlıdır. Belə hesab etmək olar ki, intuisiya (dərrakəli hissetmə) da əqlin xassəsidir və şüurla (əqllə) duyğu orqanlarının vəhdətindən meydana gələndir. Fəlsəfə bütün konsepsiyalarda və anlayışlarda mövcuddur. Xüsusilə nəzəri anlayışlar daha çox fəlsəfi məzmun kəsb edir. Mənəvi-etik anlayışlar fəlsəfənin obyektinə çevrilir.

**İnsanların maraq və mənafelərinə söykənən proseslərdə geniş fəlsəfi məzmun mövcuddur. Həm də ona görə ki, proseslərdə dəyərlər sistemi formalaşır. Proseslərin pozitiv əsasları məhz dəyərlərin məzmununu özündə əks etdirir. Əqlin geniş obyektində olan və əqli nəticələrin əsaslı şəkildə çıxarılmasına söykənən anlayışlar məhz fəlsəfi anlayışlardır. O anlayışlar fəlsəfi olur ki, orada daha çox rəngarənglik, bu baxımdan da mürəkkəblik, eləcə də konseptuallıq var. Zənginliyin tərkibinin düşüncələr yolu ilə dərindən dərk olunması, yəni tərkib hissələrin daha çox müəyyən olunması, tərkib istiqamətlərin daha çox müəyyən olunması elə fəlsəfi məzmunun əsasıdır. Tərkib daha da dərindən dərk olunduqca açılır və məna aşkarlanır. Fəlsəfi məzmun geniş və sistemləşdirici təriflərdə meydana gəlir. Fəlsəfənin əsasını müəyyən hədlər və əlamətlər sərhədləri *(burada sərhədlər təfəkkürün mücərrəd müstəvi sərhədləridir)* daxilində olan bütövlük və onun mənası təşkil edir. Bütövlüyün mənasını isə məntiq aşkarlayır. Buradan da elm meydana gəlir. Məntiqi proseslərin nəticələrində elm formalaşır. Elmin istiqamətləri məhz sintezlərdə və analizlərdə özünü büruzə verir. Obyektə yanaşmada məntiqi funksiya elə beyinin universal konstruktiv funksiyasıdır. Bu da ondan irəli gəlir ki, insan sistemli və nizamlı bir məxsluqdur, fəlsəfi (dərin mahiyyətli) aləmin sahibidir.**

**Qeyd olunduğu kimi, fəlsəfənin əsası nəzəri fikirlərdə, konseptual əhəmiyyət kəsb edən baxışlarda cəmləşir. Bir anlayış özündə fəlsəfi məzmunu birləşdirir. Fəlsəfi məzmun həm də mənəviyyatla bağlıdır. Hər bir dərin məna mütləq qaydada mənəvi kriteriyaları üzündə əks etdirməlidir.**

**Fəlsəfə mənəvi kriteriyaların tərkibi olan aksioloji [1] aspektlərə əsaslanaraq özündə dəyərlər sistemini yaratmalıdır. Dəyərlər sisteminin ontologiyası və qnoseologiyası hüquq və mənəviyyatın qarşılıqlı vəhdət təlimini öyrənərək bu anlayışı konseptual əsaslarla dərk etmək üçün sistemləşdirici məna kəsb edir. Anlayışın tərkibinin dərindən araşdırılması onun bütöv təfəkkür sistemində yerini geniş aşkar etməkdən ibarətdir. Fəlsəfə nəzəriyyədə (nəzəri fikirlərin obyekt rolunu oynaması anında) daha da əsaslıdır. Nəzəriyyə də əqlin məhsuludur, bu baxımdan da həm də təcrübənin fikirlərlə ifadəsidir. Əqli nəticələr şüur-materiya vəhdətinin siqnalları ilə formalaşan məhsuldur. Deməli, fəlsəfə əslində dərin əqli mühakimələrdə qərarlaşıb. Əqli mühakimələrin də tərkibini əqli mühakimələr yürütməklə məntiq aşkarlayır. Fəlsəfənin obyekti isə mənəviyyatdır, mənəvi dəyərlərdir. Fəlsəfə fəzilət və məziyyət anlayışlarının digər mənəvi anlayışlarla qarşılqılı əlaqələndirici şərtləri ilə nəzəri fikirləri özünə obyekt edir.**

**İnsan hüquqları dəyərdir, dəyər olduğuna görə fəzilətlə (müdriklik, yüksək mənəviyyatlılıq) bağlıdır, həm də məziyyətlə (üstün xüsusiyyətlərlə) əlaqəlidir. Dəyərlər hüququn tərkibi olduğuna görə hüquq normaları ilə**

---

[1] Qeyd: aksiologiya –yunanca dəyərlər haqqında təlimlər mənasını verir. Ensiklopedik izahlara əsasən, aksiologiya fəlsəfi fənn olaraq “dəyərlər” kateqoriyasını, dəyərlər dünyasının iyerarxiyasını, struktur və xarakteristikasını, dərketmə üsullarını və ontoloji dəyərlərini araşdırır, eləcə də dəyərlər mühakiməsinin təbiətini və xüsusiyyətlərini öyrənir. Aksiologiyanın öyrənmə sahələri digər fəlsəfi və ayrı-ayrı elmi fənlərin dəyərli aspektləri, eləcə də geniş mənada bütün sosial, bədii və dini təcrübənin, ümumilikdə insani və mədəni sivilizasiyanın bütün spektlərini əhatə edir. “Aksiologiya” termini 1902-ci ildə fransız filosofu P. Lapi tərəfindən “timologiya” termininə (qiymət haqqında təlim) əks olaraq irəli sürülmüşdür. Аксиология. Институт Философии Российской Академии Наук. Новая философская энциклопедия. http://iph.ras.ru/elib/0086.html

**qorunur. Dövlətin əsas vəzifəsi insanların hüquqlarını qorumaqdan ibarət olur; çünki hüquqlarda mənəviyyatın tərkibi olan dəyərlər toplanır. Məsələn, Finlandiya Respublikasının 11 iyun 1999-cu il tarixli Konstitusiyasının birinci başlığının birinci paraqrafında yazılır ki, Konstitusiya insan dəyərinin toxunulmazlığına, azadlıq və şəxsiyyət hüququna qarant durur, cəmiyyətdə ədalətin icrasını təmin edir. Konstitusiya şərəfə və azad etiqada qarant durur. *İnsanların hüquq bərabərliyi* başlığı altında yazılır ki, hər kəs qanun qarşısında bərabərdir. Heç kəs hörmətsizlik prinsipləri ilə cinsi, yaş, mənşə, dil, din, inanc, fikir, sağlamlıq, şikəstlik və şəxsiyyətlə əlaqədar olan digər əlamətlərə görə qeyri-bərabər vəziyyətdə qala bilməz. Yaşamaq, azadlıq və şəxsiyyət hüququ toxunulmazdır.[1]**

**BMT Baş Assambleyasının 1948-ci il 10 dekabr tarixli qətnaməsi ilə qəbul və elan edilən Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də yazılır ki, maddə-1: Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilib və onlar bir-birilərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdır. Maddə 2: Hər bir insan irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırki Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır. Bundan əlavə, insanın mənsub olduğu ölkənin və ya ərazinin müstəqil asılı, özünü idarə etməyən və ya suverenliyi hər hansı digər şəkildə məhdudlaşdıran ərazi olub-olmamasından asılı olmayaraq, heç bir fərq qoyulmamalıdır.[2]**

---

[1] Конституция Финляндии. www.finlex.fi/fi/laki/kaannokset/1999/ru19990731.pdf

[2] Ümumdünya İnsan Hüquqları Bəyannaməsi. www.migration.gov.az/images/pdf/935e2ca153e49bce078042398ff16c2d.pdf

**Hüquqi sənədlərdən görünür ki, hüquq normaları mənəviyyatın tərkibi olan dəyərlərə məcburi və zəruri xarakter və məzmun verir, dəyərləri qoruyur, onların təmin olunmasını qarşısına əsas məqsəd və vəzifə kimi qoyur. Dəyərlər hüquq normaları çərçivəsində dövlət siyasətinin qayəsinə çevrilir. Hüquqi sənədlərdə əksini tapan normalar dəyərləri (burada həm də maddi dəyərlər nəzərdə tutulur) cəmləşdirməklə rəngarənglik tərkibindən nəzəri bütöv vəhdəti meydana gətirir. Belə ki, hüquq bərabərliyi analyışı bütün sistemləşdirici hallarda və konkret obyektlərə münasibətdə məhz dialektik vəhdəti meydana gətirir. Hüquqi sənədlər dialektik dəyərlərin sistemləşdirici bərabərliyindən meydana gəlir. Hüquq mənəvi kriteriyası zaman, məkan kateqoriyalarında və vəziyyət, status məsələsində bərabərləşdirici rol oynayır. Hüquq pozitivləşdirmə, dəyərləndirmə və bütün məsələlərdə tarazlaşdırma rolunu oynayan kriteriyaya çevrilir. Bu məntiqlə dövlətin mənəvi dəyərlər məcmuəsi (dəyərlər bütövü) olması amili meydana gəlir. Dövlətin vəzifəsi onun ədalətli və xeyirxah məqsədlərinə yönəlməlidir. Dövlətin fəlsəfəsi də onun hərtərfli hüquqi təminatı ilə əlaqəlidir. İnsan hüquqlarının təmin olunmasının yüksələn xətlə davam etməsinin təşkil edilməsi məhz dövlətin funksiyasının fəlsəfəsində dayanır. Hüquq dəyər olduğuna görə dövlət də substansional bütöv olaraq bir dəyərdir. Dövlətin substansional dəyəri bir subyekt kimi insanlarını özünə dəyərli obyektə çevirməsindən meydana gəlir. Dövlətin hüquqi dəyəri onun pozitiv siyasəti ilə tamamlanır və vəhdət məzmun kəsb edir. Hüquq hissiyyatla əlaqəli olduğundan dövlət də hissiyyatlı bir orqandır. Buna görə də hər bir fərdin hüquqlarının təmin olunmasına hissiyyatlı yanaşmalıdır. Hüquqların təmin olunmasını resurslarla əlaqəli olan inkişafla bağlamalıdır**

**və inkişaf tempində hüquqların təminat siyasətini paralelləşdirməlidir.**

**Bu baxımdan da insan hüquqları anlayışı dəyər olduğundan (dəyər da dərin mənalarda əksini tapan qiymətdən ibarətdir) fəlsəfənin obyektidir və bu anlayışın elmi mənasının, sistemli əsaslarının müəyyən olunması məhz məntiqi əməliyyatların köməyi sayəsində mümkündür. Məntiq və elm *(əqli nəticədən elmin yaranması)*, elm və məntiq *(elmi cəhətdən müəyyən olunmuş nəticələrin təkrar olaraq məntiqi əməliyyatların obyektinə çevrilməsi)* vəhdətdə fəlsəfi məzmuna xidmət edir.**

Bu əsərdə "insan hüquqları" anlayışının dərk olunmasında fəlsəfi-məntiqi metodlar qruplaşdırılır, eləcə də fəlsəfi-məntiqi metodların köməyi ilə anlayışın tərkibi və bölgü komponentləri dərk olunur. Anlayış fəlsəfi-məntiqi metodların obyektinə çevrilir.

İnsan hüquqları anlayışının **fəlsəfi-məntiqi metodlarla** dərk olunması (fəlsəfi-məntiqi metodlar həm də elmi-məntiqi metodlardır) amilləri və tələbləri forma və məzmun etibarilə bu anlayışın müxtəlif fəaliyyət məkanlarında elə sistemli əsaslarla, nizamlı prinsiplərlə, normativ qaydalarla, kompleks (əhatəli) prinsiplərlə, eləcə də konseptual əsaslarla, rasional və irrasional formada (yəni duyğulara əsaslanmaqla) dərk olunmasından irəli gəlir. *(**Qeyd:** duyğu və intuisiya insanlar üçün təbii olduğundan elə hüquqların dərk olunmasında bu kriteriyalar böyük amillər kimi əhəmiyyət kəsb edir. Belə ki, hesab etmək olar ki, duyğu əsasında insan hüquqları üzrə hissiyyat və dərketmə formalaşır. Əqili (ağılı) də tam duyğulardan kənarda düşünmək olmaz. İnsanların əqli fəaliyyəti onların duyğularından kənarda ola bilməz. Bu iki istiqamət bir sistemin əlaqəli tərkibidir. Refleksiyanın (qıcıqların) özü də elə duyğularla əlaqəlidir. Bu baxımdan da hüquqların dərk olunmasında rasionallıq və irrasionallıq vəhdət təşkil edir. İnsanın hissiyyatı onun əqli ilə birləşir və insanın maddi-*

*mənəvi hüquqları meydana gəlmiş olur. Onu da qəbul etmək lazımdır ki, hissiyyatlarını itirmiş insan bir varlıq kimi insan ola bilməz).* İnsan hüquqları sahəsində olan **biliklər *empirik, nəzəri, analitik, sintetik*** olmaqla, **elmi** **(epistemoloji)** və gündəlik məlumatları özündə əks etdirməklə **adi** xarakterə malik olur. Hüquqi biliklər normativ və faktoloji də olur. Elmi biliklər elmi nəzəriyyələrdə və normativ-hüquqi aktlarda öz əksini tapır. Bu həm də rasional yanaşmaların əsaslarını təşkil edir. Hüquqi biliklər həm də insan hüquqlarının təmin olunmasına və pozulmasına yönələn adi (gündəlik baş verən məlumatları özündə əks etdirən) biliklərdən ibarətdir. Bu baxımdan hesab etmək olar ki, adi insan maraqlarına söykənən və onun hüququnu ifadə edən biliklərin sistemləşdirilməsi, yəni onun tərkibinin öyrənilməsi metodlarının əlaqəli şəkildə müəyyən olunması bu biliklərin epistemoloji əsaslarını meydana gətirir. Hüquqi biliklərin sistemləşdirilməsi əsasən analitik (tərkib hissələrə ayırma), sintetik (tərkib hissələrin təfəkkürdə, qavrayış proseslərində və emalda birləşdirilməsi) metodlarla həyata keçirilir və bununla da adi biliklər elmi biliklərə (sistemləşdirilmiş, vəhdət təşkil edən biliklərə) çevrilir. Hüquq sahəsində elmi biliklər müxtəlif filosofların baxışlarında öz əksini tapır. Epistemologiya elə hüquq nəzəriyyəsi ilə gündəlik faktlar (insan ehtiyaclarının ödənilməsinə söykənən hadisələrdən meydana gələn faktlar) arasında bir "körpü" yaradır və obyekt kimi adi insan hüquqlarının empirik təhlilini əsas götürür. ***(Qeyd:*** *epistemologiya-yunan sözü olan "epistema" dan götürülüb. Mənası "bilik" (burada təsdiq olunmuş həqiqi bilik) haqqında elm deməkdir. Burada elmin məqsədi gündəlik praktiki və utilitar (mənfəət, fayda güdən) biliklərdən fərqli olaraq həqiqi (epistem) məlumatı "istehsal" etməkdən ibarətdir).*[1]

---

[1] Эпистемология. Лебедев С.А. Философия науки: Словарь основных

Fəlsəfəşünaslar hesab edirlər ki, elmi dərketmənin modelləri var: bunlar empirik, nəzəri və digərləridir. Empirik fikir tərəfdarlarına görə elmi biliklərin həqiqi olmasının kriteriyaları, əsasları və mənbələri təcrübə və müşahidələrə əsaslanan empirik məlumatlardır. Filosoflar pozitivistlər hesab olunan Kont, Mill, Max, Rassel, Karnap, Reyhenbax və başqalarıdır. Nəzəri modelin tərəfdarları (R.Dekart, V.Leybnits, İ. Kant, Hegel və başqaları) isə hesab edirlər ki, həqiqi elmi biliyin kriteriyaları, əsasları və mənbələri düşüncədir-mühakimə, əqil, intellektual intuisiya, deduksiya və təfəkkür konstruksiyasıdır. [1] A. Puanlare, Q. Qaliley, A. Eynşteyn kimi alimlər isə empirik və nəzəri bilikləri dialektik olaraq ümumi strukturda axtarıblar.[2]

Belə hesab etmək olar ki, insan hüquqlarında dair bilikər də empirik və nəzəri hissələrin strukturlaşmasından meydana gələn biliklər hesab olunmalıdır. İnsanların maddi maraqlarına söykənən və insanların sosial-siyasi-mədəni aspektlərdə davranışını sistemli qaydada müəyyən edən və maddi amilləri və faktoloji biliklərin obyekti kimi hadisələri, gerçəklikləri əsas götürən biliklər **empirik**, insanların mənəvi dəyərlərini əks etdirən fikirlər isə **nəzəridir**. Nəzəri fikirlər heç də empirik fikirlərdən tam fərqlənmir, empirik biliklərin şərhi elə nəzəri aspektləri özündə cəmləşdirir. Mənəvi məsələlərdə nəzəri fikirlər daha çox təbiidir və insanların haqlarını aşkar edəndir. İnsanlar öz haqlarını geniş dərk edirlər, lakin onun realizə imkanları real resurslara bağlı olur. Buradan insan hüquqlarının təmin olunması potensialı anlayışı formalaşa bilir. İmkanlar potensialları böyüdür. Hüquq genişlənir və səlahiyyətlər də artır. İnsan hüquqları sahəsində empirik biliklər məhz inkişafla meydana gələn, aşkarlanan, bu baxımdan maddi amillərə

---

терминов.-М: Академический Проект,2004.-320 с. (Серия «Gaudemus») www. terme. Ru/dictionary/905/word/yepistemologiya.

[1] Həmin mənbə.

[2] Həmin mənbə.

söykənən biliklərdir. Eyni zamanda insanların bioloji varlıq kimi əsaslarını da empirik biliklər öyrənir. Burada biliklər əks olunma ilə meydana gəlir, obyektlər üzərində dərketmə prosesləri həyata keçirilir və fəaliyyət əks olunmanı yaradır. *(Empirik biliklər daha çox induktiv metodlarla, nəzəri biliklər isə hipotetik-deduktiv metodlarla əldə olunur. Lakin bu iki istiqaməti tamamilə bir-birindən ayırmaq olmaz. Onlar vəhdətdədirlər, hər ikisində məntiqi metodlar tətbiq olunur və məzmundan meydana gələn müəyyən əqli nəticələr vardır).* İnsan fəaliyyət göstərdikcə öz bioloji məzmununu açır və bioloji baxımdan maddi hüquqlarını genişləndirir. Maddiyyat üzərində qurulan və real zamanları əks etdirən hüquqlar məhz empirikdir və burada real gerçəkliklərlə hüququn təmin olunması səviyyəsi və dərəcəsi, eləcə də sahələri aşkar olunur. İnsan hüquqlarını etik normalara söykəyən biliklər isə nəzəri biliklərdir və demək olar ki, insanların əsas baza hüquqları məhz nəzəri əsaslar üzərində qurulur. **Məsələn, azadlıq hüquqları, ailə hüquqları, mənəvi hüquqlar və digər bu kimi hüquqlar mənəvi-etik dəyərlərlə formalaşır. Bu baza hüquqlar –mənəvi dəyərlər-demək olar ki, bütün maddi-material aləmə münasibətdə və əlaqədə öz mahiyyətini qoruyub saxlayır. Buradan da belə nəticələr hasil olur ki, təbii-mənəvi hüquqlar məhz dəyişməz dəyərlərdir və insanların statuslarını müəyyən edəndir.** İnsan hüquqları onun maddi-mənəvi keyfiyyətlərinin təməlində dayanır və bu baxımdan da fəlsəfi-məntiqi metodlarla obyektlər üzərində analitik, sintetik və empirik biliklər meydana gəlir. Həm də onu qeyd etmək olar ki, nəzəri fikirlərin özləri də elə faktlardır. Bu faktlardan istifadə məhz həqiqi biliklərin yaranmasını təmin edir. Nəzəri fikirlər ona görə faktlar rolunda çıxış edirlər ki, onlara baxışlar eyni, oxşar və fərqli ola bilər, obyekt kimi qəbul oluna bilər. Nəzəri fikirlər həm də mütləq empirik olmaya bilər, inkar obyektinə çevrilə bilər. Lakin inkar o demək deyil ki, bu biliklər tam da həqiqətdən uzaqdır. Ümumiyyətlə isə

hüquq sahəsində nəzəri fikirlər elə empirik elmlərlə sıx bağlıdır. İnsanların empirik üsullarla əldə etdiklərini nəzəriyyə öz obyektinə çevirə bilir. Əqli nəticələr sayəsində meydana gələn nəzəri biliklər, elə digər fikirlər üçün faktlar rolunu oynaya bilər. Əqli nəticə universaldır və bu baxımdan da onun məhsulu çox insanlar üçün fəlsəfi məna kəsb edə bilər.

Fəlsəfi-məntiqi metodlar insan hüquqları **anlayışının** sistemləşməsini meydana gətirməklə yanaşı, sistemli əsaslarla, komponentlərin qarşılıqlı qaydada əlaqələrini, bu baxımdan tərkib və bütövün dərk olunmasını da təmin edir. Hüquq nəzəriyyələri sistemdən faydalanmaqla, sistemləşmənin böyüməsinə də xidmət edir. Burada sistemin komponentləri hüququn genişlənməsi üçün şəraitləri və vasitələri meydana gətirir. Hüququn sistemli dərk olunması onun əhatəli və universal əsaslarla dərk olunmasında böyük rol oynayır. Hüququn sahələr üzrə sistemli dərk olunması hüquq normaları sisteminin yaranmasına gətirib çıxarır. Hüquq anlayışının sistemli dərk olunmasında məntiqi metodlar böyük rol oynayır və metodlar özü elə sistemin formalaşmasını təmin edən **modellər** rolunda çıxış edir. Məsələn, tərkiblərdən bütövün meydana gəlməsi məsələləri elə bütün sistemlilikdə, sistemlərin xassələnməsində model kimi öz əksini tapır. Bu baxımdan, məsələn, insan hüquqları ilə bağlı beynəlxalq **konvensiyalar** da sistemlilikdən meydana gəlir. Burada universal metodlar, yəni insanların bütün beynəlxalq əlaqələrdə olan hüquqları obyekt-model kimi ümumi olaraq tətbiq olunur. Beynəlxalq konvensiyaların universal mahiyyətində ümumi insan hüquqları anlayışı dayanır. Hər bir məsələdə, sistemləşmədə insanlara xidmət amili universal olaraq nəzəri fikirlərin, müddəaların, hüquq normalarının əsasını təşkil edir.

Hüquq anlayışının dərk olunmasında dərketmənin sistemli obyektləri içərisində insanlar və onların fəaliyyət göstərdikləri məkanlar böyük rol oynayır. Burada insan-subyekt, məkan isə obyekt rolunu ifadə edir. Bir çox hallarda insan öz hüququnu

dərk etmək üçün elə obyekt roluna da çevrilir. Bu məsələdə insan hüquqlarının **ontoloji** prinsiplərlə, yəni varlıq əsasında dərk olunmasının zəruri aspektləri formalaşmış olur. İnsan bir subyekt kimi öz fikirlərini və başqasının fikirlərini dialektik qaydada öyrənir. Bu zaman qnoseoloji yanaşmalar meydana gəlir. Dialektika həm ontoloji, həm də qnoseoloji təlimlərdə öz əksini tapır. İnsan hüquqlarının dialektik məzmunu onun nəzəri əsaslarını ifadə edən fikrilərin həm "öz yerində" olması, həm də inkişafda olması ilə əlaqəlidir. Burada öz yeri dedikdə, əsasən bütün proseslər zamanı model kimi hüquq anlayışının çıxış etməsi əsas götürülür. Dialektikada fikirlər ard-arda düzülür, bu baxımdan da əhatə edərək bir-birini şərtləndirir. Hüququn dialektikası iki aspektdə dərk olunur: **hüquq sahələrinin daxili dialektikası** ***(məsələn, ailə hüququna dair nəzəri normalar)***; **hüququn sahələrarası dialektikası** ***(məsələn, mülki hüquqların tərkibini əhatə edən sahələri birləşdirən anlayışların normalarda əksini tapması. Əlaqəli hüquq normaları)***. Konstitusiyalarda əksini tapan ümumi normalardan irəli gələrək yeni qanunlar qəbul olunur.

Hüququn daxili dialektik məzmunu öz mərkəzində insanın maraqlarını və həyatını əsas götürür və müvafiq sahə üzrə maddi-mənəvi normaları ifadə edir. Məsələn, **BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası** *(Baş Məclis tərəfindən 20 noyabr 1989-cu ildə qəbul edilib)* həm universal (dövlətlərə aid olmaqla və uşaqların universal hüquqlarına aid olmaqla), həm də məxsusi (uşaqlara aid olmaqla) bir hüquqi sənəddir. Hər bir hüquq sənədində olduğu kimi bu sənəddə də daxili dialektik məzmun var. Məsələn, 11-ci maddədə yazılır: 1. İştirakçı dövlətlər uşağın qanunsuz aparılmasına və xaricdən qaytarılmamasına qarşı mübarizə üçün tədbirlər görürlər. Bu, bir hüquq normasıdır. Bu normadan dialektik qaydada digər norma şərtlənir. Ardınca yazılır: 2. Bu məqsədlə iştirakçı dövlətlər ikitərəfli və ya çoxtərəfli sazişlər bağlamağa və ya

qüvvədə olan sazişlərə qoşulmağa kömək edirlər.[1] Mətn bu qaydada şərtləndirici-bağlayıcı-nəticəverici əsaslarla tamamalanır. Deməli, dialektika əslində inkişafa və şaxələnməyə xidmət edir, məzmunu əhatələndirir. Uşaq hüquqlarının ümumi müəddəalarından da yeni-yeni qanunlar meydana gəlir. Burada müddəa aralıq-universallıq və məxsusilik arasında körpü rolunu oynayır, onları bir-birinə bağlayır. Dialektika tərkibi rəngarəng olan artam bütövün yaranmasının əsaslarını təşkil edir.

Hər bir inkişaf prosesinin də öz məkanı mövcud olur, inkişaflar arasında zəncirli əlaqələr meydana gəlir. Təfəkkür inkişafın ümumi qanunauyğunluqlarını qavrayır. ***(Qeyd:*** *dialektika –daha çox qanunauyğun əlaqələr və təşəkkül tapma (inkişafdan əlamətlərin meydana gəlməsi) haqqında təlimdir və bu düşüncə üsulu təliminə əsaslanaraq mövcudluğun inkişafı və dərketməsi haqqında təlimdir. "Dialektika" sözü birinci dəfə qədim yunan alimi Sokrat tərəfindən işlənilmişdir və özündə məharətli dailoq aparmaq, mübahisə etmək sənətini əks etdirir. Fikirlərin əksliliyi, qeyri-həqiqi yolların kənarlaşdırılması, tədricən həqiqi biliyə yaxınlaşma -bütün bunlar dialektikadır).*[2] Dialektika əksliklərin toqquşmasında, ideyaların mübarizəsində öz əksini tapır. Obyektiv aləm aşkar olunur və inkişaf qabağa doğru gedir. Dialektika hər bir şeyi vəhdətdə, qarşılıqlı əlaqədə axtarır. Dialektika təcridolunmanı qəbul etmir. Digər tərəfdən isə dialektikanın tələbi inkişafla əlaqəlidir.[3] Bu izahlardan görünür ki, dialektika inkişafla yanaşı, qarşılıqlı güzəştləri, ortaq mövqeləri, müəyyən

---

[1] BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası *(Baş Məclis tərəfindən 20 noyabr 1989-cu ildə qəbul edilib).*
www.migration.gov.az/images/pdf/d64f56fbbe0dcb273c7e993e0acee.pdf

[2] Вопрос 26. Диалектика как философская теория развития. Основные исторические формы диалектики.
www.kautur.blogspot.com/2008/06/26.html

[3] Həmin mənbə.

koordinatlarda razılaşmaları meydana gətirə-gətirə inkişafı təmin edən amilə çevrilir.

İnsan hüquqları dialektik əsaslarla inkişaf edir, öz tərkibini müəyyənləşdirərək genişləndirir. İnsan hüquqları yeni-yeni ideyalarda meydana gəlir. Bu ideyalar həm material aləmin inkişafında mövcud olur, həm də nəzəri baxışlarda inkişaf edir. Hər iki istiqamətdə vəhdətlik var. Hər iki istiqamətin özündə bir əlaqəlilik mövcuddur. Eyni zamanda iki istiqamət arasında vəhdət meydana gəlir. İnsan hüquqlarının dialektik əsası tərəflərin hüquqlarının müdafiə eləməsində də meydana gəlir. Məsələn, məhkəmə prosesləri, çəkişmələri elə dialektik məzmunu ortaya qoyur və aşkarlamanı müəyyən mərhələyə qədər açılmanı formalaşdırır. Tərəflər arasında hüquqi mübahisələr, həqiqi hüquqların aşkarlanmasına gətirib çıxarır. Hesab etmək olar ki, dialektika epistemoloji biliklərin formalaşmasının kökündə dayanır. Dialektika sübutların aşkarlanmasının və sübutlar zəncirinin meydana gəlməsinin bazasında dayanır. Həqiqi hüquqlar dialektik tərkib olaraq istinadlara, koordinat nöqtələrinə söykənir. Hesab edə bilərik ki, həqiqət elə ədalətin özündədir. Həm də aşkarlıq mənasında həqiqət qeyri-ədalətdədir. Hər bir aşkar olunan şey eyni koordinatdan ədalətli ola bilməz. Koordinatların dəyişməsi ilə ədalət mütləqlikdən nisbiləyə və əksinə doğru keçidlər edir. Ədalətin axtarışı isə tərəflərin mübarizələrinin nisbi son hədəfidir. Məsələn, son dövrlərdə Ukrayna böhranı ilə əlaqədar olaraq Qərblə Rusiya arasında beynəlxalq hüquq əsas götürülməklə haqlı tərəflərin aşkar olunması uğrunda gərgin mübarizələr davam edir. Hər iki tərəf öz siyasətinin haqlı olduğunu və hərəkətlərinin hüquqi, ədalətli olduğunu bəyan edir. Hələlik dialektik gərginliyin sonuna yaxınlaşılmayıb. Burada dialoq yaranır və dialektik qaydada hüquqların aşkarlanması və genişlənməsi prosesləri həyata keçirilir. Bu mübarizə sonda həqiqətin aşkarlanması və yeni həqiqətlərin meydana gəlməsi ilə bitə biləcəkdir. Buradan belə nəticə

meydana gəlir ki, inkişaf əslində yeni həqiqətlər zəncirini özündə ehtiva edən bir prosesdir. Həqiqətin isə mütləq son həddi yoxdur, hərəkət davam etdikcə həqiqət də aşkarlana-aşkarlana davam edir. Həqiqətlərin aşkarlanması prosesləri elə məhz dialektik qaydada təmin olunur. Ümumiyyətlə isə həqiqi biliklər və həqiqətlər mütləq olmaqla bərabər, həm də nisbidirlər; çünki proseslərin gedişatı məzmun və forma baxımından daima dəyişəndir. Dəyişkənlik düşüncələrdə və əməldə nəticələr olaraq yenilikləri meydana gətirir. ***(Qeyd:*** *həqiqətin özü də subyektlərə münasibətdə universal və məxsusi ola bilər. Universal həqiqətlər o həqiqətlərdir ki, əslində bütün insanların daxillərində təbii olaraq mövcuddir. Bütün dəyişən proseslərdə meydana gələn gerçəkliklərdən asılı olmayaraq həmin gerçəkliklərə münasibətdə baza (hamının yanaşdığı nisbi bir forma) bir həqiqət var. Bu həqiqət də qəbul etməkdən və razılaşmadan meydana gəlir. Məxsusi həqiqətlər də əslində universal həqiqətlərdən tam kənara çıxa bilməz. Çünki insanların özləri elə təbii nizama tabedirlər. Dəyişənləri sadəcə olaraq qəbul edirlər və bütün dəyişənlərdə həqiqət bir dəyər norması kimi tətbiq olunur. Bununla yanaşı, hesab etmək olar ki, tarazlığın pozulması ilə meydana gələn gerçəkliklər də vardır. Bu aşkarlıqlar əslində elə sərf edən tərəflər üçün ədalətli görünür, çünki ondan fayda götürürlər. Bu tarazlıqlar sərf edən tərəflər üçün faydalı həqiqətlər hesab olunur. Digər tərəf üçün isə faydasız həqiqətlərdən ibarətdir).*

İnsan hüquqlarının dərk olunmasının sistemli mahiyyəti həm də onun strukturlaşmasında özünü göstərir. Strukturlaşma proseslərində məqsədlər və vəzifələr, funksiyalar və əhatə predmetləri şərtləndirici qaydada və sistemli əsaslarla strukturlaşdırılır, iyerarxik olaraq qruplaşdırılır. İnsan hüquqlarının nəzəri fikirlərdə və hüquqi normalarda strukturlaşması prosesləri həm onun tərkiblərinin meydana gəlməsinin (aşkar olunmasının) əsaslarını təşkil edir, həm də şaxələnməsini üzərə çıxarır. Strukturlaşma bir proses modeli

kimi bütün sahələrdə tətbiq olunur. Strukturlaşmanın özü də bir sistemləşdirici model rolunu oynayır və təfəkkürün konstruksiyasına çevrilir. Təfəkkürün konstruktiv mahiyyəti insan davranışında və obyektə yanaşmada özünü büruzə verir. Təfəkkürün konstruksiyası məhz quruculuq və yaradıcılıq qabiliyyətinin formalaşmasında əks olunur.

Obyektlər üzərində olan resurslar isə insanların hüquqlarının aşkarlanması dərəcəsini və hüquqların aşkarlanmsı kəmiyyətini ifadə edir. Hüquqların fəlsəfi-məntiqi metodlarla dərk olunması onun mahiyyətinin müəyyən səviyyələrdə başa düşülməsini və hüquqların faydalı dəyərlər kimi istifadəsini zəruri edir. Dərk etmək həmçinin hüquqların nizamlı prinsiplər kimi insanların fəaliyyətini tənzim edən vasitələr kimi anlaşılmasının bazasında dayanır. Dərk etmək hüququn insanlar üçün gündəlik yaşadıqları məkanlarda, bu baxımdan ailədə, cəmiyyətdə və dövlətdə faydasını müəyyən etməkdən ibarətdir.

Hüquq insan fəaliyyətinə müvafiq olaraq hər zaman genişlənir, sistemlərdə daxilən müəyyən stereotiplərdən təmizlənir və yenilənir. Bu baxımdan da dərk olunmanın **zaman amili** meydana gəlir. **Gələcək zaman hüquqları anlayışı** formalaşa bilir. İnsan hüquqları insan həyatında baş verən dəyişikliklərə müvafiq olaraq daima yeni əsaslarla aşkarlanır. Bu aşkarlanma isə hüququn baza mahiyyətinə xidmət edir. Yəni hər bir anda, məqamda baza hüquq və azadlıqların təmin edilməsi əsas prinsipə çevrilir. Gələcək hüquq fəlsəfi konsepsiyası dövlətin və cəmiyyətin gələcək zamanda fərdə verə biləcəyi hüquqi dəyərlərdən asılı olur. Hüquqi dəyərlər maddi-mənəvi mövqeni və statusu müəyyən edir. Hər bir zaman anında dövlətin öz vətəndaşlarının və xaricilərin hüquqlarını müdafiə edə bilmək imkanlarının trayektoriyası məhz gələcək hüquqi inkişafın trayektorik bağlılığını meydana gətirir. Gələcək hüquq anlayışının

müəyyən olunması dövlətin inkişaf proqramları ilə əlaqəli olur və resursların əldə olunması və istifadəsinin nisbətinə söykənir.

Fəlsəfi-məntiqi metodlar insan hüquqları anlayışının ümumi və məxsusi obyekt kimi tərkibini hissələrə parçalayır və dərketmənin bir proses kimi rasional prinsiplərini formalaşdırır. Dərketmənin özünün rasional prinsipləri dərketmə obyekti üzərində inikasların əqli baxımdan əqlin özü tərəfindən sistemli qaydada dərk olunmasından irəli gəlir. Rasionallıq insanların sistemli məxluq kimi mövcudluqlarını şərtləndirən və onları cəmiyyətlərə bağlayan, onlar arasında əlaqələri yaradan mexanizmlərin sistemli qaydasından ortaya çıxır. Yəni şüur insanlar üçün hər bir obyekti tərkib, bütöv, bu baxımdan sistemli qaydada dərk etdirmək vasitəsidir. İnsanın hüquqları onun daxilinin ifadəsidir və insanın təbiətlə-maddi aləmlə və mənəvi aləmlə vəhdətinin təzahürüdür. İnsan maraqları mövcuddur, insanın ruhi aləmi mövcuddur. Bu iki istiqamət arasında bağlayıcılıq var. Bu bağlayıcılıq məhz haqqla ifadə olunur, ixtiyar və səlahiyyətləri ifadə edir. İnsanın bütün hərəkətləri-burada nizama uyğun olan hərəkətləri, vərdiş olunmuş nizama müvafiq olan hərəkətləri onun hamı tərəfindən qəbul olunmuş haqqıdır. İnsanların haqları onun potensialından, malik olduğu maddi-mənəvi imkanlardan ortaya çıxır. Bu baxımdan da insan öz daxili etibarilə haqqa malikdir, eləcə də insanın xarici təmasları da haqdan irəli gəlir. Ümumiyyətlə isə insan kainatın tərkibi olduğundan kainatın mikro və makro quruluşuna zidd olmayan hər bir hərəkəti etməkdə haqlıdır. İnsanların öz hüquqlarını dərk etməsi də məhz insanların təbii xüsusiyyətlərindən ortaya çıxır.

Dərk etmək sistemlidir və ardıcıl qaydada dərk etmək konstruktiv təfəkkürü meydana gətirir. Konstruktiv təfəkkür, yəni ardıcıl olaraq müxtəlif sahələr üzrə daha çox informasiya alan təfəkkür öz dərk etdiyi obyekti də ardıcıl və sistemli qaydada dərk edir və onun daxilini aşkarlayır, mahiyyətini başa düşür. Dərketmə ümumidir və hər bir addımda, hər bir

fəaliyyətdə insanın daxilində olur. Sistemləşdirmə ümumi modeldir. Eləcə də dərketmə hər bir obyekti özünə cəlb edir və obyektin əlamətlərini əks etdirir. İnsan öz hüquqlarını əlamətlərlə dərk edir və ona daxil olan siqnallardan aşkarlayır. İnsanlar maddi-mənəvi aləmin vəhdətini dərk edir, eləcə də özünün bu aləmlərlə əlaqəsinin prinsiplərini anlayır. İnsan öz hüquqlarını bir dəyər olaraq dərk edir. Çünki insanın mənəvi dəyərlərinin ictimai-siyasi forması və məzmunu məhz hüquqlarda əks olunur. Hüquq siyasi mənada dövlət və cəmiyyətdə insanlar üçün mövcud olan haqlardır. Dövlət hakimiyyəti insanların (vətəndaşların) hüquqlarını qəbul edir və onları normalara salır. Bu baxımdan da dövlət hakimiyyəti insan hüquqlarını normalarla tənzim edən bir tərəf rolunda çıxış edir. İnsanlar öz hüquqlarını dərk etdiyindən dövlət hakimiyyətinin də funksiyası insanların hüquqlarını dərk etməkdən və onu müxtəlif sahələrdə müəyyən etməkdən ibarətdir. İnsan hüquqlarının kompleks olaraq dərk olunması elə insanların sistemli və bu baxımdan da əlaqəli fəaliyyətindən meydana gəlir.

İnsan hüquqları məkanlar (daxili mövcudluq və əlaqələr) sistemləri üzrə daima genişlənmə xüsusiyyətlərinə malikdir. Bu genişlənməni də elə nəzəri fikirlər meydana gətirir. Nəzəri fikirlər böyüyür, fikirlərdən yeni fikirlər **törəyir**. Bu törəmə insan hüquqlarının nəzəri əsaslarını genişləndirir. Nə qədər fikir çox olarsa, hüquq da çoxalır. Deməli, hüququn çoxalması material və ideal dialektik vəhdətə söykənir. Ancaq hüququn çoxalması həm strukturlaşma və stuktursuzlaşdırılma (yəni yenidən strukturlaşdırılma) hesabına genişlənir. Burada daxili elementlərin geniş tərkibdə aşkarlanması hesabına strukturlar da genişlənir. Strukturların genişlənməsi prosesləri elə mövcud strukturları dağıdır və nəticələr hesabı ilə yeni tərkibli strukturlar meydana gəlir. Nəticələr etibarilə hüquqların genişlənməsində ziddiyyətlər də meydana gələ bilir. Toqquşmalar, kəsişmələr və yeni mücərrəd və konkret

məkanlarda strukturlar böyüyür və yenidən strukturlaşma ortaya çıxır. Bu baxımdan da insan öz daxili imkanlarını və potensialını strukturlaşma və sistemləşmə prosesləri ilə dərk edir. Dərk etmənin əsas funksiyası zəncirli qaydada aşkarlamaqdan ibarətdir. Dərketmənin sistemli funksiyası elə insan hüquqlarının normalar və qaydalar şəkilində öz əksini tapmasına səbəb olur.

İnsan hüquqları nizamlı qaydalardan ibarət olduğundan elə normalarda əksini tapır. Ölçülər normalarla ifadə olunur. Normalar insan hüquqları anlayışının material və mənəvi prinsiplərlə dərk olunmasını meydana gətirir. Ümumiyyətlə isə insan özü bir məxluq kimi normalara tabe olduğundan onun hüquqları da normalarla tənzim olunur.

**Normativ qaydada ardıcıl dərk etmək** insan hüquqlarına dair baxışları sistemləşdirməkdən ibarətdir. Burada qavrama prosesləri özündə insan ehtiyaclarını və tələbatlarını sahələr üzrə əks etdirən və hüquqla vəhdətdə əks olunan tərkib hissələrin təfəkkürdə dərk olunmasından ibarət olan ardıcıl və silsilə xarakterli hadisələr zəncirindən ibarətdir. Fəlsəfi-məntiqi metodlar obyekti dərk etmək üçün bir universal və məxsusi metodlar kompleksi olaraq, anlayışın tərkibinin öyrənilməsinin və tərkib hissələr arasında əlaqələrin öyrənilməsinin əsaslarını təşkil edir. Fəlsəfi-məntiqi metodlar anlayışı təriflərlə (ümumi və tərkibi baxımından konkret təriflərlə) öyrənməni qarşısına məqsəd qoyur. Burada formal məntiqin vəzifəsi sillogizmlərdən, bu baxımdan sadə qaydada mühakimələr yürütməkdən və əqli nəticələr çıxarmaqdan ibarət olur. Dialektik məntiq isə daha çox sadə məntiqi birləşmələri özündə əks etdirir. Burada əqli nəticələr elə forma və məzmundan ümumi dərk etmək yolu ilə meydana gəlir. Dialektik məntiqin tətbiqi zamanı insan hüquqları anlayışı sahələr üzrə ardıcıl və fikri birləşmələrdən, müəyyən təsiredici nəticələri olan cümlələrdən dərk olunur.

Belə nəticəyə gəlmək olar ki, insan hüquqları anlayışının dərk olunması proseslərində fəlsəfi-məntiqi metodların iki mühüm funksiyası vardır: **birincisi,** insan hüquqları anlayışının formal və dialektik məntiq əsasında **tərkibinin (hansı komponentlərdən ibarət olmasını)** sistemli qaydada öyrənilməsini təmin etmək; **ikincisi** isə insan hüquqları anlayışının ayrı-ayrı sahələrə bölünməsini izah etmək. Hər iki istiqamət anlayışı sistemli qavramanın əsasında dayanır və təfəkkürün konstruktiv formasını meydana gətirir. Hər iki istiqamət insan hüquqları anlayışını kompleks şəkildə öyrənir və onun istiqamətlərinin əsaslarını (nəzəri əsaslarını) formalaşdırır. Tərkibin öyrənilməsi bir tərəfdən ardıcıl fikri birləşmədən, şərtdən və sonlu nəticə bağlamalarından, yəni ardıcıl düşüncə inikasından meydana gəlir. Digər tərəfdən isə material-maddi aləmə və fəaliyyətə bağlı olur. **Bu qaydada hüquq anlayışının tarixi aspektlərlə də dərk olunması təmin olunur, gələcək zamanda hüquqlar dərk olunur.**

Məntiq təfəkkürü formal və dialektik qaydada düzgün mühakimələr yürütmək və əqli nəticələrə gəlmək kontekstində tərkib hissələrə ayırır. Burada hər bir tərkibin öz obyekti olur və obyekt inandırıcı və təsiredici əhəmiyyətə malik olur. Tərkib hissələr arasında ümumiləşdirilmə və xüsusiləşdirilmə ilə bağlayıcılıq, ayırıcılıq və birləşdiricilik meydana gəlir. Bölgü burada ümumi məzmunu imkan daxilində bütün sahələrə aparır. ***(Qeyd: məntiq ümumidir və dəyər olaraq hər bir kəsdə var. Lakin dərəcələnmə xüsusiyyətlərinə malikdir. Buna görə də düşüncələr fərqlənir. Lakin bütün düşüncələr sistemli olur).*** Bu baxımdan da məntiqin əsas funksiyası məhz insan hüquqlarının baza əsaslarını bütün sahələrdə başa salmaqdan, dərk etdirməkdən, həmçinin xüsusi sahələr üzrə pozitiv qaydada anlatmaqdan ibarətdir.

İnsan hüquqları anlayışının dərk olunmasının həm insanların daxili təbii xüsusiyyətləri meydana gəlir, həm də dərk olunaraq ifadə olunan hüquqi baxışların dərk olunması

formaları mövcud olur. Hüquqlar həm fərdi, həm də universal əsaslarla dərk olunur. İnsan hüquqlarının dərk olunması həm **təcrübədən**, yəni insanların fəaliyyət göstərdikləri sahələrdəki aşkarlanmadan, insanın özünü dərketməsindən, özünün haqlarını anlamasından meydana gəlir, həm də **nəzəri fikirlərdən** formalaşır. Nəzəri fikirlər isə ayrı-ayrı şəxslərlə olan söhbətlərdən, dialoqlardan aşkarlanır. Bununla yanaşı, hüquq normalarının mövcud olduğu nəzəri fikirlərdə-normativ-hüquqi aktlarda da insan hüquqlarının mahiyyəti aşkar olunur. Hüquq sahələrinin törəmə qaydasında inkişafı elə dialektik inkişafın əsaslarını meydana gətirir.

Hüququn tərkibi ölçülər olduğundan bu ölçülərin hüquq normalarında mövcud olması hüququn dərk olunmasında normaları əks olunan obyektə çevirir. Bu baxımdan da nəzəri fikirlər də insan hüquqlarının genişlənməsi və törəməsi üçün faktlar, sübutlar rolunu oynayır. Nəzəri fikirlərdə insanların hüquqları onunla tanış olan insanların baxışlarında, şüurlarında müəyyən dəyişiklikləri yaradır, oyadıcı rolu oynayır. Bu baxımdan da nəzəri fikirlərin obrazlanması prosesləri baş verir. İnsan hüquqlarının dərk olunması ziddiyyətlərdən və baxış bucaqlarının müxtəlif nöqtələrdə kəsişməsindən də meydana gəlir.

İnsan hüquqları anlayışı şəraitlərdən də dərk olunur. Şəraitlər insanlar üçün hüquqlarının reallaşdırılması imkanlarını müəyyən edir. İnsanlar obyektlərlə münasibətlərini müəyyən edirlər və nəticə etibarilə həmin şəraitlərdə insan hüquqlarının mahiyyəti meydana gəlmiş olur.

İnsan hüquqlarının sistemli dərk olunması bu hüquqların deduktiv və induktiv əsaslarla, yəni tərkib və bütöv arasında olan əsaslarla dərk olunmasının zəruriliyini meydana gətirir. Sistemli dərk etmək də öz növbəsində zamana uyğun olan dərketməni yaradır. Əvvəlcə mövcud olan hüquqlar öz üzərində yeni hüquqların yaranmasını şərtləndirir, bu hüquqlar nəzəriyyədə və təcrübədə öz əksini tapır. Bu iki şərtləndirici

vəhdət əsasında hüquqlar sistemli qaydada yuxarıya və ətraflara yayılan formada dərk olunur. Hər bir aşkarlanma prosesi hüququn zaman anlayışını meydana gətirir.

Əsərdə insan hüquqları anlayışının fəlsəfi-məntiqi metodlarla dərk olunmasının müxtəlif aspektləri izah olunur, insan hüquqları anlayışının ontoloji və qnoseoloji mənası açılır. Dialektik qaydada hüquq anlayışının mənaları verilir. Eləcə də bu anlayışın dərk olunmasında fəlsəfi kateqoriyaların bölücü, sahələrə ayırıcı əsasları izah olunur.

Anlayışlar bizim hərəkətimizi, münasibətimizi ifadə etmək üçündür. Anlayışlar vasitəsilə biz dialektik qaydada şeylərin mənasını dərk edə bilirik. Bir şey üzərində qarşılıqlı fikir yürütməklə dialektik qaydada həmin şeyin mənasını aça bilirik. Dahi foilosof Hegelə görə fəlsəfənin vəzifəsi təfəkkürümüzdəki anlayışları aydınlaşdırmaqdır. Anlayışlar içərisində ən geniş yayılmışı münasibət anlayışıdır. Münasibət sayəsində biz nəyinsə oxşarlığını və fərqini bilirik.[1] Hüquq bir anlayışdır və təfəkkürün qavrama obyekti və predmetidir. Həmçinin təfəkkürün diqqətdə saxladığı bir anlayışdır. İnsan hüquqları anlayışının dərk olunması qeyd olunduğu kimi, dialektik əsaslarla həyata keçirilir. Çünki hüquq kollektiv münasibətlər və maraqlar sferasında daha da zənginləşir. Hüquqların qarşılıqı əsasları hüquqi fikirlərin dialektik vəhdətlə bütövləşməsinə və genişlənməsinə gətirib çıxarır.

Bu əsərdə insan hüquqları anlayışı ***zəkanın birinci olması*** şərti ilə izah olunur və təfəkkürün əqli nəticələr çıxarmaq qabiliyyətindən istifadə olunur və mənalar açılır. Bununla yanaşı, faktlar üzərində də əqli nəticələr çıxarmaq yolu ilə anlayışın dərk olunması təmin olunur.

---

[1] Saleh Mehdizadə. Hegel fəlsəfəsinin qısa xülasəsi. www.summaphilosphie.blogspot.com/2012/03/hegel-flsfsinin-qsa-xulassi_19.html

## “İnsan hüquqları” anlayışının dərk olunmasında məntiqi metodlar

Bütün metodlar sistemləşdirilmənin tərkibini (sisitemləşdirilmə metodlarının tərkib ünsürləri olaraq) təşkil edir. Metodlar cəm halda sistemləşdirici metodlar kimi xarakterizə edilməlidir. Təfəkkür sistemini və konstruksiyasını da elə metodlar formalaşdırır. Obyekt metodlarla araşdırılır, müəyyən olunur, sonra isə araşdırma təcrübəsi konstruksiyanı, yanaşma tərzini və üslubunu meydana gətirir. Metodlar əqli nəticələr çıxarmaq üsulu və müşahidələr yolu ilə duyğu orqanlarının köməkliyi sayəsində aşkarlamaqdan meydana gələn sintezləşdirici və analitik üsullardır.

İnsan hüquqları anlayışının açılması üçün aşağıdakı fəlsəfi-məntiqi metodlardan istifadə olunur:

**-ümumiləşdirmə metodundan** və bu baxımdan anlayışın tərkibini yaradan digər anlayışlarla dialektik vəhdətin tərkibinin aydınlaşıdırlması üsulundan-tərkiblərə ayırmadan. *-bu metod konseptuallığı yaradır və anlayışın tərifini formalaşdırır. Hüququn mənbəyi və onu şərtləndirən kriteriyalar ümumiləşdirmə ilə aşkarlanır*;

**-xüsusiləşdirmə metodundan**-müəyyən təcrübi biliklərdən və faktlardan istifadə edilməklə, tərkiblərdən bütövün şərtləndirici əsaslarla əldə edilməsi metodundan. Tərkibin dərk olunması və sistemdə ümumi ilə onun vəhdətinin aydınlaşdırılması metodundan. -*məsələn, insanların mənəviyyatının tərkibi olan hissələrin, məsələn, etikanın və digər dəyərlərin dərk olunması ilə hüquq anlayışının dərk olunmasını təmin etmək olur. Eləcə də mənəviyyatın tərkibi olan şərəf, ləyaqət, vicdan, namus kimi dəyərlərin dərk olunması yolu ilə hüquq tərkibinin müəyyən olunmasını həyata keçirmək olur. Hüquq mənəvi dəyərlərin realizəsi haqqıdır*;

-sistemləşdirici metoddan, bu baxımdan, insan hüquqları anlayışının formalaşmasına səbəb olan kriteriyaların **müəyyən olunması** və strukturlaşdırılmış əsaslarla dərk olunması metodundan;

-müəyyənedici anlayışların və kriteriyaların sistemdə və sistemlər arasında rolunun müəyyən edilməsindən;

-sistemdaxili və sistemlərarası dialektik sintezləşdirilmədən;

-məntiqi üsullardan, məsələn, sillogizmlərdən-formal məntiqdən, əqli mühakimələr yürütməkdən və müvafiq əqli nəticələrə gəlmək metodundan;

-məntiqi üsul olaraq dialektik məntiqdən, *məsələn, hüquq anlayışının genişlənməsi və hüququn tətbiqi sahələrinin geniş şəkildə əhatə olunmasını müəyyən etməkdən;*

-əqli nəticələr və bağlayıcılıq yolu ilə hüquq anlayışının tərkibini formalaşdıran hissələrin müəyyən olunması və qavranılması, eləcə də nəzəri mülahizələrin təcrübi faktlarla vəhdətinin yaradılması üsulundan;

-sübuta yetirmədən, nəticələrə gəlmədən və fəlsəfi kateqoriyalar əsasında şərtləndirici vəhdətin yaradılması metodundan;

-ümumilikdə isə insan hüquqları anlayışını yaradan tərkib hissələrin qavranılmasından və emal edilməsindən, ötürülməsindən;

-məntiqi nəticələrin digər nəticələr üçün başlanğıc və sübut faktları kimi istifadə olunmasından və s.

Bütün metodlar ümumi halda **sistemləşdirmə metodu** adlanır. Bu da öz-özlüyündə rasionallığa əsaslanır. Çünki tərkibi hissələrə nizamla bölmək məhz rasionallığı meydana gətirir. Sistemləşdirmə metodu elə təfəkkürün obyektə münasibətində qavrama proseslərinin nizamla həyata keçirilməsindən ibarətdir. Buradan da bel bir nəticə əldə etmək olur ki, rasionallıq əslində əqli nəticənin gəldiyi və daha dərin təsirli olan nəticədir. Bu nəticə isə o qədər dərin olur ki, tez

dəyişikliyə uğraya bilmir və bütün dərin əqli nəticələr üçün eynilik, oxşarlıq və uyğunluq prinsipinin əsaslarını meydana gətirir. Dərin əqli nəticələr bütün rasional mühakimələrdə nəticələr etibarilə köklü dəyişikliyə uğramayan nəticələrdir. Rasional nəticələr sonradan adi-irrasional qavrama obyektinə transformasiya edir və daxilən sadələşmə ilə dəyişir. Məsələn, elmi fikirlər sonradan geniş yayılaraq adiləşir. Vərdiş olunmuş məlumat xarakterini kəsb edir. Bu baxımdan da hesab etmək olar ki, elmin son məqsədi birbaaş və dolayı vasitələrlə cəmiyyətə və insanlara xidmət etməkdən ibarətdir. Elmin xidmətinin də bir neçə etapları mövcuddur ki, bu etaplar da sistemli olaraq cəmiyyətə xidmətə əsaslanır. Elmin cəmiyyətə xidmətində dolayı faktorlar (dolayı yollar) təkmilləşdirilmiş əsaslara söykənir. Elmin yaratdığı sahələr elə cəmiyyətə xidmət edir.

İnsan hüquqlarının təmin olunması üçün demək olar ki, bütün elm sahələri cəm halda səfərbər olunur. Bu baxımdan da nailiyyətlərin son hədəfi elə cəmiyyətə xidmətdən ibarət olur. Lakin pozitiv istiqamətlərlə yanaşı, elmi nailiyyətlərin nəticələri ilə insan hüquqları da pozulur.

## Təbiət, fövqəltəbiət, insan və hüquq haqqında bəzi mühakimələr

Mühakimə qavrayış və emal prosesinin nəticəsidir, ötürülmədir. Mühakimə obyektə siqnal ötürmə və onun əlamətlərini beyində obrazlaşdırmadan meydana gələn təkrar ötrümə prosesinin nəticəsidir. Məsələn, təbiət (təbiətdə hamı üçün bir qayda olaraq gözlə görünməyən obyektlərdən başqa) gözlə görünür. Bu görünmə əlamətləri əks etdirir. Əlamətlərin ifadəsi mühakimələrdir. Mühakimələrdən də nəticə mühakimələri meydana gəlir. Hər kəs öz təfəkkür tutumuna və potensialına görə mühakiməni bildirə bilər və ondan nəticələr çıxara bilər; çünki hər kəs universal varlıq sisteminin tərkibidir.

Mühakimə fərdi olur və universal prinsiplərə söykənir. Eyni zamanda fərdi olaraq universallığa da təsir edir. O mühakimə universallığa daha çox təsir edir ki, dərin əqli nəticələri özündə əks etdirir. Buradan da belə bir nəticə hasil olur ki, dərin əqli mühakimə fəlsəfənin əsası, başlanğıcı və nəticəsi hesab olunur. Dərin əqli mühakimənin məhsulu olan fikirlər hər zaman insanlığı müşayiət edir və baza olaraq təsiredici kriteriya rolunda çıxış edir. Əqli nəticələrin məhsulları olan fikirlər bütün hallarda ətraf üçün təsiredici əhəmiyyət kəsb edir. Bu baxımdan da insan özü haqqında, öz başlıca funksiyası və məqsədi haqqında, eləcə də təbiət və bütünlükdə kainat haqqında dərin düşüncələrin sahibinə çevrilə bilir. Buradan da ontoloji və qnoseoloji, həmçinin epistemoloji aspektlər meydana gəlir. Fəlsəfə və elmin əsas funksiyaları obyekti məhz dərindən dərk etməni təmin etməkdən ibarətdir. Dərindən dərk etmənin də əsası daha çox tərkibləri tapmaqdan və onlar arasında olan əlaqələri aşkar etməkdən ibarətdir. Aşkarlama (müəyyənetmə) prosesi məhz sistemli xarakter alır. Bu xarakteri anlayışa (aşkarlıq anlayışına) məntiqi əməliyyatlar verir. Məntiqi əməliyyatlar fəlsəfə və elm arasında körpü yaradır və vəhdət şəkilində elmi fəlsəfəyə, fəlsəfəni isə elmə transformasiya edir. Məntiq burada bağlayıcı və məzmun, tərkib və forma dəyişdirici kriteriya rolunda çıxış edir.

İnsan kainatın (təbiətin) ünsürüdür, bildiyimiz qədər onun hələlik son mükəmməl şüurlu canlı varlığıdır. Canlıdır, ona görə ki, bu varlığın (canlı kimi) əlamətlərini hiss etdirən siqnalları vardır və bir forma kimi mövcud olan strukturu (quruluşu) hərəkət vəziyyətindədir. ***(Qeyd: ümumiyyətlə, kainatda tam hərəkətsizlik ola bilməz. Bütün elementlər, maddələr, materiyalar məhz ümumhərəkətin tabeçiliyindədir, ümumhərəkəti yaradandır. Sadəcə olaraq elementlərin hərəkətlərinin müəyyən qüvvələrin təsiri sayəsində dərəcələri vardır. Bu baxımdan da bərk materiyalar da canlıdırlar, hərəkətdədirlər, lakin az dərəcəli canlıdırlar. Bərk materiyaya***

*su və ya da qaz halında maddə dəydikdə öz canlılığını artırır. Eləcə də bərk materiyalar sürətlə toqquşduqda hər ikisində enerji sürətli hərəkətləri yaradır. İki bərk materiyanın sürətli toqquşması həmin materiyaları dağıdaraq alov və qaz çevirə bilər. Bu baxımdan da canlını artıran enerjinin artmasıdır. Enerji artması da elementlərin hərəkətidir, axının güclənməsidir. Hərəkət isə yüngülləşmədən, yəni elementlərin yüngülləşməsindən meydana gəlir. Yüngülləşmə isə elementin parçalanaraq öz tərkibində olan hissəcikləri itirmədən ortaya çıxır. Yüngülləşən elementlər təzyiq altında-təzyiqi də digər materiyalar, elementlər yaradır-az təzyiqli məkana doğru hərəkət edirlər. Nəticədə hərəkət sayəsində enerji yaranır, artır. Sükunət halı nisbidir, ona görə də enerjisizlik də nisbidir. Yüngül materiya bərk materiyaya toxunduqda bərk materiyanın tərkib strukturuna daxil olur, onu öz məkanından dağıtmağa, aralamağa, başqa məkana doğru itələməyə çalışır. Nəticədə bərk materiyanın ağır elementləri yüngülləşməyə, məkan olaraq yerini dəyişməyə başlayır. Bu dəyişməıdən də canlanma artır. Canlanma elementlərin öz məkanlarından başqa məkanlara üfiqi və şaquli əsaslarla keçməsindən, yeni məkanlar əldə etməsindən meydana gəlir. Hər şey hərəkət vəziyyətində olduğundan təkamül prosesləri baş verə bilir. Təkamüll prosesləri element strukturunun və məkanının dəyişməsindən meydana gəlir. Təkamül daxili və xarici təsirlərdən, enerji tətbiqindən formalaşan prosesə çevrilir. Təkamül prosesləri sayəsində mövcud olan elementlər strukturları xarici təsirlər sayəsində öz formasını itirir və yeni forma alır. Təkamülün meydana gəlməsində kainat dəyişikliyi və təbiət dəyişikliyi rol oynaya bilir. Canlı aləm mikro məkanda makro məkanın təsirləri sayəsində dəyişikliyə məruz qala bilir. Təbiətin təkamül prosesləri kainatın əmələ gəlməsi, yəni başlanğıcının olması və dəyişməsi proseslərinin əsaslarını sübuta yetirmiş olur. Lakin elə də hesab etmək olar ki, kainatın başlanğıcı və sonu*

*məlum deyil, təbiətin təkamül prosesləri sadəcə olaraq təbiət hadisələrinin –külək, yağış, qar və bunların əmələ gətirdikləri sel, quraqlıq nəticələri və s. kimi hadisələrin ardıcıl qaydada bir-birini əvəzləməsindən ortaya çıxır. Məsələn, Yer kürəsinin tarixi onun üzərində təbiət hadisələrinin dəyişməsi ilə meydana gələn səth dəyişmələri ilə izah edilə bilir. Təkamül proseslərindən çıxış edərək hesab etmək olar ki, insanların da təkamülü prosesləri baş verir. Bu məntiqlə insanları gələcək dəyişikliklər gözləyir. Lakin kainatda mütləq başlanğıc və mütləq sonun bəlli olmaması prinsipi isə onu deməyə əsas verir ki, əslində makro aləmdə-kainatın tərkibində- elə bir dəyişiklik baş verməyəcəkdir. Ancaq Yer üzərində təbiət hadisələri və insanların şüurları və əqli nəticələrin, empirik nəticələrin təbiətə təsdirləri müəyyən dəyişiklikləri ortaya qoya biləcəkdir. Bu dəyişikliklər anatomik və fizioloji-psixoloji amillərə söykənə biləcəkdir və bu amilləri meydana gətirə biləcəkdir. Bu prizmadan çıxış edərək hesab etmək olar ki, kainat elementlərində də müəyyən qədər dəyişikliklər baş verə bilər. Lakin kainatda vahid enerji və vahid qüvvə, qüvvənin makro məkanda ümumən itməməsi onu deməyə əsas verir ki, kainat elementlərində, kainatın tərkibi olan Günəş sistemində dərk etdiyimiz qədər köklü dəyişikliklərin olması gözlənilə bilməz. Bu baxımdan da qənaətə gələ bilərik ki, mövcud sistem daha çox əbədidir. Bu yanaşma isə onu deməyə əsas verir ki, insan cismən təbiətin ruhən isə kainatın-fövqəltəbiətin- məhsulu olaraq qalacaqdır. Yer üzərində dəyişiklik Yer kürəsinin forma və məzmununa təsir edəcək qədər böyük həcmdə yox, sadəcə olaraq planet üzrə daxilən kiçik həcmdə olaraq müşahidə olunacaqdır. Onu da əlavə etmək lazımdır ki, çox ehtimal ki, Yer kürəsində biz canlıların mövcudluğuna təhlükə olaraq azmış planetlər, asteroidlər və kometalar təhlükə ola bilər. Onların Yer kürəsi ilə ehtimal oluna bilən toqquşmaları sayəsində nizamın qarışması canlı aləmin də məhvinə gətirib çıxara bilər.*

***Ümumən dəyişikliklər isə Yer kürəsinin daxilində mikro səviyyədə ola biləcəkdir. Əgər makro dəyişiklik gözlənilirsə, insanlar da, digər canlılar da bu dəyişikliyin qurbanı ola bilərlər. Həm də hərəkət varsa, mövcud nizamı dəyişə biləcək hər hansı bir makro dəyişikliyin olması da gözlənilə bilər. Kainatın və Günəş sisteminin tarazlı sistemində -bu tarazlığı elementlər və onların yaratdığı məkanlar və məkanların içərisində olan məsafələr, elementlərin və məkanların özləri olan kütlələr nisbəti meydana gətirir- hər hansı bir ciddi dəyişiklik yarana bilərsə təbii ki, canlı aləm də bu dəyişikliyin obyekti olmalıdır).*** İnsanlar hərəkətdədirlərsə, deməli, belə hesab etmək olar ki, yerdəyişən elementlərin cəmindən formalaşıblar. Hərəkətdədirlərsə, deməli, enerjiyə malikdirlər. Enerji qəbul edən və enerji ötürənlərdir, çünki siqnallar mübadiləsindədirlər. ***(Qeyd: insanlar hərəkət məkanlarında həm canlılarla, həm təbiətin bərk materiyası ilə, həm də maye və qaz materiyası ilə təmasdadırlar. Bu baxımdan da insanlar torpağı, daşı, zəlzələni, küləyi, öz aralarında olan münasibətlər tərzini duya bilərlər. Zəlzələni, vulkanları qabaqcadan duymaq imkanları, eləcə də təhlükələri qabaqacadan gələn siqnallar əsasında duymaq imkanlar insanlarda mövcuddur. Bu hissiyyat sadəcə olaraq dərəcələnə bilir. Zəlzələni qabaqcadan duymaq üçün mexaniki aparat (çox həssaslığı olan aparat-çoxlu sayda siqnallar qəbul etmək, qəbul edilən siqnalları fərqləndirmək və dərəcələndirmək imkanları olan ciahazlar, qurğular, avadanlıqlar) əldə etmək üçün insanların əqli, duyğusu və intuisiyası öyrənilməlidir. Eyni zamanda Yer üzünün tərkib dəyişikliyi nəzarətdə saxlanılmalıdır. Məsələn, zəlzələ enerji yığını olduğundan istər-istəməz yığılan məkanın mövcud taraz sisteminin pozulmasını qabaqcadan xəbər verməlidir, əlamətlərini özündə göstərməlidir. Yer üzərində-Yer təkində-daxildəki istiliyin artması hesabına torpağın yumşalması, suda suyun istiləşməsi, bundan da qabarmaların əmələ***

***gəlməsi, atmosferdə havanın qızması və təzyiq fərqləri, qeyri-adi küləklərin meydana gəlməsi zəlzələlər haqqında müəyyən qədər əvvəlcədən xəbər verə bilər. Zəlzələlər özləri ilə istilik dalğalarını Yerin səthinə gətirə bilərlərlər. Zəlzələlərin baş verməsini müşahidə edən cihazları aeorocihazlar kimi daha çox xassələndirmək olar. Yerüstü cihazlar aeorocihazlardan daha az səmərəli ola bilər ).*** Nəticə etibarilə hesab edə bilirik ki, insanlar hərəkət edən enerji ünsürləridir və potensiala sahibdirlər. İnsanlar müəyyən maraq sferalarında, obyektlərində (ayrı-ayrı sahələrdə) toplaşaraq vahid enerji mənbələrinin ünsürləri rolunda çıxış edirlər. İnsanlar eləcə də fərdi qaydada enerji daşıyan ünsürlər kimi əhəmiyyətə malikdirlər.

İnsan hüquqlarının dəyərləri amili insanların enerji ünsürləri olmasından meydana gəlir. İnsanlar enerji mübadiləsini təmin etmək üçün qıda qəbul edirlər və öz yaşayışlarını təmin edirlər. Bu ehtiyaclardan da tələbatlar meydana gəlmiş olur. Bununla bərabər, insanlar mənəvi aləm mübadiləsində də iştirak edirlər. İnsan hüquqlarına dair belə bir formal məntiqdən çıxış etmək olar. **Hərəkət marağı, maraq hüququ yaradırsa, hərəkət enerji verirsə, deməli, hüquq enerjidir, enerji yaradandır, enerji artmasına şərt verəndir**. Hüququn reallaşması, yəni gerçəkliklərdə təzahür etməsi hərəkətlərlə bağlıdır. Hərəkətlər vasitələr kimi insanları öz hüquqlarını reallaşdırmağa səbəb olur. Deməli, hərəkət-həm də məqsədyönlü və hamı tərəfindən pozitiv ***(müxtəlif məkanlarda olan hərəkətlər isə başqa məkanlar üçün neqativ)*** qıbul edilən hüququn müəyyən olunmasının əsasıdır. **(Qeyd: hüquq universallıqda hamı üçün pozitivdir, lakin məxsusilikdə, bu baxımdan ayrı-ayrı məkan məsələsində pozitiv-neqativ xassələrə malikdir. Deməli, hüququn məxsusiliyi mütləqdir, lakin başqa şəxsə münasibətdə mütləq deyil. Deməli, əsas hüquq elə subyektiv hüququn özüdür və bu, universal hüquqdan öz dəyərinə görə yüksəkdə qərarlaşıb).** Hüquqlar

genişləndikcə insanların fəaliyyət sferaları da genişlənir. Fəaliyyətin genişlənməsi elə hüquqların çoxalmasıdır. Hüquqların genişlənməsi inkişafa və fəaliyyətə müvafiq olaraq, iki mühüm aspektdə mümkündür: **birincisi,** hüquqların fikirlərdə (düşüncələrdə) genişlənməsi, yəni hüquq nəzəriyyələrinin, hüquq baxışlarının genişlənməsi, **ikincisi,** fəaliyyətdən irəli gələrək təcrübə və real tələblər əsasında nəzəri baxışların, dərketmələrin genişlənməsi. İkinci istiqamət maddi-material hərəkətlərə (fəaliyyətə) və aşkarlama sayəsində əldə edilənlərə bağlı olur. Birinci daima və ümumi olaraq ikinci istiqamətdən qabaqda olur və inkişaf proseslərinə daha çox şərtverici və təsiredici amil kimi əhəmiyyət kəsb edir. Birinci istqamət arzu olunan və istəniləndir, eləcə də gələcək hüquqların formalaşmasının əsasında dayanır. İkinci istiqamət hüquqların reallaşmasının əsas faktorlarıdır. Məsələn, azad fəaliyyət, peşə ilə məşğul olmaq hüququ həmin peşənin nəticələrindən (nəticə məhsullarından) istifadə etmək hüquqlarını meydana gətirir. Məsələn, avtomobili istehsal etmək və bazarlarda istehlak məhsuluna çevirmək avtomobildən istifadə hüquqlarını meydana gətirir. Lakin hər bir məhsulun istehsalı heç də həmin məhsulun kütləvi olaraq istifadə hüququnu yarada bilməz. Məsələn, silah istehsalında iştirak edən şəxslərin hər biri, eləcə də cəmiyyətdə kütləvi olaraq hər kəs (silah istehsalı proseslərində iştirak edib-etməməsindən asılı olmayaraq) silahdan istifadə hüququna sahib ola bilməz. Burada istifadə hüququ müəyyən tərəflərə, məsələn, dövlətin silahlı qüvvələrinə və ayrı-ayrı immunitetli və imtiyazlı şəxslərə xasdır. **Deməli, belə nəticə əldə olunur ki, hər bir istehsal hüququ nəticədə istifadə hüququnu genişləndirə bilmir, əksinə məhdudlaşdırır.** Buradan da hüquqların bölgüsünə müvafiq olaraq universallıqdan universallıq, məxsusilikdən universallıq, universallıqdan isə məxsusilik meydana gəlir. Dəyişmə prosesi elə müxtəlif məkanlarda hüququn genişlənməsinə və daralmasına xidmət

edir. Hüquqların məhdudlaşdırılması məsələləri də mövcud olur. Universallıqdan məxsusiliyə doğru hüquqlar məhdudlaşır. Məsələn, hər hansı bir kimyəvi məhsulun istehsalında müəyyən şəxslər iştirak edə bilərlər. Burada məxsusiliyi özündə əks etdirən universallıq var. Lakin bu kimyəvi məhsuldan hər kəs istifadə edə bilməz. İstifadə xüsusi təyinatlı olmalıdır. Buradan da belə nəticələrə gəlmək olur ki, universal hüquqlar özündə baza olaraq məxsusi hüquqları görə bilir. Məxsusi hüquqlara universal hüquqlar, universal hüquqlara isə məxsusi hüquqlar xidmət edə bilir. Universal hüquqlar tam bərabərliyi əks etdirə bilmir. Yəni hər kəs əslində müxtəlif imkanlara sahib olmaqdan irəli gələrək mütləq hüquqlara sahib ola bilməz. Məsələn, fermerin hüququ ilə qeyri-fermerin hüququ eyni ola bilməz. Hüququn bərbarəliyi məsələsi sadəcə olaraq mənəviyyatın bərabərliyindən meydana gəlir.

Fərdi olaraq real təcrübələr sayəsində də yeni nəzəri fikirlər ortaya çıxa bilir. İkinci istiqamətdə maddi elementlər və onların inikası hüquqların genişlənməsində faktorlar rolunda çıxış edir. Nəticə etibarilə hesab etmək olar ki, hüquqların genişlənməsi iki mühüm istiqamətdə həyata keçirilir: **birincisində** xəyal, **ikincisində** isə inikas formaları həlledici rola malik olur. Birinci istiqamətdə elə düşüncələr növbəti gələn düşüncələr üçün obyekt və inikas rolunu oynayır. Hər iki istiqamət təbii hüquqlar (insan haqları) məsələsini zəruri olaraq formalaşdırır. Nəzəri istiqamətlərin fövqəltəbiətin siqnalları ilə insanlara verilən dəyərlər kimi qəbul edilməsi önəmlidir. Bu, daha çox idealizmə uyğundur və fikirləri material aləmdən qabağa ötürür, burada hüquqların təmin olunmasında və meydana gəlməsində gələcək hüquqlar anlayışının formalaşmasını meydana gətirir. Lakin burada da tam şəkildə material aləmin rolunu inkar etmək olmaz. Material aləmin inikası sayəsində insanlar daha çox real siqnallar (əlamətləri görünən və hiss olunan) əldə edirlər və onların şüurları təkmilləşir. Nəticə etibarilə hesab etmək olar ki,

fövqəlqüvvənin insanlara verdiyi hüquqlar da öz “yolunu” həm də material aləmdən sala bilir. Bu baxımdan hüquqların inkişaf proseslərinin vəhdəti meydana gəlir. **Belə bir formal məntiqdən çıxş etmək olar: təbiət fövqəltəbiətin (makrotəbiətin) məhsuludur. İnsanlar təbiət və fövqəltəbiətin ünsürləridirlər. Hüquq insana xasdır. Deməli, hüquqlar təbiətdən və fövqəltəbiətdən insanlara verilən dəyərdir, maddi-mənəvi nemətdir. Hüquq şüurun məhsuludur. Hüquq dərketmə obyektidir. Şüur insanlara təbiətdən və fövqəltəbiətdən veriləndir. Deməli, hüquq fövqəltəbiətdən və təbiətdən insanlara verilən dəyərdir, şüurun dərk etmə obyektidir.**

Hüquqların fəaliyyətlə vəhdət şəkilində genişlənməsi inkişafın əsasında dayanır. İnkişafın əsas təkanverici vasitəsi insanlar və onların şüurları ilə tamamlanan əqli qabiliyyətləridir, bilik və bacarıqlarıdır. Əqli qabiliyyətlər və şüur insanlara təbiətdən və fövqəltəbiətdən verildiyindən, belə nəticələrə gəlmək olar ki, təbiət və fövqəltəbiət elə inkişafa istiqamət verən, onun əsasında dayanan əsas tərəflərdir. İnsanlar öz hüquqları ilə həm təbiətə, həm də fövqəltəbiətə bağlıdırlar. **Hüquq+fəaliyyət=inkişaf** modeli insanları öz qabiliyyət və itedadlarına, bilik və bacarıqlarına immanent edir. İnsanlar öz hüquqlarını dərk etmək üçün **iki amili** əsas götürürlər: **birincisi,** insanlar təbiət üzərində öz təbii haqlarının olmasını şüuru olaraq qəbul edirlər; **ikincisi,** bu haqları mənəvi-ruhi aləmin neməti olaraqa fövqəltəbiətə bağlayırlar. Hər iki istiqamətin vəhdətindən **maddi-mənəvi hüququn bütövlüyü** meydana gəlir. ***(Ümumi qrafikdən də bu yanaşmanı bir qədər konkretliliyi ilə dərk etmək olar).*** Hüquq təbiətdən və fövqəltəbiətdən insanlara siqnallar vasitəsilə verilən nemətdir. İnsanlar öz fəaliyyətləri ilə öz hüquqlarını genişləndirə bilirlər. Burada subyektiv hüququn məcmusu obyektiv hüququn əsaslarını meydana gətirir. *(**Qeyd:** belə qəbul etmək olar ki, kainat tam sonsuzdur. İnsan mikrokainatdır,*

*mikrotəbiətdir. Kainat sonsuz elementlərdən və bu baxımdan da siqnallardan təşkil olunub. İnsanlar fərdi olaraq makro mühitin siqnallarını tam şəkildə qəbul edə bilməzlər. Yəni, bir şəxs bütün siqnalları qəbul və dərk etmək imkanlarına malik ola bilməz. Kainat siqnalları insanlar arasında paylanır. Məcazi mənada belə təsəvvür edək ki, insanlar dünya okeanının içərisindədirlər. Məkanın böyüklüyünə görə dünya okeanının dalğalarını bütün insanlar eyni səviyyədə, eyni dərəcədə görə bilməzlər. Çünki müxtəlif məkanda yerləşmə amili var. Eləcə də insanlar kainat siqnallarını eyni dərəcədə qəbul edə bilməzlər. Hər bir şəxs məkana müvafiq olaraq öz pay siqnallarını qəbul edir. Burada element, məkan, siqnal amillərinin vəhdəti məsələsi meydana gəlir. Bundan da dialektik* ***inkarlar*** *formalaşır.* ***İnkarlar subyektivlikdən formalaşır, subyektivliyi yaradır.*** *Subyektivlik isə kainat siqnallarının sonsuzluğu amilinə bağlı olur. Yəni, hər bir şəxs universal baxışlarla yanaşı, fərdi baxışlara da sahibdir. Bundan da müxtəlif baxış bucaqları meydana gəlir. Nəticə etibarilə hesab etmək olar ki,* ***tam obyektiv məkan siqnallardan ibarət olan kainatın özüdür.*** *İnsanlar isə fərdi olaraq subyektiv çıxış edirlər. Lakin bu subyektivlik kainat obyektivliyinə zidd ola bilməz).* Cəmiyyətdə mövcud olan obyektiv hüquq subyektiv hüquqların sərhədləri ilə müəyyən olunan məkanlardan ibarətdir.

Nəzərə almaq lazımdır ki, hüqüq bir mücərrəd mexanizmdir. Dərinləşdikcə, qeyri-müəyyən hissələrinin çoxluğu daha da dərindən dərk olunur. ***(Qeyd:*** *dərindən dərk etmək mövcud müəyyənlik müstəvisi ilə qeyri-müəyyənlik müstəvisi arasında daha çox element əlaqəsini, məkan əlaqəsini və məkan vəhdətini aşkar etməkdən ibarətdir. Bu da elə nəticədə elmi-fəlsəfi mahiyyəti meydana gətirir).* Obyektiv hüquq da bir mexanizmdir, sistemli hərəkətlər zamanı aşkarlanır. Obyektiv hüquq subyektiv hüquqlar sisteminin cəmindən meydana gəlir. Əgər obyektiv hüquq nəzəri

baxışlarda, təsəvvürlərdə mücərrəd, nəzəri baxışlarda real təcrübələrdə, yəni material aləmlə inikasda sistemdirsə, subyektiv hüquq onun tərkibidirsə, onda belə qənaətə gəlmək olar ki, insanlar bir-birilərinin hüquqlarından faydalanırlar. Bu faydalanma prosesləri universallıq-məxsusilik vəhdətindən meydana gəlir. ***(Qeyd: ümumiyyətlə, sistemsizlik ola bilməz. Tam sistemsizlik anlayışı kainatın ümumtəbii sisteminə zidd olan bir baxışdır. Sistemsizlik anlayışı müxtəlif koordinatlara, mövqelərə nəzərən meydana gələn bir vəziyyətdir. Sistemsizlik eyni məkanda dəyişən istiqamətlər fonunda yeni sistemlərin təzahürüdür. Xaos nizamın başqa bir formasıdır. Hüququn da sistemsizliyi yoxdur; çünki insan özü nizamlı bir quruluşa malikdir. Hüquq insana xasdırsa, deməli, sistemli bir mahiyyətə malikdir. Cinayət törədən şəxs də mövcud pozitivliyə zidd olan hərəkət edir. Lakin bu hərəkət də nizamdan ibarətdir. Hüquq normaları insanları baza etibarilə mövcud tarazlı sistemdən çox kənara çıxmağa qoymur. Hüquq normalarının tələbi müxtəlif anlarda sistemliliyi yaratmaqdan ibarətdir).*** Obyektiv hüquq özü elə subyektiv hüququn genişlənməsi və inikas üçün əsas rol oynayır. Məsələn, konstitusiyada normalar şəkilində əksini tapmış hüquqlar obyektiv hüquqlar mənbəyidir. Bu mənbə özündən digər hüquqların şaxələnməsini təmin edən hüquq normalarını meydana gətirmək üçün şərt rolunu oynayır. Obyektiv hüquq subyektiv hüquq üçün mənbə rolunda çıxış edir. Obyektiv hüquqlar subyektiv hüquqlar sayəsində genişlənir. Obyektiv hüquq subyektiv hüquqa təsirlər edir, subyektiv hüquq obyektiv hüquqların məcmusunun meydana gətirdiyi enerji mənbəyindən qidalanır. Bu anda inikas artır. Siqnallar çoxalır. Subyektiv hüquq həm subyektlərin fəaliyyəti cəmindən böyüyür, həm də subyektiv hüquqların vəhdət yaratdığı obyektiv hüquqların cəmindən qidalanır. Lakin belə qəbul etmək olar ki, obyektiv hüququn mənşəyi subyektiv hüquqlardan, yəni öz tərkibindən başlayır. Deməli, hüquqların

genişlənməsi (cəmiyyətdə və təbiətdə) əsasən insanların fəaliyyətindən asılıdır. Onu da demək yerinə düşər ki, insanların təbii hüquqları qeyri-reallaşmış, yəni qeyri-müəyyən qaydada sonsuzdur. Lakin fəaliyyətin genişlənməsi və ayrı-ayrı məkanlarda böyüməsi hüquqları qeyri-müəyyənlikdən müəyyənliyə doğru aşkarlayır. Bu aşkarlama da fəaliyyət sayəsində meydana gəlir. Məsələn, müəyyən bir yaşayış məskənində həmin yaşayış məskəni üçün ilk dəfə olan bir müəssisənin açılması həmin müəssidə yaşayış məskəninin sakinlərinin işləmək hüququnu yaradır.

Münasibət, əlaqə və digər fəaliyyət kriteriya rolunda çıxış edir. Bu kriteriyanın özü elə inikas meydana gətirən faktordur. Hüquqların qeyri-müəyyənlikdən müəyyənliyə çevrilməsi, yəni yeni hüquqların aşkarlanması, inikası bir çox hallarda əvvəlki hüquqları inkar edir. Yeni şəraitlər və tələblər yeni hüquqların ortaya çıxmasına zəmin yaradır. Məsələn, inkişafın yaratdığı yeni şəraitlər və bu şəraitləri tənzimləmək üçün yeni hüquq normalarını özündə əks etdirən qanunvericilik sənədlərinin qəbul edilməsini zəruri edir. Bu anda əvvəlki normalar dəyişikliyə məruz qalır və ya da tamamilə qüvvəsini itirir. Məsələn, SSRİ-nin dağılması ilə insanlar ümumi mülkiyyət olan və dövlətə məxsus olan kolxozlarda və sovxozlarda işləmək hüquqlarını itirdilər. Çünki bu tip qurumlar, istehsal və əmək münasibətləri formaları ləğv olundu. Deməli, belə nəticələrə gəlmək olur ki, hüquqlar ictimai-siyasi münasibət qurumları olan obyektlər və subyektlərin yeni hüquqi əsaslarla dəyişmələri sayəsində həm dəyişikliyə məruz qalır, həm də yeni normalarla əvəz olunur. Buradan da belə bir nəticə ortaya çıxır ki, insanlar öz hüquqlarını öz fəaliyyətləri sayəsində meydana gətirdikləri dəyişikliklər fonunda həm qazanırlar, həm də itirirlər. Burada dərk olunma prosesində dayaq elementləri kimi elementlər əlaqələrində olan sistematik dəyişikliklər fonunda meydana gəlir.

İnsan **“təbiətdə hər şey var”** məkanının içərisindədir. Kainatda (təbiətdə) o şeylər yoxdur ki, insanlar onu ixtira etmək istəyirlər, yəni təbiətin elementlərindən öz istəklərinə uyğun olanı düzəltmək istəyirlər. Bu istedad, qabiliyyət insanlarda varsa, deməli, insanların düzəltdikləri və düzəldəcəkləri şeylər də təbiətin məhsulu olaraq qalacaqdır. İnsanlar öz düzəltdiklərini də yalnız təbiətdə istifadə edə bilirlər. Deməli, insanlar ancaq təbiətin ünsürləri olaraq qalırlar. Lakin insanlarda təbiətə təsir etmək qabiliyyəti həm də onu deməyə əsas verir ki, insanlar təbiətin fövqünə qalxmaq imkanlarına malikdirlər. Deməli, insan məxluqu həm də fövqəltəbiətin-makro enerji məkanının, məhsuludur. **Təbiətdə ilkin elementlər (mənbə, baza elementlər) mütləq mövcuddur, həmin elementlərin insanlar tərəfindən istifadəsi və müəyyən formaların yaradılması isə əməldə və arzularda, istəklərdədir.** Deməli, təbiətdə hər şey var, bu şeylər baza –təbii formadadırlar, onların insanlar tərəfindən formalara salınması prosesləri isə sonsuzdur. Burada insanların təbiətin özünün üzərində “davamçıları” olması qənaətinə gəlmək olur. Təbiətdə insanların arzu etdikləri bütün formalar yoxdur. Buradan da belə bir məntiqi nəticələrə gəlmək olur ki, insanlar kainatın (təbiətin) elementlərindən istifadə edərək təbiətin üzərində müəyyən formalar və məzmunlar yaratmaq qabiliyyətinə malikdirlər. ***(Qeyd: insanlar təbiətin hər şeyindən istifadə edərək özlərinin yeni şeylərini yaradırlar. Bu da yenə baza olaraq təbiət elementlərinə əsaslanır. İnsanlar əsasən mikro məzmunda forma və məzmun dəyişikliyi həyata keçirə bilirlər).*** **Bu istək və istedad insanları bir tərəfdən təbiətin üzərinə qaldırır, onun xaricinə çıxarır, digər tərəfdən də onların təbiətdən asılı olması qənaətini ortaya qoyur.** Yəni, insanlar öz əldə etdikləri formaların bazasını, tərkibini təbiətdən götürürlər və istifadəsini də təbiətdə edirlər. Formalar düzəltmək məsələsində **şüur material** aləmi qabaqlayır (fantaziyaların

hesabına), onun təkmil formasını ifadə edir. Təkmil forma özündə təbiətin sistemli modelini yaradır. Yəni insan şüuru təbiətdəki sistemli prosesləri dərk edən bir model rolunda çıxış edir. Lakin bu dərk etmə də öz-özlüyündə təbiətdəki mövcud formalardan inikas olunur. Buradan belə bir məntiqi nəticəyə gəlmək olur ki, insanlar elə təbiətin, material aləmin davamı olan *(təbiətin içində olmaqla)* varlıqlardır. Təbiətdə müəyyən formanın tərkib elementləri var, burada **"mütləq yoxluq"** yoxdur, ancaq formaların hamısı, yəni insanların düzəltmək istədikləri formaların hamısı, yoxdur. Deməli, bu prinsipdən irəli gələrək, belə hesab etmək olar ki, **şüurla materiya** şərti olaraq ayrılır. Materiya aləmi şüura tabe ola bilir. ***(Qeyd: lakin təbiət qanunlarında (təbiət hadisələrində) şüur tam şəkildə təbiətə tabe olur. Bu ikili vəhdət onu deməyə əsas verir ki, insan bir canlı quruluş kimi həm də təbiətin tərkibidir).*** Şüur materiyanın davamı olaraq materiya üzərində güclü tərəfə çevrilir və ondan nisbi olaraq ayrılır. Şüur materiyaya təsir edə bilir. Belə qəbul etmək olar ki, öz təsiretmə qabiliyyətini də təbiətdə mövcud olan hərəkətlər qanunlarından meydana gətirir. Şüur təbiətdə olanların formasını dəyişə bilir. Şüur bu məsələdə təbiətdən "ayrılır" və bu məsələdə şüurun insanlara gələn siqnalların mənbə kimi həm də qeyri-təbiət xarakterli olması qənaətinə gəlinir. Bu baxımdan şüurla bağlı fikirlərdə aşağıdakı dualizm meydana gəlir:

**-birincisi,** şüur materiyanın tam davamıdır, ona immanentdir, onun daxilindədir, həm də onun özüdür. Şüurun inkişafı təbiətin hərəkət və qarşılıqlı təsir qanunlarına tabedir. Şüur nə qədər inkişaf etsə də təbiət qanunlarından kənara çıxa bilmir. Onun funksiyası təbiətin mürəkkəb proseslərinin qavranılması proseslərindən ibarətdir. **(Qeyd: əqlin-şüurun-əsas cəhəti, əsas xüsusiyyətləri hər bir addımda nəticələri duyaraq və dərk edərək, hesablama aparmaqdan ibarətdir).** Şüur öz məhsullarını təbiətə əsasən əldə edir. Təbiətin hərəkət edən siqnalları elə şüurun formalaşmasının

əsaslarını təşkil edir. Şüur həm də orqanizmin daxili inkişafına bağlı olur. Şüur burada material inikasdan formalaşır. Materiya öləndə şüur da ölür. İnsan hüquqları insanın material aləmlə təmaslarını meydana gətirdiyindən, şüurun bu məsələdə, yəni əlaqəlilikdə əsas funksiyası mövcudluqlar üzərində nəticələrin dərk olunmasından ibarətdir. Materiyanın mövcudluğu ondan istifadə haqqını meydana gətirir, şüur bu haqqın nizamla istifadəsinin əsaslarını üzərə çıxarır;

**-ikincisi,** şüur materiyanın davamı olaraq, təbiətlə qeyri-təbiəti (burada fövqəltəbiəti) birləşdirir, təbiətə təsir edir və onun fövqünə qalxır. Təbiətin fövqəltəbiətlə əlaqəsində şüur paralel olaraq mövcud olur. İnsan həm Yer kürəsinin, həm Günəş sisteminin, həm də ümumən kainatın məhsulu kimi öz şüuru ilə özünü təsdiq etmiş olur. Bu məsələdə belə hesab etmək olar ki, şüurda olanlar həm də təbiətin materiyasında olmayanlardır. Məsələn, **xəyalları** buna nümunə göstərmək olar. Burada artıq şüur bir tərəfdən fövqəltəbiətdən gəlmə hesab olunmalıdır. Hesab etmək olar ki, materiya öləndə şüur fövqəltəbiətə qayıdır. **Xəyal** amilinin mövcudluğu insanın qeyri-təbiətin məhsulu olması qənaətinə gəlməyə imkan verir. İdeal-xəyalpərəst insanlar bəzən mövcud təbiəti və cəmiyyətin reallıqlarını qəbul edə bilmirlər və özlərini fövqəltəbiətin yaranışı kimi qələmə verməyə çalışırlar. Hüquqların dərk olunması burada insanları təbiətin fövqünə qaldırır və insanlar təbiət üzərində hətta radikal dəyişikliklər etmək iddiasına da düşürlər.

Sadalanan fikirlərlə biz materiya və ruh aləminin bir tərəfdən bütövlüyünü, digər tərəfdən isə ayrı-ayrı olması fikirini irəli sürmüş oluruq. **Can -təbiətin, şüur-fövqəltəbiətindir. Təbiətin də yaradıcısı fövqəltəbiətdir.** Şüur birinci məsələdə təbiəti dərk etmək üçün olan varlıqdır; ikinci məsələdə isə təbiətə “kənardan” təsirləri həyata keçirmək üçündür. Burada ən qaranlıq məqam təbiətə təsir edən şüurun birmənalı olaraq fövqəltəbii olmasıdır. Bu, ola bilər ki, ya

kainatın makro məzmununun özüdür, ya da kainatın "kənarında" olan alternativ bir qüvvədir. Bu məsələni, bu predmeti dərk etmək çox çətindir. Lakin ümumi olaraq hesab etsək ki, əgər təbiət fövqəltəbiətin məhsuludursa, onda hər iki yanaşmanın mütləq olması qənaətinə gəlmək olar. ***(Daha aydın başa düşmək üçün ümumi qrafikə baxmaq olar).*** İnsanların siqnalları həm üzərində yaşadıqları təbiətdən, həm də tərkib olduqları fövqəltəbiətdən qəbul olunur. İnsan hüquqlarının təbiət və fövqəltəbiətin insanlara verdikləri nemətin ümumiləşdirilmiş ifadəsi olması məsələsində də bu iki prinsipi qeyd etmək olar.

İnsanlarda inanclar şüura bağlıdır. Əqlin məhsuludur. Şüur təbiətin və fövqəltəbiətin məhsuludursa, onda belə nəticələrə gəlmək olar ki, inanc təbiətin və fövqəltəbiətin məhsuludur. İnsanlar onlara xas olmayan şeylərə, hadisə və proseslərə ümumiyyətlə inana bilməzlər. Bu baxımdan qeyri-təbiət inancları da insanlara immanentdir. Deməli, insanların inandıqları təbiətdə və fövqəltəbiətdə var və bu, siqnallar vasitəsilə şüurlara ötürülür. İnancları şüura siqnallar ötürür, şüur bu siqnalları emal edir və hərəkətlərə-fəaliyyətə qaytarır. İnanclar fövqəltəbiətə siqnallarla geri qayıdır. Məsələn, əməllərdə bu mümkündür. Düzgün əməl kəskin olaraq təbiətə və fövqəltəbiətə qarşı deyildir. Bu baxımdan da düzgün əməldə olan insanlar daha çox siqnallar qəbul edirlər. Fövqəltəbiətlə təmasları daha geniş olur. Burada idealizm öz mahiyyəti baxımından materializmin fövqünə qalxır. Həm də ona görə ki, idealizm qeyri-müəyyənlikləri daha çox aşkarlamağa çalışır və fikirləri, düşüncələri önə çəkir. Düşüncənin inkişafı və genişlənməsi həm də material aləmə tabe olur. İnikas və onu yaradan siqnallar məhz real düşüncələri və reallıqdan çıxış edən ideal və gələcək real düşüncələri meydana gətirir. Gələcək hüquqlar inkişaf baxımından zaman, məkan və şərait kateqoriyasına bağlı olur.

İnsanların təbiətə olan təsirləri onların **hüquqlarını** meydana gətirir. Hüquq həm təbiətdən gələndir, həm də qeyri-təbiətdən (fövqəltəbiətdən) insanlara veriləndir. **Deməli, hüquqlar maddi və maddiyatın yuxarısı olan mənəvi olmaqla iki sahəyə ayrıla bilir**. Hüququn ümumən inkişafı əks olunan siqnalların çoxalmasından meydana gəlir. Siqnallar şüuru artırır, təsirlər yeni təsirləri meydana gətirir. Yeni təsirlər yeni hərəkətlərin əsasını təşkil edir. Bu anda hüququn inkişafı **zamana və şəraitə -resurslara** bağlı olur. Hərəkət genişləndikcə zaman da artır. **Deməli, müddət artdıqca hüquq da artır. Bu artma müəyyən sonluqlarda dayanır. Yəni, insanlar müəyyən yaşlardan sonra hüquqlarını itirə bilirlər. İnsanların ölümü fərdi qaydada hüquqların bitməsi ilə nəticələnir.** Zaman genişləndikcə, trayektoriya üzrə artdıqca hüququn sonuna yaxınaşmaq olur. Deməli, zaman həm də hüquqları məhdudlaşdırır, sona çatdırır. Hüququn böyüməsi siqnallardan asılıdır və dərk etmənin geniş spektrinə əsaslanır.

İnsan özünəməxsus olanları *(özündə olan siqnalları və kənardan siqnallarla qəbul edilənləri)* və özünün iradəsinə aid olanları *(iradəni siqnalların vəhdəti və bu vəhdətdən irəli gələn kompleks nəticəsi formalaşdırır)* dilinə gətirir. Dilə gətirilənlər şüurun məhsuludur, insanların qavrama prosesində əldə etdiyinin emal nəticəsində təqdim etdiyidir. ***(Qeyd: intuisiyanı da şüurun, həm də daha çox inkişaf etmiş şüurun, duyğu orqanları ilə daha çox məlumat qəbul edən və ötürən şüurun məhsulu kimi qəbul etmək lazımdır. İntuisiya həm də ideal, xəyali şüurun bir məhsulu kimi qəbul olunmalıdır).*** Deməli, insanlar daima məlumatlar mübadiləsində olurlar. ***(Qeyd: insanlar qavrayırlar, bununla da beyinlərində oxşarlıqları, eynilikləri, fərqlilikləri, bütövü və tərkib hissələri ayırd edə bilirlər. Bu kimi proseslər əlamətləri formalaşdıran siqnallardan meydana gəlir*. *Ümumiyyətlə, bütöv kainat sistemində tam bölgü, tam fərq ola bilməz. Bunların hamısı bütövün içərisindədir. Ayırma, bölmə şərtidir və bütövün***

***tərkibini yaradandır. Tam eynilik insan şüurunun qavrama məhsuludur. Təbiətdə tam məkan eyniliyi yoxdur. Hər bir elementin öz yeri var. İnsan da eyni şeyləri ayrı-ayrı məkanlarda dərk edir. Qavrama və uyğunluq qavrama mənbəyində olan siqnallar məkanından asılıdır. Belə qəbul etmək olar ki, hər bir siqnalın beyində öz yeri formalaşır. Ziddiyyəti o zaman insan dərk edir ki, siqnalların yeri dəyişmiş olur. Siqnal məkanına başqa uyğun olmayan siqnal daxil olur. Sistemdə olan ziddiyyətlər qavrama proseslərində iştirak edən və əlamətləri ötürən siqnalların öz məkanında yerinə oturmamasıdır. Burada tələblərin, yəni əlamətlərin tələbləri prinsipləri pozulur. Tələblər də sistemləşmə üçün lazım olan ünsürlərdən meydana gəlir. Hüquqların dərk olunması proseslərində olan ziddiyyətlərin aydınlaşdırılması prosesləri də bu qaydada həyata keçirilə bilir. Burada inikas əlamətlərini yaradan obrazlar arasında olan uyğunluqlar sistemləşməni, sistemli qaydada dərk olunmanı meydana gətirir).*** Bu mübadilə prosesləri insanların kontaktlarının əsaslarını təşkil edir. İnsanlar mövcud varlığı əks etdirirlər, beyinlərində materiyanı qavrayırlar, əlamətləri olduğu şəkildə ifadə edirlər. Gözə görünə bilən, hiss oluna bilən materiya insan beynində obrazlanır. Obrazlanmanın mütləq tərəfləri, əlamətləri və sərhədləri olmalıdır. Siqnal düşən obyekt olmasa obrazlanma da ola bilməz. Gözə görünə bilənin "bütün" əlamətləri qavranılır, dərk olunur. Gözlə görünə bilməyən materiyanın əlamətləri də vardır. Lakin bu əlamətlər hər kəs tərəfindən gözlə görünə bilmir, hiss oluna bilmir. Əlamətlər vardırsa, deməli, gözlə görünməyən (universal gözlə görünməyən) istənilən formanın öz quruluşu, məzmunu, bunlardan irəli gələrək, dadı, iyisi və s. kriteriyalar yaradan əlamətləri mövcuddur. Buradan irəli gələrək hesab etmək olar ki, müəyyən materiyaların quruluşu, məzmunu olduğuna görə, qeyri-müəyyən materiyanın da quruluşu və məzmunu

mövcuddur. Gözlə görünənlər ümumi və obyektiv dərk olunan olurlar.

Belə qəbul etmək olar ki, materiya aləmi rasional –elmi olduğundan, “qeyri-materiya” aləmi də rasional və elmidir. Bu, daha çox müəyyənliyə çevrilmədə meydana gəlir. **“Qeyri-materiya”, “irrasional”, “intuitiv”** sözləri və anlayışları nisbidir və bu anlayışlar qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi prosesləri ilə bərabər olaraq **mütləqləşirlər.** Deməli, hər şey mütləqdir, lakin əksəriyyət şeylər aşkar olunmadığından qeyri-müəyyən mütləqdir. Ümumiyyətlə, **“qeyri”** sözünün özü nisbidir. Fərq üçün işlədilir. *(Məsələn, insan hüquqlarına dair baxışlarda “**qeyri-hüquqi”** anlayışı mütləq olmaqla bərabər, həm də nisbiləşir. Qeyri-hüquqi anlayışı bir bucaqda (bir mövqedə) mütləqdir, digərində isə nisbidir. **Qeyri-hüquqi** qəbul olunan şey dərk edilən bucaq dəyişəndə **hüquqi** kimi dərk olunur. Qeyri-hüquqi anlayışı (qeyri-hüquqi hərəkətlərin ifadəsindən irəli gələrək başa düşülən anlayış) müəyyən bucaqlarda mütləq olaraq **“mənfi hüquq”** kimi dərk oluna bilər. Lakin həmin bucaqdan görünən mənfi hərəkətlər digər bucaqdan müsbət kimi qələmə verilir) Buradan da “qeyri-hüquqi” sözünün **mütləq** və **nisbi** olması qənaətinə gəlmək olur. Lakin hüququ bütün insanlar pozitiv dəyər kimi qəbul etdiklərindən “mənfi hüquq” anlayışı ümumən qəbul oluna bilmir. İnsan hüquqları pozitiv aspektdə məkana, zamana və resurslara bağlı olan bir dəyərə çevrilir).* Bu, o deməkdir ki, “yad” olan şey tamamilə yoxdur, **nisbi olaraq yoxdur**. **“Yad”** müəyyənliklərə çevirmə proseslərində **doğmalaşır.** Bu baxımdan da belə qəbul etmək olar ki, antonimlər əsasən müxtəlif bucaqlarda olan əkslərdir və əslində vahidin tərkibidir. Antonimlərin də öz sinonimləri mövcuddur. **Bu baxımdan da hüququn subyektivliyi müəyyən bucaqlarda əksliklərdən ibarətdir.** Lakin bu əkslik əslində bütövlükdür. Bu bütövlük də obyektiv hüquqdur. Hüquqlar məkanlarda fərqlənir. Lakin baza etibarilə insanın bütün

xassələrini özündə ehtiva edir. Deməli, hüquq normaları bütün məkanlarda elə məkanlarda mövcud olan insanın özünə xidmət edir. Bu baxımdan da baza hüquq bütün məkanlarda **pozitiv əhəmiyyətə** malikdir.

Proseslər və hərəkətlərdə **ümumi toplum** tərəfindən birtərəfli qavrama, birtərəfli emal, birtərəfli təqdimat ola bilməz. Yəni bir şeyi hər kəs eyni dərəcədə qəbul edə və qavraya bilməz. Bu baxımdan da qavrama qabiliyyəti də dərəcələnir. Qavrama qabiliyyətinin dərəcələnməsi beyindəki informasiyaların qeyri-müəyyənlikdən daha çox müəyyənliyə çevrilməsi ilə nəticələnir. Birtərəfli qavramada bu baxımdan subyektivlik meydana gəlir və fərdlərin şəxsi qabiliyyətləri amili mühü rol oynayır. Dünyada baş verən proseslərin dərk olunmasının müxtəlif yolları meydana gəlir: universal dərketmə xüsusiyyətləri-əlamətlərin bütün insanlar tərəfindən eyniləşdirilməsi və oxşadılması hallarını özündə əks etdirən bir istiqamət; proseslərin eyniləşdirilməsini, oxşadılmasını və eləcə də fərqləndirilməsini təmin edən digər bir istiqamət-bu, daha çox rəngarəngliyə xidmət edir. Burada vahid qanunauyğunluqlar hər kəs üçün tətbiq oluna bilmir. Bir çoxları yalnız mövcud olanları geniş və məhdud şəkildə əks olunmuş əsaslarla dərk edir, digərləri isə metafizikaya, yəni ali hissiyyata, duyğulara, eləcə də mücərrədliyə uyğun olaraq kənara çıxır. Bunun nəticəsi olaraq baxışlarda **obyektiv-reallıq, subyektiv-reallıq, obyektiv-ideallıq, subyektiv-ideallıq** meydana gəlir. Dərketmənin həm də zaman və məkan kateqoriyası formalaşmış olur. Bu da əlamətləri özündə cəmləşdirən siqnalların zamanla əlaqəsindən asılıdır. İnsanlar kainatın üsürləri olduğundan kainatın bütövünün tərkibidirlər. Bu bütövlüyün tərkib elementləri müxtəlif insanlar üçün aşkar olunan və aşkar olunmayan olmaqla, dərəcələnirlər.

**Düşüncə-düşüncələri** (fikirləri) dərk edir. Düşüncə düşüncəni özünə obyekt edir. Bir düşüncə digər düşüncəni aşkarlayır. Şəxs həm öz düşüncəsini dərk edir, düşüncələri ilə

dərk etmək prosesləri şaxələnir, dərinləşir, həm də başqasının fikirlərini öz düşüncəsinin obyektinə çevirir. Başqa düşüncələr də mərkəzə çevrilir, obyekt kimi beyin siqnallarını qəbul edir. İnsan nizamlı –şüurlu məxluq olduğundan düşüncələri də daxilən nizamlanmağa xidmət edir.

İnsan hüquqları ardıcıl olaraq və müxtəlif sahələr üzrə dərk olunur. Fərd öz hüququnu həm fərdi məsələlərdə, həm də universal məsələlərdə dərk edir. İnsan hüquqlarının dərk olunmasında fəlsəfi-məntiqi metodların tətbiqində bir funksiya da məhz fikirlərin mənbələr rolunu aşkarlamaqdan ibarətdir. Burada məqsəd mənbələr əsas götürülməklə nəzəri fikirlərin deduktiv və induktiv əsaslarla tərkibinin genişlənməsini təmin etməkdən ibarətdir. İnsan öz hüquqlarını öz ardıcıl düşüncə prosesinin obyektinə çevirir. Dərk etmək məhz düşünmə prosesindən yaranır. Düşüncə daxildə olur. Lakin onun siqnalları həm daxildən gəlir, həm də xaricdən daxil olur. Xaricdən daxil olan siqnallar faktlar rolunu oynayır. Bu faktlar həm fikirlər ola bilir, həm də qeyri-fikirlər. Qeyri-fikirlər şəxsin özünün gördüyü, müşahidə elədiyi hadisələrdir, material vasitələrdir. Deməli, insanlar material vasitələri həm fərdi qaydada, həm də obyektiv olaraq (burada çoxlu sayda fikirlərdən meydana gələn gerçəklik) dərk edirlər.

Ardıcıl olaraq dərk etmək ardıcıl olaraq düşünməkdən meydana gəlir. Qavrayışın əsaslarını **daxili (yəni insanın öz daxilində olan)** və **xarici (yəni başqasının fikirləri, mövcud olan fikirlər)** siqnallar yaradır. Dərk etmək qeyri-müəyyənliyi müəyyənliyə çevirmə ilə nəticələnir. Deməli, beyinin əsas funksiyası məkan və zaman prinsipləri ilə obyektləri və hadisələri aşkarlamaqdan ibarətdir. Bu aşkarlama daxili və xarici olmaqla iki baza əsas malikdir. Deməli, insan öz daxilinin və onun təmaslarını təşkil edən xarici aləmin vəhdətində fəaliyyətdədir. Buna görə də öz hüquqlarını həm birbaşa daxillərində axtarırlar, həm də xarici obyektlərlə təmasda görürlər.

Düşüncə düşüncələri: həm düşünənin fikirlərini, həm də başqasının düşüncələrini dərk edir. Burada düşüncənin özü digər düşüncə üçün inikas rolunu oynayır. Deməli, düşüncə dərketmədə obyektə çevrilə bilir. Düşüncə duyğu orqanları tərəfindən qəbul edilən materiya aləminin əlamətlərini dərk edir. Burada materiya aləminin inikası meydana gəlir. Materiya aləminin əlamətlərinin məzmununun anlaşılması düşüncə mənbəyində aşkarlanma ilə əlaqəlidir. Dərketmə və başa düşmə əsasən aşkarlama funksiyasının böyüklüyündən irəli gəlir. Dərketmənin yüksək səviyyəsi də məhz əlamətlərin asan şəkildə beyində özünə yer eləməsindən ortaya çıxır. İnsanlar öz hüquqlarını incəliklərinə qədər dərk etmək imkanlarına malik olurlar. Bu dərketmə imkanlarının genişliliyi incəliklərin, siqnalların beyində asan şəkildə özünə yer eləməsindən asılı olur. Dərketmə ayıltma vasitəsidir. Oyanma-beyində siqnal mərkəzlərinin oyanması dərketmənin nəticəsidir. Bundan da gələcək hadisələr barədə müəyyən duyğular ortaya çıxır. İnsan hüquqları anlayışının geniş məna etibarilə dərk olunması insanın öz hüquqlarının tərkib ünsürlərini geniş aspektdə dərk etməsi ilə əlaqəlidir. Hüququn tərkibi olan komponentlər incəliklərinə qədər dərk olunur. Hüquq anlayışının ardıcıl şəkildə dərk olunması insan hüquqlarının şərti bütövlüklə dərk olunmasına səbəb olur. Bir ifadənin dərk olunnası öz ardınca dialektik qaydada digər ifadələrin də dərk olunmasına səbəb olur. Eləcə də fəlsəfi-məntiqi metodların (deduktiv və induktiv metodların) tətbiqi sayəsində bütöv halda insan hüquqlarının obrazlanması bu hüquqların zəncirli olaraq ifadələnməsinə gətirib çıxarır.

İnsan hüquqları bir istiqamətdə düşüncələr ardıcıllığından və geniş düşüncələrdən genişlənir, digər tərəfdən də materiya aləminin ardıcıl inikasından öz tərkibini və bölgüsünü genişləndirir. ***(Əlavə üçün ümumi qrafikin davamına baxmaq olar)*** Deməli, insan hüquqları düşüncələrdə, bu düşüncələrin ardıcıl trayektoriyasında genişlənir. Digər tərəfdən də fiziki

hərəkətlərin (fəaliyyətin) nəticəsi olaraq artmaqda olan sahələrdən meydana gəlir. Bu iki istiqamət arasında isə vəhdət mövcuddur. Əslində bu iki istiqamət vahidin tərkibdir. Hüquqlar genişləndikcə, fəaliyyət sahələri artdıqca hüquq dəyərləri də artır. Çünki resurs çatışmazlığı və fəaliyyət kasadlığı əslində hüququn realizə imkanlarını məhdudlaşdırır.

İnsan hüquqlarına dair fikirlər insanların yaşayış tərzinə, yaşayış prinsiplərinə və qanunauyğunluqlarına söykənərək nəzəri baxımdan bilikləri yaradan, eləcə də də biliklərdən meydana gələn **ontoloji-qnoseoloji** bir idrak bütövüdür. Deməli, **insan hüquqları analyışlarda nəzəri baxımdan həm də metafizikanın tərkib hissələri olan bir mücərrəd bütövdür**. **(Qeyd:** insan hüquqları zəngindir və ***müəyyən olunan*** və ***qeyri-müəyyən olunan*** olmaqla iki baza əsasa bölünə bilir. Əsas hissə-mənbə hissə qeyri-müəyyən olan hüquqdur, "ehtiyatda olan" hüquqdur. Bir daha qeyd etmək lazımdır ki, hüququn inkişafı və müəyyənliyə çevrilməsi əsasən insan fəaliyyətinin genişliyi ilə əlaqədar olur. Fəaliyyətin genişliyi sərhədlər prinsipləri ilə *(hər bir şəxsin hərəkətinin öz həddinin olması prinsipləri)* hüququn genişlənməsinə səbəb olur. **(Əlavə üçün 1 saylı qrafikə baxmaq olar)). Fəaliyyətin genişliyi ilə yanaşı, liberal –yumşaq münasibətlər də hüququn inkişafına şərait yaradır.** Hüquqda bütövlük ona görə mövcuddur ki, biliklər həm hüququn obyektini öyrənərkən meydana gəlir, həm də müvafiq biliklər subyektinin (bilikləri özlərində daşıyan insanların) təbii xassəsindən, təbii xarakter və fəaliyyət mövcudluğundan ortaya çıxır. İnsan hüquqlarının fəlsəfi əhəmiyyəti təbii xarakterə və məzmuna malik olur, yəni insanların təbii quruluşları onların fəalliyyətinin təbii əsaslarını ortaya çıxarır. İnsanların təbiiliyi onların təbiətin daxili ünsürü olması ilə şərtlənir Yəni, təbiətin əksi, kainatın əksi, cəmi elə insanlarda mövcuddur. Bu baxımdan hüquq insanların hərəkətlərini ifadə edən və onları həm təbiətə, həm də cəmiyyətə və dövlətə bağlı edən bir dəyər rolunu oynayır.

Hüquq insanların maddi-mənəvi statuslarını müəyyən edən səbəbverici amil rolunu oynayır. İnsan hüquqları təbii olduğuna görə **ontoloji-qnoseoloji** yanaşmalar da təbii xüsusiyyətlərə malikdir. Bu yanaşmaları insanlar öz daxillərinə bağlayaraq edirlər. Deməli, ontoloji-qnoseoloji metod birləşmələri də təbiilikdən irəli gələn idrak metodlarıdır. İnsanların bütün təhlilləri, onların bütün yanaşmaları təbiidir. Qeyri-təbii isə ümumiyyətlə təbiinin paralelidir, həm də onun davamıdır. Qeyri-təbii təbii olanın insanlar tərəfindən qismən dəyişməsidir. Qeyri-təbii mövcud təbii olanın yaradıcılıq və quruculuq ilə qismən mövcud vəziyyətdən yeni vəziyyətlərin əldə olunmasıdır. ***(Qeyd: təbiət, kainat daima hərəkətdədir, yeni formalar meydana gəlir. Hərəkətlər yeni formaları yarada bilir. Bu prinsipdən irəli gələrək hesab etmək olar ki, Günəş sistemi də dəyişikliyə, evalyusiyaya uğrayır. Bu da Günəş sistemindəki gələcək dəyişikliklərin olması ehtimalını meydana gətirir. Bu, o halda tam baş verə bilər ki, enerjinin təkrar olaraq öz bütövünə qayıtması baş verməsin. Enerji paylaşması olmasın. Əgər enerji paylaşması öz miqdarında qalırsa, onda belə qənaətə gəlmək olar ki, Yer kürəsi və Günəş sisteminin digər tərkib hissələrində təkamül baş verməyib. Gələcəkdə də baş verməyəcəkdir).***

Hüquq hərəkətlərdən meydana gələrək böyüyür, inkişaf edir, deməli, törəmə xassələrini özündə cəmləşdirir. İnsan hüquqları törəmədir, bu, insanların təbiətə olan yeni əlaqələrindən, baxışlarından ortaya çıxır. İnsan fəaliyyəti böyüdükcə onun hüquqlarında da müəyyən zaman anlayışı ortaya çıxır. Burada resurslara və bundan irəli gələn zamanlara müvafiq olaraq hüquqlar da böyüyür. İnsan fəaliyyəti böyüyürsə, deməli, insanın daxili və xarici siqnallar sistemi mübadilələri böyüyür. Bu baş verəndə hüquqlar da mücərrəd müstəvi üzrə şaquli və üfiqi vəziyyətdə genişlənir. Bu genişlənmə də enerjini yaradır. Enerji təkrar olaraq yeni hüquqlar üçün fəaliyyətin əsaslarını meydana gətirir. Deməli,

insan hüquqlarının inkişafı enerjinin artması sayəsində meydana gəlir.

İnsan hüquqlarının təbii xassələri *(təbii forması və məzmunundan ibarət olan tərkibi)* onların nəzəri inkişaf xətti boyunca genişlənməsinə *(hüquqi fikirlərin artmasına)* xidmət edir. İnsan fəaliyyəti genişləndikcə fəaliyyətə yanaşmalara əsaslanan fikirləri də genişlənir. ***(Əlavə üçün 2 saylı qrafikə baxmaq olar).*** İnsan hüquqları bütün sahələrdə törəyir və bu, nəzəri cəhətdən mənimsəmək və öyrənmək baxımından, bilikləri meydana gətirmək nöqteyi-nəzərdən təbii şəkildə artan prosesləri özündə cəmləşdirir. İnsan hüquqları insanların fəaliyyətinin böyüməsi ilə pozitiv mənada daima genişlənir. İnsan hüquqlarının obyektiv və subyektiv məzmunu da onun təbii xassələrinə malik olur və hər iki halda fəlsəfi məzmun kəsb edir, düşüncələrin fərdi və universal prinsiplərinə əsaslanır. Hüquqların genişlənməsi həm ümumi (burada cəm halda şəxslər, insanlar), həm də məxsusi əsasları özündə əks etdirir. İnsan hüquqlarının böyüməsi və onun dərk olunma proseslərində artması və ifadələrinin genişlənməsi hüquqi biliklərin meydana gəlməsinə səbəb olur. Hüquqi biliklər də faktlar (istinad faktları, həm də böyüdücü faktlar) rolunda çıxış edir. Hüquq insan hərəkətlərini təcəssüm etdirir və onu müşayiət edir. Subyektivliklər burada rastlaşır. Məsələn, insanların hüquqları bir məsələdə rastlaşır. Rastlaşma anında obyektivliklər meydana gəlir. Subyektiv hüquqların rastlaşması sayəsində müəyyən məkanlarda qarşılıqlı nizamlama prosesləri həyata keçirilir. Qarşılıqlı nizamlama prosesləri isə obyektivliyi meydana gətirir.

**Qeyd olunduğu kimi, insan hüquqları özü bilikdir. Bilik** hər şeydən öncə hərəkətdə olan və nisbi hərəkətsiz vəziyyətində (sükunətdə) olan mövcudluğun (varlığın) forma və məzmununun (xassələrinin) siqnallar vasitəsilə ötürülməklə insan təfəkküründə (beyin reseptorları ilə qəbul edilmə) özünə yer almasıdır. Biliklər varlığın əlamətlərinin kiçik zərrəciklər

axını ilə beyində əks olunmasıdır. Bu proses qavrama ilə həyata keçirilir. Biliklər iki materiya arasında (insan və onun qarşılaşdığı digər material –maddi aləm arasında) ötürülmələrlə körpülər yaradan əsas vasitələrdir. Biliklər zəncirvari olaraq qəbul, emal və ötürülmə ilə daima təzələnir. Material aləmə insan təsirləri məhz biliklərin qəbul edilməsi, emal olunması və ötürülməsi sayəsində həyata keçirilir. Material aləm öz siqnalları ilə bu siqnalları qəbul edən insanların təsirlərinə məruz qalır. İnsanlar ətraf aləmin resurslarından öz maraqları üçün nizamla istifadəyə üstünlük verirlər. Deməli, insanlar təbiətə təsir edən əsas məxluqlardır. İnsanlar varlığı olduğu şəkildə qəbul edirlər-bu, bir proses istiqamətidir; təbiətə təsirlər edirlər-bu, digər təsirlər istiqamətidir. Bu iki prosesin zəncirvari qaydada davam etməsi isə öz növbəsində insan yaradıcılığının və quruculuğunun inkişafına və təbiətə təsirlərinin daha da artmasına gətirib çıxarır. Bütün bu proseslərdə insanların haqlı olmaları amili mühüm əhəmiyyət kəsb edir. İnsan öz hüquqlarını ifadə etməklə haqlı olmasını sübuta yetirir.

Bütün məlumatlar (varlıq və hadisələr haqqında, proseslərlə əlaqəli olaraq) biliklər hesab edilməlidir**. Sistemli məlumatlar isə elmin formalaşmasının əsasında dayanır.** Deməli, elm ardıcıl təsirdən meydana gələn və ardıcıl təsirləri yaradan sistemli biliklərin əsasıdır. Fəlsəfi-məntiqi metodlar hüquqlarla bağlı elmi-nəzəri biliklərin meydana gəlməsini təmin edir. Bu baxımdan da şəbəkələşmə özü elə hüquq elminin meydana gəlməsini təmin edir.

Qəbul edilən siqnallar beyinlə obyekt arasında əlaqələrin yaranmasını təmin edir. İnsanlarla obyektlər arasında siqnal mübadilələri sferaları yaşanır. Bu sferalar insanların mövcud olduqları bütün məkanlarda meydana gəlir. Bu baxımdan da hesab etmək olar ki, siqnallar axınlardır, zərrəciklərin cərəyanıdır, dalğalarıdır. Bu dalğaların kütləsi (axın həcmi) mövcud olur və bu axın həcmi də dalğaların qəbul edilməsi

imkanlarını çoxaldır. İnsanların beyin tutumu da siqnalların axın şəkilində (yəni, çox miqdarda) qəbulunun əsaslarını meydana gətirir. Belə qəbul etmək olar ki, obyekt uzaqlaşdıqca siqnal da itir. Hər bir obyektin siqnal əhatəsi olur, zərrəciklərin yayılma arealı mövcud olur. Bu arealdan çox uzaqlaşdıqda mövcud obyektlə onu qəbul edən subyekt arasında mübadilələr də zəifləyir. Obyektlərin zərrəcikəri bir-birinə qarışır və bir-birini itələyir, cəzb edir. Beyin obyekt siqnallarını (dalğaları) özünə cəzb edir. Yaxınlaşdıqca bu, daha da güclənir. Beyin imkanları geniş olan şəxslər isə daha uzaqda olan obyektlərin axınlarını özlərinə nisbətən yaxın edə bilirlər. Bu baxımdan da hesab etmək olar ki, kainatda nə varsa, elə hamısı hərəkətdədir, enerjiyə məxsusdur, canlanır və zərrəcikləri ətraflara yayır. İnsanlar kainatın mikrokosmik ünsürləri olaraq daima mübadilələr şəraitində biliklər qazanırlar. Biliklər dərk etməklə özlərinə məzmun əldə edirlər. Təbiətin aşkarlanması elə təbiət hadisələrinin məzmunlarının dərk olunması prosesidir. Proseslərin siqnalları beyində olan qaranlıq hissələri işıqlandırır. Buradan da belə bir məntiqi nəticəyə gəlmək olur ki, siqnallar beyinə qəbul edilir, beyinin öz enerjisini yaradır. Qəbul olunan siqnallar beyində oyadıcı effektə malik olur. Kainat mübadilələr sistemindən və elementlərin vahidliyindən asılıdır və kainat bu sistemin "bütövlüyünün" (burada bütövlük nisbdidir, çünki kainat sonsuzdur) təcəssümüdür. Qəbul edilən siqnallar hərəkətlərin əsaslarını təşkil edir. İnsanlar qəbul edilən siqnallar vasitəsilə dərk edərək hüquqlarını ifadə etməyə çalışırlar. Bu dərk etmək prosesləri fəlsəfi-məntiqi metodlarla müəyyən olunur. Dərk etmənin özü tərkibləri meydana gətirir, səbəbləri və nəticələri, bu baxımdan başlanğıcları və sonluqları müəyyən edir. Həmçinin bölücü, ayırıcı kriteriyaları əks etdirir.

Elementlərin müəyyən axınlar üzrə hərəkətdə olması onun ardıcıl əlamətlərinin meydana gəlməsini (aşkarlanmasını) yaradır. Hərəkətin çoxluğu əlamətin çoxluğunun şərtləndiricisi kimi çıxış edir. Əlamətlər həm də mütləq və nisbi olaraq itir.

Yeniləri əvvəlkiləri inkar edir. Hərəkətin çoxluğu hadisələrin çoxluğu kimi xassələnir və hadisələrin çoxluğu da öz növbəsində proseslərin ardıcıllığının əsasında dayanır. Hər bir proses öz-özlüyündə cəmləşmiş halda əlamətləri birləşdirir və bu baxımdan da bilik mənbəyi kimi çıxış edir. Proseslərin sistemli qaydada beyində əks olunması elə elmi biliklərin formalaşmasını şərtləndirir. Məlumatlar arasında olan bağlılıq elə sistemli bağlılığın, sahələrarası struktur bağlılığının əsaslarını meydana gətirmiş olur. Məsələn, hüquq normaları sənədlərində - məcəllələrdə struktur bağlılığı görünür və dialektik vəhdət mövcud olur.

İnsan hüquqları və bu hüquqların insanların fəaliyyətindən asılı olaraq müxtəlif sahələrdə cəmləşməsi elə insan hüquqlarının insanların hərəkət əlamətlərinin (fəaliyyət və maraq xüsusiyyətlərinin) xassələndiricisi kimi böyük məna kəsb edir. Fərdin öz hüquqları və başqasının hüquqları fərdi hərəkətlərin istiqamətlərini müəyyən edir. İnsan hüquqları da öz-özlüyündə hadisələr məcmuəsindən ibarətdir və bu hadisələr elə hüquqların təmin olunmasına əsaslanır. İnsan hüquqlarının təmin olunması vəziyyəti və imkanları hadisələr cəmini özündə əks etdirən proseslərin məcmuəsindən asılı olur. İnsan hüquqlarının ardıcıl təminatı və bu baxımdan qəbul edilən normativ-hüquqi aktların yerinə yetirilməsi elə insan hüquqlarının prosesli qaydada yerinə yetirilməsinə əsaslanır. İnsan hüquqları hadisələr və aktlar cəmindən ibarət olduğundan xassələnir, bölgüyə aid olur, tərkib hissə kimi ünsürlərə xas olur.

İnsan fəaliyyətinin tərkibi rəngarəng olduğundan hüquqların da tərkibi çoxçalarlıdır. Bütün hallarda və vəziyyətlərdə isə insanların baza hüquqlarının təmin olunmasına xidmət amili dayanır. Bütün hüquqi hadisələr (aktlar) məhz insanların hüquqlarının normativ qaydalarla təminatına hesablanır və hüquqların təmin olunmasını əsas məqsəd kimi qarşıya qoyur. Bütün universal və məxsusi **hüquqi normalar** insanların universal və fərdi maraqlarının

təmin edilməsinə yönəlir. Sistemli normalar təşkil olunur. Məsələn, Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanununda yazılır ki, (maddə 6) normativ hüquqi aktlar onların iyerarxiyasının müəyyən edilməsi, qarşılıqlı uzlaşdırılması, habelə daxili uzlaşdırma ilə səciyyələnən və ictimai münasibətlərin hüquqi tənzimlənməsini təmin edən Azərbaycan Respublikasının müvafiq qanunlar külliyyatının hazırlanması yolu ilə vahid sistemə salınır.[1]

Hüquq normalarının müəyyən olunması və qaydaların tərkibi əsasən fəaliyyət imkanlarından asılı olur. İnsanların təbii hüquq və azadlıqları öz növbəsində digər hüquqlar üçün ümumiləşdirici kateqoriyalar kimi çıxış edir. İnsan hüquqları üzrə hadisələr bu baxımdan fəlsəfi-elmi məna kəsb edir və fəlsəfənin obyekti kimi öyrənilə bilir. Fəlsəfi kateqoriyalar bir şərtləndirici, bölücü, səbəb və nəticələri, başlanğıc və sonları, eləcə də təyinatları müəyyən edən vasitələr kimi həm də insan hüquqlarının tərkiblərinin ayrıd edilməsində böyük məna kəsb edir. İnsan hüquqlarının xassələnməsində, hüquqi hadisələrin törənməsində (aktların yerinə yetirilməsində) məhz fəlsəfi kateqoriyalar böyük mənalar daşıyır və mühüm müəyyənedici, yeni istiqamətlərverici, bağlayıcı, şərtləndirici, səbəb və nəticə verici, başlanğıc və son edən əsaslarla funksiya kəsb edir. Hadisələrin xassələri insan hüquqlarının universallığını və məxsusiliyini meydana gətirir. Bütün hadisələrdə, hadisələrlə əlaqələrdə universal baza hüquqlar bir prinsip kimi dəyişməzdir, lakin bir çox hadisələrdə isə məxsusilik tətbiq olunur ki, bu da universal hüquqların məhdudlaşmasının əsasında dayanır. Lakin məhdudlaşma tam olaraq sona çatmır. Məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Humanizm prinsipləri adlanan 9-cu maddəsində yazılır ki, cinayət törətmiş şəxsə tətbiq edilən cəza və digər cinayət-

[1] Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 21 dekabr 2010-cu il. "Azərbaycan" qəzetində dərc edilmişdir (17 fevral 2011-ci il), №37

hüquqi xarakterli tədbirlər cismani əzab vermək və ya insan ləyaqətini alçaltmaq məqsədi daşıya bilməz.[1] Buradan görünür ki, ağırlaşdırıcı hallar –cəzalar belə, insanın özündə ləyaqəti əks etdirən universal təbii baza hüquqlarını heçə endirməməlidir.

**Hadisələrin xassəsi** dedikdə, hadisələrin baş verməsinin müxtəlif istiqamətli əsasları (tərkib komponentləri) nəzərdə tutulmalıdır. Hadisələrin təsirlərinin əsasları da xassələrinə aid edilməlidir. İnsan hüquqlarının təmin olunmasında nəzəri əsaslar məhz bütün hadisələrin (hüquqla bağlı olan) əsaslanmasında kompleks vasitələr kimi çıxış edir. Burada ekstrapolyasiya prosesləri baş verir, hüquqi nəticələr digər hüquqi başlanğıclar və nəticələr üçün şərtləndirici əhəmiyyət kəsb edir. Sahələr genişlənir. Bu baxımdan da hüquqi biliklər nəzəri aspektlər olaraq genişlənir. Hadisələrin sistem və müstəvidə digər hadisələrlə qarşılıqlı vəhdəti, şərtləndirici məzmunu də onun xassəsini meydana gətirir. İnsan hüquqları da insanların fəaliyyət müstəvilərinin bazasında dayanır. Bu fəaliyyət müstəvilərinin formalaşmasında nəzəri bir mühit kimi böyük məna kəsb edir.

Hadisələrin xassələri onların əlamətlərindən (proseslərin formasından) büruzə verir. Hadisələrin xassələri başlanğıc və nisbi sonluqlarda, təsir məkanlarında və digər bu kimi hallarda formalaşır. Hadisələrin xassələri hadisələr haqqında bilikləri meydana gətirir. Hər bir prosesin siqnal axını (zərrəciklər axını, zərrəciklər dalğası) meydana gəlir. Siqnal elə hərəkətdə olan əlamətlərin meydana gəlməsini əks etdirir. Bu baxımdan da hesab etmək olar ki, hər bir hərəkət vəziyyətinin öz siqnalı (zərrəcik axın xassəsi) meydana gəlir. Buradan da belə bir məntiqi nəticəyə gəlmək olur ki, biliklər hərəkətlərdən (zamanda vəziyyətlər alan hərəkətlərdən, meydana gələn əlamətlərdən)

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Azərb. dilində. Bakı-Qanun-2000, 880 səh., səh. 13

asılı olur, onlardan törəyir. Kainatın, təbiətin, ətraf aləmin və ictimai münasibətlər sferalarının bütün tərəfləri məhz biliklərdən, məlumatlardan ibarətdir. Çünki biliklər hadisələr və aşkar olunmuş gerçəkliklər olaraq, müəyyən mütləq varlıq və qeyri-müəyyən mütləq varlıqların əks olunmasının şərtidir. Biliklər obyektlər haqqında məlumatlardır. Obyektlər sonsuzdur, ona görə də biliklər də sonsuzdur. Biliklərin öyrənilməsi prosesləri və hadisələrin qavranılması hadisələri də sonsuzdur.

Hərəkətdə və sükunətdə olarkən hər bir duruş vəziyyətinin öz siqnal axını vardır. Bu baxımdan da hərəkətlərin ardıcıllığı ardıcıl axınları meydana gətirir, əlamətlər ardıcıllığını ortaya çıxarır və bu da siqnalların meydana gəlməsinin əsaslarını yaradır. Biliklərin şaxələnməsi hadisələr zəncirinin genişlənməsinə aid olur və hadisələr zəncirinin aşkarlanmasında təzahür edir.

Biliklər əlamətləri ifadə etmək vasitələridir. Biliklər qaydaları yaradır, elmi araşdırmaların sistemli yanaşmalarını meydana gətirir. Hər bir elmin öyrənilməsi üsulları onun araşdırma metodlarını formalaşdırır. Araşdırma metodları da öz növbəsində formulaları, qaydaları üzərə çıxarır. (Qeyd: sistemli biliklər oxşar hadisələrin təsnif olunmasında, onun səbəblərinin aşkar olunmasında mühüm əhəmiyyət kəsb edir. Oxşar hadisələrin cəmindən elə fərqli hadisələr meydana gəlir. Bu da sistem daxilində olan mürəkkəbliyin meydana gəlməsinin əsaslarını yaradır). Məsələn, təcrübəyə əsaslanan biliklər eyni cür xəstəliklərin müxtəlif şəxslərdə (əlamətlərinə görə) aşkarlanmasında (diaqnoz qoyulmasında) mühüm rol oynayır. Qaydaların (diaqnostik metodların) eyni və oxşar hallarda tətbiqi oxşar xəstəliklərin aşkarlanmasına imkanlar yaradır. Eləcə də qanunvericilik sənədləri və təkrarlanan istintaq hərəkətləri (bundan meydana gələn qaydalar) cinayətlərin üstünün açılmasında bir model əhəmiyyətini kəsb edir. Cinayət prosesual məcəllələri də məhz bu əsasda formalaşır. Hər bir elmin öyrənilməsində vahid məntiqi əməliyyatlardan istifadə olunur.

Nəzəriyyə və təcrübənin vəhdəti həm nəzəri, həm də təcrübi bilikləri meydana gətirir. Bu baxımdan da bilikər (burada faktlar və hadisələr üzrə olan bilikər) insanlarn hadisələrin baş verməsinin səbəblərini müəyyən etməkdə köməkçi olur. Buna görə də biliklərin sistemli öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Biliklərin sistemli öyrənilməsi hadisələr daxilində və hadisələr arasında (sistemlər daxilində və sistemlər arasında) uyğunluq, ziddiyyət, eynilik, fərq, məkan və zaman kateqoriyaları ilə əlaqələrin və vəhdətin qavranılmasına şərait yaradır. Hüquqi biliklərin ardıcıl öyrənilməsi, elmi-metodoloji üsullar, insan hüquqlarının fəlsəfi tezislərlə müəyyən olunması məhz hüquq normalarının meydana gəlməsində əsasları üzərə çıxarır. Məsələn, insanların mənəviyyatının öyrənilməsi hüquq normalarının mənəviyyatın qorunması ilə bağlı ifadəsini ortaya qoyur. Azərbaycan Konstitusiyası ilə insanların azadlıq, şərəf və ləyaqət hüquqları tanınır və qorunur.

Biliklərin ardıcıl öyrənilməsi elə biliklərin öyrənilməsi və öyrədilməsi vasitələrinin (səbəb, yol, istiqamət, elmi yanaşma üsulu və s.) formalaşmasını meydana gətirir. Bu baxımdan da sistem daxilində bilikləri təsnif edən kateqoriyalar üzərə çıxır. Hüquqi biliklərin öyrənilməsi və onun sahələr üzrə təsnif olunması da məhz hüquqi biliklərin öyrənilməsi vasitələrini üzərə çıxarır. Hüquqi biliklərin öyrənilməsi vasitələri bu sahənin dialektik inkişafına müsbət təsirlərini göstərir. Dialektik əsaslarla hüquqi biliklərin formalaşması hüquq sahələrinin məcəlləələşməsinə (müxtəlif külliyatlarda birləşməsinə-inkorporasiyasına) gətirib çıxarır. Dialektik səbəb hüquqi biliklərin aşağı lokal səviyyədən yuxarı universal səviyyəyə qədər yüksəlməsinə, eləcə də əksinə doğru eniş etməsinə, həmçinin universal səviyyədən məxsusi səviyyəyə yüksəlməsinə və inkişaf etməsinə səbəb olur. Məsələn, insan hüquqlarının tərkibinin öyrənilməsi, ayrı-ayrı baxışların qruplaşdırılması məhz insan hüquqlarının təsbit olunduğu məxsusi sahələr üzrə hüquqların öyrənilməsinə səbəb olur. İqtisadi, siyasi, mədəni və

s. hüquqlar nəzəriyyələri meydana gəlir. Dialektik vəhdət hüquqi biliklərin universal və məxsusi-konkret- sahələrini meydana gətirir. Dialektik vəhdət sistemləşmiş biliklərin əsasında dayanır. Burada inkişaf proseslərində lokallıq həm yuxarıda, həm də aşağıda mövcud olur. Hüquqi biliklərin dialektik əsaslarla inkişafı ictimai münasibətləri tənzim edən çoxlu sayda qanunvericilik aktlarını meydana gətirir. Qanunlarda olan boşluqları doldurur. Cəmiyyət özü inkişaf etdikcə hüquqi biliklərin dialektik vəhdəti də öz miqyasını böyüdür. Dialektika daha da genişlənir və burada fəlsəfi kateqoriyalar daha çox bölücü, yeni nəzəri sahələri meydana gətirici vasitələr kimi əhəmiyyət kəsb edir və bu istiqamətdə vasitəçi funksiya yerinə yetirir. Bu böyümə prosesi sayəsində qeyri-müəyyənliklər müəyyənliklərlə, hər hansı bir nöqtədə isə müəyyənliklər qeyri-müəyyənliklərlə əvəz olunur. Məsələn, qanunvericilik islahatları sayəsində hüquq normaları dəyişir, yeniləri ilə əvəz olunur. Bu baxımdan da hüquqi biliklərin inkar oluna-oluna genişlənməsi prosesləri yaşanır. İnkar prosesləri yüksək mərhələdə təfəkkürü aydınlaşdırma və geniş dərk olunma ilə nəticələnir. Hüquqi biliklərin inkarları sayəsində qeyri-müəyyənliklər müəyyənliklərlə əvəz olunur. Hüququn nəzəriyyəsinin (idealizm və materializm əsasında yaranan nəzəri istiqamətlər) genişlənməsi öz növbəsində qnoseoloji yanaşmaların əsaslarını meydana gətirir. Dialektik məntiq və onun tərkibi olan formal məntiq hüquqi biliklərin hüquq normalarında sənədləşməsinə - başlanğıc və sonu arasında olan əlaqələrin bütövləşməsini yaradan vahid məzmunlu –geniş tərkibli mətnlərin meydana gəlməsinə- səbəb olur. Dialektik vəhdət məhz hüquqi sənədlərdə həm paralelliyi, həm oxşarlığı, həm də bunlardan irəli gələn rəngarəngliyi, mürəkkəb dialektik məzmunu formalaşdırır. Dialektik vəhdət hüquq normaları sənədləri üçün ümumi prinsipləri müəyyən edir. Burada modelləşdirmə və

nümunələşdirmə prosesləri həyata keçirilir.[1] Hüquq normaları münasibətləri tənzim edən vahid kompleks birləşmə olaraq rəngarəng münasibətlərin formalaşmasına xidmət edir.

Biliklərin ayrı-ayrı sahələrə ayrılması və bu baxımdan da sistemləşməsi elmlərin yaranması prosesidir. Humanitar elm sahələrində biliklər sistemləşəndə ayrı-ayrı faktlar meydana gəlir və faktlar arasında bağlılıq formalaşır. Faktların bir-biri üçün şərtləndirici məzmununun açılması elmin aşkarlama funksiyası hesab olunur. Məntiqi əməliyyatlarla anlayışlar arasında əlaqələrin formal və dialektik vəhdətinin meydana gətirilməsi məhz elmi sistemli biliklərin ortaya çıxmasına şərait yaradır. Məntiqi əməliyyatlar sayəsində ümumi istiqamətlər altında yeni-yeni faktlar ortaya çıxır. Məntiqi əməliyyatlar vahidi tərkibə bölür, tərkibi isə vahiddə bütövləşdirir. Biliklərin sistemləşməsi sayəsində elmlərarası əlaqələr (həm də fənlərarası yeni fənlər) meydana gəlir. Elmlərarası əlaqələrin inkişafı (güclənməsi) vahid potensialın ortaya çıxmasına şərait yaradır. **Buradan da belə məntiqi nəticələrə gəlmək olur ki, biliklərin artması enerjinin çoxalmasıdır. Enerjinin artması isə məntiqi əməliyyatların çoxalması (tərkib və bütövün daha çox hissələrə, həm də müxtəlif koordinatlı hissələrə ayrılması) sayəsində mümkün olur. Deməli, enerji biliklər sayəsində və bilikləri meydana gətirən zərrəcik axınlarından irəli gələrək artır.** Enerjinin çoxalması sayəsində potensial böyüyür, təsir ünsürləri və vasitələr artır. Bu kimi proseslər də enerjinin çoxalmasına səbəb olur. Bu nəticədən çıxış edərək hesab etmək olar ki, hüquq sahəsinə aid olan biliklərin çoxalması da məhz insan hüquqlarının **qeyri-müəyyənlikdən müəyyənliyə doğru genişlənməsinə xidmət edir**. Həmçinin aşkarlanma sayəsində insan hüquqlarının sferası genişlənir. Biliklər hüquq normalarının genişlənməsini

[1] Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 21 dekabr 2010-cu il. “Azərbaycan” qəzetində dərc edilmişdir (17 fevral 2011-ci il), №37

və genişləndirici faktorların artmasını təmin edir. Hüquqi biliklərin artmasını insan fəaliyyətinin genişliyi də şərtləndirir. Hüquq normaları sistemi vahid qaydalar olaraq insanların ictimai münasibətlərini və əlaqələrini sistemləşdirir. Hüquqi biliklərin artması öz-özlüyündə hüququn dialektik vəhdətinin genişlənməsini təmin edir. Cəmiyyət və dövlət inkişaf etdikcə istər beynəlxalq əlaqələrdə, istərsə də daxili məkanda əlaqələri yaradan strukturlar arasında bağlılıq böyüyür. Bu bağlılığın genişlənməsi məhz insan hüquqlarının genişlənməsinə səbəb olur.

Biliklər **konkret** və **mücərrəd** olur. Bir tərəfdən faktlara söykənir, həmçinin gümanlardan (təxminlərdən, ehtimallardan, fərziyyələrədən) təşkil olunur. Gümanlar əsasən nəzəri fikirlərin, nəzəri-ideal baxışların əsasında formalaşır. Bununla yanaşı, əlamətlərin təxmini məntiqi nəticələrindən meydana gəlir. Gümanlar öz arxasınca elmi aparır və nəticə etibarilə yeni faktların ortaya çıxmasına nail olunur. Bu, daha çox faktların aşkarlanmasını tələb edən texniki elm sahələrində (təbiət elmlərində) tələb olunur. Təbiət elmlərində proseslərin gözlə görünməsi, laborator şəraitdə müəyyən kriteriyalar üzrə müəyyənedici üsulların tətbiqi ilə nəticələrin əldə olunması və nəticələrin faydası, istifadə tətbiqinin genişliyi əsas amil kimi götürülür. Həm də empirik əsaslarla əldə olunmuş faktlardan yeni faktlar ortaya çıxır. Faktların aşkarlanması zənciri elmi kəşflərin və ixtiraların əsaslarını təşkil edir. **Deməli, biliklər iki istiqamətdə-empirik yolla və nəzəri yolla əqli nəticələr çıxarmaqla, artır, genişlənir, sistemləşir.** Hər iki bütövlük qeyri-müəyyənliyin müəyyənliyə çevrilməsi proseslərinə xidmət edir. Hüquqi biliklərin artımı dövlətin və cəmiyyətin inkişafı ilə şərtlənir. Çünki dövlət siyasəti elə hüquq normaları vasitəsilə yerinə yetirilən aktlardan ibarətdir. Dövlət siyasətinin istiqamətləri və pozitiv məzmunu elə hüquq sahələrində qəbul edilən normativ-hüquqi aktlarla müəyyən edilir. Hüququ təmin etmə siyasəti dövləti bir ideyaya, ideala çevirir. Bununla

yanaşı, maddi-mənəvi kompozisiyanın vəhdətini meydana gətirir. **Hüquq anlayışının** dialektik məzmunu bu anlayışın həm də **siyasət anlayışı** ilə vəhdətini meydana gətirir. Dövlət siyasətinin və dövlət fəaliyyətinin konstruktiv vəzifələri və məqsədləri məhz hüququ təmin etmədə öz əksini tapır. Hüquq dövlət siyasətinin əsas xidmət məqsədinə çevrilir, eləcə də dövlət siyasəti hüquqa xidmətə (insan hüquqlarına xidmətə) söykənir. İnsan hüququ olmadan dövlət ola bilməz. Hüquq da ehtiyac və tələbatlara əsaslanan mənəvi bir dəyətdir. Dialektik vəhdət məhz hüquq-siyasət vəhdətinin əsaslarını meydana gətirməklə, bu iki anlayışın bir-birinə xidmət etməsinin əsasında dayanır.

Hüquqi biliklər humanitar sahələrə aid olmaqla **nəzəri, normativ** və **faktoloji** biliklərdir. Bilikləri nəzəri əsasları fəlsəfi, faktoloji əsasları isə daha çox elmi mahiyyət kəsb edir. Normativlik isə onun qaydalara salma, nizamlama məzmununda öz əksini tapır. Hüququn həm nəzəri, həm də faktoloji əsasları təbiət elmlərindən və humanitar elmlərdən formalaşır. Təbiət elmləri insanların maddi maraqlarının əsaslarını yaradan vasitələrin aşkar olunmasında və yeni vasitələrin əldə edilməsində böyük əhəmiyyət kəsb edir. Hüquqi biliklər insan fəaliyyətinin faktiki əsaslarını tənzim edən, onu qaydalar şəkilində əks etdirən normaların beyində ifadəsidir. Bununla yanaşı, ideal bilikləri də özündə cəmləşdirir. Hüquqi biliklər normalar şəkilində və ya da ideyalar olaraq (müəllif araşdırmaları, onun subyektiv və obyektiv ideyaları) müəyyən olunur. Tətbiqi və istifadəsi zamanı yeni reallıqların meydana gəlməsini təmin edir. Həm də mövcud yeni münasibətləri nizama salır. **Deməli, hüquqi biliklər iki mühüm istiqamətdə genişlənir, artır. Hüquqi biliklərin çoxalması sayəsində şərtləndirici kateqoriyaların tətbiqi sahələri də genişlənir. Hüquqi biliklər düşüncələrdən törəyən dəyərlərə çevrilir. Düşüncə düşüncələri obyekt kimi qavrayır və dərk edir. İnikas**

**düşüncələri isə materiya aləmini dərk edir. Düşüncənin obyekti həm materiyadır, həm də qeyri-materiyadır. Düşüncələr ardıcıl düşüncələrdən öz həcmini genişləndirir. Eləcə də material aləmin zənginləşməsi düşüncələrin həcmini genişləndirir. Bu istiqamətlərdə şəraitlərin meydana gəlməsi ardıcılllığı formalaşır. Nəticə etibarilə hesab etmək olar ki, insan hüquqları anlayışı genişlənir: düşüncələr zəncirindən, ardıcıllığından; material aləmlə olan vəhdətdən.**

Konkret biliklər daha çox müəyyən mütləqliyin (material aləmin) və gerçək hadisələrin beyində obrazlanması və ifadə olunmasıdır. Nəzəri fikirlər də konkret biliklərdir. Məsələn, mövcud olan, fəaliyyət göstərən hüquq normalarının özləri konkret biliklərdir. Filosofların, fəlsəfəşünasların və digər alimlərin məntiqi nətiəclər ilə əldə etdikləri biliklər konkret biliklərdir. Mücərrəd biliklər isə əsasən qeyri-müəyyənliyə söykənən və nəzəri olaraq beyində əks olunanlardır. İnsan hüquqları sahəsində bu, əsasən istənilən hüquq normalarıdır. İstənilən, arzu olunan hüquq normaları **gələcək hüququn** əsasını təşkil edir. Deməli, hüquq sahəsində mücərrəd olan biliklər gələcəkdə mütləq-real biliklərə çevrilə bilər. Mücərrədlik insanın daha çox təbii biliyi, təbiətdən **nisbətən asılı olmayan** biliyidir. Həmçinin konkret faktlar haqqında əlamətləri tam əks etdirməyən bilikdir. **(Qeyd:** *buradan hüquqi biliklərin, hüququn özünün zaman anlayışı meydana gəlir. Mövcud zamanın bilikləri və gələcək zamanın bilikləri anlayışı formalaşa bilir. Xəyali hüquqi və arzu olunan hüquqi biliklər gələcək hüquq nəzəriyyəsinin formalaşmasına xidmıt edir. Bu baxımdan da indiki zamanda mücərrədliyi əks etdirir).* Ümumilikdə isə insan təbiətdən (kainatdan) qıraqda ola bilməz. Onun təbii və mücərrəd bilikləri də məhz bu prinsiplərə-sistemdaxili qanunauyğunluqlara söykənir. Mücərrəd və təbii biliklər bir-birilərini əvəz edirlər, vəhdətdə iştirak edirlər. Biliklər **real** və **ideal** olmaqla mövcud reallığı və gələcəkdə

reallaşması mümkün və qeyri-mümkün olan reallığı, yəni ideallığı ifadə edənlərdir. Deməli, biliklər zamana əsaslanır, zamanda əks olunur. Hüquqa münasibətdə biliklər onun subyektinin maraq, ehtiyac və tələbatlarını əks etdirən və subyektin özünü xassələndirən **ontoloji biliklər,** hüquq subyektiinin fəaliyyəti haqqında mövcud olan **qnoseoloji biliklər** və hüququn haqla (Ulu Tanrıdan verilən haqlar) əlaqəsini əsaslandıran **teoloji biliklər** kimi tərkib hissələrə ayrıla bilər. Hər üç istiqamət təbii və pozitiv hüquqların vəhdətini özündə əks etdirir. Bu üç şərti istiqamət hüquqi biliklərin sinergizmini, yəni daha çox faydasını və geniş əlaqəsini meydana gətirir. Ontoloji –hüquqi biliklər insanların bioloji xüsusiyyətlərinə bağlıdır. Qnoseoloji biliklər fəaliyyətlə əlaqəlidir. Teoloji-təbii hüquqi biliklər isə hüququn hər iki şərtləndirici mənşə amilinə (mənbə amilinə) əsaslanır. Ontoloji-qnoseoloji-teoloji dərk etmə vəhdəti insan hüquqlarının fəlsəfi-məntiqi metodlarını meydana gətirir və fəlsəfi-məntiqi metodların özündə məüyyən formulaları yaradır. Biliklərin müəyyən olunması standartları da öz növbəsində bütün hüquqi sahələrdə öz əksini tapır və müxtəlif obyektlərə söykənir.

Bilik müşahidələrin məhsulu olaraq obyektiv və subyektiv əsaslarla mövcudluğun və gerçək hadisələrin beyində obrazlanmasıdır. İnsan hüquqlarının təmin olunması, bu hüquqların insanların təbii vəziyyətlərinin ifadəsi, hüquqi müdafiə məsələləri məhz müşahidələrə əsaslanan biliklərin meydana gəlməsini şərtləndirir. **Bilik** hadisələrin gerçək mahiyyətinin müəyyən mərhələdə və səviyyədə dərk olunmasıdır və dərk olunma formasının ifadələrdə (bilik mənbələrində, bilik verən məlumat mənbələrində) öz əksini tapmasıdır. **Biliklər** araşdırma sayəsində əldə edilən müəyyənliklərin ifadə olunmasıdır. **Bilik** xassə və əlamət müəyyən edəndir. **Bilik** varlığın ontologiyasının (varlığın xassəsinin təsnifi ) əsasıdır. Ontoloji biliklər sayəsində var olan

şeylər (vasitələr) baş beyində obrazlı qaydada əks olunur. Əks olunmuş siqnallar obrazlı şəkildə dərk edilir. **Biliklər** hadisələr arasında təbii qanunauyğunluqların dərk olunmuş formada baş beyində əks olunmasıdır. Bilikər sayəsində, qəbul edilən siqnallara müvafiq olaraq psixi vəziyyətlər (məsələn, stresslər, depressiyalar) meydana gəlir, xarakter formalaşır. Deməli, insan xarakteri onun əldə etdiyi siqnalların daxili genetik siqnallarla vəhdətindən ortaya çıxan bir dəyər və nemətdir. Biliklər insan xarakterinin formalaşmasına öz müsbət və şərti olaraq mənfi təsirlərini göstərir. Biliklər sayəsində zəka işıqlanır və bu amil də insan psixologiyasının formalaşmasında özünəxas yer alır. Məsələn, məktəb sistemi və sistemli olaraq biliklərin mənimsənilməsi uşaqların, yeniyetmə və gənclərin təbiətinə təsir göstərir. Hətta qəbul etmək olar ki, insan bilikləri onların fizioloji xüsusiyyətlərinə də təsir edir və temperamentlərin formalaşmasında mühüm rol oynayır. Biliklər **ekzoterik** (populyar, yəni çoxları üçün aydın olan) və **ezoterik** (daxili, yəni savadlı, elmli, aidiyyatı sahələr üzrə bilikli adamlar üçün nəzərdə tutulan) olur. İnsan hüquqlarının normalar şəkilində əks olunması məzmun etibarilə ekzoterik məna kəsb edir və sadə dildə izah olunur. Bu baxımdan da qanunvericilik aktları sadə dildə, kütlə tərəfindən başa düşülməsi asan dildə yazılır. Çünki normalar insanların universal və fərdi maraqlarının ödənilməsinə əsaslanır. Ezoterik biliklər daha çox terminləri, anlayışları özündə əks etdirir. ***(Qeyd: insan hüquqlarında da ezoterik ifadələr yer alır. Lakin bu ifadələrin açılışı da verilir. Ekzoterik biliklər isə ümumi dildə və sadə üsullarla izah olunur).*** Fəlsəfi-ontoloji və fəlsəfi- qnoseoloji biliklər məhz ezoterik olmaqla daha çox elmi mahiyyət kəsb edir. Çünki fəlsəfi məzmun tələb edir ki, biliklər şərti öz sistemi ilə, eləcə də sistemlərarası qaydada izah olunsun. Biliklərin formalaşmasında sistemlilik, fəlsəfi kateqorial yanaşma və konseptuallıq mühüm əhəmiyyət

kəsb edir. Sadə yolla izah olunmanın təkmil forması elmi biliklərin əsaslarını təşkil edir.

Biliklər həm də məxsusi (subyektiv) izahlardır. Bütövün tərkib hissələri haqqında müəyyən məlumatların əldə olunması və bütöv haqqında yekunlaşdırılmış məlumatlar biliklərin əsasını təşkil edir. Biliklər bütövlə yanaşı, tərkibin də meydana gəlməsində (tərkibin də izah olunmasında, elementlərin xassələndirilməsində) mühüm əhəmiyyət kəsb edir. Biliklər sistemli olur bu zaman, əvvəlcə də qeyd olunduğu kimi, elm istiqamətləri meydana gəlir. Biliklər həmçinin obyektiv reallığı həm obyektiv surətdə, həm də subyektiv əsaslarla özündə əks etdirir. Obyektiv və subyektiv dərketmə əsasən subyektin anlamaq imkanlarından meydana gəlir. Biliklər sahələr üzrə elm istiqamətlərini meydana gətirməklə sahələrin qruplaşmasını da yaradır. Bütün biliklər əlaqəlidir və insanların fəaliyyətinə və biliklərin obyektinə uyğun olaraq sistemləşdirilir. Biliklər inkar olunur və bu daha çox inkişaf sayəsində meydana gəlir. Biliklər definisiyaları da (nominal-*ad, məna*; real-*mahiyyət*; deskreptiv-*izahlı*; genetik-*mənşə, etimolgiya*; konkretlik-*əksliklə müqayisə*), yəni onların qısa məntiqi təriflərini də meydana gətirir. Bu təriflər elmi sistemləşmənin əsaslarını formalaşdırır. İnsan hüquqları konseptual əsaslarla təriflərdən ibarət olaraq geniş şəkildə dərk olunur. Burada insan hüquqlarının dərk olunmasında dialektik vəhdət böyük rol oynayır.

Biliklər haqqında təlimlər yaranır, baxışlar qruplaşdırılır, cərəyanlar meydana gəlir. Hüquqi biliklər elmi yanaşma üsulları vasitəsilə də genişlənir. Burada insan hüquqlarının ayrı-ayrı sahələr üzrə bölünməsi və bölünən istiqamətlər üzrə elmi-araşdırma üsullarının tətbiqi məhz hüququn nəzəri baxımdan genişlənməsinin əsaslarını meydan gətirir. İnsan fəaliyyəti çoxaspektli olduğundan hüquqi yanaşmalar da çoxdur və hüququn predmetinin də istiqamətləri çoxluq təşkil edir. Deməli, hüquqi biliklər genişənir, mikro dairələrdən kənarlara çıxır və iqtisadi və siyasi inkişafın tələblərinə müvafiq olaraq, həm bu kimi proseslərlə tamamlanır, həm də

nəzəri baxımdan həmin prosesləri qabaqlayır. Yəni hüquqi biliklər gələcək inkişafın nəzəriyyəsinə çevrilir, reallıqlar üçün, həmçinin təcrübi fəaliyyət naminə istiqamətləri müəyyən edir. Deməli, hüquqi biliklərin ideal əsasları çox zəngindir və real-praktiki əməlləri və insanların real maraqlarını qabaqlamaq imkanlarına xas olur.

Əvvəlcə qeyd olunduğu kimi insan hüquqlarının fəlsəfi mahiyyəti bu hüquqların dərk olunmasının tərkibindən asılıdır. İnsan hüquqları anlayışı fəlsəfi baxımdan ontoloji və qnoseoloji aspektlərlə dərk olunur. Ontoloji aspektlər, ontoloji izahlar və onların qruplaşdırılması, təsnifatı məhz ontologiyanın –varlıq haqqında təlimlərin, meydana gəlməsini təmin edir. Varlıq haqqında təlimlər həm də qnoseologiyada öz əksini tapır. Hüquq insana aid olduğu üçün hüququn baza mahiyyəti, hüququn fəaliyyətlə əlaqəli tərəfləri, bağlılığı da ontoloji və qnoseoloji əsaslarla müəyyən olunur.

Fəlsəfi izahlara əsasən, **ontologiya-**varlıq haqqında təlimdir. Ontologiya yunan sözü olub, varlıq və təlim (varlıq və söz, varlıq və anlayış) deməkdir. Ensiklopedik izaha əsasən, **ontologiya** fəlsəfənin bir bölməsidir. Mövcudluğun fundamental prinsiplərini daha çox ümumi mövcudluq və mövcudluq kateqoriyası ilə öyrənir. Bəzən ontologiya metafizika ilə eyniləşdirilir (oxşadılır), lakin tez-tez hallarda onun tərkibi kimi götürülür. “Ontologiya” termini (“antinomiya” termini də aid olmaqla) ilk dəfə alman filosofu Rudolf Qokleniusun (1547-1628) 1613-cü ildə tərtib etdiyi “fəlsəfi leksikonun”da (“Fəlsəfi lüğət”ində) meydana gəlmiş və X.Volfun fəlsəfi sistemi ilə möhkəmləndirilmişdir. *(Xristian fon Volf-alm.Christian Freiherr von Wolf- 1679-1754-alman alimi ensiklopedisti, filosofu, hüquqşünas və riyaziyyatçısı olmuşdur. Leybnis və İ.Kanta qədər olan dövrün fəlsəfəsinin məşhuru idi. Alman fəlsəfi dilinin banisi hesab olunur).* Ontologiya mövcudluğun özü haqqında bir təlim kimi təbiətin mövcudluğu haqqında təlimdən hələ qədim yunan dövründə ayrılmışdır. Lakin bu ifadənin xüsusi terminoloji mənası olmamışdır. Parmenid və digər filosoflar hesab etmişlər ki,

həqiqi biliklər yalnız varlıq haqqında fikirlərin yekcins, əbədi və dəyişməz vəhdətindədir, birliyindədir. Onlar qeyd etmişlər ki, varlıq haqqında fikirlər yalan ola bilməz, fikir və varlıq eynidir. Yəni, fikir yalnız varlğı izah edə bilər.[1] Ontologiya həmçinin ali hissiyyat dünyası haqqında təlim kimi də nəzərdən keçirilir. Bununla yanaşı, dünya haqqında bütöv (ümumi) təlim kimi də başa düşülür. Bu termin orta əsrlərdə müxtəlif dəyişikliklərə məruz qalmışdır. Yeni dövrdə ontologiya metafizikanın, cəm halda varlığın yüksək hissiyyatdan ibarət olan tərkibi kimi başa düşülürdü. Bu termin Kantın və Hegelin idealizmində tənqid olunmağa başlandı. Sonradan ontologiya anlayış kimi bütöv dünya haqqında elm kimi başa düşüldü.[2]

**(Qeyd: "Antologiya"** sözü də vardır. Antologiya ontologiyadan fərqli mənaya malikdir. **Antologiya** –yunan sözü olub, hərfi mənası çiçək, gül toplama deməkdir. Müxtəlif müəlliflərə xas olan ədəbi, fəlsəfi, musiqi əsərlərinin məcmuəsidir. Məsələn, qədim yunan fəlsəfəsi antologiyası dedikdə, bu termin qədim yunan filosoflarının əsərlərinin məcmuəsi kimi başa düşülür. Qədim dövrlərdə müxtəlif müəlliflərin şerlərinin toplandığı kiçik epiqrafik xarakterli məcmuələr tərtib olunurdu).[3]

Kainat da varlıqlardan ibarətdir. İnsanlar da kainat varlıqlarının tərkib ünsürləri olaraq canlı aləmlərin tərkiblərindən biridir. ***(Ümumiyyətlə isə hər şey hərəkətdə olduğundan şeylər canlanmağa, oyanmağa, dirçəlməyə xas olur. Sadəcə olaraq ümumi və məxsusi sistemlilikdə hərəkətlərin dərəcələri mövcuddur. Bu dərəcələri də sürətlər meydana gətirir. Qüvvə tətbiqinin çoxluğu sürəti***

---

[1] Институт Философии Российской Академии Наук. Новая философская энциклопедия. Онтология. http://iph.ras.ru/elib/2181.html

[2] Онтология, гносеология, аксиология, антропология, как основные разделы философии. Цифровая библиотека по философии. www.filosof.historic.ru/books/item/f00/s00/z0000000/st001.shtml

[3] Современная энциклопедия. 2000. Антология. www.dic.academic.ru/dic.nsf/enc1p/5578

***artırdığından hərəkət də artır. Deməli, insanlara (başqa canlılarla yanaşı) təbiət və kainat tərəfindən daha çox qüvvə tətbiq olunur ki, insanlar canlı olaraq bir sistem kimi daha çox hərəkətdə olurlar. Bu prinsipdən çıxış edərək hesab etmək olar ki, od, su, hava və torpaq substansiyaları- material aləmləri canlılardır. Kainatda canlılar-materiyalar- arasında mübadilələr baş verir. Nəticəsi isə kainatın bütövlüyünə və bu bütövlük içərisində müxtəlif tərkibliliyinə xidmət edir)***. İnsanlar kainata ona görə əhəmiyyət verə bilirlər ki, (buna qabiliyyətləri və istedadları çatır) kainatın əlamətlərini özlərində cəmləşdirirlər. Deməli, insanlar kainat və təbiət hadisələrini dərk etmək və onlara qiymətlər vermək iqtidarında olurlar. Lakin insanların dərk etmək qabiliyyətləri müxtəlif dərəcələrə malik olur. İnsanlar bir varlıq kimi öz maraq və məqsədlərini şüurları ilə istiqamətlənmiş əsaslarla təmin etməyə çalışırlar. Bu baxımdan da varlıq kimi sistemli quruluşa malik olurlar və öz maraqlarını da sistemləşdirməyə çalışırlar.

Daha çox daxili tarazlığa malik olan insanlar məhz daha çox sistemli insanlardır. Tarazlı insanlar həm də ətrafla tarazlı əsaslarla əlaqələr yarada bilirlər. Tarazlı xassələrə malik olan insanlar ətrafla siqnallarını güclü edirlər və müəyyən məkanlarda olan siqnalları bir qədər çox qəbul edə bilirlər. İnsanların mürəkkəb sistemləri onların maraqlarının da mürəkkəb əsaslarının meydana gəlməsini təmin edir. İnsan maraqlarının sistemləşməsi onların siyasi və ictimai baxımından strukturlaşması və münasibət və əlaqələrinin qruplaşdırılmasından irəli gəlir. İnsanlar bu baxımdan bir varlıq kimi öz diqqətlərini özlərinə cəlb edir və varlıq kimi maraqlarının təmin olunmasında siyasi təşkilatlanmaları və dövlətləri iştirak edirlər. İnsanlar öz hüquqlarını dərk etmək üçün cəmiyyətin və dövlətin mahiyyətini dərk edirlər. Çünki insan hüquqlarının təmin olunması məhz idarəçiliklə, tənzimləmə ilə yerinə yetirilir. Bu baxımdan insanların varlıq kimi xassələrini öyrənən bir çox elm istiqamətləri ilə yanaşı,

humanitar elm də mövcuddur. Humanitar elm məhz insan maraqlarının ictimai əsaslarını öyrənir. İnsanların fəlsəfi varlıq kimi mövcudluqları və fəaliyyətləri böyük mənalar kəsb edir, dərin məzmunlara xas olur. **Bu baxımdan da insan ontoloji obyekt kimi öz-özünün diqqətini cəlb edir. İnsanın maraq və məqsədlərinə, eləcə də vəzifə və funksiyalarına şüurlu yanaşması elə onun ontoloji ünsür kimi əhəmiyyətini üzərə çıxarır.** Lakin ontoloji əhəmiyyət həm də fəaliyyətlə şərtlənir. Çünki insanların xassələri, onların təyinatının xassəsi, quruluşları və fizioloji və psixoloji əhəmiyyət kəsb etmələri məhz onların fəaliyyətlərinin araşdırılması ilə bağlıdır. Fəaliyyətlərinin araşdırılması əsasən biliklərin meydana gəlməsini təmin edir. Şəbəkəli fəaliyyət elə sistemli biliklərin formalaşmasının əsasında dayanır. İnsan hüquqları elmin obyekti kimi və ona istiqamət verərək şəbəkəli fəaliyyətin əsasında dayanır. Burada ontoloji biliklər qnoseoloji biliklərin formalaşmasını zəruri edir. Ontologiyaya yanaşma və yanaşmadan meydana gələn biliklərin özü elə qnoseoloji biliklərdir. Bu baxımdan da qnoseologiya ontologiyaya xidmət edir, hər ikisi vəhdət şəkilində insan və onun varlıq kimi əhəmiyyətini, mənasını aşkarlayır. Qeyd olunduğu kimi, qnoseoloji biliklər öz-özlüyündə məhz ontoloji biliklərin formalaşmasına xidmət edir. Ontoloji biliklərin davamı həm də qnoseoloji biliklərdə mövcud olur. Qnoseoloji biliklər həm də insanların digər canlılarla olan təmaslarının əhəmiyyətini ortaya çıxarır. **İnsanlar qnoseoloji biliklər vasitəsilə özlərinin maddi aləmlərini məhz mənəvi aləmləri ilə birləşdirə bilirlər. Qnoseoloji biliklər burada artıq mücərrədləşir, ideallaşır, qeyri-mütləq və istənilən, arzu edilən, bu baxımdan metafizik məna kəsb etməyə başlayır.** Qnoseoloji təfəkkür, qavrayış insanları idealizmə aparır ki, bu da özlüyündə insan hüquqları üzrə ideal-nəzəri fikirlərin meydana gəlməsini şərtləndirir. Bu baxımdan da hüquqi bilikləri qnoseoloji (idealizmə söykənən, eləcə də real

gerçəklikləri xarakterizə edən) biliklər kimi də xarakterizə etmək mümkündür. Qnoseoloji əsaslar həm də hüququn haqdan (insanların yaranmasının haqdan qəbulu-burada Ulu Tanrı tərəfindən yaranış nəzərdə tutulur) gəlişinin olduğunu da qəbul edir. Ontoloji və qnoseoloji biliklər əsasən dualizmə söykənsələr də ümumi məzmun baxımından vəhdətdə birləşir. İnsan hüquqlarının məntiqi əsası insanların həyatda təbii yaşamalarını xassələndirmək üçündür və bu baxımdan da insan hüquqlarının təbii məzmunu onun ontoloji və qnoseoloji mahiyyətində cəmləşir və vəhdət təşkil edir. Hər iki yanaşma insan hüquqları anlayışının fəlsəfi mənasını aşkarlayır.

Mütləq (aşkar olunan) varlıq **(mütləq qaydada var olan və əlaməti bəlli olan, siqnallarla qəbul edilən və obrazlarda əks olunan mövcudluq)** onun hərəkətində, forma və məzmununda müəyyən olunur. Varlığın əlaməti onun mütləq mövcudluğunun əsasıdır. Varlıqar-müəyyən və qeyri-müəyyəndirlər. Ontologiya varlığın müəyyənliyinin izahını vermək üçündür. Ontoloji təfəkkür obyekt və subyektin vəhdətini təbii birləşmədə, təbiətə bağlılıqda, vəhdətdə və tərkibdə axtarır. Bu mütləq mövcudluq haqqında fikir bildirmək isə varlıq haqqında təlimləri meydana gətirməkdən ibarətdir. Varlıq haqqında təlimlər sistemli biliklərdən və subyektiv izahların əlaqəli əsasını təşkil edən obyektiv izahlardan ibarətdir. Varlığın xüsusiyyətlərinin izah olunması, şərh edilməsi əsasən varlığın özü haqqında biliklərin meydana gətirilməsindən ibarətdir. Burada əldə olunmuş biliklər üzərində şaxələnmə prosesləri həyata keçirilir. Şaxələnmə sayəsində biliklər inkar da olunur. Varlıq haqqında biliklər subyektiv və obyektiv əsaslara malik olur. Obyektiv biliklər daha çox geniş yayılmış əsasları özündə əks etdirir və baza istiqamətləri cəmləşdirir. Obyektiv biliklər daha çox inandırıcı və faydaverici əsaslara malik olur. Varlıq haqqında obyektiv biliklər onun mütləq forma və məzmununun özünəxas qaydada və insanlara verilən əqli qabiliyyətlərə uyğun şəkildə mövcud

olan biliklərdir. Varlıq haqqında ontoloji biliklər empirik məna kəsb edir, eləcə də koqnitiv əhəmiyyətə malik olur. Varlıq haqqında (insan haqqında) biliklərin meydana gəlməsini elə insanların özləri həyata keçirirlər. Çünki insanlar öz daxillərində olanları subyektiv olaraq aşkar edə bilirlər. Aşkarlama əsasən sistemli olur və nəticə etibarilə anlayışların sistemli izahlara söykənən tərifləri meydana gəlmiş olur. Obyektiv biliklər mövcudluğun obyektiv gerçəkliyini daha çox izah edən və ətrafdakıları inandıran və ətrafdakılardan, ətraf aləmdən faydalı edən biliklərdir. Obyektiv biliklərin dərk olunmasının yüksək səviyyəsinin təmin edilməsi subyektiv yanaşmalar zamanı daha çox aydınlaşdırmaq qabiliyyətinin olmasından irəli gəlir.

İnsan hüququn daşıyıcısı (subyekti) olduğundan onun fəaliyyəti haqqında mövcud olan və xüsusən fəaliyyətini insanların özlərinin daxili xassələrinə bağlı edən bütün biliklər məhz ontoloji biliklərdir. İnsanlar öz hüquqlarını ontoloji əsaslarla dərk edirlər. İnsanlar bir varlıq kimi ontoloji obyektlər rolunu oynayırlar. Lakin biliklər haqqında olan təlimlər (ideal-təlimlər) isə qnoseoloji əsasları özündə cəmləşdirir. Biliklərin bütövləşməsi baxımından nəzəri aspektlərə görə qnoseologiya ontologiyanı öz daxilində birləşdirir. İnsanların fəaliyyətinin əsasları hüquq normaları ilə siyasi və sosial məna kəsb edir. Hüquq normları fəaliyyətin nizamlanması haqqında olan biliklərdir və bu biliklər demək olar ki, daima genişlənir və ictimai münasibətlərin xassələrinə və cəmiyyətin inkişafına müvafiq olaraq daima çoxalır. Baza -hüqiqi ontoloji biliklər qnoseoloji biliklərin meydana gəlməsində baza obyektiv əhəmiyyət kəsb edir. Hüquq haqqında sistemləşdirilmiş nəzəri biliklər isə hüququn qnoseoloji əhəmiyyət daşımasını üzərə çıxarır.

**Qnoseologiya** biliklər haqqında təlimdir**.** Fəlsəfi ensiklopedik izahlara əsasən**, qnoseologiya-**yunan sözü olub, “bilik” və “təlim” sözlərinin birləşməsidir. Qnoseologiya-idrak

nəzəriyyəsi olaraq, dərketmə prosesində obyekt və subyektin qarşılıqlı əlaqələrini öyrənir, həmçinin həqiqi biliklərə olan münasibəti, insanlar tərəfindən dünyanın dərk olunması imkanlarını, biliklərin həqiqi və düzgünlük kriteriyasını öyrənir. Qnoseologiya insanların dünyaya, onun başlanğıc şərtlərinə və ümumi əsaslarına olan şüurlu (idraki, əqli) əlaqələrinin (münasibətlərinin) mövcudluğunu tədqiq edir. [1] Qnoseologiya ikinci aspektdə fəlsəfi dissiplin (fənn) olaraq, tədqiqat predmeti kimi dərketmənin bir formasını-elmi formasını- müəyyən edir. Bu hallarda **epistemologiya** termini işlədilir. Fəlsəfədə **qnoseologiyanın əsas prinsipləri** kimi bunlar qəbul edilir: *fikir və varlığı eyniləşdirmək (dünyanı dərk etmək prinsipi); dərketmə prosesinin dialektikası; ictimai praktika (dünyanın dərk olunması əsasları).* **Əsas bölmələri bunlardır:** *əks olunma haqqında təlim; obyektiv dünyanın dərk olunması haqqında təlim; dərk etmənin mənşəyi və inkişafı haqqında təlim; dərketmənin əsası kimi təcrübə haqqında təlim; həqiqət və onun düzgünlüyü (səhihlik) haqqında təlim; insanın, cəmiyyətin şüurlu (dərketməyə əsaslanan) fəaliyyətinin mövcud olduğu forma və metodlar haqqında təlim.* **Dərketmənin əsas formaları:** hissi dərketmə-duyğu, qavrayış, təqdimetmə; rasional dərketmə- başa düşmə (anlayış), mühakimə, əqli nəticə; irrasional formaları-intuisiya və başqaları; təsəvvür (elmi), fantaziya (elmi).[2]

Biliklərin qruplaşması, ontoloji xüsusiyyətləri əhatə etməsi və sistemləşməsi qnoseoloji təlimlərlə də (idealizm əsasları ilə də) həyata keçirilir. Ontologiya və qnoseologiya anlayışları ümumi biliklərdə, demək olar ki, başlanğıc tezislərdə birləşir, nəticə etibarilə cəmləşmiş, bu baxımdan ümumiləşmiş və xüsusiləşmiş məzmun alır. Buradan da analizlərdə özlərini

---

[1] Онтология, гносеология, аксиология, антропология, как основные разделы философии. Цифровая библиотека по философии. www.filosof.historic.ru/books/item/f00/s00/z0000000/st001.shtml

[2] Гносеология. Философия. www.labrip.com/dop_t1r16part1.html

göstərir. Ontoloji biliklər material-maddi aləmin bazasında özünə yer alır, qnoseoloji biliklər isə bu biliklərə olan yanaşmaları əks etdirir. Çünki varlıq olmadan material biliyin, həmçinin onun yuxarı mərhələsi olan mənəvi biliyin formalaşması qeyri-mümkündür. Ontoloji və qnoseoloji biliklər sistemləşir və tərkib strukturlarına çevrilir. **Hər iki bilik vəhdətdədir və biri mövcudluğun izahını, digəri isə mövcudluqdan irəli gələrək fəaliyyətin əsaslarının izahını verir. Ontologiya varlğı izah edir, onun daxili aləmini açmağa çalışır. Qnoseologiya isə daha çox varlığın hərəkətlərinin əsaslarını və bu əsasların idealizmə əsaslanmasının istiqamətlərini izah edir.** Qnoseologiya ontologiyanın, ontoloji biliklərin tərkibindən formalaşır. Hüquqi biliklərin qnoseoloji mənası isə hüquq daşıyıcısı olan tərəflərin fəaliyyətinin məram və məqsədlərindən meydana çıxır. Hər iki biliyin sistemləşdirilməsi və vahid istiqamətlərdə və mərkəzlərdə cəmləşməsi məhz varlığın ümumi təlimini meydana gətirir. Ontologiya varlığın qeyri-müəyyən tərkibini araşdırmanı, qnoseologiya isə varlığın fəaliyyətinin qeyri-müəyyən hissəsini araşdırmanı qarşısına məqsəd qoyur. Hər iki bilik istiqamətinin predmeti və obyekti varlıq üzərində cəmləşir. Bununla da bu iki bölgü şərti xarakter kəsb edir və əslində hər iki istiqamət elə ontoloji biliklərin formalaşmasına xidmət göstərir. Ontoloji biliklər qnoseoloji biliklərin genişlənməsinə də xidmət göstərir. Məsələn, varlığın özünün öyrənilməsi sayəsində onun fəaliyyətinin əsasları da obyekt kimi tədqiqata cəlb olunur. Ən əsası isə odur ki, nəyisə öyrənmək elə həmin şeyin özünü bir varlıq kimi –mücərrəd və konkret varlıq kimi, öyrənməkdən ibarət olur.

İnsanlar öz hüquqlarını təmin etmək üçün yaxşıları axtarırlar və onların maraqlarına cavab verənlər elə reallıqla ideallığın vəhdətində meydana gəlir. Nəzəri fikirlər daha çox insanların istək və arzularını ifadə etdiyindən qnoseoloji əsasları özündə cəmləşdirir. Nəzəri fikirlərin reallıqda əks

olunması, həm də yüksək formada əks olunması, yəni tətbiqi üçün imkanlar və şəraitin yetişməsi tələb olunur. Ontologiya varlığı bir məkanda axtarır, qnoseologiya isə məkandan da xaricə çıxara bilir. Bu, əsasən, gələcəklə vəhdətin yaranmasına xidmət edir. Ontoloji biliklərin qnoseoloji biliklərlə vəhdəti və qnoseoloji biliklərin ontoloji bilikəri tamamlaması baza etibarilə hüququn gələcək əsaslarının formalaşmasına xidmərt edir. İdeal biliklər daha çox gələcəyin təmin olunmasına əsaslanır.

## Hüququn ontoloji əsaslarla dərk olunması

Bu məsələyə əvvəlcə bir qədər yanaşılma edilibdir. Ali düşüncəli varlıq öz-özünü dərk edir. Dərk edərək özünün və əməlinin mahiyyətini başa düşür, aşkarlayır. Özü və əməli arasında vəhdəti, səbəb və zərurəti, əməli nəticəni axtarır. Ontologiya rasional təfəkkür təlimi olaraq sistemli qaydada insanın təbiətlə təmaslarında mənaları aşkarlayır. Hüququn ontologiyası ***(hüququn daşıyıcısı olan insanlar haqqında təlimlər və bir də istiqamət kimi hüquq haqqında təlimlər)*** elə hüquq subyektlərinin maraq və ehtiyaclarından irəli gələn subyektiv əsaslı mövcudluğunun elmi əsaslarla sistemli qaydada izahıdır. Bu elmi əsas şəbəkəli xassəyə malikdir və çoxaspektliliyi özündə cəmləşdirir. İnsanlar öz aləmlərini dərk etmək üçün daxillərində olan qaranlıqları silsilə-silsilə açmağı üstün tutmalı olurlar. Bu da nəticədə şəbəkəli və pilləli dərk etmənin əsaslarını meydana gətirmiş olur. İnsanlar özlərini təcrübələrə, əmək fəaliyyətinə söykədərək dərk etməni üstün tuturlar. Bu anda empirik əsaslı dərketmə meydana gəlir. Ətraf aləm, insanların təmas qurduqları aləm elmi əsaslarla, material aləmin əks olunmaları ilə dərk olunur. Əks olunma sayəsində (məsafə baxımından siqnalların mənbəyə çatma dərəcəsi baxımından) insanlar obyekt olaraq yaxın məkanları, həmçinin uzaq məkanları dərk edirlər. Bu dərketmə onlara siqnallarla

ötürüldüyündən, siqnalların qəbul edilməsi də mərhələ-mərhələ həyata keçirilir. Bu da özlüyündə sistemli dərketməni yaradır. Ontoloji aspektlərdə insanlar mahiyyəti və formanı dərk edirlər məzmun axtarırlar. Burada sistem əsaslı fəaliyyət baza olaraq dərk olunur. İnsanlar öz sistemli əməlləri ilə dərk olunmanı üstün tuturlar.

Tərkib və bütövlər ardıcıl olaraq dərk olunur. İnsan hüquqları tərkib və bütövdən ibarətdir. İnsan hüquqları üzərində ardıcıl düşünmə prosesləri bu hüquqların tədricən aşkar olunmasına gətirib çıxarır. Ardıcıl düşüncə tərkibi daha çox aşkarlayır. Ardıcıl aşkar etmək prosesləri özlüyündə insan hüquqlarının silsilə şəkilində başa düşülməsinə səbəb olur. İnsan hüquqlarını insanlar həm öz daxillərindən birbaşa dərk edirlər, həm də ətrafda olan obyektlərə münasibətdə dərk edirlər. Obyektlərə olan münasibətdə dərk etmək prosesləri də əlamətlərə söykənir və siqnallar şəkilində əlamətlərin əks olunmasına əsaslanır. İnsanlar öz daxillərində olan haqlı prinsipləri ətrafla olan təmaslarda da dərk etməyə çalışırlar. Hüququn haqlı dəyəri insanları ətraf obyektlərə bağlayır.

İnsan hüquqları qaydalardan ibarətdir. Bu qaydalar da nizamla tənzim olunur. Bu baxımdan da insan hüquqlarının dərk olunması və təmin olunması əsasən məkanlarla sıx bağlıdır. Məsələn, işçilərin hüquqları işçilərin öz əmək yerlərində, işlədikləri məkanlarda daha çox dərk olunur. İşdən sonra hüquqlar məhdudlaşır. Yeni hüquqlar təmin olunmağa başlayır. Deməli, insanların hüquqları məkanlara bağlıdır, hər bir məkanda olan ictimai münasibətləri tənzim etmək üçün hüquqlar mövcud olur, bu hüquqlar normalarda öz əksini tapır. Məsələn, əmək qanunvericiliyi yalnız müəssisələrdə, təşkilatlarda əmək fəaliyyəti zamanı münasibətləri tənzim edir. Hüquqların dərk olunması insanların hərəkət və fəaliyyətlərinə bağlı olur. İnsan hüquqlarının fəlsəfi kateqoriyalarla bağlılığı məhz qnoseoloji və ontoloji əsasları meydana gətirmiş olur.

Çünki fəlsəfi kateqoriyalar sistemləşdirmənin tərkib kriteriyalarıdır.

Hüququn qnoseologiyası bir təlim kimi ontologiyasından daha da “yuxarıda” dayanır, metafizik məna kəsb edir. Ontologiya burada baza prinsip olaraq xüsusi mənaya malik olur. İnsan öz hüquqlarını özündən, maddi-mənəvi aləmindən dərk edir. Burada ontoloji amil baza amilə çevrilir. İnsan hüquqları insanlara cəmiyyətin və dövlətin ünsürləri olaraq **iki aspektdə** yanaşmağı tələb edir. Birincisi, insanlar və onların varlıqlarının (mövcudluqlarının) əsasları, ikincisi, insan hüququnun əsasları. Hüquq həm insana bağlılıqda, həm də ayrı-ayrılıqda təlim obyekti olaraq şərh edilir. Bu iki istiqamət atributivdir, daha doğrusu hüquq insanın immanent, yəni təbii xassəsdir. Hüquq bir varlıq kimi insanın ontoloji sübutunun əsasıdır. İnsan varsa, sistemli quruluşdursa, deməli, hüquqları da sistemli xassələrə bağlıdır. Sistemlilik də ontoloji və qnoseoloji yanaşmaları meydana gətirir. İnsan hüquqlarının sistemli əsasları onun nizamlı qaydalara tabe olmasından irəli gəlir. Tərkib nizamlanır. İnsan təfəkkürü də öz hərəkətlərini və əməllərini nizamlı əsaslarla dərk edir. Bu əsası insan əqli və insan baxışları müəyyən edir. İnsan əqli də informasiyaları siqnallar şəkilində beyinə qəbul edir. Dərk etmə əsasən məlumatların sistemli şəkildə qəbulundan meydana gəlir. Ardıcıllıq və sistemlilik anlayışın daha da dərindən dərk olunmasının əsaslarını meydana gətirmiş olur. Bu sistemlilik də fəlsəfi-məntiqi metodlarla formalaşır. Fəlsəfi-məntiqi metodlar tərkibin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Tərkib elementlər sistemlilik prinsiplərinə müvafiq olaraq öyrənilir. Hüququn ontologiyası elə hüququn bir istiqamət kimi izah olunmasına xidmət edir və bu baxımdan insan varlığını elə onun cəmiyyət və siyasət ünsürü kimi həm şərti ayrı mövcudluğunda, həm də vəhdətində axtarır. Ontoloji baxışlar, insanın daxili aləminin və xarici aləminin dərk olunması elə

insanın mənəvi dəyəri olan hüququnun dərk olunmasından meydana gəlir.

Hüququn ontologiyası subyektin həm təbii xassəsinə söykənir, onu izah edir, həm də təbii xassələrin davamını özündə cəmləşdirir. Ontologiya hüququn subyekti haqqında, əsasən hüquq tərəfi olan insan haqqında xassələndirici biliklərin meydana gəlməsinə xidmət edir. İnsan təfəkkürü (idrak metodları yolu ilə, qavramaq və emal etmək prosesləri ilə) insanın bir hüquq obyekti və subyekti kimi ontoloji varlığının əsaslarını izah edir, aydınlaşdırır. Hüququn ontoloji əsaslarından onun qnoseoloji əsasları meydana gəlir. Hüquqi biliklər elə insan xassələrini və onların fəaliyyətinin xassələrini müəyyən edən ontoloji-qnoseoloji biliklər məcmuəsindən ibarətdir. Çünki hüquq insanların həm real-empirik fəaliyyətinin təsdiqidir, həm də qeyri-real fəaliyyətin nəticəsidir. Hüquq tərkibdə “yatan” bir dəyərdir. Fəaliyyət olduqca hüquq da “oyanır”. Hər bir hüquq subyektinin fərdi və universal xassəsi həmin subyekt haqqında biliklərin meydana gəlməsini xassələndirir. Həmçinin ontoloji biliklər toplumun maraq və ehtiyaclarından, vəzifə və səlahiyyətlərindən irəli gələn obyektiv mövcudluqdur. Şəxsin hüququ onun predmet kimi dərketmə obyektini meydana gətirir. Hüquq daşıyıcılarının hüquqlarının tərkibini meydana gətirən kriteriyalar məhz hüququn ontologiyasını təşkil edir. Hüququn ontologiyası (hüquq subyektinin varlığı haqqında təlim olaraq) bir yanaşma kimi hüquq daşıyıcısına aid olan təkmilləşmiş fikirdir, fikirlər cəmidir. Hüquq subyektinin bioloji-psixoloji – sosioloji xassələri onun ontologiyasının əsasında yer alır. Hüququn subyektinin fəaliyyət xüsusiyyətləri onun özünün (yəni, hüquq daşıyıcısının) mənasını üzərə çıxarır.

Hüququn ontologiyası (hüququn insan təbiətinə xas olmasını ifadə edən baxışlar elə ontologiyanı yaradır) insanların vəzifə, səlahiyyət, ixtiyar, sahiblik və öhdəlik kimi xassələrinin tərkib ünsürlərinin ontologiyasının (baxışların)

əsasıdır. Hüququn ontologiyası həm də bu kimi tərkiblərin xassələrinin meydana gəlməsində böyük əhəmiyyət kəsb edir. Hüququn ontologiyası hüquq subyektinin bütün hallarda mövcudluğunun əsaslarını meydana gətirir. Yəni insanlar harada olmalarından asılı olmayaraq universal hüquqlara sahibdirlər və bu, subyektiv hüquq (fərdi hüquq) formasında öz həllini tapır.

**Hüquq anlayışının ontoloji əsaslarla dərk olunmasında aşağıdakı sistemli istiqamətləri ümumiləşdirilmiş şəkildə qeyd etmək olar:**

-ilk növbədə insanın təbiətin və fövqəltəbiətin yaradılanı olması əsaslarının dərk olunması. Material aləmlə vəhdət məsələsində insanın maddi mövcudluğunun elə insanın özü tərəfindən müəyyən edilməsi. Şüur - materiya vəhdətinin şüur tərəfindən dərk olunması;

-fövqəltəbiətin yaradıcı məhsulu kimi insanın şüurlarından kənar mövcudluğun (aləmin) olması haqqında insanların özlərinin başa düşmələri;

-insanların kainatın siqnallar sistemində özünəxas həcmdə siqnaları qəbul etmək imkanlarının mövcudluğu və bu məsələdə subyektivliyin dərk olunması;

-insan hüquqlarının mənbə kimi təbiətdən və fövqəltəbiətdən gəlməsi fikrinin ümumi olaraq qəbul edilməsi və məntiqi metodlarla bu fəlsəfi məzmunun dərk olunması. *(Burada məntiqi metodlar düşünmə prosesində tərkibi və bölgünü yaradır, hüququ tərkib kimi hər iki bölgü tərəfində: təbiətdə və fövqəltəbiətdə axtarır. Məntiqi metodlar iki strukturu vahid sistemdə üfiqi və şaquli istiqamətdə genişləndirir. Buradan da hüquqların genişlənməsi prinsiplərinin dərk olunması məsələləri meydana gəlir)*;

-insan hüquqlarının insan təbiəti ilə vəhdətdə *(insan xarakteri təbiətdən və mənəvi aləmdən ibarət olan və insanın bu iki aləmlə vəhdətindən meydana gələn, insanın zaman-zaman siqnallarla qazandığı nemətdir)* dərk olunmasının

əsaslarının müəyyən edilməsi. *(Burada universallıq və məxsusiliyin, eləcə də subyektiv maraqların mövcudluğu prinsiplərinin dərk olunması əsas amilə çevrilir)*;

-insanların yaşadıqları cəmiyyətlər və dövlətlərin məzmunlarının dərk olunması və insan hüquqlarının tanınması və təmin olunmasında cəmiyyətin və dövlətin rolunun müəyyən olunması. Dövlətin insanların təbbi xassələrinə uyğun şəkildə qurulan bir qurum olmasının anlaşılması;

-insanların hüquqlarının zaman və məkan prizmasından dərk olunması və resurslar amilinin mövcudluğunun şərh edilməsi;

-insan hüquqlarının insanların yaşayış tərzlərinə uyğun şəkildə təbii olaraq dərk olunması;

-insan hüquqlarının insanların bioloji xüsusiyyətlərinə uyğun olaraq dəyişən əsaslarla (burada yaş məsələsi nəzərdə tutulur) dərk olunması;

-insan hüquqlarının insanın sistemli həyata malik olması prinsipindən dərk olunması və tərkib sistemlərdən əksini tapması

**Hüququn qnoseoloji əsaslarla dərk olunması**

Hüququn qnoseologiyası isə subyektə və hamıya aid olan obyektiv hüquq normalarının məcmuəsidir. Hüquq haqqında biliklər, nəzəri mülahizələr, subyektiv təhlillər cəmidir. Hüquqa aid olan biliklər əsasən təlimlərdə xarakterizə olunur. Hüquqi biliklər hüquq nəzəriyyəsinin yaranmasının əsaslarını təşkil edir. Hüququn qnoseologiyasına (qnoseoloji fikirlərə) insanların bütün hüquq sahələrində (burada fəaliyyətlərindən irəli gələn maraq sahələrində) olan maraqları və onları ifadə edən hüquq normaları aid edilə bilər. Hüququn qnoseologiyası hüquqi biliklər haqqında olan təlimlərdən, bu baxımdan nəzəri fikirlərdən, mülahizələrdən, şərhlərdən, izahlardan ibarətdir. Hüququn qnoseologiyasında biliklərin dərk olunmasında həm

fəlsəfi, həm də elmi-məntiqi təfəkkür iştirak edir. Bunların sayəsində hüquqi biliklərin həm tərkib xassələri meydana gəlir, həm də tətbiqi –təminatı məsələləri üzərə çıxır. Hüquqi biliklər insanları həyatlarının bütün sosial-siyasi aspektlərində müşayiət edir və onların ictimai-siyasi statuslarını müəyyənləşdirir.

Hüquqi biliklər digər elm sahələrində olan biliklər kimi formal və məntiqi idrakın məhsulu olaraq fəlsəfi-elmi məna kəsb edir. Bu, o deməkdir ki, sadə əqli nəticələrdən mürəkkəb nəticələr yaranır və şərtləndirici sahələr çoxlu sayda müstəviləri əhatə edir. Dialektik vəhdət sayəsində tam genişlənmə meydana gəlir ki, bunun da sayəsində hüquqi biliklərin təsnif olunması məsələləri ortaya çıxır. Hüquqi biliklərin sahələr və tərkiblər üzrə dərk olunması qnoseoloji təlimlərin formalaşmasını zəruri edir. Dialektik vəhdət sayəsində hüquqi biliklərin normalara salınması, strukturlaşdırılması və strukturlar arasında vahid məzmunlu istiqamətlərin yaranması halları ortaya çıxır. Hüquqi biliklərin yaranması, əldə edilməsi, digər şəxslər tərəfindən mənimsənilməsi və dərk olunması əsasən fəlsəfi-elmi prinsiplərə söykənir. Hüquqi biliklərin dərk olunmasında tezislər, sintezlər analizlər məntiqi əməliyyatlar olaraq böyük rol oynayır. Baza hüquqi biliklərdən yeni törəmə biliklər əldə edilir. Burada obyektlərin dərk olunması yolu ilə əqli nəticələr çıxarılır və sillogizmlər yolu ilə qnoseologiyanın mahiyyəti dərk olunur. Qnoseologiya hüquqi bilikləri təbiət və qeyri-təbiət dərk etməsində axtarır. Hüququn ontologiyası və qnoseologiyası başlıca olaraq vəhdətdə çıxış edir. Bütün biliklər nəzəri və təcrübi, bu baxımdan elmi (nomomatik) və fərdi (ideoqrafik) olduğundan hüquqa aid olan nəzəri biliklər də bu kimi xassələri özündə əks etdirir. Hüquqi biliklərin elmi əsası baza etibarilə mövcud olan obyektiv hüquqi normalara əsaslanır. Bu normalar hüququn nəzəri xassələrini əks etdirir. Obyektiv hüquqi normalar da mövcud elmi-fəlsəfi yanaşmalar əsasında formalaşır. Bu yanaşmalar sayəsində hüquqi biliklərin sistemləşməsi, baza (fundamental) və üst qat mahiyyət kəsb

etməsi kimi hallar meydana gəlir. Baza biliklər əsasən baza hüququn izah olunması üçün müəyyən edilir. Bu baza biliklər insanların təbii hüquqlarının təsnifatını yaradır və baza hüquqlar bir elmi xətt kimi digər biliklərin formalaşmasında böyük rol oynayır. Hüquqi biliklərin formalaşmasında bioloji, psixoloji, sosioloji və siyasi biliklər də mühüm rola malik olur. Hüquqi nəzəriyyələr məhz ontoloji biliklərin, yəni insanların maddi-mənəvi aləmləri haqqında olan biliklərin məcmuəsindən yaranır və hüquqi biliklərin yaranmasında bu kimi sahələr əsasən şərtləndirici, tərkib formalaşdırıcı əhəmiyyətə malik olur. Onu da xüsusi olaraq qeyd etmək olar ki, hüquqi biliklərinn yaranmasında insan maraqları və insan fəaliyyətinin əsas istiqamətləri böyük rol oynayır və hüquqi biliklərin formalaşmasında məhz bu kimi baza kriteriyaların rolu xüsusi əhəmiyyət daşıyır.

**İnsan hüquqları anlayışının qnoseoloji əsaslarla dərk olunması istiqamətlərini aşağıdakı şəkildə ümumiləşdirmək olar:**

-insan hüquqları anlayışının mövcud reallıqlar baxımından nəzəri fikirlərdə dərk olunması;

-insan hüquqlarına dair baxışların insanların mənəvi aləmləri ilə vəhdəti prizmasından dərk olunması;

-insan hüquqlarının nəzəri əsaslarının universallıq və məxsusilik prinsipləri əsasında dərk olunması;

-insan hüquqlarına dair nəzəri fikirlərin insanların subyektiv ideal fikirləri baxımından dərk olunması;

-insan hüquqlarına dair baxışların hüquq normalarında əksini tapması prizmasından dərk olunması;

-hüquq normalarının insanların maddi-mənəvi tələblərini yerinə yetirmək baxımından dərk olunması;

-insan hüquqlarının məkan və zaman kateqoriyasından dərk olunması;

-insan hüquqlarının insanların praktiki əməlləri ilə vəhdət prizmasından dərk olunması və s.

## Hüququn dialektikası

**Dialektika nədir.** Ensiklopedik lüğətlərdə qeyd olunduğu kimi, dialektika (yun.dialegomai-düşünürəm, söhbət aparıram)-təbiət, cəmiyyət və təfəkkürün inkişafının ən ümumi qanunları haqqında elmdir. Dialektikanın (inkişafın və vəhdətin, sistemli proseslərin, sistemlərdaxili vəhdətin) dərk olunması məntiqi təfəkkür vasitəsilə yerinə yetirilir. **Məntiqi təfəkkür** – müəyyən fikir strurkturunun köməkliyi ilə beynimizdə əks olunan real prosesdir. [1] Dialektikanın strukturu **prinsiplər, kateqoriyalar və qanunlar**dan ibarətdir**. Dialektika bir metoddur. Prinsip (yun. principium-əsas, ilk başlanğıc) –** özündə əsas ideyaları əks etdirir, həmçinin bütün biliklər sisteminin əsasında dayanan və ona müəyyən bütövlük və sistemlilik verən fundamental vəziyyətdir.[2] Məsələn, fəlsəfədə çoxlu sayda prinsip vardır: dünyanın material bütövlüyü prinsipi, materiyanın birinci, biliyin ikinci olması prinsipi, təcrübə və nəzəriyyənin vahidliyi prinsipi və s. Dialektikanın əsas prinsipləri kimi ümumən qarşılıqlı əlaqələr prinsipi və şeylərin qarşılıqlı şərtləndiriciliyi prinsipləri mövcuddur.[3]

**Dialektikanın kateqoriyaları** real dünyanı əks etdirməklə obyektiv xassələrə malik olur və insanların iradəsindən asılı olmayaraq təbiətdə və cəmiyyətdə mövcud olan şeyləri əks etdirir. [4] Kateqoriyalar dialektikanın qanunlarının struktur yaradan elementləri rolunda çıxış edir. **Qanunlar**: vəhdətlik və əksliklərin mübarizəsi qanunu, kəmiyyət dəyişikliklərinin

---

[1] M.M.İsrafilov. Məntiq: Dərs vəsaiti.-B.: Maarif, 1987.-333 səh., s. 21.
[2] Структура диалектики: принципы, категории, законы. www.psyera.ru/struktura-dialektiki-principy-kategorii-zakony-1401.htm
[3] Həmin mənbə.
[4] Həmin mənbə.

keyfiyyət dəyişikliklərinə keçməsi qanunu və inkarı inkar qanunlarından ibarətdir.[1]

İnsan hüquqlarına dair nəzəri və təcrübi biliklər (insanların fəaliyyəti ilə meydana gələn cari və dövrü hüquqlar haqqında olan biliklər) insanın təbii olması və məqsədyönlü əmək və əqli qabiliyyətə, konstruktiv təfəkkürə malik olması **prinsipi** ilə əlaqəlidir. Hüququn dialektikası onun mövcudluq və inkişaf qanunlarını, kateqoriyasını və prinsiplərini formalaşdırır. Məsələn, azadlıqlar bir hüquqi prinsipdir. Azadlıqlar insanların təbii fəaliyyətlərini təmin edən kriteriyalardır. İnsanların azadlıq hüquqları sistemli olaraq bütün hallarda bir prinsip kimi əhəmiyyətə malik olur. İnsanların yaşamaq hüquqları prinsipi (universal və məxsusi anlamda) özündə sistemliliyi yaradan komponentləri əks etdirən bir prinsipdir. Azadlıqlar da məkana, subyektə və imkanlara müvafiq olaraq məhdudlaşır və genişlənir. İnsan hüquqlarının dialektik vəhdəti insan hüquqlarının tarazlı əsaslarla formalaşmasına gətirib çıxarır. Bu anda qarşılıqlı hüquqi fikirlərdə (mübahisələrdə, polemikalarda) tarazlaşdırmanı dialektik əlaqələr yaradır. Tərəflərin qarşılıqlı fikirləri arasında baş verən və dialoq əhəmiyyəti kəsb edən proseslərdə müəyyən nöqtələrdə tarazlı vəziyyətlər formalaşmış olur. Bu anda aydınlaşmış vəziyyətlər meydana gəlir. İnsan hüquqları qarşılıqlı fikirlərdə müəyyən tarazlı xətlərdə öz ədalətli mahiyyətini üzərə çıxarır. İnsan hüquqları bu məsələdə haqdan gələn dəyər olduğunu və düzgünlüyünü təsbit edir. İnsanların özü hüquqları uğrunda həyata keçirdikləri mübarizələr məhz müəyyən koordinatlarda ədalətli mahiyyətini formalaşdırır. Mübarizələrin müxətlif əks koordinatları-iki əks tərəfin bir obyekt üzərində mübahusələri məhz müəyyən nöqtələrdə öz prosesinin dayandırmış olur. Nisbi və mütləq olaraq razılaşmalar meydana gəlir.

---

[1] Структура диалектики: принципы, категории, законы. www.psyera.ru/struktura-dialektiki-principy-kategorii-zakony-1401.htm .

Mübahisələrin razılıqla yekunlaşmasını əks etdirən tarazlı səviyyələr sistemi formalaşmış olur. Dialektik vəhdət burada mərkəzləşidirici koordinativ vasitə rolunda çıxış edir. Mərkəzləşdirmə və bir araya gətirmə isə müxtəlif mərhələlərdə mövcud olur. Bu, hər şeydən öncə mübahisə predçetlərinin tərkib ünsürlərinin, komponentlərinin kəmiyyəti və əhatə məkanı ilə əlaqəlidir.

Hüquq maddi və mənəvi kriteriyalar məcmuəsindən ibarət olduğundan onun dialektikası həm maddi, həm də mənəvi istiqamətlərdə mövcud olur. Dialektika həmçinin bu iki istiqamət arasında da yer alır. Bu iki istiqaməti bir-birinə bağlayır. Bu anda əks olunma və təkrar əks olunma prosesləri təmin edilir. Hüququn nəzəri dialektikası onun (haqların) ardıcıl olaraq dərk olunmasıdır və ayrı-ayrı sahələr üzrə hüquq normalarının qarşılıqlı şərtləndirici vəhdətidir. Hüquq nəzəriyyələri (ontoloji, qnoseoloji, epistemoloji baxışlar) məhz dialektik vəhdətlə əlaqədar olaraq genişlənir, inkişaf edir. Dialektika həm sahələri, hə də tərkibləri aşkarlayır, genişləndirir. Tərkiblə bölgü arasında əlaqələndirici vəhdətləri yaradır. Dialektika sayəsində hüquq fikirlərinin zəncirli bağlılığı formalaşır. Hüququn dialektik vəhdəti onun sintezində (sistendaxili və sistemlərarası sintezlərdə) öz əksini tapır. Bu dialektikada həm təsdiqlər, həm də inkarlar meydana gəlir. İnkarlar və təsdiqlər şaxələnir. Dialektika ümumi mətndə genişlənmiş formada mövcud olur. Məsələn, hüquq normaları məcmuəsindən ibarət olan istənilən sənəd dialektik vəhdətə malikdir. Hüququn məkanda, zamanda dərk olunması, hüququn təmin olunmasının resurslara bağlı olması və hüququn nəzəri baxımdan dərk olunması elə hüquqa dair fikirlərin dialektikasını meydana gətirir. Hüquq anlayışının tərkib ünsürləri, hüquq anlayışının bölgü ünsürləri elə hüququn dialektikasının formalaşmasında mövcud olan komponentlərdir. Hüququn istiqamətləri elə onun dialektik vəhdətinin əsaslarını meydana gətirmiş olur. Hüququn dialektik

vəhdəti həm təbiət və qeyri-təbiət vəhdətində meydana gəlir, həm də bunlardan irəli gələrək, universal və məxsusi məsələlərdə ortaya çıxır. Dialektika -əlaqəlilik prinsipidir. Əlaqəlilik insan fəaliyyətinin bütün sahələrində mövcud olur. Fəaliyyətin dialektikası hüququ genişləndirir. İnsan hüquqları əlaqəli olduğundan hər bir məsələdə səbəb və nəticələri özündə əks etdirən vəhdətlilik mövcud olur. Əlaqəlilikdə hüquqlar şaxələnmiş qaydada dərk olunur. Bu şaxəli dərk etməni nəzəri fikirlər meydana gətirir. Empirizm özü də əlaqəli fikirlərin yaranmasında mühüm rol oynayır. Nəzəriyyə və təcrübənin vəhdəti məhz əlaqəli fikirlərin formalaşmasında böyük rol oynayır. Dialektika bir qanunauyğunluq və prinsip olaraq, həm də inkarlar şəbəkəsini və trayektoriyasını yaradaraq hüquq nəzəriyyəsini fərdi fikirdə, eləcə də universal qarşılıqlı əlaqələrdə inkişaf etdirir. Dialoqlar hüquq nəzəriyyəsinin inkişafının əsaslarını meydana gətirmiş olur. Bu inkişaf konseptuallığa səbəb olur. Dialektika həmçinin daxildən təmizləmə funksiyasını yerinə yetirir. Məsələn, hüquqi sənədlərin fəaliyyətlə əlaqədar olaraq təkmilləşməsi və yeni müddəaların əlavə olunması elə dialektik tələblər və prinsiplər əsasında yerinə yetirilir. Bu prinsiplərin tətbiqi də zərurətə söykənir. Deməli, dialektika əslində zərurətdən meydana gələn bir prinsip və tələb olaraq formalaşmış məntiqi ardıcıllıqdan ibarət olur.

Hüququn tarixi inkişafı mərhələləri və bu mərhələlər arasında olan bağlılıq da məhz hüququn dialektik vəhdəti kimi anlaşıla bilər. Dialektikanın zamanı yaratması və zamanda meydana gəlməsi burada mühüm əhəmiyyət kəsb edir və mərkəzi prinsipi təşkil edir. Hüququn dialektikası onun baza və əlavə (fəaliyyətin genişlənməsinə müvafiq olaraq) sahələrə ayrılmasını özündə əks etdirir. Hüququn universal sahələri və məxsusi sahələri məhz hüququn dialektikasının, həm də sahələr birləşdirici dialektikasının əsaslarını meydana gətirir. Dialektika tərkib və bütövün birlikdə inkişafına şərait yaradır,

vəhdətlilik prinsipini formalaşdırır. Vəhdətlilik prinsipi və zərurəti də öz-özlüyündə dialektikanın modeli rolunu oynayır. Dialektika hüquq sahələrinin piramidal əsaslarla şaxəli trayektoriyalanmasına səbəb olur. Dialektik vəhdət zamanı hüququn formal məntiq əsasında dərk olunması ardıcıl olaraq dialektik məntiqin formalaşmasına səbəb olur.

**Əqli nəticələrə gəlmək və hüquq normalarının dialektik əsası.** Əqli nəticənin məhsulu elə təfəkkür dialektikasının şərtləndirici nəticəsidir. Əqli nəticələrin məhsulu təkrar olaraq obyekt rolunu ifadə edir və dialektikanın başlanğıcı (şərti başlanğıcı) rolunu da oynayır. Elmi-fəlsəfi izahalara əsasən, əqli nəticə (istidlal) fikirlər (məfhumlar və mülahizələr) arasında elə bir əlaqədir ki, onun nəticəsində bir və ya bir neçə hökmdən başqa hökm alınır və bu hökm ilk, əsas hökmlərin məzmunundan çıxarılır. Başqa hökmün çıxarılmasına imkan verən ilk, əsas hökm əqli nəticənin mühakimələri adlanır.[1] *Hökmdə iki məfhum arasındakı əlaqə və bağlılıq beynimizdə əks olunursa, sadə hökmlər adlanır. Sadə hökmlər bir subyekt və predikatdan əmələ gəlir. Sadə hökmlər üç növə ayrılır: 1. Atribtuiv hökmlər. 2. Nisbət (münasibət) hökmləri. 3) Mövcudluq (ekzistensial) hökmləri. Atributiv (lat. Atributio əlamət, xassə deməkdir). Hökmlərdə əlamətin, xassənin cismə, hadisəyə aid olması və yaxud cismin sinfə aid olması beynimizdə əks olunur.*[2]

Hökmlər əsasən dialektik məntiqin əmələ gəlməsi üçün zəruri olaraq irəli sürülür. Nəticə hökmləri də alınır. Bu nəticə hökmləri tərkibləri yaradır. Deməli, dialektikanın əsas funksiyası elə tərkiblərin meydana gəlməsini təmin etməkdən ibarətdir.

---

[1] Ümumi psixologiya. Pedaqoji institutların tələbələri üçün dərslik. Prof. A.V. Petrovskinin redaktorluğu ilə. Əlavələr edilmiş və yenidən işlənilmiş 2-ci nəşrindən (M., 1977) tərcümə. “Maarif” nəşriyyatı, 1982. səh. 336.

[2] M.M. İsrafilov. Məntiq: Dərs vəsaiti.-B.: Maarif, 1987.-333 səh., s. 135.

Bütün hüquq normaları əqli nəticələrlə qəbul edilir. Hüquq normalarında əqli nəticələr üçün obyekti rolunda maddi və mənəvi aləm dayanır. Hüququn mənəvi əsası onun şaxələ qaydada normalara salınmasına şərait yaradır. Bir hüquq norması digər normanın yaranmasına xidmət edir. Burada dialektik vəhdət meydana gəlir. Başlanğıc üçün hüquq norması da olmaya bilər. Bu anda məntiqi təfəkkür digər əlaqəli sistemlərlə bağlılıq prinsipi ilə ilk hüquq normasını obyekti kimi aşkarlamağa cəhd edir. Universal və məxsusi hüquq norması burada başlanğıc üçün ümumi qaydaları və prinsipləri müəyyən edən normalar kimi rol oynayır. Hüquq və onun nisbi və mütləq ölçüləri bütün hallarda və sahələrədə hüquq normasını yaratmaq üçün qaydalar rolunda çıxış edir. Sahələr üçün hüquq normaları sisteminin yaradılmasında mövcud resurslar və onlar üzərində istifadə haqqlarını təsbit etmək üçün yaradılır. Resurslar və onlar üzərində səlahiyyətlərin formalaşması, bu baxımdan vəzifə və funksiyaların müəyyən olunması məqsədilə hüquq normaları qəbul olunur. Sonradan isə zamanla zərurətə və dəyişən şəraitə uyğun olaraq hüquq normaları bir-birini inkar edir və əvəzləyir. Burada dialektika təbii olaraq meydana gəlir. Dialektika bir model kimi istifadə olunur, həm də universal model rolunda çıxış edir.

Dialektik mövcudluqlardan yeni dialektik nəticələr əldə olunur. Dialektik vəhdət genişlənməni və tərifləri meydana gətirir, ifadələr şəkilində izahlar yaranır. Məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində yazılır: iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı iştirakçılıq sayılır. (Maddə31. İştirakçılıq). Burada bu ifadə iştirakçılığın əsas mənasını açıqlayan bir norma kimi çıxış edir. Bu norma dialektik qaydada sonradan şaxələnir. 32-ci maddədə iştirakçılığın növləri, 33-cü maddədə cinayət iştirakçılarının məsuliyyəti, 34-cü maddədə cinayətin bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədilməsinin əsasları izah

olunur.[1] Burada iştirakçılığın müxtəlif aspektləri törəmə yolu (növlərə ayırma yolu ilə) ilə açılır. Növlərə ayırma da əsasən şaxələnmədən və zəruri olaraq genişlənmədən, əhatə olunmadan meydana gəlir. Bu genişlənmədə həm müşahidələr və təcrübələr (yəni praktiki olaraq baş verən cinayət hallarına uyğun), həm də qabaqlayıcı əqli nəticələr və mühakimələr (gözləntilər və ehtimallar şəkilində) əsas yer tutur. Dialektik vəhdətdən təriflər arasında bağlayıcılıq yaranır və ayrı-ayrı sahələr də meydana gəlir. Burada deduktiv və induktiv mühakimələr vəhdətdə birləşir. Sadə ifadələr toplusundan ayrı-ayrı sahələri əhatə edən mürəkkəb ifadələr toplusu meydana gəlir.

Dialektik vəhdətdə təriflər, məzmunlar bir-birini bağlayır və tamamlayır, həmçinin tarazlaşdırır. Məsələn, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 23-cü maddəsinin 23.5 bəndində yazılır: əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumat yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin.[2] Buradan görünür ki, şərtləndirici və zəruriləşdirici bağlayıcılıqda cümlənin ikinci hissəsi birinci hissəsində olan pozuntuların əvəzini ödəməklə tarazlama funksiyasını yerinə yetirir. Dialektika daima həqiqəti, ədaləti axtarır. Tarazlamada birincini ikinci inkar edir və digər tərəfdən də dialektik qaydada bağayaraq fikirləri inkişaf etdirir, genişləndirir. Genişlənmə həm təsdiqdə, həm də inkarlarda mövcud olur. Elə də olur ki, dialektika ədaləti təmin edə bilməsin. Bir qayda olaraq daxili istiqamət və sistem üzrə birtərəfli olaraq inkişaf etsin, hadisələrin axarını müəyyən tərəflər üçün mənfi və faydası olmayan istiqamətlərə yönləndirsin.

---

[1] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Azərb. dilində. Bakı-Qanun-2000, 880 səh., səh. 17.

[2] Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Azərb. dilində. Bakı-Qanun-2000, 880 səh., səh. 241.

**Obyektivlik və subyektivliyin zamanı (əqli nəticələrə gəlmək kontekstində)**

Obyektivlik *(çoxlu sayda varlıqların-materiyanın və şəxslərin mövcudluğu, həmin şəxslərin həqiqəti oxşar və fərqli əsaslarla qəbul etməsi, mütləq həqiqətin, real gerçəkliyin universal əsaslarla dərk olunması, obyektivliyin obyektivliyi dərk etməsi və onu qəbul etməsi, yəni çoxluğun çoxluğu qəbul etməsi və s.*) və subyektivlik *(material və mənəvi aləmə məxsusi yanaşmalar, obyektlərə olan münasibətlərdə şəxsi mühakimələr və şəxsi qaydada əqli nəticələrin çıxarılması, ayrı-ayrı şəxslərə müəyyənliyin bəlli olması, həqiqətin subyektiv qaydada bəlli olması, subyektiv mühakimələrin irəli sürülməsi və s.)* məkana və zamana bağlıdır. Resurslar da obyektivliyin və subyektivliyin təfəkkürdə formalaşmasına səbəb olur. Obyektivlik və subyektivlik obyektlərarası vəhdətlik fəlsəfəsinin əsaslarını təşkil edir. Obyektivlik həm də gerçəkliklərə çoxlu sayda oxşar məzmunda, həmçinin fərqli baxışlarla yanaşmanın təzahürüdür. Obyektivliyin əsas reallaşması məhz mərkəzləşmədir. Mərkzələşmə də elə bir prosesdir ki, burada obyektlər və onlar üzərində diqqətə malik olan subyektlər bir araya gəlir. Obyektivlik obyektə (burada fikir, material aləm, ümumiyyətlə, bütün faktlar obyektivliyin obyekti ola bilər) münasibətdə və əlaqədə oxşar və fərqli təmasların əsaslarını təşkil edir. İnsan hüquqlarına yanaşmalar həm obyektiv, yəni daha çox reallığı əks etdirən və subyektiv, yəni fərdi qaydada reallığı əks etdirməklə iki qismə bölünə bilər. Lakin hər ikisində bir o qədər fərq ola bilməz və burada fərqlər reallığın tərəflərə daha çox aydın olmasından irəli gəlir. Yəni kimi çox reallığı aşkarlaya bilərsə, zərurəti əsaslandıra bilərsə və gerçəkliyi aşkarlayarsa, həmin anlarda bir o qədər obyektivlik meydana gələ bilər. Bu da özlüyündə şəxslərin çoxlu sayda məlumatları əldə etməsindən asılıdır. Hüququn qeyri-müəyyənliyinin müəyyənliyə çevrilməsi prosesləri

subyektiv olaraq dialektik qaydada həyata keçirilərsə, onda obyektivlik də arta bilər. Obyektivlik keçmiş zamanla əlaqəsini itirir və yeni zamanlara tələbləri zəruri edir. Məsələn, yeni qanunların qəbul edilməsi zərurəti əvvəlki qanunların dəyişməsini zəruri edir. Deməli, obyektivliyin zamanı insan fəaəliyyətinə və resurslarına bağlı olaraq dəyişir. Bu dəyişməni də subyektivlik də ortaya çıxara bilir. Çoxlu sayda subyektivliyin bir mərkəzdə cəmləşməsi elə obyektivliyin dəyişməsinə və yeniləri ilə əvəzlənməsinə səbəb olur. Mərkəzləşmə özündə həm də müəyyən nöqtələrdə sistemləşdirmə, cəmləşdirmə proseslərinin qarşılıqlı vəhdət məkanı olduğundan burada obyektivlik, yəni çoxluğun qəbul etməsi prinsipləri formalaşır.

Zaman (burada yeni zaman) özü təfəkkürdə müxtəlif məqamlarda yeni nəzəri və təcrübi biliklərin meydana gəlməsi ilə xarakterizə olunur. Deməli, yeni biliklər və təcrübələr, yeni hərəkətlər obyektiv və subyektiv hüquq normalarının zamanını ortaya çıxarır. Obyektivliyin zamanı da zərurətdən formalaşır. Subyektivlik elə zəngin obyektivlikdən də formalaşır. Obyektivliyin davamedici zamanı subyektivliyin (məxsusi yanaşmaların) yeni başlanğıcı üçün əsas verir. Məsələn, insan hüquqlarına münasibətdə yeni-yeni qanun layihələrinin irəli sürülməsi, eləcə də nəzəri –təhlili baxışların meydana gəlməsi məhz obyektivliyin davam olunmasından və inkarlar və zərurət sayəsində yeniliklərin ortaya atılmasından meydana gəlir. Obyektivliyin inkişafı şərtləri elə subyektivliyin (fərdi maraqların əsas rol oynaması) zəruri tələblərindən irəli gəlir ki, bu da nəticədə obyektivlikdən çıxış etmənin əsaslarını meydana gətirmiş olur. Deməli, subyektivlik əslində obyektivliyin törəməsində özünü təsdiq etdirmiş olur. Obyektivlik də subyektivlikdə inkar oluna bilir. Bu zaman obyektivliyin şərti zamanı özünü yeni zamanla, yeni obyektivliklə əvəzləyə bilir. Elə biliklər və fikirlər hüququn ifadə olunmasının əsaslarını yaradır. Deməli, yeni biliklər və

nəzəri mühakimələr, nəzəri mülahizələr yeni hüquq normalarının formalaşmasının əsaslarını təşkil edir. Bu, bir istiqamətdir. Digər bir istiqamət isə hüquq normalarına sahib olmaqda və hüquq normalarının tətbiqində formalaşır. Obyektivliyin zamanı, yəni hüquqların müəyyən anlarda tətbiq olunması zərurəti həm də insanların yaşlarına bağlı olur.

Zehnin "hərəkəti" (siqnalların qəbulu və emalı elə hərəkətdir. Hərəkət də yerdəyişmədir, hərəkətdə olan strukturlardan yeni strukturların meydana gəlməsidir) enerji olduğundan, yeni enerji məhsullarını meydana gətirdiyindən bu amillər yeni zamanların meydana gəlməsində mühüm rol oynayır. Subyektiv (fərdi əsaslarla-burada fərdi əsaslar həm bir şəxs, həm də müəyyən şəxslər qrupunu təmsil edən qrup ola bilər) qaydada əqli nəticələrin çıxarılması son etibarilə obyektivliyə (universallığa) çevrilir. Yəni son məqsədlərdə nəzəri biliklərin meydana gəlməsi prosesləri yaşanır ki, bu da nəticə etibarilə obyektivliyin əsaslarını meydana gətirmiş olur. Subyektivliyin obyektivliyə çevrilməsi və onun dərk olunması ilk növbədə əqli nəticələrə gəlmənin çoxluq tərəfindən qəbul olunmasıdır. Çoxluq tərəfindən qəbul olunma qeyri-müəyyən şeylərin elə çoxluq tərəfindən müəyyən kimi qəbul olunmasıdır. Deməli, əqli nəticələrin subyektivliyi müəyyən anlarda obyektivliyə və müəyyənliyə səbəb olur. Bir şəxs tərəfindən irəli sürülən fikirlərlə bağlı əqli nəticələrə gəlmənin çoxluq təşkil etməsi elə həmin fikirlərin obyektivliyə çevrilməsidir.

Hüquq normalarının subyektlər tərəfindən fikirlər olaraq (nəzəri qaydalar şəkilində) irəli sürülməsi və həmin hüquq normaları ilə əlaqədar gəlinmiş nəticələrin çoxluğu **sillogizmlərin (əqli nəticələrin)** yaranmasının əsaslarını təşkil edir. Hüququn nəzəri əsasları da məhz sadə formada sillogizmlər yolu ilə meydana gəlir. Hüquq normalarından ibarət olan sənədlərin başlanğıcı və sonu arasında bir bağlılıq olur, tərkib hissələr həmin bağlılığı yaradır, bu baxımdan da

məzmun genişlənir. Əqli nəticələr insan hüquqlarının müxtəlif şəraitlərdə universal və məxsusi tətbiqi məsələlərini üzərə çıxarır. Hüquqi normaları əks etdirən dialektik sənədlərin əsas məzmunu məhz sadə məntiqi birləşmələrin cəmindən meydana gəlir. Sadə məntiqi fikrilərin bir-birini şərtləndirməsi məhz hüquq normaları arasında şərtləndirici tənzimləmənin əsaslarını meydana gətirmiş olur. Dialektika hüquq normaları arasında bağlayıcılığı ortaya çıxarır və hər bir hüquq normasından (nəzəri hüquq qaydasından) yeni münasibətləri tənzim edən, hərəkətləri qaydalara salan hüquq normaları meydana gəlmiş olur.

Obyektivlik inkişaf mərhələsi ilə əlaqədar olaraq təkrarən yeni obyektivliklə əvəz oluna bilir. Eləcə də yeni subyektivlik, yeni yanaşmalar obyektivliyin mərhələlənməsinə şərait yaradır. Obyektivliyin mərhələlənməsi yeni subyektiv mühakimələrin bildirilməsi və yeni əqli nəticələrin əldə edilməsi ilə həyata keçirilir. Deməli, obyektivliyin dalğalanması iki aspektdə həyata keçirilir: **birincisi,** qeyri-müəyyənliyin çoxluq tərəfindən aşklarlanması, bu baxımdan müəyyənliyin inkar edilməsi; **ikincisi,** universal müəyyənliyin fərdi qaydada inkar olunması və sonradan bu inkarın obyektivliyə (obyektiv və bu baxımdan universal təsdiqə) çevrilməsi.

Əbədi obyektivlik elə kainatın özüdür, vahid qüvvənin, potensialın özüdür. Subyektivliyin genişlənməsi və əhatələnməsi elə obyektivliyin meydana gəlməsində mühüm rol oynayır. Əbədi obyektivlik kainatdadırsa, deməli, subyektivlik məhz onun içərisindəddir. Hər hansı bir şəxs obyektiv zərurətdən çox da kənara olmaqla müəyyən fikirlər bildirə bilməz.

İdeal obyektivlik və subyektivlik var. Eləcə də real (maddi və gerçək) obyektivlik və subyektivlik mövcuddur. Material obyektivlik, yəni təbiətin və kainatın olduğu şəkildə universal əsaslarla qəbul edilməsi halları mövcuddur.

Subyektivlik də zamana bağlı olur. Belə ki, subyektiv fikirlər bir müddətdən sonra obyektiv əsasa çevrilə bilir. Hüquqi fikirlər, hüquqi normalar da obyektiv və subyektiv əsaslara söykənir. Əqli nəticələrə gəlmək yolu ilə obyektivlik dərk olunur. Əqli nəticələrə subyektiv yollarla da gəlmək mümkündür. Subyektiv yollarla gəlinən nəticələr təbii ki, bir müddətdən sonra obyektivliyə çevrilir. Deməli, hüquq nəzəriyyələri də əqli nəticələrə gəlmənin əsasları ilə obyektivliyə, universal əsaslarla qəbul edilməyə səbəb olub. Hüququn dərk olunmasında, hüquq normalarının universallaşmasında sillogizmlərin (əqli nəticələrə gəlmənin) rolu böyük olubdur. Məsələn, belə bir sillogizmdən çıxış etmək olar. Hüquq insanlara aiddir. Uşaqlar da insandır. Deməli, hüquq uşaqlara da aiddir. Burada universal hüququn məxsusi olaraq uşaqlara şamil olunması amili mühüm əhəmiyyət kəsb edir. İnsan hüquqları əqli nəticələrlə inkişaf edir. Əqli nəticələr elə obyektiv şəraitlərdən dəyişə-dəyişə davam edir. Bu dəyişiklik sayəsində insan hüquqları sahəsi üzrə insan hüquqları genişlənir. Subyektivliyin əqli nəticələrdən meydana gəlməsi obyektivlik üzərində həyata keçirilir.

## Obyektiv və subyektiv hüququn vəhdəti və zaman anlayışı

Subyektiv hüquq subyektə (burada ayrı-ayrı fiziki və hüquqi şəxslərə) məxsus olan hüquqdur. Bununla yanaşı, ayrı-ayrı şəxslərin (fiziki və hüquqi) və qrupların obyektiv hüquqlar içərisində yerlərini müəyyən edən hüquqdur. Bu baxımdan da məxsusidir. Subyektiv hüquq həm də subyektlərin irəli sürdükləri və dövlət tərəfindən rəsmiləşdirilən hüquq normalarının məcmusudur. Bu məcmuədən də obyektivlik meydana gəlir. Obyektivlik eləcə də subyektivliyi əks etdirir. Məsələn, cəmiyyətdə toplumun ümumi hüququ abstrakt olaraq cəmiyyətin subyektiv hüququdur. Xalqın hüququ həm də

subyektiv qaydada onu təmsil edən dövlətin subyektiv mücərrəd hüququdur. Dövlətin subyektiv hüququ həm də mütləqdir və bu mütləqlik cəmiyyətdəki fərdin və kollektivin hüquqlarından meydana gəlir.

Obyektiv və subyektiv hüquq normalarla əks olunur. Normaların başlıca məqsədi hüquqların icrasını həyata keçimək və nizamla tənzim etməkdən ibarətdir. Subyektiv hüququn normalarla ifadəsi qanunvericilikdə (qəbul edilən hüquqi sənədlərdə) öz əksini tapır. Fərdi qaydada (məxsusi olaraq) qəbul edilən hüquqi sənədləri də subyektiv sənədlər kimi dəyərləndirmək, mənalandırmaq olar. Lakin bu hüquq həm də obyektiv hüququn tərkibində özünə yer tapır. Subyektiv hüquq əslində baza etibarilə obyektiv hüququn tərkibindədir. Obyektiv hüququn ayrı-ayrı şəxslərə cəm halda aidiyyatı elə subyektiv hüququn obyektiv hüquqa olan atributivliyini meydana gətirir. Hüquq normaları ayrı-ayrı subyektlərə tətbiq edilən, lakin daha çox universal məna kəsb edən normalardan ibarətdir. Bununla yanaşı, birdəfəlik halları tənzim edən normalar da mövcuddur. Bu hüquq normaları obyektiv məna kəsb edir və subyektiv olmaqla müəyyən subyektə tətbiq olunur. Məsələn, mükafatlar və dövlət təltiflərini əks etdirən, aktları nizama salan hüquqları buna nümunə göstərmək olar. Obyektiv hüquq vahid xətlər üzərində olan hüquqdur və ondan da digər normalar meydana gəlir. Deməli, subyektiv hüquq həm obyektiv hüquq içərisindədir, onun tərkibidir, həm də obyektiv hüquqdan əlavə olaraq fərdi qaydada şamil olunandır. Obyektiv hüquq normalarının mövcudluğu subyektlər üçün eyni hüquqi qüvvəyə malik olur və tətbiqi anında təxminən eyni hüquqi qüvvəyə malikdir. Subyektiv hüquq insan haqlarının nəzəri baxımdan dəyərləndirilməsidir. Hər bir şəxs öz hüquqlarının əksinii tapdığı hüquq normalarına izahlar verə bilər.

Obyektiv və universal hüquq (burada baza hüquq və azadlıqlar nəzərdə tutulur) fərdi və kollektiv münasibətlərdə

daimidir və insanların həyat prinsiplərinin universal tələblərinə bağlıdır. Bu kimi hüquq normaları hər zaman aktualdır, icrası məcburidir və tətbiq edilən obyektin müvəqqəti olmasına baxmayaraq öz daimiliyini saxlayandır. Deməli, obyektiv hüquq təkrarlanan hüquqdur.

Subyektiv hüquq da universal hüquqlar içərisində subyektin yaşadığı müddət üçün daimidir. Lakin bununla yanaşı, müəyyən müddət üçün nəzərdə tutulan subyektiv hüququn müəyyən zamanı da vardır. Məsələn, bir şəxsə universal hüquqlardan kənar dövlət tərəfindən əlavə hüquqların verilməsi zamanla müəyyən edilir. Məsələn, yaşlı insanlara pensiya təminatının verilməsi ilə bağlı hüquq normaları zamandan asılı olur. Eləcə də uşaqlarla bağlı hüquqlar da zamana əsaslanır. Həmçinin ayrı-ayrı şəxslərə dövlət tərəfindən verilən əlavə hüquq normaları (məsələn, mükafatlar, imtiyazlar və s.) da zamandan asılı olur. Deməli, subyektiv hüquq obyektiv hüquq normaları içərisində olur və zamana müvafiq olaraq şəxslər həmin hüquqlara yiyələnirlər. Məsələn, mükafatlarla əlaqəli olan subyektiv hüquqlar bu mükafatı qazanmaq üçün lazımi adamlar tərəfindən müəyyən işlərin görülməsini tələb edir. Burada zaman həmçinin iş fəaliyyəti və iş yerləri ilə də əlaqəlidir. Bu baxımdan dövlət xarici ölkədə (diplomatik nümayəndəliklərdə) işləyən vətəndaşlarına müddətli diplomatik pasportlar verir. **Eləcə də tələbələr oxuduqları müddətdə tələbə hüquqlarından istifadə edirlər.** Ümumiyyətlə, fərdi hüquq universal hüquqlardan meydana gəlir. Məsələn, tələbələr üçün universal hüquqi sənədlər mövcud olur və bu sənəddən hər bir şəxs tələbə olarkən istifadə edir. Hüquqlar normalarda mövcud olur, insanlar zamanları çatanda onlardan istifadə etməyə başlayırlar. Bu baxımdan hüquqlar universal və tətbiqi məsələdə (burada normalar şəkilində ifadə olunan hüquqların tətbiqi nəzərdə tutulur) hər dəfə təkrar olunan, eləcə də birdəfəlik və bir hal üçün nəzərdə tutulan olur. Hər iki halda fərdin hüquqları subyektiv qaydada

təmin olunur. Mənbə kimi isə müəyyən olunan obyektiv hüquq normaları çıxış edir. Bununla yanaşı, obyektivlik də mövcud olur və obyektivlik əsasında bərabərlik meydana gəlir. Obyektiv hüquq normaları imkanları və gerçəklikləri ifadə edən normalardır.

Obyektiv hüquq həmçinin ümumilikdə bütün şəxslərin nisbi bərabərlik əsasında düşündüyü hüquq da hesab oluna bilər. Bununla yanaşı, obyektiv hüququn mənşəyi həm də subyektiv hüquqlardan da meydana gələ bilir. Məsələn, bir şəxsin (bir alimin, tədqiqatçının) subyektiv təhlilləri də sonradan obyektivlik üçün əsas götürülə bilər. Subyektiv əqli nəticələr obyektivlik üçün əsas rolu oynaya bilir. Hüququn genişlənməsi, obyektiv hüquq sahələrinin böyüməsi bu baxımdan subyektiv nəzəri fikirlərin cəmindən asılı olur. Subyektiv fikirlərin inkar olunması və yaxud da təsdiq edilməsi elə obyektiv hüququn inkişafına şərait yaradır. Məsələn, müəyyən bir sahədə hüquq normalarının inkarı və daha da əlverişli nəticələr verən digər hüquq normalarının qəbulu elə obyektiv hüququn inkişafını şərtləndirir. Obyektiv hüquqlar burada subyektiv hüquqların törəməsi üçün baza mənbə rolunu oynayır. Deməli, obyektivlik universal və fərdi nəzəri törəmələrdən meydana gəlir. Burada dialektik məzmun həm inklarda, həm də təsdiqdə öz əksini tapır. Qanunların şaxələnməsi, yeni qanunvericiliyin meydana gəlməsi, əvvəlki qanunvericilik aktlarının ləğv olunması və ya da tərkiblərində yeni qanunvericilik aktları ilə əlaqədar olaraq dəyişikliklərin aparılması elə obyektiv hüququn digər obyektiv hüquq tərəfindən inkar edilməsi (subyekt tərəfindən yeni obyektiv hüququn meydana gəlməsi) prosesləri ilə həyata keçirilir.

Hüquq fərdin hüququndan və toplumun hüququndan ibarətdir. Fərdin hüququ da elə toplumun hüququnun içərisindədir. Bu baxımdan da universal sənədlər normativ hüquqi aktlar olaraq fərdin hüquqlarını ümumi və məxsusi əsaslarla təmin etməni əsas götürür. Burada şəxsin və şəxslərin

hüquqları normalara salınır. Hər iki tərəfin mənəvi aləmini şərtləndirən və onların vəzifə və səlahiyyətlərini müəyyən edən və onların münasibətlərini tənzim edən normalar əslində bir-birilərinin daxilindən təzahür olunur.

Dialektik vəhdətə uyğun olaraq baza hüquqlardan törəmə hüquqlar meydana gəlir. Baza hüquqlar universal olur və vahid xətt üzrə müəyyən edilir. Normalar arasında şərtləndirici məzmun dialektikanın əsaslarını meydana gətirir. Bir şəxsin hüquqlarının normalar şəkilində reallaşdırılması digər şəxslərlə olan əlaqələrdə mümkün bir hala çevrilir. Bu da ondan irəli gəlir ki, dövlət universal qaydada, bütün vətəndaşların hüquqlarını əks etdirən normalar qəbul edir, normaların icrasını təmin edir. Dövlət özü də daha çox vətəndaşlarının yaratdığı, yəni cəmdən təkə doğru formalaşmış bir qurum kimi əhəmiyyət kəsb edir. Dövlət öz vətəndaşları arasında ümumi əsaslarla heç bir fərq qoymur, bundan irəli gələrək şəxslərin fərdi əsaslarla hüquqları təmin edilir. Normativ hüquqi aktlar indiki zamanı ifadə edir və eləcə də zamanı və şəraiti yetişdikdə hər bir şəxs ona məxsus olan hüquqdan faydalanır. Fərdin hüququ əsasən toplumun hüquqları irçərisində təmin olunur. Dövlətin universal mahiyyəti də məhz buradan üzərə çıxır. Universallıq içərisində, yəni baza hüquqları içərisində fərdi məxsusi hüquqlar meydana gəlmiş olur. Hüquq normaları insanların fərdi bərabərliklərini müəyyən xətlərdə eyniləşdirir. Dövlət həmçinin fərdi qaydada ayrı-ayrı şəxslərə hüquqlar verir, onların müəyyən şərait və məkanlarda hüquqlarını tanıyır, yardım və stimullaşdırmaq məqsədilə güzəştlər verir. Burada artıq məxsusilik meydana gəlir. Dövlət rəhbəri fərdi qaydada məhkumları və cinayət məsuliyyətinə cəlb olunanları əfv edir, məhkumların cəzalarını yüngülləşdirir. Məxsusilik daha çox real imkanların mövcudluğu və potensialın istiqamətləndirilməsindən ortaya çıxır. Bu baxımdan da universal münasibətləri tənzim edən hüquq normaları meydana gəlir. Fərdə (burada bir şəxsə) aid olan hüqüq normasının

meydana gəlməsi və onun tətbiqi başlıca olaraq digər subyektlərlə şərtləndirici əlaqədə ortaya çıxır. Burada dialektik vəhdət ondan ibarət olur ki, baza hüquqlar əsasında törəmə hüquqlar formalaşmış olur. Törəmə hüquqların mahiyyətində baza hüquqlar daima öz əksini tapır. Bütün konkret hallarda hüquqi aktlar baza hüquqların ədalət prinsipi və dəyərlərlə əks olunmasını təmin edir.

Fərdin hüquqları əqli nəticələrə gəlmək yolu ilə dərk olunur. Obyektiv hüquq hamı tərəfindən qəbul edilən çoxlu sayda subyektiv hüquqların cəmidir. Obyektiv hüquq normaları da subyektlər tərəfindən təşkil edilən hüquq normalarının cəmi kimi xassələnir.

## Formal məntiq və hüququn dərk olunması (sillogizmlər yolu ilə)

Əqli nəticələr düşüncələri daha təkmil və əhatəli edir. Obyektlər üzrə ardıcıl qaydada əqli nəticələrin çıxarılması məhz mühakimələrin sayını artırır. Artma prosesindən əhatəli mətn meydana gəlir. Burada dialektik məntiq də özünü göstərir. Bu baxımdan da belə qənaətə gəlmək olar ki, formal (sadə, klassik) məntiqi nəticələr öz-özlüyündə genişləndikcə dialektik məntiqə gətirib çıxarır. Formal (ənənəvi) məntiq sistemli təfəkkürün formalaşmasında mühüm rol oynayır və sadə yollarla başlanğıclar və ondan meydana gələn nəticələr arasında bir bağlayıcılıq yaradır. Sistemli təfəkkürün obyekti sistemi təşkil edən komponentlər olur. Sistemlilik əslində bütövün tərkib hissələri arasında əlaqələrin yaranmasına və nəzəri olaraq aşkarlanmasına xidmət edir. Məntiqi nəticələr başlanğıc və son arasında bir bütövün yaranmasına və oxşar məzmunların meydana gəlməsinə xidmət edir. Başlanğıc və son arasında (son məqsəd arasında) məsafə uzandıqca hüquq normalarının sayı artır, şərtləndiriciliyi genişlənir. Bu baxımdan da əhaətliyi meydana gəlir. Hüquq normalarından

yeni hüquq normaları yaranır və uyğunluq, mütənasiblik prinsipləri ilə sistemləşdirmə -daxili və sənədlərarası-prosesləri baş verir. Normativ qaydada izah edərək belə bir fikiri ortaya qoymaq olar ki, sadə məntiq genişlənmə proseslərində o nəticəni verir ki, lap başlanğıcla son arasındakı məsafədə ümumiləşdirmə ilə bir nəticə ortaya çıxır. İlk məqsəd başlanğıcda müəyyən olunur, sonda isə ilk məqsədin nəticəsi əldə olunur. Bu baxımdan da geniş sistemləşdirmədə sadə məntiqin içərinə dialektik məntiq daxil olur. Dialektik məntiq mürəkkəb məntiq olmaqla sonda sadə məntiqi nəticəni ortaya qoyur. Dialektik məntiq əslində müəyyən sonluqlarda sadə məntiqi tamamlayır. Bu baxımdan da ümumiləşdirmənin nəticələri yekunda xüsusiləşir ki, bu da sadə məntiqin nəticəsinə çevrilir.

Hüquq özü də bütövlükdən və onun tərkib hissələrindən ibarətdir. Burada hüququn tərkib hissələrinin aşkarlanması məhz hüququn normalar şəkilində ayrı-ayrı münasibətlər sahəsində tənzim olunmasına gətirib çıxarır. Məsələn, qeyd edək ki, insanların mənzil və əmlak hüquqları vardır. Məntiqi nəticə ondan ibarətdir ki, insanların mənzillərdə, evlərdə yaşamaq ixtiyarları və sahibliklərini ehtiva edən hüquqları vardırsa, onda bu hüquqları tənzim edən normalar da mövcud olmalıdır. Burada formal məntiq və onun tətbiqi hüquqlardan ayrı-ayrı sahələrə dair hüquq normalarının yaranmasını şərtləndirir. Hüquq (insanların vəzifələri, əmlaka və digər əşyalara olan sahiblikləri, ixtiyarları, səlahiyyətləri, vəzifələri, öhdəlikləri və s.) əslində sillogizmlər, yəni formal məntiqi nəticələr yolu dərk olunan bir anlayışdır. Çünki bütün mühakimələrin vəhdəti və şərtləndiriciliyi əqli nəticələrin (sillogizmlərin) meydana gəlməsində mühüm rol oynayır. Hüquq normalar şəkilində və normalararası zəncirvari üsullarla (bağlayıcı və şərtləndirici üsullarla) bütün münasibətlərin (ictimai münasibətlərin) tənzim edilməsində ümumiləşdirici və tərkiblərə ayırıcı məna kəsb edir. Hüquq normalarının əsas

vəzifəsi münasibətləri şərtləndirməkdən və ayrı-ayrı sahələri tənzim etməkdən ibarətdir. İnsanların maraqlarının əsasları məhz hüquq normaları vasitəsilə nəzəri olaraq dərk olunur.

İnsanların bütün sahələrdə olan hüquqları da məhz sadə məntiqi təfəkkürün yolu ilə dərk olunur. Məsələn, bütün insanların mənzildə yaşamaq hüquqları mövcuddur. Adil də bir insandır. Deməli, Adilin də mənzildə yaşamaq hüquqları vardır. Konstitusiya dövlətə aid olan ali normativ hüquqi sənəddir. Azərbaycan dövlətdir. Deməli, Azərbaycanın da konstitusiyası olmalıdır.

Hüququn sillogizmlər yolu ilə dərk olunması onun universal obyektivliyində də meydana gəlir. Sadə məntiqi təfəkkür və sadə yolla əqli nəticələrə gəlmək insan hüquqlarının təsbit olunduğu hüquq normalarının hamı tərəfindən qəbul olunmasını şərtləndirir. Sillogizmlər hüquqlar arasında bağlayıcı vasitələr yolu ilə hüquqların vəhdətini təmin edir.

Sillogizmlər həm hüququn tərkibinin dərk olunmasına xidmət edir, məsələn, mənəviyyat insana aiddir. Hüquq mənəviyyatın ifadə edicisidir. Deməli, hüquq insana aiddir. Burada tərkibin açılmasında, müəyyən olunmasında hüququn əhəmiyyətinin vacibliyi məsələsi üzərə çıxır. Digər tərəfdən sillogizmlər hüququn bölgü ünsürü əsasında dərk olunmasına şərait yaradır. Məsələn, insanlar nikah bağlamalıdırlar və bu, onların təbii xassələrinə aiddir. Bütün münasibətlərin rəsmi tənzimlənməsi hüquqi aktlarla yerinə yetirilməlidir. Hüquqi aktlarda normalar təsbit olunur. Deməli, insanların nigah münasibətlərini tənzim edən hüquq normaları olmalıdır. Burada artıq hüquq sahələrinin bölgüsü mühüm əhəmiyyət kəsb edir.

## Dialektik məntiqin əsasları və mürəkkəb məzmunlu hüquq

Dialektik məntiq-təbiətin inkişafı, cəmiyyət və düşüncələr haqqında ən ümumi qanunlar haqqında elmdir. Bu qanunlar ümumi anlayış kimi kateqoriyalarda əksini tapır. Bu baxımdan belə hesab olunur ki, dialektik məntiq dialektik kateqoriyalar haqqında elmdir.[1] Dialektik məntiq formalaşdırma metodlarının istifadə olunduğu formal məntiqdən, riyazi məntiqdən fərqlənir. Dialektik məntiq düşüncələrin inkişafı prosesində şeylərin və fikirlərin bir-birilərinə qarşı dialektik ziddiyyətini analiz edir.[2]

Buradan da mürəkkəb məzmunlu hüquqi mətn meydana gəlir. Mürəkkəb məzmunlu hüququn mahiyyəti əslində iki aspektdə təhlil oluna bilər: **birincisi,** sadə hüquq normalarının cəmi anlamında, yəni hüquq normaları sisteminin sadə cümlələrlə, aydın başa düşülən ifadələrlə dərk olunmasında; **ikincisi** isə ümumi hüquqlardan (baza hüquqlardan) irəli gələrək meydana gələn və fəaliyyətlə əlaqəli olan mürəkkəbliklər və incəliklərin normalarla ifadə olunmasında və mürəkkəbliklərin əks olunmasında. Mürəkkəblik həm də üst fəaliyyətin, yəni dərinləşmiş və inkişaf etməkdə olan fəaliyyətin hüquqi normalarla ifadə olunmasında meydana gəlir. Mürəkkəb hüquqlar hüquq sahələrinin meydana gəlməsi ilə genişlənir, eləcə də şaquli olaraq dərinləşir. Bu dərinləşmədə horizontallıq da mühüm rol oynayır. Məsələn, dövlətin inkişafı ilə əlaqədar olaraq hüququn mahiyyəti öz tərkibini daha da dərinləşdirir. Fəaliyyət özünün ardınca hüququ genişləndirir. Bu dərinləşmə ətrafa doğru fəaliyyətin genişlənnəsi ilə xarakterizə olunur. Hüquq ətraflarla birlikdə (fəaliyyət sahələri ilə birlikdə) dərinləşir, çünki ətrafalara yayılmış hüquqlardan komponentlər onun cəmləşməsinə,

---

[1] Диалектическая логика. www.dic.academic.ru/dic.nsf/bse/84318/ Диалектическая

[2] Həmin mənbə.

mərkəzləşməsinə, ümumiləşməsinə və şaxələnməsinə səbəb olur.

Dialektik məntiq əslində əqli nəticələrlə mürəkkəb sintezlərin (həm də sadə hüquq məzmunlu fikirlərin) və onlardan əmələ gələn nəticələrin əldə olunmasını təmin edir. Dialektik məntiqin mühakimələri və obyektləri qismində ilk növbədə elə sadə məntiqin tətbiqi ilə hüquq normaları çıxış edir. Dialektik məntiq daxilən genişlənən və ayrı-ayrı sahələri əhatə edən bir məntiqdir. Dialektik məntiq sayəsində mətnlər yaranır və çoxlu sayda sahələri əhatə edən mürəkkəb məzmunlu hüquq formalaşır. Mürəkkəb məzmunlu hüquq normaları əslində sadə hüquq normalarının məcmuəsidir. Hüququn mürəkkəb məzmunu onun geniş obyektləri əhatə etməsindədir. Geniş şəkildə əhatə olunan obyekt isə dərin məzmunların və fikirlər arasında mürəkkəb məzmunlu əlaqələrin meydana gəlməsinin əsaslarını ortaya çıxarır.

Mürəkkəb məzmunlu hüquq çoxlu sayda hüquq normaları olan hüquqi sənədlərdə, məsələn, məcəllələrdə öz əksini tapır. Mürəkkəb hüququn ifadələrlə genişlənməsi də həm mürəkkəbliyin özünün əhatə sferasını genişləndirir, həm də mürəkkəbliyin daha da dərindən ifadə etməsinə səbəb olur. Mürəkkəb hüquqlar məzmunun dərin mahiyyəti ilə dərk olunmasına səbəb olur.

## Dialektik təfəkkürün inkişaf əsasları və hüququn inkişafı

Dialektik təfəkkürün inkişafı nəzəri səbəblər baxımından elə fərdi və ümumi qaydada cəmiyyətin üzvlərinin geniş dərk etmələrinə bağlıdır. Düşüncə ardıcıllığı dialektik təfəkkürün formalaşmasında əvəzsiz rol oynayır. Düşüncələrdə hakim olan hüquqi fikirlər bir-birilərini genişləndirir və şərtləndirir. Dialektik təfəkkürün inkişafı hüquq obyektlərinin sayının çoxalmasından və eləcə də baxışların sayının artmasından

meydana gəlir. Burada çoxlu sayda meydana gələn hüquq normaları və insan fəaliyyəti elə hüququn dialektik əsaslarla inkişaf etməsinə səbəb olur. Məsələn, konstitusiyanın özü dialektik, yəni çoxlu sayda sahələri ümumi əsaslarla əhatə edən bir dialektik normativ sənəddir. Konstitusiya dialektikanın genişlənməsi, sahələrin artması üçün mühüm obyekt rolunu oynayır. Bu konstitusiyadan qanunvericilik sənədləri meydana gəlir. Bu qanunvericilik sənədləri də hüquqların nəzəri baxımdan genişlənmısini təmin edir. Bu genişlənmə həm mövcud real aləm üzərində formalaşır, həm də gələcək hüquqların əsaslarını meydana gətirir. Gələcək hüquqlar hüquq mövcud nəzəriyyələrinin bazasında formalaşır. Eyni zamanda resurslardan kənar və ondan qabaq meydana gəlir və resursların əldə edilməsinə məqsədlənir. Gələcək hüquq nəzəriyyələri başlıca olaraq hüququn dialektik qaydada şaxələnməsinə səbəb olur. Gələcək hüquq nəzəriyyələri obyekt kimi öz başlanğıclarını mövcud hüquqlardan götürür.

Hüquqi dialektika insanların resurslar üzərində zaman və məkan kateqoriyaları ilə əlaqələrində (resursların istifadəsində) olan ziddiyyətləri aradan qaldırmaq funksiyasını yerinə yetirir. Eyni zamanda şəxslər arasında olan münasibətlərdə və əlaqələrdə olan ziddiyyətləri həll edir.

Təfəkkürün (dərketmədən, qavrayışdan meydana gələn idrakın) inkişafı da əslində cəmiyyətdəki proseslərin inkişafı və birinin digərini inkar etməsi ilə əlaqəlidir. İnkarlar sayəsində təkmilləşmə prosesləri meydana gəlir və bu baxımdan da meydana gələn yeni münasibətləri tənzim etmək üçün hüquq normalarının qəbul edilməsi zərurəti ortaya çıxır. Deməli, hüquq normalarının dialektik inkişafı əslində cəmiyyətin inkişafına bağlıdır. Hüquqi fikirlərin dialektik inkişafı həm təcrübədən, empirizmdən, həm də qeyri-təcrübədən meydana gəlir. Qeyri-təcrübədə və təcrübədə iddialar hüququn genişlənməsinə səbəb olur. Ayrı-ayrı şəxslərin iddiaları hüququn daxilən və sahələr üzrə dərk olunmasında böyük rol

oynayır. Hüquq normalarının dialektik vəhdəti onun törəməsinin baza və üst hissələrə bölünməsində müşahidə olunur. Baza normalar əsasında üst normalar yaranır. Dialektika üst normalarının şaxələnməsinə və üst normaların yenidən bazalara çevrilməsinə səbəb olur. Cəmiyyət inkişaf etdikcə baza və üst normalar da təkmilləşir. Məsələn, yeni konstitusiya islahatları məhz təkmilləşməyə, yeni ziddiyyətləri həll etməyə xidmət edir. Konstitusiyadan irəli gələrək qanunvericiliyin daxili və xarici siyasət üzrə təkmilləşməsi, beynəlxalq hüquq normalarının qanunvericiliyin tərkibi kimi əhəmiyyət kəsb etməsi məsələləri ortaya çıxır. Dialektika bir tərəfdən inkişafın təmin olunmasını qarşısına məqsəd qoyur, digər tərəfdən də inkişaf üçün münasibətlərdə olan ziddiyyətləri aradan qaldırır və problemləri həll edir. Dialektika hüquq sahəsində olan biliklərin müqayisəli və inkaredici əsaslarla inkişafına da təkan verir. Hüququn inkişafı həm də əvvəlcə qəbul edilən hüquq normalarının tətbiqi sayəsində də mümkündür. Belə ki, yeni hüquq normalarının tətbiqi yeni ictimai münasibətlərin formalaşmasında əvəzsiz rol oynaya bilir. Hüquq normaları ictimai proseslərin inkar olunaraq inkişaf etməsinin əsaslarını meydana gətirmiş olur. Yeni hüquq normalarından başqa sahələr üzrə hüquq normaları meydana gəlir. Hüquq normalarının şaxələnməsi prosesləri meydana gəlir. Hüquq normaları arasında olan əlaqələr hüququn sistemləşməsinə səbəb olur. Hüququn sistemləşməsi sayəsində həm onun daxili məzmunu böyüyür, həm də ətraf üzrə yeni hüquq strukturları meydana gəlir. Bütün strukturlaşma prosesləri insanların pozitiv məqsədlərinə və təminatlarına söykənir.

Hüququn inkişafı hüquq nəzəriyyələrindən meydana gəlir. Burada hüquq nəzəriyyələri obyektlərinin silsilə xarakteri elə dialektik qaydada hüququn inkişafına gətirib çıxarır. Mövcud hüquq nəzəriyyələri digər hüquq nəzəriyyələrinin meydana gəlməsini şərtləndirir. Hüququn dialektik əsaslarla inkişafı bir

tərəfdən hüquqların artmasına xidmət edirsə, digər tərəfdən hüquqların məhdudlaşmasına və yenilənməsinə xidmət edir. Lakin bütün dəyişikliklərdə əsas məqsədlər pozitivliyin əldə olunmasından ibarətdir. Hüququn genişlənməsi cəmiyyətdəki inkişafla əlaqəli olur. Məsələn, hal-hazırda printerlər vasitəsilə evlərin tikilməsi proseslərinə başlanılmaqdadır. Bu artıq yeni bir inkişaf göstəricisidir, texnoloji tərəqqidir. Burada zaman və resurslar insanlar üçün gələcək hüquqların təmin olunmasına gətirib çıxara biləcəkdir. Hüquqların dialektik –empirik qaydada genişlənməsi həm də yeni texnoloji vasitələrin genişlənməsindən və tətbiqinin sistemləşdirilməsindən asılıdır. Yeni hüquqlar yeni təzahürdən və yeni mahiyyətdən meydana gəlir. Lakin bütün hallarda təbii məzmununu baza olaraq özündə saxlayır. Baza mahiyyət isə ondan ibarətdir ki, hüququn tətbiq olunduğu sahələrdə xidmət amili əsas rolu oynayır.

## İnsan hüquqları anlayışının dərk olunmasında dialektik məntiqin əhəmiyyəti

Formal məntiqi təfəkkür təbii ki, dialektik məntiqin tərkib hissəsidir. Formal məntiq sintezlər yolu ilə formal nəticələrin çıxarılmasını təmin edir. Formal nəticələr cəmi, formal nəticələrdən meydana gələn yeni nəticələr də cəm halda sintez olunaraq dialektik məntiqin yarnmasına xidmət edir. Formal məntiq sadə dərketmədir. Ancaq dialektik məntiq daha çox qarşılıqlı vəhdətdə yaranan mətn xarakteri kəsb edən bir məntiqdir. Dialektik məntiq dialoqlara əsaslanır və dialoqlardan (ziddiyyətli qarşıdurmalardan) meydana gəlir. Tezislərin irəli sürülməsi və anti-tezislərin bildirilməsi elə dialoqların formalaşmasının əsasında dayanır. İnkarlar və yeni tezislərin meydana gəlməsi də dialoqların meydana gəlməsinin əsasında dayanır. Formal məntiqi təfəkkürün cəmi dialektik məntiqin formalaşmasında böyük rol oynaylır. Dialektik məntiq zamanı forma və mahiyyətinin uyğunluğu meydana

gəlir. Dialektik məntiqi nəticələr obyektin daha da böyüməsinə xidmət edir, eləcə də sistemli xarakter kəsb edir. Formal məntiqi təfəkkür dərketmənin sadə formasıdır, dialektik məntiqi təfəkkür isə bir qədər mürəkkəb əhəmiyyət kəsb edir. Mürəkkəb təfəkkür inkişafın əsaslarını meydana gətirir və düşüncələrin zənginliyinə əsaslanır. Dialektik məntiq konkret müddəalardan ümumi müddəaları meydana gətirir.

Hüquq sahəsinin çoxtərəfli olması, hüquq obyektlərinin çoxistiqamətli əsasları məhz dialektik məntiqi üsullarla hüququn dərk olunmasında böyük rol oynayır. Hüququn dialektik tərkibi onun baza hüquqlar arasında olan şərtləndirici əlaqəsindən və eləcə də törəmə xassələrə malik olmasından irəli gələrək formalaşır. Hüquqn dialektik tərkibində bir-birini tamamlayan və həyatın sistemli formasının nəzəri tələblərini ödəyən məzmun böyük mənaya malik olur. Hüququn dialektik tərkibi onun çoxməzmunlu formasından meydana gəlir. Hüquq normalarının şaxələndirilməsi və bir normanın digəri üçün səbəbə çevrilməsi elə dialektik vəhdətin əsaslarını meydana gətirmiş olur. Dialektik təfəkkür daha çox ətraflı və səpələnmiş təfəkkürdür. Bu təfəkkür formasında sahələr arasında məzmun çalarlığı meydana gəlir. Bir hüquq sahəsində qəbul edilən normalardan digər normalar meydana gəlir. Eləcə də normaların zənginləşməsi prosesləri formalaşır. Dialektik məzmun əsas etibarilə hüququn normaları arasında təbii bağlılığın ifadə olunmasında böyük rol malik olur.

Bu gün dialektik məntiqi təfəkkür daha da inkişaf etməkdədir. Dialektik məntiqi təfəkkürün inkişafında material düşüncələrin, eləcə də yanaşmalarda (əlaqələrdə və münasibətlərdə) subyektivliyin və obyektivliyin əsasları mühüm rol oynayır. Obyektivliyin artması subyektivliklə əlaqəli olduğundan fikirlərin artması da mühüm əhəmiyyət kəsb edir.

***İnsan hüquqları anlayışının dərk olunmasında dialektik məntiqin əhəmiyyətini bu şəkildə ümumiləşdirmək olar:***

-insan hüquqları anlayışının tərkibinin sadə və sadələrdən ibarət olan mürəkkəb məzmunla dərk olunmasının təmin edilməsi;

-insan hüquqları anlayışının təfəkkürdə sistemləşdirilməsi və ümumiləşdirilmə yolu ilə məzmununun geniş şəkildə əhatə olunması;

-insan hüquqları anlayışının şaxələndirilməsi və sistemlərarası predmetə və obyektə çevrilməsi;

-anlayışın tətbiqinin universal və məxsusi aspektlərdə təmin edilməsi;

-anlayışın tətbiqi sahələrinin genişlənməsi hesabına elmi obyektə və elmin qolu kimi fənlərə və fənlərarası predmetə çevrilməsi;

-anlayışın inkişaf proseslərinin sistemləşdirilməsi zamanı tərkib hissələr arasında uyğunluğun yaradılması və mütənasbiliyin təmin edilməsi;

-anlayışın genişlənməsi üçün sadə məntiqi nəticələr üzərində mürəkkəb nəticələrin çıxarılmasının təmin olunması;

-anlayışın əhatəli olaraq dərk olunmasında fəlsəfi kateqoriyalardan bölücü və birləşdirici ünsürlər kimi geniş istifadə olunması;

-insan hüquqları anlayışının bölgü komponentlərinin sayının artırılmasının nəzəri baxımdan təmin edilməsi və s.

## İnsan hüquqlarının fəlsəfi kateqoriyalarla dərk olunması

Kainatın (fövqəltəbiətin-makro təbiətin, ölçüsüz təbiətin, “məkansız”, yəni məkan hüdudları olmayan təbiətin) tərkibi rəngarəngliklərdən, hissəciklərdən, elementlərdən ibarətdir. Bu rəngarəngliklər sistemlər daxilində olan elementlərin birləşmələrinin fərqli formalarından və fərqli tərkiblərindən, fərqli təzahürlərdən və elementlərdən meydana gəlir. Həyatın, eləcə də insanlarla təbiətin əlaqələrinin fərqli əsasları

kriteriyalarla müəyyən olunur və fərqli əlamətlərə görə dərk etmək prosesləri həyata keçirilir. Belə qəbul etmək olar ki, əlamətləri fərqləndirən, hərəkətləri xassələndirən və təsnif edən hər bir amil, fakt kriteriya ola bilər. Kriteriyalar həm ayrıcı, həm də bölücü funksiyalara malik olur. Kriteriyalar ümumiləşdirməni təmin etməklə yeni sistemlərin yaranmasını təmin edir. Kriteriyalar hər bir sistemin, sistem tərkibində olan yarımsistemlərin, element birləşmələrinin, bir-birindən tam ayrılmayan və ümumilikdə bir-birinə tərkib olan hissələrin özünəxas əlamətlərini ayrıd etmək üçün istifadə olunur. Kriteriyalar istinad kateqoriyaları kimi mühüm əhəmiyyətə malik olur. Bütün elementlərin tutumunu, həcmini və fəaliyyət xüsusiyyətlərini məhz kriteriyalar müəyyən edir. Kriteriyalar müəyyən predmetlərdə və obyektlərdə düşüncə ölçülərinin əsasını təşkil edir. Kriteriyaları siqnallar müəyyən edir, əlamətlər formalaşdırır. Bu əlamətlər də elementlərin xassələrini müəyyən edir. Məsələn, fəlsəfi kriteriyalar fəlsəfi düşüncələrin əsasında dayanır və düşüncələrin tərkib hissələrini meydan gətirir. Düşüncələrin əlamətlər əsasında formalaşmasını və əlamətlərin tərkib hissələrinin ayrılmasını və bununla da hissə və bütövün xassələrinin müəyyən olunmasının əsaslarını ortaya çıxarmış olur. Həyatın bütün prosesləri düşüncələrdə, dərk etmə proseslərində, qavramada müəyyənedici kriteriyalara tabe olur. Müəyyənedici kriteriyalar sistemlərin meydana gəlməsinin (məsələn, müxtəlif məkanlarda olan sistemlərin) əsaslarını üzərə çıxarır. Müəyyənedici kriteriyalar hadisələrin, faktların və bu faktları və hadisələri təşkil edən elementlərin əsaslarından irəli gələrək tərkibin və formanın müqayisəli məzmununu təşkil edə bilir.

**Fəlsəfi kateqoriyalar** kriteriyalar olaraq müəyyənedici əsasları yerinə yetirir. İnsanlar müəyyənedici kriteriyalar (burada məkan, ölçü, zaman, kəmiyyət, keyfiyyət, ziddiyyət

və s.) əsasında öz fəaliyyət istiqamətlərini müəyyən edirlər. Müəyyənedici kriteriyalar ölçülərin əsaslarını təşkil edir. Ölçülər də dəyərləri meydana gətirir. İnsan hüquqları anlayışları da məhz müəyyənedici əhəmiyyət kəsb edir, eləcə də öz daxilində dialektik məntiqi üsullarla çoxlu sayda müəyyənedici kriteriyaları birləşdirir. İnsan hüquqlarının dərk olunması və onun beyində obrazlanması elə fəlsəfi kateqoriyalarla şərtlənir.

Fəlsəfi kateqoriyalar predmetə münasibətdə, obyektə münasibətdə düşüncə ölçüləridir. Fəlsəfi kateqoriylar həm düşüncələri vəhdətdə görür, həm də tərkibdə axtarır. Əlamətlərinə görə növlərə və cinslərə ayrılma elə kateqoriyalarla həyata keçirilir. Deməli, fəlsəfi kateqoriyalar təsnifedici amillər kimi önəmə malik olurlar və bizim təbiət hadisələrinə olan anlayışlarımızın əsasını təşkil edir. Fəlsəfi kateqoriyalar mülahizə, ittiham, əlamət məzmunlu ifadələr kimi başa düşülür.

Fəlsəfi kateqoriyalar insanların anlayışlarını, təfəkkürlərini universallaşdırır, ümumiləşdirir, eləcə də konkretləşdirir. Fəlsəfi kateqoriyalar əlamətlərin (hadisələrin əlamətlərinin) müəyyən olunmasının əsaslarında dayanır. İnsan hüquqları tərkib baxımından zəngin olduğundan onun tərkibini fəlsəfi kateqoriyalarla dərk etmək, anlamaq olar. İnsan hüquqlarının bölgü ünsürlərinin də çox olması məhz bu anlayışın kateqoriyalarla dərk olunmasının əsasında dayanır. İnsan hüquqlarının universal və məxsusi tərkibini fəlsəfi kateqoriyalarla dərk etmək mümkün olur. İnsan hüquqlarının çoxlu sayda istiqamətləri həm fəlsəfi kateqoriyalarla müəyyən olunur, həm də dialektik üsullarla mətnlərdə dərk olunur. Mətnlərin də tərkibinin dərk olunması, anlayış kimi qəbul olunması məhz fəlsəfi kateqoriyalardan asılı olur.

## İnsan hüquqlarının dərk olunması məsələsində zaman kateqoriyası

İnsan hüquqlarının dərk olunması mərhələlərə və məkanlara və bu məkanlar üzərindəki resurslara bağlıdır. Resurslardan istifadə yeni gerçəklikləri meydana gətirir. Yeni gerçəkliklər də öz-özlüyündə yeni zamanları üzərə çıxarır. İnsan hüquqlarının təmin olunması və eləcə də dolğun şəkildə, yüksək səviyyədə təmin olunmasının əsasında zəngin resurslar və onlardan istifadə amilləri dayanır. Bu istifadə amillərinin yüksək mərhələsi isə insan hüquqlarının tərkib baxımından zənginləşməsinə səbəb olur. Buradan belə bir məntiqi nəticə hasil oluna bilir ki, insan hüquqlarının zənginləşməsi prosesləri elə inkişaf proseslərinə bağlı olur. İnkişaf prosesləri və onun faydalı nəticələrinin dərəcələnməsi və mərhələ şəklini alması da özlüyündə insan hüquqlarının zaman kateqoriyası ilə dərk olunmasına gətirib çıxarır.

İnsan hüquqlarının təmin olunmasında təbii bir zaman ardıcıllığı və trayektoriyası vardır. İnsanların fəaliyyət ardıcıllığı onların hüquqlarının zənginləşməsinə şərait yaradır və səbəb olur. Hər bir məkanda resurslardan sistemli istifadə elə tələbatların ödənilməsinə səbəb olur ki, bu da özlüyündə insan hüquqlarının təmin olunması proseslərinin müəyyən zaman kriteriyası ilə asılılığını yaradır.

İnsan hüquqlarının təmin olunması insanların özlərinin qarşısında duran başlıca məqsəddir. Bu məqsədə çatmaq üçün dövlət hakimiyyəti tərəfindən hüquq normaları qəbul olunur və icrası təmin edilir. Hüquq normaları burada məqsədə çatmaq üçün vasitələr rolunda çıxış edir. İnsanlar öz hüquqlarını təmin etmək üçün təşkilati-struktur fəaliyyət təşkil edirlər və ayrı-ayrı sahələr üzrə güclərini və qüvvələrini birləşdirirlər. Dövlət siyasət hüquq normalarını qəbul etməkdən və normalardan zamana görə istifadə etməkdən və hüquqları müdafiə etməkdən ibarətdir. ***(Əlavə olaraq 3 saylı qrafikə baxmaq olar).*** **Hüquq-**

**məqsəd, norma- məqsədə çatmaq vasitəsi, normanın icrası isə siyasətdir.**

İnsan hüquqları bütün zamanlarda bir qədər nisbi və qəti mütləq olmaqla özünün konkret və mücərrəd tərkibini qoruyur. Bu baxımdan da zamandan asılı olmayaraq hüquqlar öz mövcudluğunu subyektinin mövcudluğunda saxlayır. Subyektlər öz həyatları boyu öz məxsusi (burada imkanlar və zaman baxımından) hüquqlarına sahib olurlar. Məsələn, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 5-cı maddəsinə əsasən, istər sahibkarlıq fəaliyyəti ilə məşğul olan, istərsə də məşğul olmayan hər hansı fiziki və ya hüquqi şəxslə mülki hüquq münasibətlərinin subyektləri ola bilərlər.[1] Burada hüquqlar bütün zamanlarda normalar şəkilində mövcuddur və indiki zamanla ifadə olunur. Hüquq normaları sistemi "yaşayır" və davam etməsi elə zaman ardıcıllığını və trayektoriyasını meydana gətirir.

Subyektin fəaliyyət müddəti elə hüququn mövcudluq müddətini meydana gətirir. Hüquq subyektinin fəaliyyətinin müəyyən zamanlarda genişlənməsi həmin zamanlarda hüququn genişlənməsini meydana gətirir. Deməli, hüququn zamanla dərk olunması hüquq subyektinin mövcudluğuna və fəaliyyətinin artıb-azalmasına bağlıdır.

## İnsan hüquqlarının məkan kateqoriyası ilə dərk olunması

İnsanlar bütün məkanlarda (dövlətlərdə, cəmiyyətlərdə) hüquqlara malikdirlər. Dövlətlərin əsas funksiyası, vəzifə və öhdəliyi məhz hüquqları təmin etməkdən ibarətdir. İnsanlar həm öz ölkələrində, həm təyinat ölkələrdə, həm də tranzit ölkələrdə olmalarından asılı olmayaraq hüquqlara malikdirlər.

[1] Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Azərb. dilində. Bakı-Qanun-2000, 880 səh., səh. 239

Lakin mənşə, təyinat və tranzit ölkələrdə pozitiv hüquqların təmin olunmasının eyni səviyyəsi mümkün deyil. Bu da öz-özlüyündə hüquqların məkan etibarilə fərqli təminatı məsələsini ortaya çıxarır.

Dərk etmək proseslərinin obyektləri müxtəlif olur. Məkan özü də hüquqları üzərində formalaşdıran obyekt rolunda çıxış edir. Həmin obyektlər sahələr üzrə bölünür. Sahələrə bölünmə də fəaliyyətin genişliyindən meydana gəlir. Fəaliyyətin genişliyi obyektlərin çoxluğundan şərtlənir. Dərketmə obyektləri məkanlar üzrə dərəcələnə bilir. Belə qəbul etmək olar ki, hər bir məkan üzərində olan obyekt subyektə çevrildikdə, təmin olunması baxımından eyni ola bilməz. Yəni, insanlar bütün məkanlarda, bütün ölkələrdə və yaşayış məskənlərində eyni və oxşar dərəcədə təmin oluna bilməzlər. Həmçinin hər bir yaş dövrünün də məkan üzrə hüquqlarının təmin olunmasının xüsusiyyətləri mövcuddur. Məsələn, uşaq ikən yalnız böyüklərə xas olan hüquqlardan istifadə etmək mümkün deyil. Bu baxımdan resursların məkanlara olan nisbəti obyektlərə fərqli baxışları meydana gətirir. Fərqli baxışlar da fərqli dərəcələnmələrin əsaslarını formalaşdırır. Ümumiyyətlə isə hər bir anlayışın tətbiqi sahələri mövcuddur. Bu tətbiqetmə forma olaraq eyni olsa da, məzmun baxımından fərqlənir. Məsələn, insan hüquqları anlayışı bir forma və xüsusiləşmiş model olaraq bütün məkan və zamanlarda eynidir, insanların təbii xarakterlərinə immanentdir.

Hər bir anlayış bütün sahələrdə və məkanlarda eyni dərəcədə təmin oluna bilməz. Bu baxımdan da insan hüquqları bütün məkanlarda eyni səviyyədə və dərəcədə təmin oluna bilməz. Universal prinsip etibarilə anlayışlar bütün məkanlarda dəyişməz olmalıdırlar. Məsələn, harada olmasından asılı olmayaraq (burada söhbət dövlətlərdən və cəmiyyətlərdən, yaşayış məskənlərindən gedir), bütün insanlar insan hüquqlarının daşıyıcısıdırlar. İnsanların hüquqları resursların imkan verdikləri hədlərdə təmin olunmalıdır.

Məkan və tələbatlar fərqi, eləcə də üzərlərindəki resurslar və onlardan istifadə fərqləri fərqli yanaşmaları meydana gətirir. ***(Əlavə olaraq 6 saylı qrafikə baxmaq olar).*** İnkişaf etmiş ölkələrdə insan hüquqları inkişaf etməkdə olan və yaxud da kasıb olan ölkələrdə olan insan hüquqlarına nisbətən daha da çoxtərkiblidir. Burada olan sistemlər və resurslar insan hüquqlarının təminat baxımından müəyyən olunması üçün şərait yaradır, vasitələri üzərə çıxarır. Resurslar tərkiblərin aşkar olunmasının əsaslarını formalaşdırır.

İnsan hüquqlarının məkanlar üzrə dərk olunması həm də insanların iş yerləri ilə bağlıdır. Məsələn, dövlət qulluqçularının hüquqları, hüquq mühafizə orqanlarında işləyən şəxslərin hüquqları iş yerlərində olarkən özünəxas əsaslara malik olur. İş yerlərinin məkanlarda formalaşması onu tələb edir ki, hüquqlar fərqli olsun. Əlavə imtiyazlar və immunitetlər əldə edilsin. Məsələn, xarici ölkələrdə işləyən diplomatlar və onların ailə üzvləri immunitet və imtiyazlara malikdirlər. Burada onlar öz ölkələrindən fərqli statuslara malik olurlar. Dövlətlərini təmsil etdiklərinə görə təyinat ölkədə əlavə hüquqlar qazanırlar. Lakin təyinat ölkələrində olan vətəndaşların hüquqları ilə bütün məsələlərdə bərabər hüquqlara malik ola bilmirlər. Məsələn, diplomat statusuna malik olan şəxslər təyinat ölkədə seçki hüququna malik ola bilməzlər. Məkan amili burada hüquqların fərqli əsaslarla təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Bu izahlardan görünür ki, insan hüquqlarının müxtəlif məkanlarda təmin olunması dövlətlərdən və vətəndaşlıq məsələsindən çox asılıdır. Lakin fərqli olsa da dövlətlərin ümumən əsas məqsədləri insan hüquqlarının baza əsaslarını yüksək səviyyədə təmin etməkdən ibarət olur. Məsələn, ölkələrin konstitusiyaları bütün insanlara ümumi olaraq bərabər qaydada hüquq və azadlıqların verilməsini nəzərdə tutur. Miqrant hüquqları, vətəndaşlığı olmayan şəxslərin hüquqları yerli vətəndaşların hüquqları ilə əksər məsələlərdə bərabər tutulur.

Hüquqların məhdudlaşdırılması isə bəzi hallarda tətbiq olunur. Məsələn, miqrantlar gəldikləri ölkələrdə qanunları pozarlarsa, qanunalara müvafiq olaraq ölkələrdən deportasiya olunurlar, məcburi olaraq çıxarılırlar.

## İnsan hüquqlarının tək, cəm, xüsusi və ümumi kateqoriyalarla dərk olunması

İnsan hüquqlarının tək, cəm, xüsusi və ümumi kateqoriyalarla dərk olunması üçün özündə formal məntiqi də əks etdirən dialektik məntiqi mətn qurmağa çalışacağıq. Bu mətn içərisində hüququn obyektinin və subyektinin xüsusi və ümumi olması qənaətini bildirəcəyik. Belə ki, qeyd etmək olar ki, insan hüquqları subyektiv əsaslıdır. Lakin bu subyektiv əsaslılıq əsasən obyektiv əsaslı olmaqdan formalaşır. Subyektivlik elə normalarla obyektivliyin içərisində qərarlaşır. Yuxarı universal hüquqlar, universal hüquq normaları başlıca olaraq hər bir fərdə aid olur. Məsələn, yaşamaq hüququ hamıya aiddir. **(Qeyd:** məntiqi bölgü əsasında və obyektə münasibətdə belə qərara gəlmək olar ki, **universal hüquqlar** *yuxarı universal*, yəni bütün şəxslərə aid olan (məsələn, insan hüquq və azadlıqları) və *mərkəzi universal*, yəni çoxlu şəxslərə aid olan (məsələn, müəyyən yaşdan sonra meydana gələn nigah hüququ) və *subuniversal*, yəni, müəyyən qrup insanlara aid olmaqla (məsələn, müharibə əlillərinin hüquqları) sahələrə bölünə bilər. Yuxarı universallıq hər bir kateqoriyaya aiddir. Hər bir şəxsin konstitusiya ilə müəyyən olunmuş hüquqları vardır. Hüquq bərabərliyi prinsipi universal hüquq müəyyən edən kateqoriyadır. Bu kateqoriya tam və ya da qismən universallıq prinsiplərində vahid kriteriya kimi müəyyənedici əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 24-cü maddəsinin 24.2 bəndində yazılır: Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti

qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir).[1] Deməli, məxsusilik elə universallığın içərisindədir. ***(7 saylı qrafikdən də bir qədər ətraflı tanış olmaq olar).*** Universallığın tərkibi məxsusilikdən meydana gəlir. Lakin istisnalar da vardır. Məsələn, hər bir məxsusi hüquq, tək şəxsə aid olan hüquq universal qaydada hər kəsə aid ola bilməz. Məsələn, bir şəxsin mükafat almaq hüququ obyektə və subyektə münasibətdə məxsusidir, bidəfəlik aktdır, subyektivdir. Universal olaraq hər bir şəxs mükafat ala bilməz. Lakin müəyyən qrupların birdən mükafat alması mümükündür. Burada universallıq məxsusilik, konkretlilik içərisindədir. Burada bir şəxsin mükafat alması həmin şəxsin subyektiv məxsusi hüququnu meydana gətirir. Bu baxımdan belə nəticələrə gəlmək olur ki, hər bir məxsusi hüquq universal olaraq (tamamilə hamıya) tətbiq oluna bilməz. Hamılıq məxsusluğun içərisndədir. Lakin universal hüquq normaları hamı üçündür. Məsələn, hər kəsin siyasi hüquqların tərkibi olaraq seçki hüququ vardır. Bu, universal hüquqdur. Müəyyən müddətə dövlət rəhbəri seçilmək isə bir şəxsə aid olan hüquqdur. Bu isə məxsusidir. Dövlət rəhbərinin hüquqları da məxsusidir. Burada bir şəxsin hüquqları məxsusi olsa da, dövlət rəhbəri postuna seçilmək hüquq mərkəzi universal hesab oluna bilər. Çünki yuxarı universallıqdan fərqli olaraq burada müəyyən tələblər, məsələn, ali təhsilli olmaq tələbi vardır. Hər kəs isə cəmiyyətdə ali təhsilli ola bilməz. Buradan belə bir nəticə hasil olur ki, universal və məxsusi hüquqlar müəyyən bölücü kriteriyalarla bir-birindən fərqlənir. Hamıya aid olan hüquq bir nəfərə aiddir. Lakin bir nəfərə aid olan hüquq hamıya aid ola bilməz. Məsələn, hər kəs akademiklik hüququna sahb ola bilməz. Hər kəs Nobel mükafatı ala bilməz və s.

---

[1] Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Azərb. dilində. Bakı-Qanun-2000, 880 səh., səh. 241.

## İnsan hüquqları anlayışının dərk olunmasında zərurət kateqoriyası

Anlayışdakı fikirlər arasında olan bağlayıcılıq zərurətlə həyata keçirilir. İnsan hüquqları insanların təbii haqları olduğundan onun təmin olunması prosesləri da zəruri olaraq insanların özləri tərəfindən həyata keçirilir. Hüquq zəruri addımlarla, fəaliyyətlə bağlıdır və gerçəkləşməsi baxımından hərəkətlərin edilməsini (sükunət halından çıxılmasını) zəruri edir. Hüququn mövcudluğunun özü də zəruri fəaliyyətin meydana gəlməsini tələb edir. Yəni, hüquqlar zərurətdən yaranır və zərurətdən də təmin olunur. Bu zərurət insanların təbii fəaliyyətlərində meydana gəlir. Yəni insanların fəaliyyətləri təbii qanunlara söykənir və ehtiyac və tələbatlardan irəli gəlir.

İnsanlar öz təbii hüquqlarının zəruriliyini əsasən dövlətləri və cəmiyyətləri ilə təmin etməyə çalışırlar. Resurslar özləri təbii hüquqların təmin olunması üçün şərtləndirici əhəmiyyət kəsb edir. İnsanlar öz təbii hüquqlarını vəhdət şəkilində təmin etmək üçün zəruri olaraq ictimai və siyasi münasibətlərə qoşulurlar. İctimai-siyasi münasibətlərin dövlətlər tərəfindən tənzim edilməsi normativ-hüquqi aktlarla həyata keçirilir.

İnsanların zəruri hüquqlarının təmin olunmasında zəruri hüquq normalarını özündə əks etdirən normativ-hüquqi aktlar meydana gəlir. İnsanların zəruri hüquqlarının təmin olunması üçün ilk növbədə konstitusiya qəbul edilir və konstitusiyada məhz əsas hüquqlar öz əksini tapır. Bununla yanaşı, konstitusiyadan irəli gələrək digər qanunvericlik aktları qəbul olunur və beynəlxalq hüquq sənədləri qəbul edilir.

İnsan hüquqları anlayışının zərurət kateqoriyası ilə dərk olunmasının aspektlərininin əsaslarını da iki istiqamətdə müəyyən etmək olar: **birincisi**, insanların zəruri ehtiyacları üzərində meydana gələn hüquq normalarının qəbul edilməsi; ikincisi, bu normalara əməl olunması və normaların müdafiəsi.

İnsan hüquqlarının həm təmin olunması, həm də qorunması məhz zərurətdən irəli gəlir və tələbatlara söykənir.

Ancaq belə hesab etmək olar ki, bütün hüquqlar zəruridir. Qeyri-zəruri hüquqlar ola bilməz. Lakin hüquqların təmin olunması ardıcıllığı baxımından hüquqları birinici dərəcəli zəruri və ikinci dərəcəli zəruri əsaslara bölmək olar. Məsələn, yaşamaq üçün həyati vacib olan hüquqlar birinci dərəcəlidir. Azadlıq hüququ, mənzillərdə yaşamaq hüququ ilk növbədə zəruri olaraq təmin edilməsi vacib olan hüquqdur. Bu hüquqların təmin olunması üçün resurslar amili böyük əhəmiyyət kəsb edir.

İnkişaf özü elə hüquqların zərurətini meydana gətirir. Zərurət resurslardan istifadənin və bu istifadə üzrə hüquqi-tənzimləmənin əsaslarını təşkil edir.

## İnsan hüquqlarının dərk olunmasında inkişaf kateqoriyası və qanunauyğunluqları

Qanun özü bir kateqoriyadır, müəyyənedici faktordur. İnkişaf qanunauyğunluğa və sistemliliyə müvafiq olaraq meydana gəlir. İnkişaf ardıcıl təzahür yaradan proses olaraq mövcud resursların sistemli olaraq təkrar sistemləşməsindən meydana gələn bir prosesə çevrilir. İnkişaf müəyyən məkanlarda və sistemlərdə ardıcıl qaydada bir-birini əvəz edən pozitiv aşkarlıqların vəhdətidir. İnkişaf məkanı əhatə etmək baxımından pozitiv olmayanda qeyri-tarazlı olur və yalnız müəyyən qrupun mənafeyinə xidmət edir. Bu halda sistemin yalnız müəyyən hissələrində inkişaf meydana gəlir. Qanunauyğunluq və resursların səmərəli istifadəsi-burada maraq dairələri üzrə tarazlı qaydada- inkişafın şərtlənməsini təmin edir. İnkişaf özü elə qanunların tətbiqi və yeni qanunların meydana gəlməsi ilə, həmçinin yeni qanunların tətbiqinin tələbi ilə xarakterizə olunan yüksələn, genişlənən, artan bir vəziyyətdir. İnkişaf prosesləri mütləq öz aralarında

şərtləndiriciliyi yaratmalıdır. Şərtlərin özləri ilə bu şərtlərə cavab vermənin nisbət dərəcəsi inkişafın meydana gəlməsinin əsaslarını yaradır.

İnkişaf cəmiyyətin qeyri-mütləq anlarından, müəyyən vəziyyətindən, müəyyən reallıqlardan başlayan və ardıcıl qaydada **"yuxarıya"** və **"yanlara"** doğru davam edən zahiri bütöv bir prosesdir, həmçinin şəbəkəli proseslər cəmidir. İnkişaf prosesləri bütövünün cəmi elə tərkiblərdən ibarətdir. Bu proseslərin tərkibini təşkil edən hadisələrin məsafə və məsafədən irəli gələrək zaman trayektoriyası mövcuddur. Məsafə və zaman trayektoriyasının daxilən bağlılığı, vəhdəti (məsafə məkan olduğundan, dəyişikliklər də zamanı təzahür etdirir) insan hüquqlarının dərk olunmasının zaman və məkan ardıcıllığını, həmçinin vəhdətini meydana gətirir. Məkan dəyişəndə zaman da dəyişir. Məkan dəyişməyəndə dəyişməyən şey üçün zaman da qalır. İnkişaf odur ki, tez-tez məkan dəyişmələri prosesləri baş versin. Bu dəyişmələr şərti bir məkan daxilində və məkanlar arasında meydana gəlir.

İnkişaf özü ilə yeni hüquqların gerçəkləşməsini təzahür etdirir. İnsan hüquqlarının ardıcıl zaman arealında və zaman davamediciliyində reallaşması və gerçəkləşməsi cəmiyyətin və dövlətin silsilə xarakterli inkişafına söykənir. Həmçinin insanların fərdi və toplum halda cəmiyyətin və dövlətin ictimai-siyasi həyatında iştirakına əsaslanır. İnkişaf ardıcıl və kompleks vasitələr vəhdətindən ibarət olan bir vəziyyətdir. Bu baxımdan da insan hüquqlarının dərk olunması inkişaf prosesləri ilə vəhdət təşkil edir. İnkişaf prosesləri vəhdət zamanı (birləşmədən meydana gələn sinergetik vəziyyətlərdə) resursların və istiqamətlərin birləşməsini meydana gətirir. İnkişaf prosesləri öz ardınca insan hüquqlarının zənginləşməsini və daha çox tərkibdə reallaşmasını təmin edir. İnkişaf prosesləri rasional qaydada cəmiyyətin çoxspektrli mahiyyətinin meydana gəlməsinə xidmət edir. Mahiyyətin reallaşması və yeni əsaslarla gerçəkləşməsi prosesləri elə

hüquqların yeni-yeni istiqamətlərinin meydana gəlməsinə xidmət edir. İnkişaf fəaliyyət spektrlərini genişləndirir, buna müvafiq qaydada, yəni fəaliyyətə uyğun olaraq hüquqlar da genişlənir. İnkişaf hüququn tərkib ünsürlərinin, komponentlərinin zənginləşməsinə xidmət edir.

İnkişaf elementlərin ardıcıl trayektorik quruluşundan meydana gələn bir təzahürdür. İnsan hüquqları inkişaf etdikcə (cəmiyyətin və dövlətin inkişafına müvafiq olaraq) onun dərk olunması imkanları da genişlənir. Dərk olunması imkanları böyüdükcə hüquqlar da dərk etmək sferasına müvafiq olaraq genişlənir.

İnkişaf qanunauyğunluqları inkişafın əsaslarını şərtləndirən qanunlardan ibarət olan bir kompleksdir. Bu qanunlar həyatdakı proseslərin real qaydada baş verməsinə söykənir. Qanunlar reallıqları təzahür etdirdiyindən *(qeyri-müəyyənliklərin aşkar olunması da elə öz növbəsində müəyyən reallıqların qanunlarını formalaşdırır. Bu baxımdan da belə qəbul etmək olar ki, qanunlar müəyyən və qeyri-müəyyən olmaqla iki baza əsaslardan ibarət ola bilər)* inkişaf proseslərinin də dərk olunması və hüquqla vəhdətdə müəyyən olunması amili meydana gəlir. Lakin onu da nəzərə almaq lazımdır ki, inkişaf qanunlarından kənar da hüquq fikirlərdə inkişaf edə bilər. Belə ki, arzu olunan şeylər də insanların hüquqlarından xaric deyil, sadəcə olaraq imkanlarından xaric ola bilir. İmkanların məhdudluğuna görə hüquqların təmini proseslərinin reallaşmasının da qarşısı alınır. Bu baxımdan da insan hüquqlarının baxışlarda genişlənməsi onun real imkanlar çərçivəsində genişlənməsindən daha da uzaqlara gedib çıxa bilər və arealını genişləndirə bilər. Arzu olunan, istənilən hüquqlar meydana gəlir.

Belə bir prinsipdən də çıxış etmək olar ki, insan həyatı üçün bütün resurslar müəyyən sərhdələri olan bir məkanda cəmləşməyib. Bu baxımdan da resursların təminatında və geniş hüquqlarda böyük məkan anlayışı mühüm əhəmiyyət kəsb edir.

Geniş məkanlarda hərəkət etmək və resurslardan faydalanmaq insan hüquqlarının tərkibinin zənginləşməsinin əsasında dayanır. Məsələn, əhalisi çox, ərazisi isə kiçik dövlətin resursları heç də bu dövlətdə yaşayan əhalinin tələbatlarının ödənilməsini təmin edə bilməz. Bu cəmiyyətdə **"sıxılmış, əzilmiş hüquqlar"** anlayışı meydana gəlir. Çünki resurs çatışmazlığı elə özündə hüquq çatışmazlığını, dəyər çatışmazlığını meydana gətirir. Bu məsələdə hüquqların horizontal genişlənməsi prosesləri geniş forma və məzmunda baş vermir. Hüquqlar vertikal genişləndikcə isə iyerarxiya dərinləşir və avtoritarlıq meydana gəlir. Liberal cəmiyyətlər o cəmiyyətlərdir ki, burada əhali, ərazi və resurslar, resurslardan istifadə mexanizmləri arasında tarazlı nisbət mövcuddur, bir qədər mütənasiblik və harmoniyalılq var. Kiçik dövlətlərin, xüsusilə resursları kasad olan kiçik dövlətlərin böyük dövlətlərlə yumşaq münasibətlər mühitində yaşamaları resursların əldə olunmasına və hüquqların zənginləşməsinə səbəb ola bilir. Hüququn sinergetik vəhdəti və artan faydası ittifaqlarda daha da geniş aspektlərdə öz əksini tapa bilir.

## İnsan hüquqları anlayışının tərkib və bütöv kateqoriyası ilə dərk olunmasının əsasları

Hər bir sistem tərkibdən və bütövdən ibarətdir. Hər bir element təkdir, həm də bütövdür. Bu baxımdan sistemlər də bütöv kimi təkdirlər. Tək bütöv, bütöv isə təkdir, vahiddir. Elementlər birləşmələri vahidi yaratdığından elə bütövün tərkibini əmələ gətirir. Deməli, sintez də bütövdür, təkdir, vahiddir. Təklərin tərkibi zəngin olanda onlar daha çox sistemli təklərə çevrilirlər. İnsanın ontoloji bütövlüyü ilə yanaşı, qnoseoloji bütövlüyü də mövcuddur. İnsanın mənəvi aləmi tərkibləri olan bütövlüklərdən, elə bütövlükləri ifadə edən təkliklərdən ibarətdir. Bütöv və təklik elə vahidin, sistemin tərkibidirlər. İnsanın mənəviyyatı əxlaqi dəyərlərdən təşkil

olunur. Deməli, əxlaqi dəyərlər çoxdur, çoxluqların, təkliklərin cəmindən ibarət olan vahiddir, təkdir. Buradan da belə bir nəticə hasil olur ki, insan zəngin mənəviyyatı olan tək məxluqdur, substansiyadır. Hüquq mənəvi dəyərlərdən formalaşır. Mənəvi dəyərlər tək və çox sayda təklərdən ibarət olan təkdirsə, bütövdürsə, deməli, hüquq da çox saylı təklərdən ibarət olan bir mənəvi sistemdir. İnsan hüquqları anlayışı öz-özlüyündə tərkib ünsürlərdən təşkil olunur və komponentlər zənginliyin əsaslarını təşkil edir.

İnsan hüquqlarının tərkib və bütöv halda dərk olunması həm də hüquq subyektlərinin mövcudluğu aspektindən mümkündür. İnsanın daxili mənəviyyatı bir hüquq sistemini yaradır, eləcə də fəaliyyət sahələri zəngin hüquqları formalaşdırır. Hüquqların zəngin olması hüquqların sistem daxilində yuxarı və aşağı müstəvidə (burada mücərrəd, xəyali müstəvi nəzərdə tutulur) tərkiblərinin təmin olunmasından asılıdır. Hüquq daşıyıcısının özü hüquqlarının tərkibi baxımından zəngindir, həm də hüquqlarının əks olunduğu sahələrdə zəngindir.

İnsan və onun fəaliyyəti də müxtəlif istiqamətləri özündə cəmləşdirən bütövü əks etdirir. İnsanların maraqları həm universal əsaslarla bütövdür, həm də xüsusiləşmiş qaydada, yəni tək əsaslarla bütövdən ibarətdir. İnsanlar kollektivcəsinə özlərinin universal və fərdi bütövlüklərinə xidmət edirlər. Bununla yanaşı, fərdi qaydada da öz bütövlüklərinə xidmət göstərirlər. İnsanların fərdi bütövlükləri elə onların kollektiv maraq və münasibət, əlaqə bütövlüklərindən formalaşır, həmçinin insanların fərdi bütövlükləri kollektiv bütövlüklərinə xidmət edir. İnsan fərdin aspektdə bütövdür, həmçinin kollektiv əlaqələr vəhdətində fərdi bütövdür. Eləcə də kollektiv bütövlüyün tərkibidir.

İnsan hüquqları universal bütövdən və eləcə də məxsusi-fərdi bütövlərdən ibarətdir. İnsanların maraqları universal hüquq normalarında fərdi olaraq təmin olunur. İnsan hüquqları

həm də təklərdən (burada fərdiyyətə birbaşa məxsus olan hüquqlardan) təşkil olunur. Məsələn, universal hüquqlar (bütöv içərisində olan və cəm halda insanlara aid olan hüquqlar) içərisində olan hər bir şəxsin hüquqları da bütövdür. Bütövlük insanların pozitiv fəaliyyətinin əsasında duraraq mövcud olan təklikdən və bütövlükdən meydana gəlir.

İnsan hüquqlarının bütövlüyü amili mütləq-konkret olmaqla yanaşı, həm də şərtidir. Bütövlük “yuxarıda” sona yetmir və davam edir. Bütövlük baza bütövlük üzərində şaxələnir. İnsan hüquqlarının fərdi bütövlüyü sistemli olaraq daxilən genişlənir. Bu, aşkarlanma prosesləri sayəsində təmin olunur. Məsələn, insanların baza hüquqları və azadlıqları üzərində bütövlük şaxələnir və yeniliklər yeni hüquqların aşkar olunmasına xidmət edir. Bütövlüklər insanların təbii hüquqlarının meydana gəlməsinin və təmin olunmasının əsasında dayanır. Bütövlüklər baza olaraq hüquq normalarında ifadə olunur. Hüquq normaları həm də təkliklərin tərkibidir. Hər bir hüquq norması bir tək vəziyyəti ifadə edir, tənzimləyir.

Cəmiyyətdə hər bir insan öz hüququna fərdi qaydada nail ola bilir. Fərdlərin hüquqları cəmi obyektivliyi meydana gətirir. Eləcə də hüquqların dialektik məzmunlarını formalaşdırır. Təbii hüquqların reallaşması resurslara bağlı olur. Resurs zənginliyi təbii hüquqların təmin olunma səviyyəsini yüksəldir. Cəmiyyətin və dövlətin zəngin olması kollektiv qaydada və onun içərisində fərdi məzmunda insan hüquqlarının təminatını zəngin edir.

## İnsan hüquqlarının mürəkkəb məzmununun dərk olunması və sinergetika

Mürəkkəblik dolğunluqdur. Burada sistemin, anlayışın mürəkkəbliyi müəyyən məkanlarda olan təkliklərin say çoxluğu, istiqamətlərin, fikirlərin zənginliyi ilə xarakterizə olunur. Fikirlərdə təkmilləşmənin özü elə mürəkkəbləşmədir.

Mürəkkəbləşmənin nisbi son həddi isə sadələşmədir, konkretləşmədir. Ümumilik özündə məxsusiliyi, məxsusluq isə ümumiliyi əks etdirir. Mürəkkəblik iki "üçbucaq" birləşməsinin (dördbucaqlının) aşağı və yuxarı hissələri arasındakı orta vəziyyətdədir. Ortadan aşağıya və yuxarıya doğru hərəkət etdikcə mürəkkəblik də öz yerini sadəliklə əvəz etməyə başlayır. Əgər biz hüquqları üçbucaq birləşməsi olan dördbücaqlıda xarakterizə etsək, onda belə nəticələrə gələ bilərik ki, hüquqlar sadələrdən mürəkkəbliklərə doğru və yaxud da əksinə istiqamətdə "hərəkət edən", yayılan mənəvi dəyərlərdən ibarətdir. Həm də dördbucaqlı müstəvidə orta xətti (orta hissələri) tarazlaşdırıcı hissələr kimi götürsək, onda belə nəticələrə gələ bilərik ki, hüquqların mürəkkəb hissələri daha çox tarzlaşdırıcıdır. Ədalət də məhz bu tarazlaşdırmadadır. Zəginləşmə prosesləri yuxarıya və aşağıya doğru davam edir, bu anda sadələşmə meydana gəlir. Sadələşmə həm də özündə dayazlığı, kasadlığı, nəticə etibarilə son uc nöqtələrdə nisbi heçliyi meydana gətirir. Deməli, hüquqlar mərkəzlərə doğru zənginləşir. Zənginləşdikcə tarazlıqlar meydana gəlir. Tarazlıqlar isə ədalətin əsaslarını aşkarlayır. Mübarizələr sayəsində dialektik qaydada müəyyən xətlərdə, nöqtələrdə birləşmə məhz ədalətin özünü aşkarlayır. İnsan hüquqlarının orta hissələri (burada tərkib və sahələr nəzərdə tutulur) daha çox sinergetik əsaslı olur. Orta hissələrdə hüquqların cəmləşməsi sinergetik məzmunu formalaşdırır. Sinergetiklik fərdi hüquqların universal hüquqlar normalarında əksini tapmaqla əhəmiyyət kısb edir.

İnsan hüquqları ayrı-ayrı sahələrdə əksini tapmaqla yanaşı, tərkib baxımından birləşmiş formada sadələrdən ibarət olan bir **mürəkkəb məzmundur**. Mürəkkəblik anlayışına həm dolğunluq, həm də çətinlik aspektindən yanaşmaq olar. Çətinlik, məsələn, çətin dərk olunma elə dolğunluqdan meydana gəlir. İnsan hüquqlarının mürəkkəbliyi həm onun tərkibində mövcuddur, yəni hüquqlar rəngarəngdir, həm də

ayrı-ayrı sahələrdə, yəni bölgü ünsüründə (sahələrində) meydana gəlir. İnsan hüquqlarının tərkib zənginliyi insan hüquqlarının bölgü sahələrində genişlənməklə daha da mürəkkəbləşir. Bu baxımdan mürəkkəblik insan hüquqlarının sistemliliyindədir. Sistemlik dərinləşdikcə müəyyən məkanda tutum da sıxlaşma hesabına artır. İnsan hüquqlarının rəngarəngliyi onun silsilə xarakteri kəsb etməsindən meydana gəlir. İnsan hüquqlarının cəmiyyətin inkişafına müvafiq olaraq sistemli qaydada genişlənməsi məhz onun mürəkkəb əsaslarla rəngarəngləşməsinə səbəb olur. Hər bir hüquq trayektoriyası öz başlanğıcını məhz mövcud olan hüquqlardan götürür. Təbii hüquqlar bütün prosesli məsələlərdə, yəni artıb-azalmada (daralmada və şaxələnmədə) öz nisbi və mütləq mənasını saxlayır. Məsələn, azadlıq, ixtiyar, mülkiyyətə sahiblik kimi hüquqverici dəyərlər bütün universal məqamlarda eynidir və mahiyyətdir. Mahiyyət elə sistemin məkanlarında əhatə olunandır. Mahiyyətdə mövcud olan dəyərlər sübutlar olmaqla öz tərkibini fəaliyyətdə və qarşılıqlı əlaqələrdə həm məhdudlaşdırır, həm də genişləndirir. Genişləndirmə, şəbəkələndirmə zamanı sinergetiklik meydana gəlir. Təbii hüquqlar anlayışı hər bir məsələdə o mənanı verir ki, yəni hüquq adlanır, başa düşülür ki, insanların fəaliyyətləri üçün özlərinin müəyyən haqları (səlahiyyətləri, ixtiyarları) olur. ***(Qeyd: təbii hüquqların azalıb-artması da mövcuddur. Bu elə insanların fəaliyyət göstərdikləri məkanlarda meydana gəlir. Belə ki, fəaliyyət hüququ şərtləndirirsə, onda qeyd edə bilərik ki, fəaliyyətin artıb-azalması elə hüquqların artıb-azlamasının əsasında dayanır. Hüquqların fərdi qaydada cəmləşməsi elə sinergetikliyi meydana gətirir. Birləşmə həm sinergetikliyə xeyir edir, həm də sinergetikliyi azalda bilir. Bu, əsasən imkanlardan və resurslardan asılı olur).*** Hüquq bütün obyektlərə münasibətdə insanların mənəvi əlaqə və ünsiyyət haqqıdır və əlaqələrin qurulmasına təkan verən dəyərdir. Buradan da, yəni insanların obyektlərə olan

münasibətlərindəki məsafədən, hüquqların dərəcələnməsi prosesləri baş verir. Nisbi olaraq azdan çoxa doğru hüquq yaranır. Məsələn, ailə hüququ insanlara öz ailələrində (məkana müvafiq olaraq) hüquqlarının dərəcəsini artırır. Kənar şəxslərin hüquqlarını isə azaldır. Bu o deməkdir ki, ailə yaxınlıq münasibətləri insanların hüquqlarını məkan üzrə genişləndirir. Buradan da belə bir məntiqi nəticə hasil olunur ki, müəyyən məkanlarda **mərkəzləşmələr** hüquqları genişləndirir. Konkret məkanlar və aspektlər hüquqların genişlənməsinə xidmət edir. **Hüquq məkanların daralmasında genişlənir, məkanların genişlənməsində məhdudlaşır**. **Lakin elə də olur ki, hüquq məkanların genişlənməsi ilə böyüyür.** Məsələn, insanların fəaliyyət obyektləri genişləndikcə, maraq sferaları genişləndikcə hüquqları da genişlənir. Məsələn, dövlət qulluqçusu digər vətəndaşlara nisbətən həm də məxsusi qulluq hüququndan istifadə edir. Dövlət rəhbərinin imtiyazları və immunitetləri mövcud olur. Burada fəaliyyətin genişliyi hüququn genişliyini meydana gətirir. Fəaliyyətin genişliyi məsuliyyəti üzərə çıxarır və məsuliyyət və öhdəlik də hüququn tərkib sisteminin əsaslarını təşkil edir. Fəaliyyətin genişlənməsi həm də hüququ məhdudlaşdırır. Məsələn, dövlət məmurları biznes və kommersiya fəaliyyəti ilə məşğul olmaq hüquqlarından məhrum olurlar. Bunun əksinə olan proses olaraq, dövlətin gücü artıdqca və digər dövlətlərə təsirləri genişləndikcə hüquqları da genişlənir. Hüquqların genişlənməsi həm üfiqi, həm də şaquli olaraq həyata keçirilir. Hüquqların genişlənməsi onun faydasını artırır. Kollektivin hüquqları fərdin hüquqları üzərindən daha da güclü olur. Fərdin hüquqları həm də onun fərdi gücünə bağlı olduğundan fərdi qaydada kollektivdən daha da az kəmiyyətə malik olur. Fərdin hüquqları həm daxilən **sinergetikliyi** meydana gətirir, həm də fərdlərin birləşməsində sinergetiklik ortaya çıxarır. Hüquqlar məhdudlaşır və genişlənir. Bir genişlənmə sahəsi digər sahədə olan hüquqları məhdudlaşdırır. Məsələn, əmək pensiyası

hüququ müəyyən yaşdan sonra qazanılır. Lakin bu hüququ qazanmış şəxs əmək fəaliyyəti ilə məşğul olmaq hüquqlarından məhdudlaşır. Hüquqların cəmləşməsində meydana gələn sinergetiklik (birləşmədən ortaya çıxan faydalılıq) qanunvericilik aktlarının ardıcıl və əlaqəli əsaslarla qəbulunda da öz əksini tapır.

İnsan hüquqları anlayışının mürəkkəbliyi eləcə də onun tərkibini təşkil edən və müxtəlif maddi-mənəvi bağlılığı özündə cəmləşdirən təriflərdə, mənalarda öz əksini tapır. İnsan hüquqlarının mürəkkəb məzmunu onun faydasını daha da artırır. Belə ki, sadə hüquqlar cəmiyyətin və dövlətin inkişafına müvafiq olaraq, həmçinin insanların maraq sferalarından irəli gələrək, birləşir və bu baxımdan da vəhdət şəkilində cəmləşir. Hüquqların zənginləşməsi onun sinergetik (birləşmiş qaydada daha da səmərəli) məzmununu meydana gətirir. Universal hüquq normaları sinergetiklik baxımından daha da zəngin olur. Çünki burada fərdi hüquqların birləşməsi və fərdlərin tarazlı qaydada əməkdaşlığı mövcuddur. Buradan da belə nəticəyə gəlmək olar ki, cəmiyyətin və dövlətin içərisində, kollektivdə fərdin hüquqları daha da zənginləşir. Hüquqların birləşməsindən faydalılıq meydana gəlir.

## “Dövlət siyasəti” və “insan hüquqları” anlayışlarının vəhdət təşkil edən fəlsəfi məzmunları

Hələ qədimdən məlumdur ki, dövləti ictimai münasibətləri tənzim edən bir qurum kimi insanların özləri yaradıblar. Dövlət siyasi forma və məzmun olaraq insanların hüquqlarını təmin edən qurumdur. İnsanlar fərdi olaraq mənəviyyata bağlıdırlar. Dövlət insanlara məxsusdursa, deməli, dövlətin də substansional olaraq mənəviyyatı vardır. Bu abstraksiyadır. Çünki dövlərin mənəviyyatı elə insanın mənəviyyatında öz əksini tapır. Dövlət insanları təmsil edirsə, eləcə də obyekt kimi insanları əsas götürürsə, deməli, hüquqları olan ixtiyarlı,

öhdəlikli və məsuliyyətli bir tərəfdir. Burada dövlətin mütləq tərəfini yenə də fərdlərin mütləq mənəviyyatı təşkil edir. Alman filosofu Hegel də dövlətin mahiyyətini bir aspektdə mücərrədlikdən ifadə edir. Onun fikirlərinə əsasən, dövlət həqiqətdə mənəvi ideyadır, açıq-aşkar mənəvi ruhdur, öz-özlüyündə açıq substansional iradədir, hansı ki, düşünür, özünü dərk edir və bildiyi qədər düşündüklərini edir. Mənəviyyatda (əxlaqda) dövlət birbaşa mövcuddur, ancaq insanın fərdi qaydada özünü dərk etməsində, onun fəaliyyətində isə vasitəli olaraq mövcudluğa malikdir və mövcudluğu insanın fərdi olaraq özünüdərk etməsinə bərabərdir.[1]

Hər bir məsələdə, konsepsiyada fəlsəfi məzmun dedikdə, ilk növbədə həmin konsepsiya üzrə sistem təşkil edən elementlərin aralarında olan əlaqələrin və münasibətlərin geniş əsaslarla izahı nəzərdə tutulur. Burada sistemdaxili elementlərin tək və cəm halda funksiyaları izah olunur. Eyni zamanda xassələri dərindən araşdırılır. Dərindən araşdırma isə dərin düşüncələr əsasında tərkib və bütövü aşkarlamaqdan və bu baxımdan təfəkkürdə hissələrə, istiqamətlərə ayrımaqdan, həmçinin tərkib hissələri çox kiçik ölçülərdə izah etməkdən ibarətdir. **Fəlsəfi məzmun öz əksini ən kiçik ölçülərdə və onun xassələrində görür**. Fəlsəfi məzmunda dərinləşmə və ətraflar üzrə genişlənmə prosesləri vəhdətdə əks olunur. Təfəkkürdə bütövün nisbətən geniş əsaslarla tərkib hissələrə parçalanması və tərkiblərdən bütövün əmələ gəlməsi prosesləri qismən fəlsəfi məzmunları ortaya çıxarır.

**“Siyasət”** və **“hüquq”** anlayışlarının həm şərti ayrı istiqamətlər üzrə, həm də vəhdətdə olaraq vahid istiqamətlər üzrə zəngin tərkiblərdən ibarət olan fəlsəfi kompozisiyaları, məzmunlu və şərtləndirici birləşmələri mövcuddur. Siyasət müsbət mənada hüquqların **bölgü ünsürü** əsasında

---

[1] Гегель Г.В. Философия права. (фрагменты). Библиотека Михаила Грачева. http://grachev62.narod.ru/hrest/gegel_2.htm

**tərkiblərinin** təmin olunması ilə gerçəkləşən fəaliyyətdən ibarətdir. Hüququn bölgü ünsürünün çoxluğu insanların dövlətlərində və cəmiyyətlərində geniş fəaliyyətləri ilə əlaqəlidir. Dövlət siyasəti daxildən genişləndikcə hüquq normalarının təkmilləşməsini də tələb edir. Hüququn bölgü ünsürlərinin artması əsasən insan fəaliyyətinin genişlənən nəticəsi olan çoxistiqamətli proseslərdən asılı olur. Burada resurslar üzərində çoxtərkibli təsirlər bölünmənin və çoxalmanın şətləndirici məzmununu təşkil edir. Siyasət, bir tərəfdən hüquqları təmin etməklə öz mənasını və əhəmiyyətini hüquq anlayışının "altına" qoyur, digər tərəfdən də hüquqları təmin etmək üçün mühüm bir vasitə olaraq hüquq anlayışının "fövqünə" qalxır. Burada dövlət və insanın vahid sistemlər daxilində tərəf kimi vertikal trayektoriyada xəyali olaraq, həm də rasional *(yəni, təffəkkürdə duyğulardan kənar olaraq əqlin qəbul olunması)* və irrasional *(yəni, duyğuların təfəkkürdə ön yerdə dayanması)* əsaslarla "birinci" və "ikinci" olması mənaları ortaya çıxır. Lakin nəzərə almaq lazımdır ki, dövlət siyasəti daimi olaraq və mexanikiləşdirilmiş əsaslarla hüquqların təmin olunmasını özünün əsas hədəfi hesab edir. Sistemli siyasət hüquqların sistemli əsaslarla təmin olunmasına söykənir. Hüquq normalarının şəbəkələr strukturu ilə müəyyən formalarda öz əksini tapması məhz siyasətin sistemli qaydada təmin olunmasına əsaslanır. **Siyasət sistemləri** hüquq normalarını sahələrə ayırmaqdan (sahələr üzrə qaydaları ifadə etməkdən) və sistemləşdirməkdən, tərkiblərdə qruplaşdırmaqdan ibarətdir. Qanunvericilik sistemində hüquq sistemləri əks olunur. Hüquq sistemləri həm də özündə siyasət sistemlərini meydaan gətirir və ondan çıxış edir. Hüquqla siyasətin vəhdəti meydana gəlmiş olur. Sistem daxilində hüquq normaları ilə siyasət həm məzmun, həm də forma etibarilə birləşə bilir. Ümumiyyətlə isə sistemdən (ictimai münasibətlər sistemindən) kənar hüquq normaları və siyasət ola bilməz. Çünki bütün insanlar dövlətlər adlanan qurumların daxilində

fəaliyyət göstərirlər. Sistem siyasətlə hüququn fəlsəfəsini dialektik qaydada birləşdirir. Siyasət və hüquq anlayışları dövlətdaxili məkanda bir sistem tərkibində qanunvericilik anlayışı ilə birləşir. Qanunvericilik vasitələri dövlətin insan hüquqlarının təmin olunması funksiyasının sistemləşməsinə xidmət edir. Qanunvericilik vasitələri hüquq normalarından ibarət olur və bu normalar öz mahiyyətində məhz **dövlət siyasətinin mahiyyətini** daşıyır. Deməli, hüquq normaları insan hüquqlarının təmin olunması üçün dövlət hakimiyyəti qurumlarının əsas fəaliyyət məzmunlarını özündə əks etdirir. Hüquq normalarında siyasətin məqsədləri, siyasət subyektlərinin vəzifə və funksiyaları təsbit olunur. Hüquq normaları bu baxımdan aşkarlayıcı və təsbitedci funksiyanı yerinə yetirir. Dövlətin siyasi strukturu öz bütöv mahiyyətini də insan hüquqlarına (hüquqların təmin olunmasının tələbatına) uyğun şəkildə qurur. Dövlət siyasi sisteminin quruluşu məhz insan hüquqlarının çoxaspektli təminatına yönəldilir. Dövlət siyasəti sistemi öz quruluşunu –piramidal quruluşunu- məhz insan hüquqlarının vertikal və horizontal təminatı məqsədilə təşkil edir və hər bir etapda və iyerarxiyada səlahiyyət və vəzifələr bölgüsü ilə **siyasət və hüquq bütövləşir**. Siyasət bir fəaliyyət kimi hüquqdan meydana gəlir, yəni hüquqları olan tərəflər siyasətin həyata keçirilməsini təmin edirlər. Eləcə də hüquq olduğuna görə dövlət siyasətinin mövcudluğu vacib amilə çevrilir.

Dövlət siyasəti insan hüquqları anlayışı ilə fəlsəfi kateqoriyalar baxımından həm də **məkan, zaman və resurslar** məsələsində birləşir və bu məsələdə siyasətin hüquqa xidmət etməsinin əsasları formalaşmış olur. Məsələn, dövlət (bir məkan subyekti olaraq) öz fəaliyyəti ilə müxtəlif zaman birləşmələrində (zaman ardıcıllığında) hüquqların təmin olunması siyasətini həyata keçirir. Burada ardıcıl fəaliyyətdən əldə olunan resurslar növbəti fəaliyyət üçün baza rolunda çıxış edir. Dövlət resurslarını artırır və resursların artması da öz

növbəsində insanların sahələr üzrə hüquqlarının təmin olunması siyasətinin genişlənməsinə rəvac verir. Fəaliyyət trayektoriyası nəticə etibarilə və tərkib baxımından özündə hüquqların tərkib komponentlərinin təmin olunmasına xidmət edir. Dövlət siyasəti insan hüquqlarının təmin olunmasında bölücü, ayırıcı funksiyanı yerinə yetirir.

İnsan hüquqlarının təmin olunması prosesləri cəmiyyətdə və dövlətdə, ictimai-siyasi münasibətlər və əlaqələr strukturunda həyata keçirilir. Bu prosesləri **dövlətin pozitiv siyasəti** adlandırmaq olar. Dövlətin siyasəti müsbət istiqamətdə insanlara xidmət etməkdən ibarətdir. Bu baxımdan da dövlət pozitiv əsaslarla, **ətraflara doğru genişlənən və yuxarıya doğru böyüyüən hüquqları** təmin etmək funksiyasını yerinə yetirir. Dövlət siyasəti başlıca olaraq hüququn tərkibinin *(insan hüquqlarının tərkibi qeyri-müəyyənlikdə daha çoxdur və baza etibarilə isə şərəf, ləyaqət, namus, əxlaq, vicdan və s. kimi etik dəyərlərə və məxsusluq, sahibkarlıq, aidiyyatlılıq kimi maddi-mənəvi asılılığa əsaslanır)* müxtəlif sahələrdə zəngin əsaslarla aşkarlanmasına xidmət edir. Dövlət öz resurslarından istifadə edir, sistemli mexanizmlər təşkil edir və resursların sistemli qaydada artmasına çalışır ki, insan hüquqlarını geniş tərkib etibarilə təmin edə bilsin. Burada siyasətin hüquqla zaman kriteriyası əsasında vəhdəti meydana gəlmiş olur. **(Qeyd: insan hüquqlarının sahələr üzrə tərkibinin genişlənməsi horizontal olaraq sonu olmayan bir prosesdir. Bu proseslərin sonsuzluğu resurslara söykənir və resursların çoxluğu da inkişafın əsaslarını formalaşdırmış olur. İnkişaf-siyasət-hüquq; hüquq-inkişaf-siyasət; siyasət-inkişaf-hüquq vəhdəti daima mövcud olur. Hüquq təkmilləşəndə qaydalarını, normalarını da dəyişir. Hüquq yolları uzadan və qısaldan təfəkkür normalarının bir-birini əvəzləməsi ilə daxilən təkmilləşir və sistemin xaricinə çıxır).** Bu artım da öz növbəsində insan hüquqlarının tərkib komponentlərinin genişlənməsinə xidmət edir. Dövlət siyasəti

ilə insanların təbii hüquqları reallaşır, gerçəkləşir. Dövlətin başlıca funksiyası elə insanların təbii hüquqlarını reallaşdırmaqdan, gerçəkliklərə çevirməkdən və bu yolla təmin etməkdən ibarətdir. Dövlətin əsas funksiyası həm də insan hüquqlarını normalarla əks etdirməklə onu müdafiə etməkdən ibarətdir. Hüququn normalarda əksini tapması və müdafiəsi prosesləri də hüquq normaları ilə yerinə yetirilir. Yəni, insan hüquqları icra olunmaq baxımından silsilə xarakter kəsb edir, hüquq normaları sistemi bir sahədə digər hüquq normaları sistemini həm təmin edir, həm də müdafiəsini həyata keçirir. Məsələn, məhkəmə sisteminin fəaliyyəti pozulmuş hüquqların bərpasını təmin etmək məqsədilə təşkil olunur. Bu bərpa-müdafiə fəaliyyəti də hüquq normaları ilə təmin olunur. Deməli, hüquq normaları sistemləri daima bir-birilərini şaxələndirmək və inkişaf etdirmək funksiyasını həyata keçirir.

Hüquq normaları daimi mövcud olur, lakin tətbiqi zamanı və zəruri şəraitləri meydana gələndə tətbiq olunmağa, həmin an üçün aşkarlanmağa başlayır. Məsələn, qadınlara uşaqlara görə hamiləlik və doğuş məzuniyyəti ilə yanaşı, analıq məzuniyyəti də verilir. Bu vəziyyəti tənzim edən hüquq norması daimi var. Lakin o halda tətbiq olunur ki, uşaq dünyaya gətirmiş anaya iş yerindən uşaq dünyaya gələn kimi analıq məzuniyyəti verilir və rəsmiləşdirilir.

Dövlətin başlıca məqsədi həm öz daxilində, həm də başqa dövlətlərdə öz vətəndaşlarının hüquqlarını təmin etməkdən və müdafiə etməkdən ibarətdir. Dövlət həmçinin **əcnəbilərin və vətəndaşlığı** olmayan şəxslərin də hüquqlarını təmin etməyi öz funksiyasına aid edir və öhdəlik və məsuliyyət kimi qəbul edir. Bu funksiya, vəzifə, öhdəlik və məsuliyyət həm daxili siyasi-hüquqi sistemlər vasitəsilə təmin olunur, həm də beynəlxalq münasibətlər sistemləri ilə yerinə yetirilir. Daxili siyasətdə qanunvericilik aktları, beynəlxalq münasibətlərdə isə hüquq normaları böyük rol oynayır. Beynəlxalq normalar daxili qanunvericiliklə elə daxili qanunvericiliyin tərkibinə çevrilir.

Deməli, dövlətlər daxili siyasətləri ilə öz aralarında olan əlaqələri tamamlamış olurlar. İnsan hüquqları üzrə dövlətin fəaliyyəti daxili siyasətlə (məsələn, konstitusiya ilə) başlayır və daxili siyasətlə də (yenə də konstitusiyada nəzərdə tutulmuş qaydada) tamamlanır. (Qeyd: Konstitusiya normaları birbaşa tətbiq olunur. Konstitusiya hüquqları təmin olunur. Lakin bununla yanaşı, konstitusiyadan irəli gələrək qanunlarla və qanunvericilik sənədləri ilə də konstitusiya hüquqları, məsələn, seçki qanunu ilə seçki hüquqları, təmin olunur). Deməli, beynəlxalq münasibətlərdə siyasətin icrası baza olaraq dövlətlərin daxili siyasətlərindən asılı olur. İnsan hüquqları sahəsində beynəlxalq münasibətlər əslində dövlətlərin daxili siyasətləri ilə vəhdət təşkil edən trayektorik bağlılıqdır. Beynəlxalq münasibətlər bir məkan kimi dövlətlərin daxillərində formalaşdırılır. Çünki bütün dünya dövlətlərdən təşkil olunub və dövlətlərdən kənar yaşayış məskənləri yoxdur. Məsələn, beynəlxalq yığıncaqların keçirilməsi prosesləri dövlətlərdə baş verir, müqavilələr dövlətlərdə imzalanır. Beynəlxalq münasibətlərin məkan nöqteyi-nəzərdən formaları meydana gəlir. Məsələn, **sərhədlərətrafı beynəlxalq münasibətlər**, **bir neçə dövlətin sərhəddini aşıb keçən (üstündən adlayan) beynəlxalq münasibətlər** formaları meydana gəlir. *(Qeyd: sərhədlərətrafı beynəlxalq münasibətlər (əlaqələr) əsasən eyni sərhədlərlə (eyni istiqamətli, eyni və vahid xətli) ayrılan iki və ya da çoxlu sayda dövlətlərin qoşulduqları beynəlxalq münasibətlər hesab oluna bilər. Məsələn, Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan, İran, Ermənistan kimi dövlətləri demək olar ki, "birləşmiş sərhədlər" ayırır. Onlar regionu əhatə edirlər. Sərhədlərətrafı dövlətlərin yaratdıqları beynəlxalq münasibətlər regional münasibətlər, qonşu dövlətlər arası olan münasibətlər, sərhədləri aşıb keçən (sərhədlərin üstündən adlayıb keçən) münasibətlər isə regionlar arası münasibətlər hesab oluna bilər. Regionlararası münasibətlərinn də eyni sərhədləri ola*

*bilər. Məsələn, Xəzər regionu ilə Qara dəniz regionu arasında sərhəd bağlılığı mövcuddur. Həmçinin sərhədləri olmayan regionlar arasında da münasibətlər meydana gələ bilər. Məsələn, Latın Amerikası regionu ilə Rusiya arasında olan münasibətlər və əlaqələr sərhədləri adlayıb keçən münasibətlər və əlaqələrdir).* Nəticə etibarilə hesab etmək olar ki, beynəlxalq münasibətlər elə dövlətlərin daxillərindən lap kənarda olan münasibətlər deyil. Bu baxımdan da insan hüquqlarına dair beynəlxalq razılaşmalar dövlətlərin daxili siyasətləri ilə tamamlanır. Nəticə olaraq belə qənaətə gəlmək olur ki, hərəkətdə olan və fəaliyyətini məkanlardan-məkanlara aparan insanların hüquqları dövlətlər tərəfindən qorunur. Bu qoruma fəaliyyəti isə dövlətlərin daxili və xarici siyasətləri adlanır. Dövlətin xarici məkanı başqa dövlətin ərazisidir. Deməli, beynəlxalq münasibətlər əslində dövlətlərin daxili siyasətlərini istiqamətlər üzrə bir-birinə birləşdirən münasibətlər və əlaqələr şəbəkələrindən ibarətdir.

Dövlətlər daxildə və beynəlxalq sferada öz funksiyalarını yerinə yetirirlər və bu siyasət dövlətlərin hüquq subyektləri, həm də hüquq tənzimedici tərəflər olaraq beynəlxalq hüquq subyektləri kimi mövcudluqlarının əsas prinsiplərini təşkil edir. Dövlətlər insanların hüquqlarını normalarla təmin edən siyasi – hüquqi qurum, tərəf və subyektlər rolunu oynayırlar. Dövlət siyasətinin əsasında insan hüquqlarının təmin olunması amili dayanır.

Dövlət siyasəti ilə insan hüquqlarının vəhdət təşkil edən fəlsəfi məzmunları vardır. Belə ki, dövlət siyasətinin fəaliyyət obyektində zaman-zaman insanların hüquqlarını yuxarıya doğru, artan trayektoriya üzrə təmin etmək amili dayanır. Hüquq siyasəti şərtləndirən kriteriyadır. Hər iki anlayış **hüquq-siyasət vəhdəti** fəlsəfi bütövünün tərkib hissələridir. Eyni zamanda bir-birinin davamıdır**. Məsələn, dövlət siyasəti bir tərəfdən hüquqla nəticələnir, siyasi fəaliyyət də hüquq normalarının qəbulu, icrası və müdafiəsi ilə nəticələnir,**

**tamamlanır.** Məsələn, dövlət siyasəti ilk növbədə müəyyən olunur, istiqamətləri cızılır, bəyan edilir, rəsmi şəxslər, səlahiyyətli şəxslər tərəfindən istiqamətlənir. Bu bəyannamələr əsasən hüquq normalarının qəbulu ilə nəticələnir. Hərəkətin istiqamətini hüquq normaları müəyyən edir və hüquq normalarının tərkib ünsürləri elə hərəkətin nəzəri baxımdan tərkib ünsürlərini meydana gətirir. **Digər tərəfdən, hüquq normaları siyasət üçün başlanğıc və istiqamətverici rol oynayır. Məsələn, hüquq normalarının qəbulu və icrası siyasi fəaliyyətin istiqamətləri üçün əsas rolu oynayır. Dövlət siyasəti əsasən insan hüquqlarının tərkibini təşkil edən kriteriyaların icrası ilə məşğul olur.** Məsələn, dövlət siyasətinin əsas məqsədləri insan hüquqlarının maddi məsələlərə münasibətdə tərkibini təşkil edən sahiblik, məxsuslqu, mənsubiyyətlilik kimi təbii haqla verilən kriteriyaların təmin olunmasını, müdafiəsini, eləcə də əxlaqla vəhdət təşkil edən və əxlaqın əsas mahiyyətini yaradan şərəf, ləyaqət, namus, vicdan kimi mənəvi kiriteriyaların təmin olunmasını yerinə yetirir. Dövlətin əsas funksiyalarının nəzəri istiqamətləri hüquq normalarında öz əksini tapır. Hüquq normalarının özləri elə hüququn tərkibinin ifadə olunmasında böyük rol oynayır.


Ümumi qrafik
İnsan hüquqları- təbii və "qeyri-təbii" aləmin neməti
Təbiət
Fövqəltəbiət (kainat; qeyri-kainat)
Canlı və az canlı materi ya
Şüur
Maddi aləm
Mənəvi aləm
Hüquq
Haqq
Təbiət
Şüurun inkişafı
Fövqəltəbit
Təbiət fövqəl təbiətin tərkibidir
Iştirak edirlər
Proseslər və onların inikası – təbiətin siqnalları
İnsan təbiətin içərisində olur, onunla vəhdət təşkil edir
Fövqəlqüvvənin siqnalları
İnsan təbiətdən fərqli olur, kənarda qalır, ona təsir edir


Ümumi qrafikin davamı
İnsan hüquqlarının düşüncə obyekti olmasını əks etdirən sxem
Dərketmənin istiqamətləri
Düşüncə
Düşüncə
Materiya
İnikasın obyekti
Düşüncə
Düşüncə
Düşüncə
İnsan hüquqları genişlənir: düşüncələr zəncirindən; material aləmlə olan vəhdətdən
İnsan hüquqlarının genişlənməsinin birinci istiqaməti
Düşüncə
Genişlənən İnsan hüquqları
İnsan hüquqları – düşüncə obyekti
İnsan hüquqlarının genişlənməsinin ikinci istiqaməti
Hərəkət-bağlayıcı vasitə
Düşüncə
Genişlənən İnsan hüquqları
Maddi-material aləm


Qrafik-1
Hüquqların aşkarlanması və çoxalması
Mədəni
Siyasi
İqtisadi
Hüquq və azad.
Təbii hüquq
Sosial
Mülki
Pozitiv hüquq
Məkan hüq.
Cəza vermə
Hüquqlar fəaliyyətlə əlaqədar böyüyür, tərkibini genişləndirir
Təbii hüquqların böyümüş sahələri
Hüququn mənşəyi


Qrafik-2
Hüququn təbiiliyini və təbii olaraq genişlənməsi prosesini əks etdirən sxem
Təbiət
Qeyri-təbiət
Təbii haqlar
İnsanın təbii qabiliyyəti
Hüquq
Fəaliyyət
Material aləmin çoxluğu
İstiqamətlərin çoxluğu
Təsirlərin çoxluğu
Material aləmin zəngin tərkibi
Pozitiv hüququn zənginliyi
İnsanın təbii hüququnun zənginləşməsi
Hüquq sahələrinə ayrılmalar


Qrafik-3
Hüququn məqsəd və hədəf obyekti olmasını əks etdirən sxem
Əsas məqsəd
Hüququn təmin olunması
Hədəf
Dövlət
Hüququ təmin edən tərəf
Fəaliyyət
Həyata keçirilən siyasət
Məqsədə çatmaq vasitələri
Resurslar – bazalar
Maddi
Hüquqi
Material resurslar
Qanun vericilik aktları
Məhsul dar qüvvələr
Təşkilati -struktur bazaları
Qanunvericiliyin qəbulu, icrası və hüquqların müdafiəsi prosesləri
Məqsədə çatmaq yolları
Resurslar dan istifadə üsulları və istiqamətləri
Maddi-material resurslardan istifadə üsulları və qaydaları

**Qrafik-4**

**İnsan hüquqları anlayışının dərk olunmasında fəlsəfi kateqoriyaları əks etdirən sxem**




Qrafik-5
İnsan hüquqlarının zaman fəlsəfi kateqoriyası ilə dərk olunmasının əsaslarını əks etdirən sxem
Subyektə münasibətdə
Zaman amili ilə dərk olunmanın obyekti
Obyektə münasibətdə
Hüquq tərəfinin zamanla hüquqlar əldə etməsi
Resursların əldə edilməsi ilə zaman-zaman qazanılan hüquqlar
Böyüdükcə əmək və əqli qabiliyyətə müvafiq olaraq hüquqlar qazanmaq
Məsələn, təhsil almaq hüququ, səs vermək və namizəd kimi irəli sürülmək hüququ; elmi fəaliyyətlə məşğul olmaq hüququ; ailə qurmaq hüququ, gənclərə aid olan digər hüquqlar əldə etmək və s.
Resurslar hüquqları zənginləşdirir
Hüquq tərəfinin zamanla hüquqları itirməsi
Həm subyektə, həm də obyektə münasibətdə hüququn zaman trayektoriyası mövcud olur. Subyektə münasibətdə hüquqlar subyektin (burada fərdin) ölməsi ilə bitir. Subyekt hüquqi şəxs olduqda hüquqi şəxsin fəaliyyətinin xitamı ilə hüquqlar da bitir
Yaşlandıqca zaman-zaman hüquqları itirmək
Əmək fəaliyyəti ilə məşğul olmamaq hüququ, seçkilərdə iştirak hüququnun (namizəd kimi iştirak etmək) zaman-zaman itirilməsi
İnsan yaşlandıqca bəzi hüquqları itirir, bəzilərini isə qazanır. Məsələn, əmək pensiyasını almaq hüququnu qazanır


Qrafik-6
İnsan hüquqları anlayışının məkan kateqoriyası ilə dərk olunmasının əsasları
Subyektə münasibətdə
Məkan amili ilə dərk olunmanın obyekti
Obyektə münasibətdə
Şəxsin məkanlarda hüquqlar əldə etməsi
Şəxsin ölkə daxilində yerini dəyişməsi ilə müvafiq məkanlar üzrə hüquqlar qazanması –regional məkanlar üzrə hüquqlar əldə etməsi
Şəxsin beynəlxalq aləmdə hüquqlar qazanması – bir ölkədən başqa bir ölkəyə keçməklə hüquqlar əldə etməsi
İqtisadi cəhətdən kasıb olan və resursları əhalisinin hüquqlarını təmin etməyə kifayət eləməyən ölkədən şəxslər başqa, nisbətən resursları çox olan ölkəyə keçdikdə hüquqlar əldə edirlər
İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə (zəngin məkanlarda) hüquqlar daha da zəngin olur
Hüquqlar bütün məkanlarda (burada dövlətlər nəzərdə tutulur) eyni səviyyədə müəyyən oluna bilməz
Resurs hüquqların qeyri-müəyyənlikdən müəyyənliyə doğru genişlənməsinin əsaslandırıcı kriteriyasıdır. İqtisadi inkişaf hüquq sahələrini və tərkibini genişləndirən amildir. Resurs mövcud qeyri-müəyyən hüququ müəyyən hüquqa çevirir


Qrafik-7
İnsan hüquqları anlayışının tək, xüsusi və ümumi kateqoriyalarla dərk olunmasının əsaslarını əks etdirən sxem
Subyektə münasibətdə
Dərk olunma
Obyektə münasibətdə
Ayrı-ayrı fərdlərin hüquqları
Universal hüquqlar
Məxsusi kateqoriyaya malik şəxslərin hüquqları
Ayrı-ayrı sahələr üzrə olan hüquqlar
Ümumi hüquqlar
Hüquq – aiddir hər kəsə
Universal hüquqlar
Məxsusi hüquqlar
Pensiya hüququ-aiddir təqaüd yaşında olanlara
Xüsusi təqaüd hüququ aiddir-xüsusi şəxslərə
Elm hüququ aiddir-elmlə məşğul olanlara
Ayırıcı faktorlar: zaman, imkan, yaş, qabiliyyət, istedad və s. kriteriyaları


Qrafik-8
İnsan hüquqları anlayışının tərkib və bütöv fəlsəfi kateqoriyası ilə dərk olunmasının əsasları
Obyektə münasibətdə
Dərk olunma
Subyektə münasibətdə
İnsan hüquqları sistemi
Ayrı-ayrı sahələri əhatə edən bütöv sistem
Bütövü təşkil edən universal sistemlər
İnsan hüquqları-tərkib kimi hüquq sisteminin komponenti
Ayrı-ayrı sahələrin əhatə olunduğu tərkibləri təşkil edən şəxslərin hüquqları –tərkib ünsürü kimi
Fəaliyyət sahələri üzrə konkret sistemlər və hüquqlar şəbəkəsi
Universallıq və məxsusilik
Şəxslərin fərdi və universal hüquqlarının əsasları
Hüququn bir sistem kimi tərkibini təşkil edən maddi-mənəvi kriteriyalar
Hüququn bölgü ünsürünü meydana gətirən tərkiblərdən ibarət olan universal və məxsusi sistemlər
Subyektlərin tərkib və bölgü sistemlərində olan mahiyyəti

## NƏTİCƏ:

İnsan hüquqları insanların fəaliyyət göstərdikləri və yaşadıqları bütün məkanlarda onların özləri ilə vəhdətdə olduğundan, bu hüquqların dərk olunması elə insan təfəkkürünün başlıca xassəsidir, funksiyasıdır. İnsan hüquqları insan təfəkkürünün maddi-mənəvi, bu baxımdan ictimai qavrayış obyektidir. İnsan hüquqları insan təfəkkürünün başlıca zəruri dərketmə obyektidir. İnsan hüquqları obyekt və predmet olaraq həm universal qaydada, həm də fərdi olaraq, yəni fərdi qavrama xüsusiyyətlərinə uyğun olaraq dərk olunur. Bu kimi xüsusiyyətlər də insanların kompleks xarakterli fəaliyyətindən meydana gəlir. İnsanlar öz hüquqlarını hər bir məsələdə, hər bir obyekt üzərində və hər bir məqamda dərk etməyə cəhd göstərir. Xüsusilə, problemlərin qarşıya çıxdığı məsələlərdə insan hüquqları daha da geniş əsaslarla və dərindən dərk olunur, çünki buna zərurət yaranır. Hüquq insanlar üçün dəyər vasitəsi olduğundan hər bir addımda insanlar bu dəyəri özləri üçün haqq kimi qavramağa çalışırlar. Hər bir insan problemləri maneəsiz dəf etməyə çalışır və rəvan addımlar elə insan hüquqlarının bazasında dayanır. Hüquqlardan insanlar bir vasitə kimi bütün ictimai-siyasi münasibətlərdə (imkanlara müvafiq olaraq) istifadə etməyə can atırlar. Hüquq insanların məkanlar üzərində imkanlarını böyüdür və yeni imkanların əldə edilməsi üçün dəyərli bir istiqamətverici, haqq müəyyənedici vasitəyə çevrilir.

Burada dərketmə obyekti elə fəlsəfənin və elmin (dərk edə-edə öyrənmək) obyektidir. Elm və məntiq vəhdət halında obyekt üzərində məzmunu meydana gətirir. Yəni fəlsəfə əslində məntiqi yollarla elmi yaradır. Elmin funksiyası aşkarlamaqdan, problemləri həll etməkdən ibarətdirsə, fəlsəfənin funksiyası obyekti dərindən dərk etməkdən ibarətdir. Fəlsəfə nəticədir, ümumiləşdirilmiş və xüsusi olan bütövdür. Dərketmə elə fəlsəfədir və məntiqdir. Elm isə dərketmədən və

aşkarlamaqdan meydana gələn hissədir, həmçinin nəticədir. Elmin aşkar etdiyi obyektlər üzərində də dərketmə meydana gəlir. Bu baxımdan da elm obyektlərin şaxəli qaydada dərk olunmasından ortaya çıxır.

İnsan hüquqlarının tərkibinin öyrənilməsi istiqamətlərinin çoxalması prosesləri elə elmin inkişaf proseslərinin əsaslarını təşkil edir.

İnsan hüquqları həm tərkib baxımından, həm də sahələr etibarilə zəngindir, çoxistiqamətlidir. Bu zənginlik və çoxtərkiblilik, çoxsahəlilik elə insan hüquqlarının elmi və fəlsəfi mahiyyətini meydana gətirir. İnsan hüquqları fəlsəfi kateqoriyalarla geniş anlamda dərk olunur. Fəlsəfi kateqoriyalar bölücü, ayırıcı, aşkarlayıcı funksiyanı yerinə yetirir. Fəlsəfi kateqoriyalar həm dialektik, həm də formal məntiqin formalaşmasının əsasında dayanır. Formal məntiq də dialektikanın tərkibidir. Məntiq dialektikada və klassikada insan hüquqlarının baza və üst tərkiblərinin dərk olunmasının əsasında durur. Dialektika olmadan fikirlərdən nəticələrin çıxarılması qeyri-mümkündür. İnsan hüquqları üzrə nəzəri fikirlər elə dialektik vəhdətdən meydana gəlir.

İnsan hüquqlarının fəlsəfi kateqoriyalarla dərk olunması insan hüquqları anlayışının müxtəlif aspektlərdən dərk olunmasına gətirib çıxarır. İnsan hüquqlarının elmi məzmunu məntiqi üsullarla aşkar olunur və burada dialektik metod sintezlərin meydana gəlməsinin əsasında dayanır.

**Bu kitabda insan hüquqlarının fəlsəfi –məntiqi əsaslarla dərk olunması məsələsində aşağıdakı nəticələrə gəlinir:**

-insan hüquqları obyektiv və subyektiv əsaslarla dərk olunur. Obyektivlik universallığın əsaslarını yaradır. Obyektivlik sayəsində “hüququn tərəflər arasında bölünməsi” ilə xassələnir. Bu da cəmiyyətdə hüququn tarazlı maraqlara

xidmət etməsi üçün dərketmənın xassələrini meydana gətirir. Obyektivlik real imkanlara söykənir, real vəziyyəti və real mümkün gerçəklikləri, aşkarlıqları əks etdirir. Obyektivlik pozitivlikdə öz əksini tapır. Subyektivlik də pozitivliyə söykənir. Hüququn müsbət mahiyyəti həm obyektiv, həm də subyektiv yanaşmalarda özünü göstərir. Müsbət hərəkətlər yalnız hüquqa əsaslanır. Subyektivlik isə bir tərəfdən, obyektivlikdən meydana gəldiyinə görə, eləcə də obyektivliyin tərkibi olduğundan, müsbət olmalıdır, digər tərəfdən, obyektivliyi yaratdığına görə pozitiv əsaslara söykənməlidir.

Mövzuda insan hüquqları qarşılıqlı şərtləndirici əsaslarla, kriteriyalarla dərk olunur;

-insan hüquqları insanların daxili təbiətini ifadə edən və insanların maddi-mənəvi aləmlə təmaslarını meydana gətirən mənəvi dəyərlərdən ibarətdir. Mənəvi dəyərlər müsbət və faydalı olduğundan hüquqlar da müsbət və faydalıdır;

-insan hüquqlarının sistemli fəaliyyəti insanların sistemli münasibətlərindən və fəaliyyətlərindən asılıdır;

-insan hüquqlarının dərk olunmasında obyekt olaraq ontoloji varlıq kimi insanların özləri və onların təbii xassələri dayanır. İnsan öz hərəkətlərinin təbiiliyi ilə öz hüquqlarının dərk olunmasını təmin edir. Hüquqların obyektiv və subyektiv mahiyyəti insanların təbii xassələrinə söykəndiyindən dərk olunur ;

-insan hüquqlarının dərk olunmasında nəzəri sistemli təlimlər, biliklər mühüm rol oynayır və insan qnoseoloji üsullarla və sistemalogiyaya müvafiq olaraq, həmçinin rasional və irrasional qaydalarla öz hüquqlarını dərk edir. Nəzəri fikirlər və sistemli şaxələnmə məhz insan hüquqlarının tərkibini genişləndirir, mənasını böyüdür. Nəzəri fikirlər məhz insan təfəkküründə öz hüquqlarına dair imperativ qaydaları meydana gətirir. Hüquq nəzəriyyələri müxtəlif istiqamətlərin, baxışların əsasında dayanır;

-insan hüquqları öz fərdi zənginliyini həm də universal hüquqlardan ibarət olan sinergetik vəhdətdən götürür. Universal hüquqların tərkibi olan fərdi hüquqlar həm də insanların fərdi olaraq hüquqlarının sərhədlənməsini təmin edir. İnsan hüquqlarının fərdi tərkibi kollektiv münasibətlərdə daha da genişlənir;

-insan hüquqlarının vertikal və horizontal tərkibinin genişlənməsi əsasən fəlsəfi kateqoriyalarla müəyyən olunur. Fəlsəfi kateqoriyalar burada müəyyənetmə funksiyasını yerinə yetirir. Məkan, zaman, gerçək imkanlar, tərkib, bütöv, zərurət, inkişaf kimi kriteriyalar məhz insan hüquqlarının əhatəli qaydada dərk olunmasına əsaslanır. İnsan hüquqlarının universal və məxsusi qaydada dərk olunmasında məxsusi-subyektivlik də böyük rol oynayır.

## ƏLAVƏ:

### Elmi -tədqiqatın metodoloji əsasları

Hər bir obyekt **metodlarla** öyrənilir. Metodlarla ardıcıl öyrənmə mövzunu (predmeti) formalaşdırır. Metodlar **öyrənmə** və **öyrədilmə** üsulları olaraq sistem xarakterinə malikdir. **(Qeyd:** obyekt öyrənilir, öyrənildikcə öyrənmə metodları tətbiq olunur. Tətbiq olunduqca da yeni metodlar əmələ gəlir. Metodlar burada həm öyrənir, həm də obyekti öyrənəni öyrədir. Eləcə də metodların tətbiqi sayəsində meydana gələn bilikləri və üsuları digər öyrənənlər üçün tətbiq edir). Hər bir obyektin öyrənilməsi proseslərinə başlanılması sistemli olaraq ardıcıl qaydada metodların tətbiqini tələb edir. Burada proseslərin özləri də müxtəlif trayektoriylar üzrə formalaşır. Metodlarda formulalar (düsturlar), modellər tətbiq olunur. Tək istiqamətli metodlarla yanaşı (bir sahəni öyrənə xüsusi metodlar), ayrı-ayrı istiqamətləri əhatə edən bə birləşdirən qarışıq metodlardan da istifadə olunur. Metodlar bütün hallarda sistemdaxili əlaqələri və sistemlərarası əlaqələri axtarır. Burada əlaqələrin və bağlılığın xassələrinin müəyyən olunması məqsədlərə çevrilir. Metodlar vəzifələri müəyyən edir. Vəzifələr də metodlarla məqsədlərə çatmanın əsaslarını təşkil edir. Metodlarda biliklər tətbiq olunur və bu tətbiq sayəsində yeni biliklər qazanılır.

Metodlar **ümumi** və **məxsusi** olmaqla iki hissəyə bölünür. Bütün obyektlərin öyrənilməsində universal metodlar tətbiq olunur. Məsələn, tərkibin öyrənilməsi üçün **“tək”**in və **“cəm”**in müəyyən olunması, xassələndirilməsi (formalarının izah edilməsi, məzmunların müəyyən edilməsi) elə universal qaydanın baza istiqamətini meydana gətirir. Material aləmdə tərkib bütövə olan kimyəvi-fiziki tətbiqlər sayəsində öyrənilir. Burada ayrıma, məkanda xassələndirmə kimi müqayisəli idrak prosesləri (deduksiyaya söykənən qavrama prosesləri və tətbiq

üsulları) həyata keçirilir. Hər bir tərkib hissəyə də elə öz məkanında və tərkibində bütöv kimi baxılır. Ən kiçik bölünənə qədər materiyada, elementlərdə bütöv-tək və tərkib dialektik vəhdəti mövcud olur və xassələri aydınlaşdırmaq imkanları meydana gəlir. Tərkiblərin əldə edilməsi, müəyyən olunması və aşkarlanması müəyyən struktura, formaya kənar elementlərin daxil edilməsi üsulları da tətbiq olunur. Bu anda forma dəyişikliyə, məkan və tərkib dəyişikliyinə məruz qalır. Bu dəyişiklik elə əslində tərkiblərdən yeni tərkiblərin əldə edilməsi prosesinə səbəb olur, yəni nəticə yenə də dəyişikliyi meydana gətirir.

İctimai məsələlərdə tərkiblər də bütövlə birlikdə dialektik (əlaqəli vəhdət, əlaqəli istiqamət, əlaqəli məkan, əlaqəli xüsusiyyət -forma) qaydada öyrənilir. Hər bir tərkib öz məkanında xassəsinə görə müəyyən olunur, əlamətləri ilə aşkarlanır. Bir tərkibi əlamətləndirmək üçün onunla bağlı olan digər əlamətverici kriteriyalardan istifadə olunur. Çünki əlamətlər fərqləndirici görünüşlərinə görə müəyyən oluna bilirlər. Tərkiblər həm də müxtəlif məkanlarda yerdəyişmə edərkən xassələri ilə müəyyən olunur. Tərkiblərin məxsusi xassələri onların universal xassələri ilə, yəni sistemin tərkibində olan xassələri ilə birlikdə öyrənilir. Bu baxımdan da bütövün, bir neçə tərkibin birləşməsindən meydana gələn sistemin xassələri öyrənilir. Onu da nəzərə almaq lazımdır ki, sistemlilik və hərəkət hər bir məkanda mövcud olan elementlər toplusunda mövcud olur. Hərəkət olan yerdə xassə də mçövcud olmalıdır. Bu baxımdan hər bir hərəkət sisteminin xassəsinə universal əsaslarla yanaşılır. Yəni, metodlar bütün hallarda tərkib axtardığına görə eynidir, oxşardır.

Tərkiblər və bütövlər material aləmdə və şüurlarda, idrakda müəyyən olunur. Şüurun bölgü xüsusiyyətləri elə idrakın, qavramanın tərkibini əks etdirir. Məsələn, insanlar riyazi üsullarla beyinlərində tərkibləri (hissələri) və bötüvü yarada bilirlər. Bütövü parçalaya bilirlər, yeni tərkib hissələr və

bütövlər alırlar. Bu, beyinin konstruktiv funksiyasıdır. İnsanlar, belə hesab etmək olar ki, material aləmdən kənarda təkibi və bütövü anlaya, dərk edə bilirlər. Bu funksiyanı material aləmə tətbiq edirlər. Deməli, deduksiya və induksiya əslində elə material aləmdən asılı olmayaraq insanların beyinlərində bir ümumiləşdirici və xüsusiləşdirici funksiya kimi mövcud olur. Eyni zamanda həm də insanlar duyğu orqanlarına malikdirlər. İnsanlar gözlərini açanda təbiətə açırlar. Duyğu orqanlarısız deyillər. Onlar ətraf aləmin tərkib və bütövlüyünü dərk etmək üçün tərkib və bütövlərin siqnallarını qəbul edirlər. Əlamətlər və onların beyində obrazlanması məhz idrakın deduktiv və induktiv metodlarını meydana gətirir. Duyğu orqanlarına görə insanlar material aləmlə təmasda (burada, əqli, iradi və hissi olaraq) olurlar və material aləmin və hadisələrin, proseslərin fərqini duya bilirlər.

Müəyyən məkanlarda elementlər arasındakı baza istiqamətlərin müəyyən olunması da ətraf sistemlərdən və elementlərdən formalaşır. Bununla yanaşı, hər bir obyektin öyrənilməsi məxsusi metodları tələb edir. Məsələn, maddənin tərkibinin öyrənilməsi kimyəvi reaksiyaların aparılması şəraitini yaradan laboratoriyaların olmasını tələb edir. Eyni zamanda mexaniki vasitələrin sınaqdan çıxarılması üçün də laborator məkanların, fiziki qurğuların, avadanlıqların və fiziki şəraitin olması labüddür. Sınaq laboratoriyaları fiziki-mexaniki avadanlığın yaradılmasının əsaslarını təşkil edir. Lakin bu məxsusi metodlar da nəticə etibarilə universal metodlara zidd olmur. Bütün metodların tətbiqində başlıca məqsəd sistemlərin tərkib elementlərini və onların sistemdə olan xassələrini müəyyən etməkdən və bu müəyyənliyi faydalı istifadəyə yönəltməkdən ibarətdir. Bütün metodlarda tərkib və forma dəyişmələri və onların əlverişli istiqamətlərə yönləndirilməsi, elementlərdən, tərkib hissələrdən yeni kosntruksiyaların əldə edilməsi vəzifə və məqsədlərdir. Vəzifələr və məqsədlər

universal kriteriyalardır və məxsusi metodlarda da (ayrı-ayrı sahələrdə aparılan eksperimentlər zamanı) tətbiq olunur.

Metodlar təbii mövcudluqdan yararlanmanı da meydana gətirir. Burada artıq insanların təbiətə təsir edən məxluqlar kimi mövcudluqları amili meydana gəlir. İnsanların qabiliyyətləri onların təbiət üzərində təsirlərini meydana gətirə bilir. İnsanlarda bu qabiliyyət təbiətdən və fövqəltəbiətdən gəlir. İnsan təbiəti öyrənməyə qadir olan məxluq rolunu oynayır.

Hər bir elm sahəsində **obyektləri müəyyən etmək**, **müşahidələr aparmaq**, **nəticələri gözləmək, başlanğıcları və sonları müəyyən etmək, formalaşma proseslərini ardıcıl olaraq izləmək, bu baxımdan strukturlaşma və destrukturalizasiya proseslərini öyrənmək** universal öyrənmə metodlarının tərkib istiqamətləri olaraq xüsusi əhəmiyyət kəsb edir.

Metodların öyrənilməsi qaydalarını bütöv halda **sistemalogiyanın** ***(sistemlər haqqında təlimlərin)*** tərkib hissəsi kimi qəbul etmək lazımdır. Konstruktivlik bütün tədqiqatlarda əsasdır. Konstruktivlik qavramanın, siqnalllar qəbul etmənin və əks olunmanın əsaslarını meydana gətirir. Konstruktivlik öyrənmə modellərini, formulalarını meydana gətirir. Konstruktivlik funksiyası və qabiliyyəti yanaşma qaydalarını və vərdişlərini üzərə çıxarır. Konstruktivlikdən təcrübi qaydalar və normalar formalaşır. Normalar əsasən qaydalar olaraq bütün tədqiqat obyektlərində və tədqiqat proseslərində tətbiq olunur. Ümumiyyətlə, bütün biliklərin öyrənilməsi prosesləri bütün trayektoriyalar üzrə **ardıcıl** və **əlaqəli-şərtləndirici** əsaslarla həyata keçirilir. Sistemli yanaşmaların tətbiqi sistemalogiyanı meydana gətirir. Sistemalogiya sayəsində elmin obyektini öyrənən üsullar sistemləşdirilir, müəyyən olunur. Sistemlərin tətbiqi zamanı obyektlərin hərəkətlər əsasında tərkibləri aşkar olunur. Hər bir obyekt təfəkkür metodlarının tətbiqi sayəsində ətraf sistemlərlə

əlaqəli olaraq aşkarlanır. Aşkarlanma özü elə hərəkət prosesidir. Deməli, tədqiqat da hərəkətdə olan obyektin xassələrinin hərəkətlərlə müəyyən olunması, aşkarlanması prosesləridir. Hərəkətlərin məqamları (məkanlar üzrə vəziyyətləri) aşkar olunur və obyektin müxtəlif əlaqəli istiqamətləri əks olunur, aşkarlanır. Deməli, tədqiqat öyrənmə və öyrətmə proseslərinin cəmindən ibarət olan sistemli bir prosesdir.

Sistemləşdirmə zamanı tərkiblər əsasən qruplaşdırılır. Burada qruplaşdırılmalar da müəyyən kriteriyalara əsasən həyata keçirilir. Kriteriyalar müəyyən rəqəmlər, xassələr, əlamətlər, kəmiyyətlər, zaman və məkanlar və digər kateqoriyalar əsas göstərici olmaqla tətbiq olunur. Sistemli yanaşmaların tətbiqini meydana gətirən proseslər sistemalogiyanın əsaslarını formalaşdırır. Burada bir obyektin (mövzunun) aşkar olunması zamanı tətbiq edilən kriteriya digər kriteriyaların mövcudluğunu da meydana gətirir. Məsələn, hadisələrin tarixi aspektlərdə aşkarlanması zamanı hadisələrin xronoloji ardıcıllığı ilə şərh olunması zamanı hadisələrin zaman və məkan əsasları ilə də şərh olunması zərurəti meydana gəlir və bu zaman məzmun da açılır, hadisələrin mahiyyəti işıqlanır. Bütün metodların tətbiqi halları sistemlərin yaranması hallarının əsaslarını təşkil edir. Metodların tətbiqi sistemləri əks etdirməkdən (aşkarlamaqdan) və aşkarlanmış obyektlərin təkrar aşkarlanması üçün yeni təfəkkür sistemlərini qurmaqdan ibarətdir. Deməli, metodoloji aspektlər daima yüksəlməyə doğru, tərkibini zənginləşdirməyə doğru davam edir. Bu baxımdan da sistemalogiyanın şaxələnməsi proseslərinin ardıcıllığı təmin olunur. Elm burada elə sistemalogiyanın (sistemalogiyanı da məntiqi təfəkkür əməliyyatları səbəb və nəticə, başlanğıc və son, mahiyyət, forma və zərurət axtarmaqla formalaşdırır) özü demək olur və sistemalogiyadan, onun tərkib prosesləri olan qaydalara salmaqdan (təfəkkürdə), nizamlamaqdan və struktur

yaratmaqdan ibarət olur. Qavramanın konstruktiv xüsusiyyətləri faktları əlaqəli və izahlı şəkildə analiz etməkdən və yeni-yeni analiz nəticələrini meydana gətirməkdən ibarətdir. Konstruktivlik elə beyinin yaradıcı sistemləşdirici funksiyasıdır. Konstruktivlik aşkarlamanı həyata keçirir. Aşkarlama da mərhələ-mərhələ həyata keçirilir. Fazalarla aşkaretmə sistemi mövzunu daxildən və kənardan genişləndirir və mövzunun başqa mövzularla daxili və xarici əlaqəsini mərhələ-mərhələ axtarır və aydınlaşdırır.

**Metodologiya** metodlar cəminin ifadəsidir, metodların və obyektlərin öyrənilməsi kompleksidir. Metodologiyanın tərkibinin çoxçalarlı olması onun istiqamətlərinin və qruplaşmalarının çoxçalarlı olmasından irəli gəlir. Metodologiya obyekti öyrənən, onun nəticələrinin faydasını qruplaşdıran, təsnif edən idrak metodlarının öyrənilməsi haqqında biliklərdir, təlimlərdir. Məntiqi üsullar idrak üsulları olaraq elə metodoloji üsullardır. Bu üsullar elmi meydana gətirir. Onun tərkib obyektlərinin daxilini aşkar edir. ***(Qeyd: obyekti idrak məntiqi üsullarla qavrayır. Burada müşahidə, təcrübə sayəsində aşkarlama və müəyyənetmə prosesləri əsasən məntiqi üsullarla həyata keçirilir. Metodlar obyektlər rolunda çıxış edən hadisələrə, faktlara, fikirlərə yanaşma üsullarıdır. Metodlar özləri də obyektləri sahələr üzrə öyrənməni meydana gətirir. Qruplaşdırmaq, təsnif etmək, müqayisə etmək, bu baxımdan səbəbləri, nəticələri, başlanğıcları və sonları, eləcə də tərkibləri müəyyən etmək bütün metodologiyada əsas prinsipdir. Sistemlərin, strukturların tərkibi olan elementləri sistemlərdə vertikal (zenit), sağa və sola doğru horizontal əsaslarla, eləcə də "kvadrat", "üçbucaq", "kub" şəkilində əlaqələr qurmaqda əsaslandırmaq metodologiyanın başlıca məqsədidir. Həndəsi təxəyyül sistemlərin formalarla öyrənilməsinin əsaslarını təşkil edir).*** Məntiqi üsullar araşdırma və nəticələrə gəlmək yollarıdır. Metodologiyanın başlıca funksiyası sistemdəki

elementlər arasında olan əlaqələrin fəlsəfi kateqoriylarala müəyyən olunmasını (aşkarlamanı) təmin etməkdən ibarətdir. Sistemin özünü də elə məhz həmin elementlər təşkil edir. Metodologiyanın başlıca funksiyası həm də yeni-yeni sistemləri aşkarlamaqdan ibarətdir. Burada bir və ya da bir neçə sistemin aşkarlanması öz ardınca yeni-yeni sistemləri aşkar edir. Bununla da yeni-yeni elm istiqamətlərinin formalaşdırılması əsas məqsəd kimi metodologiyanın qarşısında durur. Metodoloji sistemalogiyanın formalaşması isə vəzifələri müəyyən edir. Vəzifələr metodoloji üsullarla müəyyən olunur.

Elmin mənimsənilməsi və aşkar olunması onunla məşğul olan tədqiqatçının funksiyalarından, sistemli yanaşmasından, bu baxımdan da qabil olduğu istedaddan, bilik və savadlılıq səviyyəsindən, uyğunluğu dərk etmək, ziddiyyətləri duymaq, obyektləri düzgün dəyərləndirmək bacarığından və topladığı faktları qruplaşdırmaq bacarığından və düzgün məntiqi mühakimələr irəli sürmək və məntiqi –inandırıcı və rasional nəticələrə gəlməkdən asılıdır. Elm tədqiqatçının funksiyalarında, fəaliyyətində meydana gəlir. Tədqiqatçının funksiyası onun vəzifələrində, məqsədlərində özünü büruzə verir. Tədqiqatçı **sübutayetirmə** funksiyasını elə sübutlardan faktlardan asılı edir, faktlara bağlayır. Ya mövcud faktları təsdiq edir, ya da yeni faktları aşkarlayır. Ümumilikdə isə faktların xassələrini öyrənir. Sübutayetirmə funksiyasının yerinə yetirilməsi isə metodlarla-məntiqi deduktiv və induktiv metodlarla, həyata keçirilir. Sübutayetirmə bir proses olaraq əsasən nəticələrin, gəlinmiş qənaətlərin sistemləşməsini, qruplaşmasını, təsnif olunmasını həyata keçirməkdən ibarətdir. Burada isə əlamətlərin müqayisə obyekti olması əsas şərtə çevrilir. Müqayisə edərkən fəlsəfi kateqoriyalar əsas götürülür. Müqayisələr zaman, məkan, tərkib, təyinat üsulları və istiqamətləri və s. kriteriyalar üzərində qurulur.

Hər bir hadisə və fakt təklikdə və qrup şəkilində, yəni ümumi əlaqələrdə öyrənilir. Ümumiyyətlə isə tam olaraq təklikdə və əlaqəsiz qaydada heç nə öyrənilə bilməz. Çünki hər şey sistemdə şərtlənir və cəmlənir. Təkin əlamətləri sistemin əlamətlərindən, eləcə də yanındakı elementlərin əlamətləri ilə şərtlənir. Bir element öz tərkibini başqa elementlə əlaqədə görür. Digər məkanlara keçid də digər sistemlərə keçidə səbəb olur. "Tək" həm mütləq, həm də nisbidir. "Tək" öz məkanında mütləq, bitişik məkanda isə həm mütləq, həm də nisbidir, yəni bitişik məkanda dəyişir. Bu dəyişmə onun forma və məzmununda da özünü göstərə bilir. Ola da bilər ki, tək olan şey məkan dəyişməsi zamanı öz tərkibini tam da dəyişməsin. Məsələn, "1" ədədi bir nəzəri idrakın tərkibi kimi bütün məkanlarda fikir obyekti və vasitəsi olaraq eynidir. Sözlər eynidir. Məsələn, "yaxşı" və "pis", "Mübət" və "mənfi", həmçinin "neytral" sözləri bütün məkanlarda və münasibətlərdə eyni söz olaraq qalır. Təfəkkür sözlərdən istifadə edərək fərdi və ümumi şəkildə predmeti və obyekti dəyərləndirir. Təkin əlaməti də çoxluqda bildirir. Müqayisə obyektləri olmadan **təki** müəyyən etmək də çətindir, ümumiyyətlə isə mümkünsüzdür. Tək özünün sağında və solunda, aşağısında və yuxarısında olanlarla bağlıdır. Bu da o deməkdir ki, elm bütövlükdə "element" və "məkan" kateqoriyasına tabedir. Hər bir elementin, zərrəciyin öz məkanı mövcuddur. "Zaman" isə burada hadisələrə bağlıdır və bu da hadisələrdə iştirak edən "qüvvə" məsələsindən asılıdır. "Kəmiyyət" kateqoriyası tərkibdən və elementlərin məkan tutumundan asılıdır.

Elm hadisələri obyekt kimi götürür. Hadisələrin baş verməsi hadisələrdən meydana gəlir və hadisələrlə də nəticələnir. Bu baxımdan səbəb- hadisə, nəticə -hadisə olur. Səbəb və nəticə, başlanğıc və son adlanan fəlsəfi kateqoriyaların burada nisbi olması, yəni, əlaqələndirici, keçici olması amili meydana gəlir.

İşlək mexanizmə malik olan ictimai sistemlər heç zaman tam sabit ola bilməz. Hadisələr baş verərkən tərkib elementlər arasında əlaqələr nisbəti də dəyişir. Bu anda sistemdaxili trayektoriya da dəyişir. Eləcə də məkanlarda olan kəmiyyətlər də dəyişir-azalır və ya da çoxalır. Hadisələrin gərginləşməsi sabit vəziyyətləri gərginləşdirir. Gərginləşmə isə elə bir hadisədir, təzahürdür ki, bu zaman müəyyən məkanda mövcud olan və nisbi sabit vəziyyətdə hərəkət edən elementlər təsirlər sayəsində öz hərəkət trayektoriyasından çıxır. Elementlərin sürəti artır. Trayektoriyalardan çıxmalar şəraitində hadisələrin müəyyən sistemlərdə sayı çoxalır. Hadisə çoxluğu zaman dəyişikliklərini və məkan dəyişikliklərini yaradır. Hərəkətin sürətinin artması sayəsində zaman tez-tez meydana gəlir. Hadisələrin həcminin və sayının çoxalması sistemdaxili gərginliyə səbəb olur. Tədqiqatçı bu baxımdan sistemdaxili hadisələri zaman, məkan, kəmiyyət, çoxluq, azlıq və s. kimi kateqoriyalar nisbətində öyrənir. Kateqoriyalar əlamətlər olaraq istinadlar rolunda çıxş edir.

Elm sahələri ilkin mərhələdə insanların kütləvi olaraq maraq göstərdikləri sahələrdə formalaşır. Maraqların genişlənməsi və təsir imkanlarının böyüməsi, əlaqələr və münasibətlər sferalarının genişlənməsi, eləcə də həyatın bütün sosial-maddi-mənəvi sahələri elm sahələrinin, tədqiqat sahələrinin əsasını təşkil edir. Sahələr üzrə tədqiqatların genişlənməsi maddi maraqların təmin olunmasının üzərində dayanır. Sahələrdə elementlərin artması yeni elm sahələrinin meydana gəlməsi üçün imkanların genişlənməsi zərurətini ortaya qoyur. Yeni elm sahələri faktların çoxalmasından və elementləri (faktları) müxtəlif istiqamətlərdə təyinata yönəltmədən meydana gəlir. Elm sahələri həm horizontal müstəvi üzrə (müstəvinin horizontal xətləri üzrə), həm də zenit və şaquli trayektoriyalar üzrə artır. Elm sahələrində yeni-yeni əlaqəli faktların meydana gəlməsi məhz elm istiqamətlərinin (predmet və obyekt baxımından) formalaşmasının əsasında

dayanır. Proseslərin böyüməsi, əldə edilən faktların artması məhz yen-yeni istiqamətlərin (burada faktlardan, əldə edilənlərdən yeni əsaslarla və yeni məkanda istifadə edilməsi nəzərdə tutulur) meydana gəlməsinin bazasında dayanır. Bütün proseslərin zəncirli qaydada yuxarı və ətraflara doğru genişlənməsi məhz yeni elm sahələrinin meydana gəlməsinin əsasında dayanır. Elmin inkişafı həm faktlar üzərində nəzəri fikirlərdən (faktların tərkibini açmaqdan, onları xassələndirməkdən) meydana gəlir, həm də yeni analizlərdən üzərə çıxır. Yeni analizlər də yeni-yeni faktların aşkarlanması ilə nəticələnir. Analizlər (yəni, tərkib hissələrə parçalanmalar) məhz elmi nəzəriyyələrin çoxalmasının əsasında dayanır. Elmi nəzəriyyə istiqamətlər, yeni mülahizələr, hökmlər məhz yeni-yeni elm sahələrinin artmasına xidmət edir. Hər bir elm sahəsinin özünəxas obyekti mövcud olur, lakin bu obyektlər vahid sosial-siyasi və mədəni sistemlərdə, eləcə də material bütövlükdə tam olaraq bir-birindən ayrıla bilmir. Elm sahələr üzrə əlaqəli qaydada inkişaf edir. Elm bilikləri adiləşdirmə funksiyasını da yerinə yetirir. Adiləşmə biliyin çoxları tərəfindən sadə yollarla başa düşülməsindən meydana gəlir. Elm mürəkkəbliyi sadəliyə çevirir, mürəkkəb şəraitlərdə aşkarladığı faktları sadəliklə də təqdim edir. Bu anda ekzoterik biliklər yaranır. Elm həmçinin elm adamları üçün nəzərdə tutulan bilikləri də aşkarlayır, həmçinin meydana gətirir.

Elmin bütün sahələrdə mənimsənilməsi metodları demək olar ki, universal qaydalara söykənir. Bütün elmlərin əsası tərkib və bütövün xassələrini və istifadə əsaslarını, faydalılıq dərəcəsini öyrənməkdən ibarətdir. Yanaşma metodları universaldır. Məsələn, **sintetika** və **analitika** hər bir elm üçün **universal metod** kimi istifadə olunur. Sintezin yaranmasının və analizin meydana gətirilməsinin də öz metodları mövcuddur. Sintezlər və analizlər birləşmələr və ayrılmalar metodlarını özlərində əks etdirir. Faktlar özü material aləmdə, həm də nəzəri baxışlarda öz əksini tapır. Məsələn, kəşf

olunmuş element bir faktdır, eyni zamanda elementin xassəsinə aid olan fikir də bir faktdır.

Tədqiqatçının qarşısına qoyduğu məqsəd elmdə müəyyən problemləri həll etməkdən, qeyri-müəyyənliyi müəyyənliyə çevirməkdən ibarətdir. Elmin əsas məqsədi çətinlikləri asanlaşdırmaqdan və həyatı rahatlaşdırmaqdan ibarətdir. Bu, elmin xeyirxah –pozitiv missiyasıdır, vəzifəsidir. Elmi tədqiqatçının da əsas vəzifəsi məhz elmin xeyirxah missiyasını yerinə yetirməkdən və müəyyən zamanlarda məqsədlərə çatmaqdan ibarətdir. Elm həm də dispozitiv funksiya daşıyır. Məsələn, elmin nailiyyətlərindən kütləvi qırğın silahlarının və digər silahlarının istehsalında istifadə olunur.

Müəyyən başlanğıcı və sonu olan tədqiqat prosesləri bu arada iki fazada həyata keçirilməlidir: **birincisi,** öyrənmə fazası, **ikincisi,** öyrətmə fazası. Öyrənmə fazası sintezi, öyrətmə fazası isə analizi formalaşdırır. Lakin birinci fazanın özündə də analiz olur. Öyrətmə fazasının özü də həm ilkin məlumatlardan başlayır, həm də öyrtəmə fazasından başlanğıcını götürür. Tədqiqatçı ilk növbədə elmin öyrənilməsi ilə məşğul olmalıdır. Yəni, müvafiq elm sahələri üzrə faktiki bilikləri (nəzəri mülahizələri, qənaətləri), eləcə də dəqiq elmlər üzrə əldə olunan maddələri və qarışıq maddələri, material aləmi, tərkib mexaniki hissələri öyrənməlidir. Mexaniki və bioloji hərəkətlərin əsaslarını tədqiq etməlidir. Sonra isə bu faktları qruplaşdırmalı, sintez etməli, faktlardan çıxış edərək ümumiləşdirilmələr həyata keçirməlidir. ***(Qrafiklər bölməsində də bir qədər ətraflı tanış olmaq olar).*** Tədqiqatçının öyrətmə fazasında olan qənaətləri inandırıcı, real və sübuta yetirirci olmalıdır. Nəticələr (qənaətlər) təsiredici və dəyişkən, yeni istiqamətləri meydana gətirən olmalıdır. Faktların sübutluluğu qəbul edilmədə (kənar tədqiqatçılar tərəfindən nəzəri olaraq qəbul edilmədə), eləcə də təcrübədə tətbiqdə özünü əks etdirməlidir.

Hər bir tədqiqatçı əldə etdiyi məlumatları fəlsəfi kateqoriyalardan istifadə edərəkə, məntiqi əməliyyatların köməyi ilə təsnifat obyektinə çevirməli, bu baxımdan faktları lazımi səviyyədə qruplaşdırmalıdır. Qruplaşdırmada konstruksiya yaratmalı, konkret nəticə olaraq bütöv bir kompleksi ortaya qoymalıdır. Bu kompleks içərisində başlanğıc, orta və son tezislərə müvafiq olaraq, nəzəri fikirləri tezis başlığı ilə eyniləşdirməlidir.  Bu məsələdə tədqiqatçı hadisələri tutuşduraraq, fərqləndirmə obyekti kimi uyğunlaşdırma, uzlaşdırma, harmonizasiya etmə, fərqləndimə kimi proses qabiliyyətinə cəlb etməlidir.

Hər bir elm düşünmə, görmə, eləcə də digər duyma proseslərindən formalaşır. Bununla bərabər intuisiya da elmin formalaşmasında mühüm rol oynayır. Belə qəbul etmək olar ki, intuisiya (intellektual intuisiya) düşünmə prosesinin təkmilləşmiş mərhələsindən meydana gələn siqnallardır. Bununla yanaşı, proseslər ardıcıllığını əvvəlcədən duyma qabiliyyətidir. Ardıcıl düşünmədən artan intuisiya rasionalizmə əsaslanır və hadisələrin baş verməsinin rasional qaydada proqnozlaşdırılmasına səbəb olur.

Ardıcıl düşüncələr zənciri yeni istiqamətlərin və faktların meydana gəlməsinin (aşkarlanmasının) əsasında dayanır. Beyin özünün konstruktiv funksiyasını məhz obyektlərə təsirlərdə də göstərir. Beyinin sistemli funksiyası (məlumatları sistemli, ardıcıl olaraq qəbul etməsi və ötürməsi) məhz elmin sistemli mahiyyətini üzərə çıxarır. Deməli, elmdən qabaq elə beyin mövcud olur və beyin də öz sistemli funksiyasını məhz təbiətin sistemli quruluşundan qəbul edir. Deməli, beyinin funksiyası elə elmin yaranması proseslərini təmin edir. Beyin mövcud olan elementləri lazımi olaraq tərkiblərə ayırır, bütövü yaradır. Burada məntiqi əməliyyatlar ilə ümumiləşdirmə və məxsusiləşdirmə prosesləri həyata keçirilir.

Əvvəlcə də qeyd olunduğu kimi, elmin müəyyən sahələrdə inkişafı prosesləri baza olaraq iki istiqamətdə-iki fazada həyata

keçirilir. Bu istiqamətlər öyrənmə və öyrətmə fazalarından ibarətdir. **Öyrənmə fazası** əsas **(baza)** mətnin əmələ gəlməsini təmin edir, **öyrətmə fazası** isə ümumi nəticələrdən ibarət olur. Bunu mətnlərdə, yəni sintezlərdə də görmək olur, eləcə də analizlərdən belə qənaətlərə gəlmək mümkündür. Nəticələri öyrənə-öyrənə mətnlərdən çıxarmaq olar. ***(6 saylı qrafikdən də bir qədər ətraflı tanış olmaq olar).***

**Sintezlərin meydana gəlməsi.** Sintezlər cümlələrdən, fikir birləşmələrindən yaranır. Fikirlər həm faktlar üzərində, yəni carı və dövrü olaraq baş verən hadisələr üzərində formalaşır, həm də mülahizələrin hadisələri qabaqlamasından meydana gəlir. Mülahizələrin hadisələri qabaqlaması da faktlara istinadlarla nəticələnir, tamamlanır. **Proqnozlaşdırmanı** həyata keçirmənin iki baza üsulu və nəticəsi formalaşır: **birincisi,** faktlar ardıcıllığından nəticələrin çıxarılması ilə meydana gələn proqnozlar; **ikincisi,** mülahizələr zəncirliliyindən və faktlarla nəticələnən proqnozlar. Sintezlərdə olan cümlələr təsdiq və inkardan ibarət olur. İnkarlar qəbul etməmənin əsasında dayanır. Sintezlər həm də nəticələrdən ibarət olur. Yəni hər bir cümlə başlanğıc və nəticə verə bilir. Sonrakı cümlə şərt-başlanğıc, həm də nəticə ola bilir. Sintezləşdirmə ümumilikdə öyrənmə mərhələsidir. Analizlərin özləri də elə sintezlərdən ibarətdir.

Bir müəllif bir hadisəni öyrənərkən əldə etdiyi faktları, nəzəri fikirləri məkan amili baxımından baza olaraq (baza istqamətlər içərisində də digər istiqamətlər törənə bilər) iki istiqamətdə **müqayisə** prosesinə cəlb etməlidir: **birincisi,** hadisələrin özünün daxili baxımdan müqayisəsi-buna sistemdaxili müqayisə demək olar. **İkincisi,** hadisələrə təsir edən kənar amillər baxımından müqayisə-buna isə sistemxarici müqayisə demək mümkündür. Sistemləri daxili və xarici olmaqla-tərkib formalarına ayırmaq da mütləq və nisbidir. Çünki bir sistem daxilində çoxlu sayda sistemlər mövcuddur. ***(4 saylı qrafikdən də dərk etmək mümkündür).***

Müəllif hadisələrə olan münasibəti ayrı-ayrı müəlliflərin münasibətləri (qənaətləri) prizmasından öyrənir, sonra isə bunlardan çıxış edərək özünün mülahizələri ilə yeni düşüncə istiqamətlərini meydana gətirir. ***(6 saylı qrafikdən də bunu dərk etmək olar)*** Hadisələrdə keçidlər baş verir, xətlər arasında keçid birləşmələri meydana gəlir. Fikirlər arasında ayrı-ayrı xətlər-cərəyanlar formalaşır. Bu xətlər və istiqamətlər şəbəkəsi deduktiv qaydada yaradıcılığı böyüdür. Elm genişlənir. ***(6 saylı qrafikdən də bunu dərk etmək olar)***. Təfəkkürün yeni sistemləri formalaşır.

Sintezləşdirmə zamanı məkanlar arasında aşkarlayıcı əlaqələr meydana gəlir. Beyin özünün aşkarlama funksiyasını bütün istiqamətlərdə təmin edir.

**Analizlərin meydana gəlməsi.** Analizlər sintezlərdə mövcud olur və həmçinin yeni üsullardan, yanaşma metodlarından formalaşır. Analizlərin meydana gəlməsinin iki baza yolunu qeyd etmək olar: **birincisi, faktlardan meydana gələn analizlər.** Burada faktlar üzərində analizlər qurulur. Faktlar toplanılır, hadisələr qruplaşdırılır, sahələr üzrə fəlsəfi kateqoriyalarla təsnif olunur. **İkincisi** isə ilk növbədə mühakimələr irəli sürülür, mülahizələr bilidirlir. Bu mülahizələr faktlarla tamamlanır. ***(Əlavə olaraq 7,8,9 saylı qrafiklərə baxmaq olar).*** Faktlara söykənən mülahizələrin özləri də faktlar rolunda çıxış edir. Deməli, faktlardan təcrübi və nəzəri faktlar meydana gəlir.

Birinci analiz yolunda faktlar nəzəriyyə ilə tamamlanır. Bu yolda nəticə fikiri əsas götürülür, faktlar bu nəticəni meydana gətirən şərtlər rolunda çıxış edir. Məsələn, belə bir fikir bildirək. ***Ukraynada baş verən böhran ABŞ-la Rusiya arasında bir müddət üçün soyuq münasibətlərin yaranmasına səbəb olacaq. (Bu, nəticədir, qənaətdir)*** *Çünki Rusiya Ukraynanın Qərbyönümlü siyasətinin qarşısını alır, təzyiq vasitələrindən biri olaraq Krımda referendum keçirir və Krımı*

*öz ərazisinə qatır. (Krım referendumu soyuq münasibətlər üçün faktdır)* **Hadisələr Qərbin maraqlarına uyğun olmayan şəkildə cərəyan edir.......**

Burada **analizin nəticəsi** soyuq münasibətlərin yaranmasını bildirməkdən ibarətdir. Nəticə hissəsi, yəni altdan xətt çəkilən və qalın şriftlərlə kursivlə yazılan hissə, birinci deylir, ardınca isə fakt, yəni fikirin ikinci hissəsi-kursivlə qalın yazılmayan və xətt çəkilməyən hissəsi, söylənilir. Qalın və kursivsiz yazılan hissələr isə yenə də nəticəni üzərə çıxarır. Bu fikir ardınca yeni faktların bildirilməsini tələb edir. Başlanğıc cümlə növbəti şərti son cümlə ilə tamamlanır. Fikir bağlılığı meydana gəlir. Ümumiyyətlə, bu yolda analizlər daha da dərin olur. Geniş və əhatəli dərketməni meydana gətirir. Nəzəriyyə hissə çox geniş şəkildə meydana gəlir. Nəticələr də növbəti nəticələr üçün faktlar rolunda çıxış edir. Nəticələr faktlara söykəndiyindən subyektiv analiz obyektiv analizə çevrilir. Obyektiv analiz isə növbəti subyektiv təhlil üçün fakt rolunda çıxış edir.

**İkinci analiz yolunda** isə faktların ardıcıllığından, hadisələrin ardıcıl cərəyanından nəticələr formalaşır. Tədqiqatçı faktları önə çəkir, ondan çıxış edərək nəticələr çıxarır. Məsələn, ***Krımda Rusiyanın dəstəyi ilə keçirilən referendum (bu faktdır) Ukraynanın Qərbyönümlü siyasətinə təzyiq vasitəsi olduğundan,*** *Rusiyanın bu addımı bir müddət Rusiya-ABŞ münasibətlərinin soyuqlaşmasına səbəb olacaq. (Bu hissə nəticədir).* **Ukraynada hadisələr hələlik Qərbin maraqlarına uyğun olmayan şəkildə cərəyan edir**......

İkinci analiz yolunda cümlənin kursivlə və altdan xətt çəkilməklə və qalın şriftlə yazılan hissəsi nəticələri çıxarmaq üçün tədqiqatçının istinad etdiyi fakt hissəsidir. Cümlənin ikinci hissəsi, yəni kursivlə adi qaydada yazılan hissəsi isə nəticədir. Burada baza olaraq fakt, üst hissə olaraq nəticə çıxış edir.

Sintez hər bir mətndə mövcuddur. Sintezlərdə həm birinci analiz yolundan, həm də ikinci analiz yolundan qarşıq şəkildə istifadə oluna bilir. İdrak metodu olaraq məntiqi nəticələr hissə-hissə çıxarılır. Analitika sintetika ilə vəhdət təşkil edir və elə sintetikadan (cümlələri başlanğıc və sonda-ardıcıl tamamlamadan) meydana gəlir. Nəticələr başlanğıc və faktlar rolunda çıxış edir. Sintezin trayektoriyası formalaşır və müəyyən həcmlı mətn meydana gəlir.

**Subyektiv və obyektiv idrak konstruksiyası.** Əvvəlcə də qeyd olunduğu kimi, idrak konstruksiyası əsasən düşüncələrin yaratdığı sistem kimi başa düşülməlidir. Hər bir şəxs öz idrak konstruksiyasını yaradır, şəxsi mülahizələrini irəli sürür. Buradan da subyektivlik meydana gəlir. Subyektivlik əsasən fərdin məxsusi yanaşmasıdır. Obyektivlik isə fərdin digər subyektlərin qəbul etdikləri qanunauyğunluqlar çərçivəsində yanaşmasıdır. Lakin hər iki halda subyektivlik var və hər iki halda obyektivlik mövcuddur. Çünki insan kainat bütövündə tam subyektiv ola bilməz. Bütün subyektivliklər kainat (təbiət) obyektivliklərinə tabedir. Yəni bütün insanlar oxşar əsaslı qanunauyğunluqlara tabedirlər. Bu da kainatın bütöv məkanının tərkibindədir. Onlarda qavrama prosesləri oxşar prinsiplərlə həyata keçirilir. Subyektivlik və obyektivlik elə vahid sistemin tərkibindədir. Hər iki yanaşma istiqaməti element, zaman, məkan, şərait və s. kateqoriyalardan asılıdır. Ətraf siqnallar və onların qəbul olunmasının əsasları məhz subyektivlik və obyektivliyin əsasında dayanır.

Öyrənmə tərkib və bütövün xassələrini müəyyən etməkdən ibarət olan bir prosesdir. Öyrənmə nəticə etibarilə məqsədlər olaraq "təki" cəmlər və vahidliklər sistemində determinə etməkdən ibarət olan bir prosesdir. Həmçinin bu determinə prosesinin tərkibi olaraq təsnif etməkdən ibarət olan bir prosesdir. Öyrənmə nəticəsi isə faydalı nəticələr əldə etməkdən, bu baxımdan faydalı münasibətlər yaratmaq və

təmaslar qurmaqdan ibarətdir. Faydalı nəticələrin əldə olunması əsasən mövcud təbii elementlərin quruluşunu dəyişərək onlardan yeni elementlər təmasını və bütövünü yaratmaqdan ibarət olan bir prosesdir. Deməli, öyrənmə təbii olanlara dəyişiklikləri meydana gətirən bir prosesdir. Hər bir öyrənmə proses (ardıcıl hadisələr cəmi və ardıcıl reaksiyalar, münasibətlər cəmi) olaraq sistemlilik prinsipindən başlayır. Sistemlilik isə qaydaya salmaqdan, normalarla müəyyən etməkdən ibarətdir. Konstruksiya məlumdur ki, elementlərin müxtəlif istiqamətlər üzrə sistemli qaydada düzülüşündən meydana gələn bir bütövdür, tamdır, vahiddir. Öyrənmə zamanı obyektə yanaşma fərdi xarakterə malik olur. Fərdi yanaşma da öyrədilənlərin öyrənmə yolu ilə mənimsənilməsindən və nəticələrdən meydana gəlir. Konstruksiya təfəkkür quruculuğu mənasını verir. Beyinin təbii konstruktiv funksiyası öyrənmənin, yəni, hadisələr və əlamətlərin siqnallarının qəbul olunmasının konstruksiya əsaslarını meydana gətirir. Deməli, beyin təbii olanı qəbul edəndir. Konstruksiya beyinə daxil olan siqnalların sistemli şəkildə əks olunmasıdır, obrazlanmasıdır. Əks olunma elementərin beyində sistemlənməsidir.

Əks olunmanın da iki mühüm əsasını qeyd etmək olar: **birincisi,** sistemli olan obyektin özünün sistemli şəkildə beyində əks olunması; ikincisi, elementlərin ayrı-ayrı məkanlardan beyində mərkəzləşərək sistemli qaydada əks olunması. İkinci istiqamətdə beyin özünün konstruktiv funksiyasını yerinə yetirir. ***(10 və 11 saylı qrafiklərdən də bunu dərk etmək mümkündür).***

Hər bir tədqiqatçı özünün analiz xüsusiyyətlərini yaradır. Lakin bu fərdi (məxsusi) analiz xüsusiyyətləri universal xüsusiyyətlərin yaranmasına gətirib çıxarır. Bütün subyektivliklər cəmi nəticə etibarilə obyektivliklərə xidmət edir. Subyektiv yanaşma universal təhlil metodlarının formalaşmasının əsasında dayanır. Subyektiv təhlillər cəmi

obyektiv konstruksiyanın meydana gəlməsinə səbəb olur. Subyektiv konstruksiyaların universal prinsiplərlə, qanunauyğunluqlarla qəbul olunması elə obyektiv konstruksiyaların və metodların bazasında dayanır. Fərd (şəxs) tədqiqat apararkən təhlil metodlarının hər ikisindən istifadə edərək müəyyən sahələrin öyrənilməsini həyata keçirir. Bu zaman mənimsənilmə mərhələsi başlayır. Mənimsənilmə mərhələsi ilkin qavranılma mərhələsindən tutmuş şərti son mərhələyə qədər davam edir. Burada nəticə etibarilə tezislərdən, sintezlərdən və analizlərdən ibarət olan bütöv (fəlsəfi məzmunlu bütöv) meydana gəlir.

Elmi-tədqiqatın quruculuğunda sistem tərkibində **uyğunluqlar,** uzlaşmalar mövcud olmalıdır. Sistemdə sintezlər zamanı elementlərin birləşmələri meydana gəlir. Bu anda başlanğıc və son arasında müəyyən bir trayektorik bağlılıq mövcud olur. Sistemdə boşluqlar, yəni tədqiqatın tamamlanması zamanı və bütövləşməsi zamanı mövcud olan boşluqlar elementlər çatışmazlığından meydana gəlir. Eləcə də uyğun olmalayan elementlərin sistem məkanının müəyyən hissəsinə əlavə edilməsindən ortaya çıxır. Uyğunsuzluqlar sistem daxilinə elementlərin ardıcıl şəkildə disharmonik quruluşundan meydana gəlir. Uyğunluqlar isə ardıcıl gələn tələbatların yerinə yetirilməsi zamanı ortya çıxır. Başlanğıc və son trayektoriya arasında bir bütöv meydana gəlir. Məsələn, sintezlər zamanı mətn tam öz ardıcıl trayektoriyası ilə uyğunluq prinsipi ilə tamamlandıqda uyğunluq yaranır. Uyğunluq əsasən ardıcıl şəkildə tələblərə cavab verməkdən, sahələrin təsnifatından ortaya çıxır. Tədqiqatlarda mətnlər ardıcıl olaraq (müəyyən sahələr üzrə) tələb olunan elementlərdən və onların ardıcıl birləşməsindən meydana gəlir. Təfəkkür öz quruculuq funksiyasını yerinə yetirərkən, konstruksiya yaradarkən qavradığı bütün elementləri uyğunluq prinsipləri ilə öz məkanına cəlb edir. Burada bütün elementlər başlanğıcda və sonda uyğunluq prinsipləri ilə düzülür.

Uyğunluq əsasən müəyyən başlanğıcdan sonra gələn cavablarla yaranır. Ümumiyyətlə, hər bir element qrupu öz sahəsində, öz vərdiş olunmuş sahəsində toplanır, cəmləşir. Bu anda cavabvericilik funksiyası meydana gəlir.

Tezis -mətnə, mətn-tezisə uyğun olmalıdır. Sistemləşdirmə prinsiplərindən irəli gələrək, tezisin tələb etdiyi faktlar və mühakimələr nəticələrə xidmət etməlidir. Hər bir nəticə obyektin ümumi məzmununun tələblərini yerinə yetirməlidir. Faktlar başlıca olaraq nəticələrə, o da tezislərə xidmət etməlidir. Hər bir fakt sistem daxilində obyektə uyğun şəkildə nəticə etibarilə şərh olunmalıdır. Təhlillər tezislərin əsaslarını aşkarlamaqla onların təriflərini (qısa və geniş şəkildə) yaratmalıdır. Buradan da sistemli konseptuallıq, uyğunluq meydana gəlir. Sintezin tələblərə cavab verməsi elə sistemli olmalı və harmonik prinsipləri özündə əks etdirməlidir.

**İnkarlar və təfəkkürün təkmilləşməsi.** Təfəkkürün təkmilləşməsi prosesləri çoxobyektli münasibətləri və əlaqələri ehtiva edən qavramaqdan və hadisələrə dair baxışların çoxluğunu qruplaşdırmaqdan ibarət olan bir prosesdir. Təfəkkür normalarla, ardıcıl şəkildə qəbul edilən qaydalarla təkmilləşir. Təfəkkürün təkmilləşməsi prosesləri dialektik qaydada mövcud olanı, müəyyən məqamlarda meydana gələni (hadisələri) və gələcək baş verəcək hadisələrdən dialektik əsaslarla imtina etməkdən və hadisələrə baxışları müxtəlif istiqamətlərlə formalaşdırmaqdan ibarətdir. Bu anda kompleks olaraq baxışlar, əlaqələr və münasibətlər formalaşır. İnkar etmək əsasən hadisələr zəncirinin çoxalmasına xidmət edən bir prosesdir.

**İnkar** təfəkkürü təkmilləşdirən, mövcud baxışlarla razılaşmamadan irəli gələrək, təfəkkür “çatışmazlığını” (hadisələrə münasibətdə kasad baxışları, razılaşılmayan baxışları) aradan qaldıran ikitərəfli və çoxtərəfli bir bağlayıcı dialektik prosesdir. İnkarlar dialektik məntiqin əsaslarında dayanır və dialektikanın özünün təkmilləşməsinə xidmət edir.

İnkarlar inkişaf qanunauyğunluqlarının cəmini meydana gətirir. İnkar etmək təfəkkürü aydınlaşdırmaq və elementləri məhz öz münasib yerlərində aşkarlama, eləcə də müəyyən yerlərə dəqiq cəlb etmə prosesinin tərkib hissəsdir. Obyektiv qaydada inkar etmək hadisələrə baxışları təkmilləşdirməkdən ibarət olan bir prosesdir. İnkarlar subyektivliklərin çoxalması proseslərinin tərkib hissələridir ki, bundan da obyektivlik meydana gəlir. Çoxlu sayda subyektivliklər məhz obyektivliklərin yaranmasını və nisbi son olaraq təfəkkürün müəyyən mərkəzlərdə cəmləşməsini meydana gətirir. İnkarlar sistemləşmə proseslərinin tərkib hissələridir və sistemlərdə olan boşluqları aradan qaldırmağa xidmət edir. İnkarlar sistemlərdə olan uyğunlaşdırma proseslərinin təkmilləşməsinə xidmət edir.

Kainat siqnallarının sonsuzluğu və bu baxımdan da subyektiv fikirlərin zəngin olması məhz inkarların yaranmasının əsas amili hesab olunmalıdır. Kainatda siqnalların çoxluğu baş verən hadisəyə və hadisələrə subyektiv baxışların artmasına gətirib çıxarır. Subyektiv fikirlərin çoxluğu hadisələrə dair baxışların çoxluğunu meydana gətirir. Fikirlərin inkar olunması aşkarlanma prinsipinin tərkibi kimi qəbul olunmalıdır. Fikirlərin formalaşmasının çoxlu sayda komponentləri mövcuddur. Bu komponentlərin aşkarlanması üçün çoxlu sayda baxışların olması labüddür.

İnkarlar köhnəlmiş hadisələrə dair yeni baxışların meydana gəlməsinin əsasında dayanır. Hadisələr zənciri inkarların zəncirvari qaydada meydana gəlməsinə səbəb olur. Yeni hadisələr əvvəlki hadisələri təzələyir və inkarlar meydana gəlir. Faktların izahlarının yeni əsaslarla izah olunması elə inkarlar prosesinin əsaslarını təşkil edir. İnkarların özləri də yeni hadisələrin meydana gəlməsinin əsasında dayanır. İnkarlar sayəsində yeni hadisələr İnkarların burada təbii proseslərin nəticəsi, həm də aşkarlanma proseslərinin nəticəsi olması qənaətinə gəlmək olur. İnkarlar hadisələrin ardıcıl olaraq cərəyan etməsindən meydana gəlir və hadisələri dialektik

qaydada bir-birinə bağlayır. Hadisələrə müxtəlif bucaqlardan baxışlar da inkarların meydana gəlməsinə səbəb olur. İnkarlar bu baxımdan əsasən **iki istiqamətdə həyata keçirilir: birincisi,** mövcud hadisələrə və ya da gələcək baş verəcək hadisələrə dair baxışların müxtəlifliyindən; **ikincisi,** hadisələrin bir-birini yeniləməklə əvəz etməsindən. Hadisələr bir-birini əvəz etdikcə tərkib elementləri arasında olan əlaqələr də dəyişir və yeni gerçəkliklər meydana gəlir. Bu istiqamətlər içərisində də çoxlu sayda tərkib istiqamətlərinin olması labüd amilə çevrilir. İnkarlar sistemdaxili uyğunlaşdırma prinsipinin tərkib hissələridir. İnkarlar sistemləşdirmə proseslərinin əsasında dayanır. İnkarlar zamanı elementlər daha çox bir uyğun mərkəzdə cəmləşə-cəmləşə formalaşır.

Elmi tədqiqatlar zamanı faktların öyrənilməsi və faktlara münasibətlərin sistemli xarakter almasına nail olunması və mövcud baxışların inkar olunmasını həyata keçirmək tədqiqatçının əsas funksiyası hesab olunmalıdır. Tədqiqatçı inkarların obyektiv əsasları ilə mövzunun təkmilləşməsini həyata keçirməlidir. Tədqiqatçı öz təfəkkürünü təkmilləşdirmək üçün hadisələr üzərində (obyekt üzərində) təhlilini məhz inkarlarla həyata keçirməli və şaquli-zenit və horizontal qaydada aşkarlama və nizamlama proseslərini təmin etməlidir. Bunun nəticəsində sistemlilik yarana bilir və sistemlilik tərkibində uyğunlaşdırılma və uzlaşdırılma prosesləri həyata keçirlir.

Elmdə oxşarlıqlar, uyğunluqlar tapılır. Bu oxşar fikirlər qruplaşdırılır və nəticələr müqayisə predmetinə cəlb olunur.

# Qrafiklər bölməsi




Faktlar zənciri və bu faktların ardıcıl qaydada aşkar olunması –müxtəlif həlqələr **faktların mənbəyini** göstərir. Faktlar sahələrdə cəmləşir və müxtəlif sahələrdə səpələnir. Beyninin funksiyası onları toplamaqdan və müəyyən istiqamətlər üzrə konstruksiya yaratmaqdan ibarətdir.

Aşkarlanma ardıcıl və sistemli düşünmə prosesindən meydana gəlir. Düşünmə prosesi faktları ardıcıl qavrayır, emal edir və müxtəlif istiqamətlər üzrə nəzəri düşüncə axınını meydana gətirir.


Qrafik-2
Elmi biliklərin konkretləşməsi və universallaşması prosesləri sxemi
Səbəb və nəticə; başlanğıc və son xətləri zənciri
Başlanğıc və konkret tezis
Orta tezis və sintezlər
Deduktiv, yəni tərkib səpələnmələri
Tərkib bütövə-bütöv tərkibə çevrilir
Bağlayıcı ünsürlər


Qrafik-3
Predmetin əsas və köməkçi yükünü daşıyan hissələri əks etdirən sxem
Predmetin tərkib hissələri
Tezis
Predmetin başlığı
"Yarımtezislər"- tərkib tezislər
Predmetin ümumi strukturunun tərkib tezisləri
Baza
Köməkçi
Predmetin əsas yükü
Obyektin baza xətti -əsas anlayışın baza tərkibi
Predmetin köməkçi-ətraf yükləri
Obyektin ətraf xətti -ətraf anlayışların cəmi
Predmetin tam anlayışı formalaşır
Baza anlayışdan
Ətraf anlayışlardan
Predmetin baza yükünü baza anlayışlar yaradır
Baza anlayışlar baza təriflərdən – məzmunlardan meydana gəlir
Predmetin əsas məzmunu meydana gəlir


Qrafik-4
Predmetin müqayisələr əsasında öyrənilməsini əks etdirən sxem
(proseslərin müqayisəsini əks etdirən sxem)
Hadisələrin müqayisəsi
Hadisələrin daxili məzmunu baxımından müqayisə
Hadisələrə kənar sistemlərdən olan təsirlərin müqayisələri
Sistemdaxili müqayisə
Sistemxarici müqayisə
Hadisə səbəblərinin müqayisəli təhlili
Fəlsəfi-şərtləndirici kateqoriyalarla müqayisə
Təsirlərin səbəblərinin müqayisəli təhlili
Hadisə nəticələrinin müqayisəli təhlili
Zamanda müqayisə
Təsirlərin nəticələrinin müqayisəli təhlili
Formaların müqayisəsi
Məkanda müqayisə
Məzmunların müqayisəsi
Zərurət əsasında müqayisə
Tərkib elementləri əsasında müqayisə
Səbəblərin təsnifatı
Müqayisələrin aparılması üsulları
Hadisələri şərtləndirən kateqoriyaların qruplaşdırılması
Nəticələrin təsnifatı
Zamanların və məkanların təsnifatı
Tərkib elementlərinin təsnifatı

**Qrafik -5** **Müqayisələrin aparılması üsullarını və predmetlərini əks etdirən sxem**



**Qrafik-6** **Müəyyən hadisələrə münasibətdə müqayisəli yanaşmalardan irəli gələrək əldə edilən yeni fərdi nəticələri əks etdirən sxem –elmin inkişafı, şaxələnməsi prosesləri**




Qrafik-7
Analizlərin meydana gəlməsini əks etdirən prosesli sxem-proseslər və istinad faktları sxemi
Tədqiqatçının qarşısına qoyduğu məqsəd
Proses kimi
Sübuta yetirmə
Sübuta yetirilən şey
Nəticə olaraq
Fakt
Şərti-mütləq başlanğıc
Şərti-mütləq sonluq
Nəticə əldə olunur
Faktlar
+
Mülahizələr
Nəticə əldə olunur
Mülahizələr
+
Faktlar
Fakt
+
Mülahizə
=
Sübut
=
Nəticə
=
Fakt
Faktlardan faktlar meydana gəlir
Fikir-faktdır, hadisə-faktdır, fakt-sübutdur, sübut nəticədir, fikir-nəticədir;
Hadisə -faktdır, fikir-mülahizədir, fakt-sübutdur, mülahizə-sübutdur, sübut-nəticədir


Qrafik-8
Analizlərin aparılması metodları və nəticələrin əldə edilməsi üsullarını əks etdirən sxem
Öyrənmə fazasında mülahizələr-fikirlər (sübutlar) faktlarla tamamlanır
Nəticələr əldə etmək üçün analizlərin aparılması istiqamətləri -2 baza istiqaməti qeyd etmək olar
Faktlarla tamamlanan mülahizələr öyrətmə fazasına keçir
Sübuta yetirmək üçün- fikirlərin irəli sürülməsi – birinci addım
Fikirin sübut obyekti – istinad obyekti
Faktlardan – hadisələrdən istifadə- ikinci addım
Sübuta yetirilən fikirlərdə faktlar tamamlayıcı rol oynayır. Yəni mülahizələrin nəticəsini faktlar tamamlayır
Birinci istiqamət
Sahələr üzrə faktların öyrənilməsi- birinci addım. Burada faktlar həm hadisələr, həm də mülahizələr ola bilir
Nəticələr-qənaətlər
Faktlardan meydana gələn mülahizələr
Faktlardan əldə olunan mülahizələr öyrətmə funksiyasını yerinə yertirir. Öyrənmək üçün isə faktlar rolunu oynayır
İkinci istiqamət
Birinci istiqamət üzrə daha çox hadisələrin nəzəri əsasları formalaşmış olur. Nəzəriyyə yükü çox olur.
İkinci istiqamət üzrə isə faktların yükü çox olur. Bu proses zamanı hadisələrin tarixi izahı daha çox yükü öz üzərinə götürür. Tarixi faktlar ardıcıllığından nəticələr meydana gəlir. Bu istiqamətdə də nəzəriyyə meydana gəlir


Qrafik-9
Faktların və mülahizələrin əks olunduğu nəzəriyyə istiqamətlərini-elmin yaranması istiqamətlərini əks etdirən sxem
Fikir xətti – mülahizə xətti
Birinci xətt-nəzəriyyə
Nəticə xətti
Faktlar trayektoriyası-altda
Nəzəriyyə öz əsasını təcürbi biliklərdən götürür, təcrübi biliklərlə tamamlayır
Faktlar trayektoriyası
Birinci xətt-faktlar
Nəticə xətti
Təcrübi biliklər-faktlar- nəzəriyyəni yaradır
Nəzəriyyə trayektoriyası-altda


Qrafik-10
Elmi konstruksiyanın yaranması proseslərini əks etdirən sxem
Siqnallar
Beyindəki Konstruk siya
Tədqiqatçı
Ayrı-ayrı sistemlərdə olan faktlar
Şərti "pərakəndəlikdən" sistemliliyin yaradılması prosesləri
Sistemlər daxillərindən elementlərin cəmlənməsi yolu ilə beyində sistemliliyin yaradılması və əks olunması prosesləri həyata keçirilir

**Qrafik-11** **Konstruksiyadan yeni elmi konstruksiyanın alınması proseslərini əks etdirən sxem**



## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT:

**Ümumi psixologiya. Pedaqoji institutların tələbələri üçün dərslik. Prof. A.V. Petrovskinin redaktorluğu ilə. Əlavələr edilmiş və yenidən işlənilmiş 2-ci nəşrindən (M., 1977) tərcümə. "Maarif" nəşriyyatı, 1982;**

**M.M. İsrafilov. Məntiq: Dərs vəsaiti.-B.: Maarif, 1987.-333 səh.;**

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Azərb. dilində. Bakı-Qanun-2000, 880 səh., səh. 17;**

**Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Azərbaycan Respublikasının Məcəllələr Külliyyatı. Azərb. dilində. Bakı-Qanun-2000, 880 səh., səh. 239;**

**Normativ hüquqi aktlar haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 21 dekabr 2010-cu il. "Azərbaycan" qəzetində dərc edilmişdir (17 fevral 2011-ci il), №37;**

**Ümumdünya İnsan Hüquqları Bəyannaməsi. www.migration.gov.az/images/pdf/935e2ca153e49bce078042398ff16c2d.pdf;**

**BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası *(Baş Məclis tərəfindən 20 noyabr 1989-cu ildə qəbul edilib).* www.migration.gov.az/images/pdf/d64f56fbbe0dcb273c7e993e0acee.pdf;**

**Saleh Mehdizadə. Hegel fəlsəfəsinin qısa xülasəsi. www.summaphilosphie.blogspot.com/2012/03/hegel-flsfsinin-qsa-xulassi_19.html;**

**Аксиология. Институт Философии Российской Академии Наук. Новая философская энциклопедия. http://iph.ras.ru/elib/0086.html;**

**Вопрос 26. Диалектика как философская теория развития. Основные исторические формы диалектики. www.kautur.blogspot.com/2008/06/26.html;**

**Институт Философии Российской Академии Наук. Новая философская энциклопедия. Онтология. http://iph.ras.ru/elib/2181.html;**

**Современная энциклопедия. 2000. Антология. www.dic.academic.ru/dic.nsf/enc1p/5578;**

**Гносеология. Философия. www.labrip.com/dop_t1r16part1.html;**

**Онтология, гносеология, аксиология, антропология, как основные разделы философии. Цифровая библиотека по философии. www.filosof.historic.ru/books/item/f00/s00/z0000000/st001.shtml;**

**Эпистемология. Лебедев С.А. Философия науки: Словарь основных терминов.-М: Академический Проект, 2004.-320 с. (Серия «Gaudemus») www. terme. Ru/dictionary/905/word/yepistemologiya;**

**Структура диалектики: принципы, категории, законы. www.psyera.ru/struktura-dialektiki-principy-kategorii-zakony-1401.htm;**

**Диалектическая логика. www.dic.academic.ru/dic.nsf/bse/84318/ Диалектическая;**

**Гегель Г.В. Философия права. (фрагменты). Библиотека Михаила Грачева. http://grachev62.narod.ru/hrest/gegel_2.htm;**

**Конституция Финляндии. www.finlex.fi/fi/laki/kaannokset/1999/ru19990731.pdf**

*İnsan hüquqları və fəlsəfə seriyasından*

**ELŞƏN NƏSİBOV**

**"İnsan hüquqları" anlayışının**
**dərk olunmasında fəlsəfi–məntiqi**
***(formal (ənənəvi-klassik) və dialektik məntiq)* metodlar**

***Dərketmənin ontoloji və qnoseoloji əsasları***

**II KİTAB**